AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Bəhmən Əliyev-Ayvazalı

# HİNDİSTAN ETNOQRAFİYASI

## (Mənəvi mədəniyyət)

## II

"Elm və təhsil"
Bakı – 2017

**Elmi redaktor:** **Teymur Bünyadov,**
**AMEA-nın həqiqi üzvü,**
**tarix elmləri doktoru, professor,**
**əməkdar elm xadimi**

**Rəyçilər:** **f.ü.f.d., professor Əli Məmmədov**

**t.ü.f.d. Sevda Səmədova**

**Redaktor:** **Nazilə Kamal qızı Musayeva**

**Azərbaycan Dillər Universitetinin Elmi Şurasının (05.06.2015-ci il tarixli iclas, protokol №5) qərarı ilə çap edilir.**

**Əliyev (Ayvazalı) Bəhmən Fazil oğlu. Hindistan etnoqrafiyası (mənəvi mədəniyyət). II. Bakı, "Elm və təhsil", 2017, 234 səh.**

Dərs vəsaitində Hindistan etnoqrafiyasının formalaşmasında dinlərin və dini inancların rolu, varna-cati sistemi, bayramlar, musiqi və rəqslər, ailə və ailə-nikah münasibətləri, irqi-etnik tərkib, etno-mədəni proseslərdə dil amili, etnolinqvistik ştatların yaranması və s. məsələlər ənənəvilik və müasirlik müstəvisində araşdırılır, şərh olunur, çoxsaylı nümunələr gətirilir. Etnoqrafik materiallara Hindistanın tarixi, maddi və mənəvi mədəniyyəti ilə vəhdət şəklində baxılır. Kitab Hindistanşünaslıq üzrə ixtisas təhsili alan ali məktəb tələbələri, magistrlər, Hindistan etnoqrafiyası ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8176-6-9

© Bəhmən Əliyev, 2017
© "Elm və təhsil", 2017

## MÜNDƏRİCAT

**I FƏSİL**
**DİNLƏR VƏ DİNİ İNANCLARIN HİNDİSTAN ETNOQRAFİYASININ FORMALAŞMASINDA ROLU**
1.1. Hinduizmin formalaşması mərhələləri........................ 5
1.1.1. Vedalar dönəmi ........................................................ 5
1.1.2. Brahmanizm dönəmi ............................................ 12
1.1.3. Hinduizm dini təlimi ............................................ 20
1.2. Buddizm ................................................................... 39
1.3. Caynizm ................................................................... 44
1.4. İslam......................................................................... 48
1.5. Siqhizm .................................................................... 55
1.6. Xristianlıq ................................................................ 65

**II FƏSİL**
**HİNDİSTAN CƏMİYYƏTİNİN KASTA (VARNA-CATİ) QURULUŞU**
2. 1."Varna-cati" sisteminin dini-ideoloji əsasları ........... 74
2.2."Cati"lər hind cəmiyyətinin sosial əsası kimi............ 80
2.3. Kasta sisteminin müasir vəziyyəti ............................ 87

**III FƏSİL**
**BAYRAMLARIN VƏ MUSİQİNİN HİND CƏMİYYƏTİNDƏ ROLU**
3.1. Bayramlar.................................................................. 98
3.2. Musiqi ..................................................................... 117
3.3.Musiqi alətləri .......................................................... 124
3.4. Hind rəqsləri............................................................ 127

**IV FƏSİL**
**HİNDİSTANDA AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİ**
4.1. Ailədaxili münasibətlər ........................................... 132
4.2. Nikah adətləri.......................................................... 147
4.3. Toy adətləri ............................................................ 150

**V FƏSİL**
**HİNDİSTANDA ETNİK PROSESLƏR**
5.1. Hindistan əhalisinin etnik tərkibi ............................ 166
5.2. Etno-mədəni proseslərdə dil amili .......................... 199
5.3. Etnolinqvistik ştatlar ............................................... 217

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI .... 228**

# I FƏSİL

# DİNLƏR VƏ DİNİ İNANCLARIN HİNDİSTAN ETNOQRAFİYASININ FORMALAŞMASINDA ROLU

Hinduizm Hindistan yarımadasında yaşayan əksər əhalinin mənsub olduğu dini təlimdir. Avropalılar bu təlimi "hinduizm", hindlilər isə öz dinlərini **"Sanatana dharma"** (əzəli, əbədi din) adlandırırlar. Bu dinin tarixi e.ə. II minillikdən başlayır. Bir neçə yüz il davam edən dini-mədəni proseslərdən sonra hinduizm təlimi formalaşmışdır. Bu prosesi təxmini bir neçə dövrə ayırmaq olar: *Vedalar dövrü (e.ə. II minillik); Brahmanizm dövrü (e.ə. XI əsr-VIII əsr); Upanişadlar dövrü (e.ə. VIII əsr - e.ə VI əsr): Klassik dövr (klassik hinduizmin yaranması, e.ə. VI əsr-eramızın V əsri); Vedanta dövrü (hinduizmin tam formalaşması, orta əsrlərdə ilahiyyat və fəlsəfənin tərəqqisi); Müasir dövr (XIX-XX əsrlərdə hinduizmdə islahatlar dövrü).*

**Hinduizmin formalaşması şərti olaraq mərhələlərə bölünsə də, hər bir yenilik özündən əvvəlki dövrdə ortaya çıxmış, zaman keçdikcə inkişaf edərək, genişlənərək növbəti mərhələni təşkil etmişdir.**

## 1.1. Hinduizmin formalaşması mərhələləri

### *1.1.1. Vedalar dönəmi.*

"Vedizm" və ya "Veda təlimi" Hindistanın ən qədim tarixə malik əsas və geniş yayılmış dinlərindən biri hesab olunur. Hin-

distan kökənli dinlər, o cümlədən brahmanizm, hinduizm, caynizm, buddizm və siqhizm də bu təlim əsasında formalaşmışdır.

Veda ayini ilk dövrlərdə ailə, tayfa inancı idi. Onun ən geniş yayılmış ritualı günəş çıxanda və batarkən icra olunan ***"aqnihutra***"dır. Bu rituala uyğun olaraq ailənin başçısı gün çıxmazdan qabaq yuxudan oyanır və su ilə yuyunub özünü paklaşdırırdı. Daha sonra müqəddəs ifadələri təkrarlayaraq od tanrısı Aqninin adına od qalayır, üzünü şərqə tutaraq əllərini yenicə doğmaqda olan günəşə doğru qaldırır, ailə üzvləri ilə birlikdə məhsul və bərəkət tanrısı Savityara kömək üçün yalvarırdı. Bu ayin eyni şəkildə axşamlar günəş qürub edən zaman, bəzən də günorta keçirilirdir.

Vedalarda ilahi nəğmələr, dualar dini kitabların mühüm tərkib hissəsidir. Bu təlimin ardıcılları təbiətdəki bütün varlıqların hər birinin öz tanrısının olduğuna inanırlar. Veda təlimindəki çoxtanrıçılığın xüsusiyyətlərindən biri bəzi tanrıların digərlərinə nisbətən üstünlüklərə malik olmasıdır. Müxtəlif dövrlərdə tanrılardan bəziləri önə çıxmış, digərləri öz əhəmiyyətini itirmişlər. Çoxtanrılığın bir xüsusiyyəti də budur ki, tanrılardan bəziləri kollektiv şəkildə tanrı rolunu ifa edirlər. *Vedalarda tanrıları ümumi şəkildə iki dəstəyə - fərdi və kollektiv hissəyə, fərdi tanrılar da öz növbəsində səmavi tanrılar (Diaus Pitar, Parcanya, Uşas, Varuna, Mitra, Aşvin, Yama, Brihaspati, Vişnu, Suriya, Sarasvati və s.), səma ilə yer arasında olan tanrılar (İndra, Rudra və s.), yer tanrılarına (Pritvi, Aqni, Soma və s.) bölünürlər. İnanca görə, insanların himayədarı olan tanrılar müxtəlif xasiyyətlərə malik idilər, onlar insanlar kimi işləyir, söhbətləşir, gülür, rəqs edir, dostluq-düşmənçilik edirdilər. Kollektiv tanrılar da üç dəstəyə- "adityalar", "marutlar", "vasulara" ayrılırlar.*

Veda nəğmələrində baş tanrı digər tanrıları himayəsi altına alan, vahid və müstəqil şəkildə təzahür edən şəkildə təqdim olunur, dünyanı xəlq etmək kimi xüsusiyyətlər ona aid edilir. Bu tanrı "***Vişvakarma",*** yaxud "***Puruşa***" adlandırılır. "*Vişva"- hər*

*şey, "karma"- bütün dünyanı yaradan* mənasını ifadə edir. "Vişvakarma" hər bir şeyi görən, yeri-göyü və ayı yaradan, dünyanı nizamlayan, bütün canlı varlıqları və insan qövmlərini idarə edən sayılır.

Göründüyü kimi, Veda təlimi çoxtanrılıq və təktanrılıq üzərində qurulmuşdur. Riq Vedanın bir nəğməsində deyilir:

*"Bəxş edənin həyat və qüvvəsi əbədidir...*
*O kəs ki, ucqar dağlar, dənizlər və çayların varlığı ondandır.*
*O kəs ki, səma onun qüdrət nahiyəsidir.*
*Öz qurbanlarımızla ona hörmət etdiyimiz o Tanrı kimdir?*
*O kəs ki, yeganə və bütün tanrıların fövqündə olan Tanrıdır...*
*Əql sahibləri vahid Tanrıya müxtəlif adlar qoyurlar.*
*Onu Aqni, Mitra və Varuna adlandırırlar.*

Bu təlimin ardıcılları tərəfindən tək tanrıya aid edilən çoxsaylı simvol və atributlarda hədsiz mübaliğəyə yol verilmişdir.

Müxtəlif inkişaf mərhələlərindən keçən hinduizm dini təlimlərin ən qədimi sayılır. O, heç bir peyğəmbər tərəfindən yaradılmamış, təlimləri konkret bir dövrdə müəyyən bir qrup insan tərəfindən sistemləşdirilməmişdir.

Hinduizmin qaynaqları müqəddəs mətnlərdir. Hinduist müqəddəs mətnləri 6 başlıq altında toplanır: ***1. "Şruti"lər; 2. "Smiriti"lər; 3. "İtihasa"lar;4."Purana"lar; 5. "Aqama"lar; 6. "Darşana"lar.***

1. "***Şruti",*** hərfən "eşidilən" deməkdir. İnanca görə, Vedalar yüksək ruhi varlıqlar, müdriklər olan rişilərə vəyh yolu ilə gəlmişdir. Rişilər vəyhlər nəticəsində əzəli, əbədi gerçəkliyi görmüş, eşitmişlər, təcrübədən keçirmişlər və təcrübələrini insanlığın faydası üçün yazıya almışlar. ***Dörd Veda ("Riq Veda", "Yacur Veda", "Sama Veda" və "Atharva Veda"), hər biri təkrarən üç təbəqəyə ("Veda Mantralar", "Upanişadlar", "Brahmanalar") ayrılır.*** Hinduizmə görə, Vedaların həqiqiliyi vəhylərlə təsbit edilmişdir, onlar dinin ən əsas qaynağıdır.

2. ***“Smiriti”,*** hərfən təkrarlanan, xatırlanan deməkdir. Önəmlərinə görə, “Şruti”dən sonra gəlirlər. “Smiriti”lər Vedaların təlimi üzərinə qurulmuşlar, dini vəzifələri açıqlayır, izah edirlər. Burada insan, ailə, cəmiyyətin gündəlik hal, rəftar, davranış və ənənələrinə aid qanunlar əksini tapır. “***Brahmanalar”, “Upanişadlar” və “Aranyakalar” “Şruti”yə aiddir. “Smriti”yə isə “Aqamalar” (mantra, tantra və yantra fəlsəfəsi), “Dharma Şastra” (qaydalar, qanunlar), “Dyasanalar” (vedanta fəlsəfəsi), “Mahakavyalar” (dastanlar; “Mahabarata” və “Ramayana” dastanları), “Puranalar” (nağıllar və hekayələr), “Sutralar” (Atalar sözü və məsəllər, aforizmlər) daxildir.*** Bundan başqa, 18 əsas “Smriti” vardır: *“Apastamba smriti”, “Atri smriti”, “Dakşa smriti”, “Devala smriti”, “Qautama smriti”, “Harita smriti”, “Manu smriti”, “Parasara smriti”, “Samvarta smriti”, “Sankha-Likhita smriti”, “Satatapa smriti”, “Saunaka smriti”, “Usana smriti”, “Vişnu smriti”, “Yacavalkya smriti”, “Yama smriti”, “Vaşishtha smriti”, “Vyasa smriti”.*

3. “***İtihasalar***” (dastanlar) ***“Ramayana” və “Mahabharata”*** dastanlarıdır. Hinduizm təliminin xalqın düşüncəsinə, idrakına təsir göstərən prinsiplərinə, ehkamlarına həsr olunmuş hekayələrini əhatə edir. Dini təlim dini-fəlsəfi əsaslar qarşılaşdırmalar və ibrət alınacaq əhvalatlar, rəvayətlər yolu ilə xalqa çatdırılır.

4. ***“Puranalar”*** isə “İtihasalar” ilə eyni qrupa aiddirlər, vedaları yaymaq üçün yazılmışdır. “Puranalar”da *(“Aqni”, “Bhavaqata”, “Brahma”, “Brahmanda”, “Brahmavaivaita”, “Qaruda”, “Kurma”, “Linqa”, “Markandeya”, “Narada”, “Padma”, “Şiva”, “Skanda”, “Vamana”, “Varaha”, “Vayu”, “Vişnu”)* miflər, hekayələr, əfsanələr, müqəddəslər və hökmdarların həyatlarına aid alleqorik nağıllar yoluyla veda təlimi təqdim olunur. Yəni, dini-fəlsəfi ehkamlar konkret şəkildə əks edilir. On səkkiz “Purana” var, ən populyarları “Bhaqavata” və “Vişnu Purana”dır.

5. ***“Aqamalar”*** populyar müqəddəs mətnlərdir, Vedaların nüfuzuna söykənməsələr də, vedalara əks deyillər. İbadətin hansı şəkildə yerinə yetiriləcəyinə dair teoloji yaddaş kitablarıdır. Hinduizmdə ən çox yayılmış üç məzhəb, yəni, ***“Şhaivism” (şivaizm), “Shaktism” (şaktizm) və “Vaishnavism”in (vişnuizm)*** ehkamlarını “Aqamalar” ilə əsaslandırmışlar.

6. ***“Darşanalar”*** hərfən işıq və ya baxış mənasındadır. Bu altı Şaddarşana aşağıdakılardır: ***1. “Nyaya”, 2. “Vayşeşika”, 3. “Samkhya” (Sankya), 4. “Yoqa”, 5. “Mimansa”, 6. “Vedanta”.*** Hər bir Darşana həqiqətə baxışın bir yolunu göstərir. Onlar həyat yolu və həyat forması sayılırlar. Əsasən “Vedalar”, “Upanişadlar”, “Bhaqavad-Qita” və “Şaddarşanalar” hind dini fəlsəfəsinin fundamental müqəddəs mətnləridir.

***“Veda”*** sözü “bilmək”, “bilik” deməkdir, bu söz xüsusi ali elm və mərifət mənasında işlədilir. Vedaya ***“Apaverşiya”,*** yəni “fövqəl-insan” da demişlər. Veda təlimində dörd dini kitab vardır. Birinci kitab olan **“Riq Veda”**nın əsas himnlərinin yaranmasını e.ə. II minilliyin sonuna, vahid vedalar məcmuəsinin tərtibatını e.ə. II-I minilliklərə aid edirlər. Vedalar əvvəllər kahinlər vasitəsilə ustad-şagird üslubunda və şifahi şəkildə söylənərək sonrakı nəsillərə ötürülürdü. Hindusların inancına görə, bu nəğmələr heç bir məxluq, şair təfəkkürünün məhsulu deyil və onlar yalnız qeyri-adi bir varlıqdan, vəhydən qaynaqlanır.

Vedaların ən qədimi və önəmlisi olan “**Riq Veda**”da (bilik, himnləri bilmə) tanrılara 1028 nəğmə (himn, ilahi) həsr olunmuşdur. “Riq Veda”nın himnləri müdriklərin (rişi) vasitəsi ilə atadan oğula, müəllimdən şagirdə, qocadan gəncə ötürülür. İlahilər on kitaba (*Mandala*) ayrılır. Ən uzun olanı 191 ilahidən ibarət birinci və 43 ilahidən ibarət olan onuncudur. “Riq Veda”nın digərlərindən fərqi onun yüksək səslə oxunması və burada olan şükr, arzu və bəddua tərzindəki duaları əhatə etməsidir. Bu nəğmələr ən çox Veda dövrünün tanrıları İndra, sonra Aqni və daha sonra isə Va-

runaya ünvanlanır. Hinduslar müasir dövrdə də veda nəğmələrini sübh və axşam çağları, toy mərasimlərində xeyir-dua məqsədi ilə oxuyurlar.

Tanrılara ibadət və onlara nəzir-niyaz etmək üçün lazım olan dua və ilahilərdən təşkil olunmuş **"Sama Veda"** nəğmə oxumaq anlamına gəlir. Qurban əsnasında söylənən, yüksək səslə oxunan ilahilər "Riq Veda"dan götürülmüşdür.

**"Yacur Veda**"da Riq Veda nəğmələrinin bir çoxunun məzmunu əks olunmuşdur. Bu kitab qurbanlıq mərasimlərində təkrarlanan zikrlərdən ibarətdir. Hər iki veda Riq Vedadan sonra yaranmışdır.

**"Asarva Veda"** (Acur Veda və ya Atharve Veda) vedaların dördüncü və sonuncu kitabıdır. E.ə VII-VI əsrlərə aid olan "Atharve Veda" digər üç kitabla müqayisədə fərqli üsluba malikdir. 730 himndən ibarət olan kitab sehr və cadugərlik məsələlərində şər qüvvələrinə qələbə çalmaq məqsədi ilə yazılmış müxtəlif magik nəğmələr toplusundan ibarətdir.

Bu dörd vedadan hər biri öz növbəsində iki müstəqil hissəyə-***"Samhita***" və ***"Brahmana***"ya bölünür. ***"Samhita"*** dedikdə, müxtəlif mərasimlərdə, xüsusilə qurbanlıq mərasimlərində veda kahinləri tərəfindən oxunan nəğmələr toplusu nəzərdə tutulur. Qurbanlıq mərasimlərində adətən əsas aparıcı kahin olan ***"brahman"*** əvvəlcə "Asarva Veda"dan bir parçanı oxuyur, sonra "***huteri***" adlı başqa kahin Riq Vedadan müəyyən nəğmələri ifa edir. Bundan sonra, üçüncü kahin, yəni "***adqateri***" Sama Vedadan bəzi nəğmələri əzbərdən deyir, dördüncü kahin "***adhuvariyu***" qurbanlıq hədiyyələri oda qurban edərək "Yacur Veda"dan dualar oxuyur və ibadət mərasimi sona çatır.

"***Brahmana***" veda kahinlərinin dua və qurbanlıq mərasiminin keçirilməsi ilə əlaqədar şərh və söhbətlər toplusudur. Dini göstəriş və hökmlər, dini başçıların borc və vəzifələri, hökmlərin, duaların, qurbanlıq mərasimində oxunan nəğmələrin mənaları

"Brahmana" söhbətlərinin əksəriyyətini təşkil edir. Brahmana iki ümumi hissədən- "***Aranyaka"*** və ***"Upanişad***"dan ibarətdir.

***"Aranyakalar***" bəzən "meşə kitabları" adı ilə məşhurdur və meşələrdə asketik həyat tərzi keçirən tərki-dünya zahidlərə həsr olunmuşdur. "Upanişad"lar (Vedanta) vedaların son hissələri hesab olunur, nəfsini saflaşdıranlar üçün nəzərdə tutulur.

***"Upanişad***" sözü üç hissədən ibarətdir: "*upa*" - yaxın, "*ni*" - aşağı, "*şad*" isə oturmaq mənasını daşıyır. Müəllimlərin ("quru") dizi yanında oturan şagird anlamına gəlir. Şeir və nəsr şəklində olan ***"Upanişadlar***" brahmanizmin əsas istiqaməti və vedanın ən mühüm təfsirlərindən biri sayılır. ***"Aranyaka***" (aryanka) və ***"Upanişadlar"*** nəticə etibarı ilə brahmanizmin formalaşmasına gətirib çıxarmışdır. Bu dəyişikliyin mühüm xüsusiyyətlərindən birini tanrılara sitayişdə ruhani başçıların və kahinlərin rollarının azalması, brahmanların rolunun güclənməsi ilə xarakterizə etmək olar.

***"Vedanta***" yəni, *"Vedaların sonu"* adlandırılan ***"Upanişad Vedanta"*** vedaların daxili mahiyyətini açıqlayır və insanları zahiri yayınmalara deyil, mənəvi böyüklüyə və batini məzmunlara diqqət yetirməyə çağırır. *Bu kitab Baburşahlar zamanı, Şah Cahanın oğlu Daraşukuhun zamanında fars dilinə tərcümə olunmuş, onu "Böyük sirr" adlandırmışlar.* Avropalı tədqiqatçıların Upanişadla ilk tanışlığı da elə bu kitabın köməkliyilə baş tutmuşdur .

*Sual və tapşırıqlar:*

*1."Sanatana dharma" nə deməkdir?*

*2. Dörd Veda-Riq Veda, Yacur Veda, Sama Veda və Atharva Veda haqqında təqdimat hazırla.*

*3. Şrutilər, Smiritilər, İtihasalar, Puranalar, Aqamalar, Darşanalar.*

*4. Nyaya, Vayşeşika, Samkhya (Sankya), Yoqa, Mimansa, Vedanta kimi dini-fəlsəfi məktəblər haqqında danış.*

## *1.1.2. Brahmanizm dönəmi*

Miladdan əvvəl XI-VIII əsrlərdə brahmanlar (dini xadimlər) veda dinində dəyişikliklər etdilər. Bu təlimin ardıcılları özlərini xilas etmək və tanrılarının güclənməsi üçün çoxsaylı tanrılara sitayişdən, onlara qurban verməkdən üz döndərərək bütün əşyaların vəhdətinə inam yaratmağa meyl etdilər. E.ə.X əsrdə qurbanvermə mərasiminin dərkində, qurbanvermənin mahiyyəti ilə bağlı təsəvvürlərdə dəyişikliklər baş verdi.

Müqəddəs mətnlərin dəqiq məzmununu bilən ruhanilər yaradanın bütöv konsepsiyasını formalaşdırdılar, sonradan bu "**Brahma"** adlandırılmağa başladı. Həmin konsepsiyaya görə, "Brahma" özü dünyanın yaranmasına qədər digər tanrılara qurban edildi və onun bədənindən kainat yarandı. Beləliklə, qurbanvermə aktı həmin ilk qurbanvermənin təkrarı, yenilənməsidir. Əgər qurbanvermə müntəzəm şəkildə həyata keçirilməsə, inkişaf dayanar, kainatın sonu çatar, yenidən xaos başlayar. Ruhanilər sülhü qoruyan, saxlayan, düşməni marasimlər, cadular yolu ilə məhv etməyin yollarını bilən, ən əsası isə hökmdarlardan da qüdrətli insanlara çevrildilər. Bu şəkildə hind cəmiyyətində ruhanilərin üstün qüvvəyə çevrildiyi dövr başladı. Veda dövrü öz yerini brahmanizm mərhələsinə verdi.

Dini təlim olaraq, "Dharma Sutra" və "Dharma Şastra"da əksini tapan brahmanizmin təşəkkül tapdığı dövrdə ikinci dəyişiklik isə "varna" sisteminin formalaşmasıdır. Bu quruluşda brahmanlar ən yüksək ictimai mövqeyə sahib oldular. Brahmanizmdə veda kitablarının əvvəlki dəyərini saxlamasına baxmayaraq, əsas meyar *"Brahmana", "Aranyaka" və "Upanişad"*lar idi. Ümumiyyətlə, brahmanizmin batini, ruhani həqiqətləri müqəddəs kitablar sayılan "Vedalar" və *"Upanişadlar"*da, xarici kult isə *"Puranalar"*da əksini tapmışdır.

Brahmanizm dövründə insan və insanın taleyi haqqında yeni təsəvvürlər yaranmışdı. Ruhun köçü, yenidən doğulma ideyaları indiki həyatda insanın əməllərinin sonrakı həyatda əksini tapacağı haqqında karma təsəvvürünü möhkəmləndirdi. Bu məntiq hər bir kəsin cəmiyyətdə tutduğu statusu özünəməxsus şəkildə əsaslandırırdı. Brahmanizmin inkişafı Hindistanın şərqində arilərin siyasi təsirinin artmasında özünü göstərirdi.

***Brahmanizm dövründə varna sistemində "iki dəfə doğulma" anlayışı və iki dəfə doğulanların, yəni "aşram"ların həyatlarının 4 mərhələsi ("brahmaçarin", "qrihastha", "vanaprastha", "sanyasi") haqqında təsəvvür yaranmışdır.***

Brahmanizm mərhələsi cəmiyyətdə gedən sosial-siyasi proseslərlə sıx bağlı idi, baş verən dəyişiklərin müəyyən detalları "Mahabharata" və "Ramayana" eposlarından məlumdur. Nə qədər mifik sayılsa da, ən azı e.ə. IX əsrə aid olan "Mahabharata" dastanında Brahma nəsilləri (Kauravlar və Pandavlar) arasındakı döyüşlər, "Ramayana" dastanında Ramanın Lankaya hücumu və s. Şimali Hindistandakı tarixi gedişat (ari-dravid münasibətləri) barədə təsəvvür yaradır.

Delhi yaxınlığındakı Hastinapurda aparılmış arxeoloji tədqiqatlara əsasən həmin dövrün müxtəlif hadisələrilə bağlı ehtimallar irəli sürülür. Belə hadisələrdən biri Kurukşetredə baş vermiş döyüşdür. Tarixi mənbələr həmin döyüş haqqında məlumat vermir, amma "Mahabharata" eposunda döyüş barədə şişirdilmiş də olsa təsvir vardır. Bu döyüş e.ə.IX əsrdə Kuru tayfaları arasında müharibələrin bir hissəsi olmuşdur. Həmin dövrədək arilər Koşala və Kaşi (müasir Varanasi şəhəri, əvvəl Benares adlanırdı) ərazilərində dövlət yaratmışdılar. Ehtimal olunur ki, "Ramayana" eposunun qəhrəmanı Rama Koşalanın hökmdarı idi. Lakin bir fakt dəqiq məlumdur ki, onun qohumu Canaka Videhinin hökmdarı, yəni real tarixi şəxs olmuşdur. Qanq çayının sağ sahilində isə arilərin hələ ələ keçirə bilmədikləri Maqadha, Camna çayı ilə Benqal körfəzi arasında bir neçə kiçik dövlət mövcud idi.

Kurilər yerli qeyri-ari tayfalarıni-"mleççhi"ləri özlərinə tabe etdilər, "yadlar" onlarla Kuru-Kaurav adlanan tayfa ittifaqını yaratdılar."Mahabharata"dan məlumdur ki, şimal tayfaları olan ***Kauravlar və Pandavlar*** arasında uzun sürən müharibələr olmuş, Ponçala və Kuru dövlətləri öz təsirlərini itirmiş, siyasi arenada kiçik dövlətlər yaranmışdır. Paytaxt Ayodha və Şravasti olmaqla Koşala dövləti, paytaxt Varanasi olmaqla Kaşi dövləti, paytaxt Qirivraca olmaqla (sonra Racaqiriha, müasir Racqir şəhəri), Biharın cənubunda Maqadha dövləti, paytaxt Mithil şəhəri olmaqla Videha dövləti, paytaxt Ucayani olmaqla Avanti dövləti yarandı. Beləliklə, 3 əsas ərazi mövcud idi: ***Brahmavarta və ya Aryavarta-arilərin ölkəsi və ya Şimal ölkəsi, Madhyadeşa-Orta ölkə, Dakşinapatha-Cənub ölkəsi.***

Brahmanlar nicat və qurtuluşa aləmin həqiqət və ruhuna qovuşmaqla müyəssər ola biləcəklərini düşünürdülər. Veda təlimində əyani olaraq keçirilən qurbanlıq mərasimi brahmanizmdə öz yerini batini mərasimə vermişdir.

Brahmanizmin əsas ideoloji prinsipləri ***1) "Brahmana etiqad", 2) "Atmana etiqad", 3) "Karma", 4) "Sansara", 5) "Mokşa" (nicat yolu)*** idi. Bu etiqada görə, Brahman, yaxud Brahma tanrısı varlığın özü, həqiqəti, başlanğıcı və sonudur. O, əbədi və həmişəlikdir, hər yerdə vardır, onun vücudunda səma və yer, maddi və ya qeyri-maddi olmasından asılı olmayaraq dünyanın bütün varlıqları əhatə olunmuşdur.

"Upanişad"da tanrı Brahma belə təqdim olunur: ***" - Odur fənaya uğramayan əbədi tanrı! Elmli, hər yerdə olan və dünyanın gözətçisi! Odur varlıq aləminin hökm verəni!". "Upanişad"ın başqa bir yerində tanrı Brahmanın xüsusiyyətləri barədə deyilir: " - O həm sabitdir, həm də səyyar, həm uzaqdır, həm də yaxın... O şimalda, cənubda hər yerdədir. Bütün çaylar okeanlardan qaynaqlanıb yenidən ona qayıtdığı kimi, hər bir şey Brahmandan yaranır və ona qayıdır".***

“Brahman” bütün yaşayan və yaşamayan dünyanı əhatə edən əsrarəngiz mahiyyət (öz) sayılır. ***“Maitri Upanişad”a görə, “bütün bu canlıların doğulmalarında, yaşamalarında və son olaraq bir-birlərinə qarışmalarında var olan Brahmandır”.*** *“Brihadaranyaka Upanişad”*da günəş, ay, göy, yer, gündüzlər, gecələr, aylar, illər, dənizlər, çaylar və s. kimi öz qayda-qanunları olanlar, öz yolları ilə gedənlər Brahmanın düzənində mövcuddurlar. Müdriklər ***Yacnavalkya*** ilə ***Vidaqdha*** arasında uzun müzakirədən sonra Brahmanın tək başına kainatin Tanrısı olduğu nəticəsinə gəlinmişdir. Brahman sonsuzdur. Batini olduğu qədər, zahiridir. *“Şvataşvatar Upanişad”*da Tanrı eyni ilahidə batini və zahiri olaraq birlikdə tanımlanmışdir: ***“Tanrı səssizcə göydə oturur, yenə də bütün kainat onunla doludur”.*** *Kenopanişad*da tanrı “qulaqların qulağı, ağılların ağlı, səslərin səsi və həyatların həyatı” kimi çağırılır. *Taitdiriya Upanişad*da isə, ***“Zehnin, danışmaq ilə birlikdə hasıl etdiyi və çata bilmədiyi şey ən son gerçəklikdir, ən uca Brahman “ananda”, “turiya” halında ortaya çıxan atmandır”-***deyilir .

*“Atman” təkcə insanın düşünüb-daşınan ruhu, zehni-düşüncəsi deyil (brahmanın simvolu), eynilə Brahmanın özüdür.* Brahmanla atman arasında vəhdət irfan sahəsinə daxil olur nəfsi kamilləşdirmək üçün ***nirvana*** mərhələsi başlayır. Yəni, insanın ruhu dünyəvi ruhla vəhdət təşkil edib, brahma ilə birləşir, bu birlik bir növ cazibə, coşğunluq və məftunluq yaradır. İnsan mütləq mərhələsinə çatdığı üçün səadət və ləzzətə nail olur. Bundan sonra arif şəxs brahmaya qovuşmuş sayılır. Brahmanizmə görə, zahirdə bütün aləm çoxluqlardan təşkil olunsa da gerçəkdə belə deyil. Çoxluqlar varlıq aləminin həqiqətindən ayrı və əksliklərin təzahürləridir. Əgər bu müxtəliflik və çoxluq olmasaydı onda əzab-əziyyətin, çətinlik və kədərin mənası olmazdı. Buna görə də insan nirvana mərhələsinə yetişdikdə çoxluqdan yaxa qurtarır, qurtuluş, səadət, xoşbəxtlik və kamala çatır.

Brahmanların etiqadına görə, “***atman”*** (yəni, varlığın ruhu və məğzi, insani mahiyyəti və batini) əzəli və əbədidir. Yaradılış və xilqətin bir dövrünə şamil edilən dünya dövranlarından hər biri ***(“karpa”)*** bir gün sona çatacaq. Həmin gün bütün varlıqların ruhu öz cəsədlərindən ayrılacaq, asılı və sükunətdə olacaq. Uzun müddət sonra ***“pralaya”*** adlandırılan sükunət, yoxluq başa çatacaq, xilqət və yaradılış yenidən başlanacaq, yox olmuş aləm təzədən yaranacaq. Bu zaman ruhlar ətalət və donuqluq vəziyyətindən çıxacaq, yenidən hərəkətə keçəcək, canlanacaqlar. Bütün kainat - bitkilər, canlılar, insanlar, şeytanlar və ilahilərin hamısı - yeni bədənlərdə öz həyatına başlayacaq. Varnalar yenidən təşəkkül tapacaq və yeni ***“karpa***” başlanacaq. Bu dövr də özünün yekun nöqtəsinə doğru hərəkət edəcək. Beləliklə, *dünyanın mövcudluq tarixi əzəli, əbədi şəkildə yeniləşir, təkrarlanır.*

Brahmanların etiqadına görə, nöqsan, şər və əzab-əziyyət yol tapmamışdır. Bu nöqsan, şər və əzab-əziyyət insanın rəftarındakı əməllərin nəticəsi, yaxud ***“karma”***dır. Karma və reinkarnasiya inancları ilk dəfə e.ə. VIII əsrdə ***“Brihadaranyaka Upanişad”***da detallı şəkildə açıqlanmışdır.

Bu etiqada əsasən insan murdar və pis əməllər törətməsə, öldükdən sonra ruhu brahmana qovuşur və xoşbəxtliyə çatır. Əgər çirkin və yaramaz əməl törətmiş olsa, onun ruhu heyvan və ya insanların cisminə keçərək yenidən həyat sürəcək. Bu proses terminologiyada ***“sansara*** (yaxud “tənasüh” və ya “hülul”) adlandırılır. “Karma” prinsipi əsasında, insan ruhu onun törətdiyi əmələ uyğun olaraq ölümündən sonra özündən yuxarı və ya aşağı “varna”ya keçir və nəticədə öz əməlinin bəhrəsini görür. Yəni aşağı “varna”ya məxsus yaxşı əməl sahibi olan insanın ruhunun ölümündən sonra brahmanın, yaxud cəmiyyətin yüksək təbəqəsindən olan bir şəxsin bədəninə keçməsi mümkündür və bunun əksi də ola bilər.

***Brahmanizmə, eləcə də hinduizmə görə, “karma qanunu” kainat nizamıdır, insanın taleyinə (başına gələcək işlərə) tə-***

***sir edir.*** Əgər insanın vəziyyəti pisliyə doğru gedirsə, bu onun vaxtilə etdiyi pis əməllərin, yaxşılığa doğru gedirsə, etdiyi yaxşı əməllərinin  qarşılığıdır.

Hinduizmə görə, insanın başına gələn fəlakətlərin tanrı ilə əlaqəsi yoxdur, tanrı heç bir şəkildə pisliyə və fəlakətə səbəb olmaz. Tanrı təbiət qanunları kimi, karmanı da yaratmışdır, insan isə öz taleyini özü yazır. Lakin əgər dərindən, səmimi-qəlbdən istənilsə, "sevgi", yəni tanrı, insanların karmalarına müsbət şəkildə təsir göstərə bilər.

Hinduizmdə karmanın üç növü vardır: ***"Sançita karma", "Prarabdha karma, "Kriyamana karma".*** "Prarabdha karma" dəyişdirilməyən hissədir, dolayısıyla, "nəticədir", insan onu yaşamaq, ona qatlanmaq məcburiyyətdir. Bu yaydan çıxan oxa bənzəyir, artıq ox uçub getmişdir. Görüləcək yeganə iş "Kriyamana karma"nı yəni mövcud vəziyyətin karmasını ən yaxşı şəkildə qurmaq, yeni oxunu daha səmərəli şəkildə istifadə etməkdir. Bütün karmalar təmizlənənə və ruh təkamülü tamamlanana qədər insan doğum və ölüm arasında ("sansara") qalır, artıq öyrəniləcək, inkişaf etdiriləcək bir şey qalmayanda "mokşa"ya çatır, "sansara" mərhələsi  yekunlaşır.

Brahmanizmdə nicat və qurtuluş yalnız ***"mokşa"*** vasitəsilə mümkündür. ***"Mokşa"*** maddiyyatı tərk edib *"nirvana"*ya çatmaqdan ibarətdir. İnanca görə, insan var-dövlət sevgisi və dünyəvi istəklərdən əl çəksə, brahmana qovuşar və əbədi rahatlıq tapar, aləmdəki daimi dəyişikliklərdən və köçmələrdən, "sansara"nın qeyri-ixtiyari həyat dəyişmələrindən həmişəlik xilas olar.

***Brahmanizmdə ən mühüm dəyişikliklərdən biri e.ə. VIII əsrin sonlarından başlayaraq, "varna" sisteminin formalaşması idi. Bu sistemə "brahmanlar" (ruhanilər və kahinlər), "kşatri" və ya "kşatrya" (hökmdarlar, döyüşçülər), "vayşa", yaxud "vişiya" (əkinçilər, tacirlər və sənətkarlar), "şudralar" (qeyri-ari xalqlardan olan qara dərililər, qullar, nökərlər) daxil idi.***

“Riq Veda”da **“Puruşa**”nın kainatı yaratması bu şəkildə açıqlanır: ***“Sonra onun ağzı (brahman – kainatın xaliqi) “brahmana” çevrildi. Onun biləkləri “kşatrya”, budları isə “vayşa” oldu və “şudra” onun ayaqlarından yarandı”.***

***Brahmanlara görə, hər fərdin “varna”sı “karma” və “samsara” (sansara) əsasında təyin olunur.*** İnsan ruhu əvvəlki həyatda özünün yaxşı və ya pis əməllərinə əsasən öldükdən sonra aşağı, yaxud yuxarı təbəqədən olan bir insana, heyvana keçib yeni həyatına başlayır. Daha üstün məqam və mövqe istəyən şəxslərin çarəsi bundadır ki, “varna” qanunlarına qeydsiz-şərtsiz təslim olsun, ona tapşırılan vəzifəni yerinə yetirməklə “karma”ya əməl etsin. Yalnız bununla gələcək həyatlarını yüksək “varna”da başlaya bilərlər. Çirkin əməllər və brahma qanunlarına itaətsizlik insanı öz təbəqəsindən aşağı endirə və yeni həyatda daha aşağı “varna”dan olan fərdin cismində yerləşdirə bilər. “Paryaların” aşağı məqamda olmalarının səbəbi budur ki, onların çirkin əməlləri, brahman qanunlarından çıxmağa səy göstərmələri öz məqam və mövqelərindən aşağı enmələrinə səbəb olmuş və onlar ən ağır işləri görməyə məhkum olunmuşlar.

***“Varna” sistemində ilk üç təbəqə arilər idi. Bu sistemdə aşağı “varna” ilə ailə qurmaq qadağan edilmişdi və xoşagəlməz hal sayılırdı. Hətta onlarla oturub-durmaq, bir süfrə başında çörək yemək yasaqlanmışdı.*** “Varna”ya görə, hər bir şəxs öz təbəqəsindən olan insanlarla əlaqə yaratmalı və ya ailə qurmalıdır. Hamı öz ata-babalarının həmin təbəqədəki işini davam etdirməli, öz təbəqəsindən çıxmamalıdır və başqa iş seçmək haqqına sahib deyil.

***Brahmanizm və hinduizmdə əksini tapan, “karma” prinsipinə əsaslanan reinkarnasiya ruhun bir bədəndən başqa bədənə keçməsidir.*** Belə bir inancla ölümdən sonra yaşamaq, ruhun bədəndən ayrılması fikri yaranmışdır. Hinduizmə görə insan sonu olmayan silsilə zəncirin içərisindədir və ölüm qorxu vasitəsi deyil, bir haldan başqa hala keçməkdir. Əgər yaxşı əməl edərsənsə,

gələcəkdəki həyatını zəmanət altına alırsan. Yox, əgər günahları varsa, bitki və ya heyvan olaraq yenidən həyata qayıtmaqdan qorxmalısan. Hətta olduğu "varna" da onun günahına görədir.

***"Manu qanunları"***nda (e.ə III-II əsrlər) "varna" üzvlərinin vəzifələri, təbəqələrlə əlaqədar müəyyən şərh və izahlar bəyan olunmuşdur: ***"Brahmanların vəzifəsi budur ki, vedaları öyrətsinlər. Camaatın qurbanlıqlarını tanrıların dərgahına hədiyyə etsinlər, onlardan qeyrisinin vasitəsi ilə qurbanlar qəbul olunmaz. Brahmanlara bütün tanrılar hörmət edir və buna görə də yüksək məqam sahibidirlər. Brahman heç bir günaha batmaz, hətta bütün insanları öldürsə belə cəzalandırılmayacaq. Hətta ehtiyacdan ölüm ayağında olsalar belə, hökmdarların brahmana vergi qoyması qadağandır".*** Ümumiyyətlə, brahman övladları 7 yaşından, kşatri övladları 9 yaşından, vayşi övladları 11 yaşından vedaları, dini bilikləri öyrənə bilərdilər. **"Manu qanunları"**nda "kşatri" döyüşçü varnası barədə deyilir: ***"Yalnız bunların rəhbər, padşah, qazi və ya hakim olmağa səlahiyyətləri vardır. Onlar hərbi işlərdən başqa bir xidmətlə, hətta dinc şəraitdə olsa belə, məşğul olmamalıdırlar"***.

***"Vayşılər"*** (vayşalar) barədə belə yazılır: ***"Yalnız öz təbəqələrindən özlərinə həyat yoldaşı seçmək onlara vacibdir. Ticarət qanunlarını, əkinçilik və bağbanlıq qaydalarını öyrənmək isə "vayşilər"ə vacibdir. Onlar müxtəlif xalqların dillərindən, bazarlardakı qiymətlərdən xəbərdar olmalıdırlar".***

Qanunlarda şudralara da münasibət bildirilir: ***"Onlara brahmanların əmrlərini yerinə yetirmək vacibdir. Yalnız bu halda sonrakı həyatda daha yaxşı məqama çata biləcəklərinə ümidvar ola bilərlər. Onların sərvət toplamaları düzgün deyildir. Çünki belə olan halda brahmanlar əziyyət çəkə bilərlər. Əgər şudra təbəqəsindən bir şəxs özünü daha yüksək təbəqədən olan fərdlə bərabər hesab edərsə sürgün edilməli və kürəyinə dağ basılmalıdır. Əgər özündən yuxarı təbəqələrə mənsub olan bir şəxsə***

***əl qaldırarsa, əli kəsilməlidir; təhqir edərsə, ayağı kəsilməlidir. Həyasızlığı son həddə çatarsa, brahmanın rəyi ilə onun ağzına və qulağına qaynar yağ tökmək hökmdara vacibdir".***

Dörd "varna"dan əlavə, Hindistan cəmiyyətində insani, ictimai hüquqlardan məhrum olan "paryalar" ("toxunulmazlar") var idi. Paryalara ictimai və sinfi quruluşda onlara yer verilmirdi. Paryalara arilərin tanrılarına sitayiş etməyə icazə verilmirdi. Bu ayrı-seçkiliklər paryaları tədricən animizm, totemizm və s. ibtidai dinlərə yönəltmişdir.

***Sual və tapşırıqlar:***

*1. "Brahma" inancı nədir?*

*2. "Brahmanizmin ruhani həqiqətləri-"Vedalar" və "Upanişadlar"da əksini tapır"-cümləsini izah edin.*

*3. "Puranalar"anlayışını izah edin.*

*4.Brahmanizmin əsas ideoloji prinsipləri:Brahmana etiqad, atmana etiqad, karma, tənasüh, mokşa haqqında təqdimat hazırlayın.*

*5. Brahmanizmdə "varna" sisteminin formalaşması mərhələləri haqqında danışın.*

### *1.1.3. Hinduizm dini təlimi*

Hinduizmin təməlində "Brahma" (mütləq varlıq) inancı durur. Tanrı Brahmanın dünyanı yaratdığı düşünülür. Tanrı Şiva və Vişnu isə Brahmadan sonra gəlir. Hinduizmdə Kaylasa, Himalay dağları, Qanq-Yamuha çayları müqəddəs sayılır. Tanrı-xilaskarlara ibadət əsasında çoxsaylı dini icmalar yaranır, onların başında müqəddəs müəllimlər (quru) durur.

Hinduizm "Sanatana dharma" prinsipini qəbul edir, bu prinsipə görə hinduizm dini, əzəli və əbədidir. Çünkü yalnız Tanrı gerçəkdir və Tanrı əzəli və əbədidir. Hər şeyi əhatə edən bu ən uca gerçəklik, kainatin təsirli və maddi səbəbidir. İnsan ruhu tan-

rısaldır və bütün kainat ən uca ruhun görüntüsüdür. ***"Tanrı bizim içimizdədir, fəqət bizim cəhalətimiz üzündən hər kəs öz dininə sahibdir. Bundan dolayı, insanın dininə "Manava Dharma" deyilir. Bu "Manava dharma", "Sanatana dharma" və ya əzəli-əbədi dindir. Bir hinduist öz dinindən uzaqlaşa bilər, fəqət o, "Manava dharma"nı tərk edə bilməz. "Sanatana dharma" və ya hinduizm bir ehkam və ya kredoya inanmaz, ancaq o, ruhi açılma sayəsində Tanrı bilincinə (şüuruna) çatmağa inanır. Bu, Tanrıya çatmaq (giriş) və tanrı olmaqdır. Bu, mutləq Brahman olmaqdır. Hinduizm, əzəli və əbədidir, çünkü; dinin mərkəzi oxu olan Tanrı əzəli və əbədidir".***

Hinduizm və ya Vedanta ehkamlar və ya kredolarla ilgilənmir, ancaq məntiq və səbəb yoluyla ruhun gerçək təbiətini açıqlayır. Upanişadlarda bu ruhun, yəni *"atman"*ın hər şeyi eşidə bildiyi, reaksiya verdiyi və anladığı vurğulanır. Bu ruh elmi ruhun vücuddan ayrı var olub-olmayacağı, indiki doğumdan öncə var olub-olmadığı kimi problemləri müzakirə edir. O, azaddır, azad deyil, məhduddur? Beləcə, o, ruhun ölümsüzlüyü, arzunun özgürlüyü və köləliyi, karma qanunu və s. mövzularla maraqlanır. Vedanta dini təliminə ruh elmi (bilimi) deyilir. Modern elmi ehkamlarla maraqlanmır, insan və ya kitaba inanmaq üzərində israr etmir, ancaq tamamən doğrunu araşdırmağa yönəldir və təbiətın gerçəklərini, kainatin fenomenini idarə edən qanunları kəşf etməyə çalışır. ***Vedanta fəlsəfəsi "Şivatmas" adlanan fərdi ruhların çoxluğunu qəbul edir və onları ən uca ruhdan ayırır.***

***Upanişadlar gerçək ruh və görünüşdəki ruh şəklində iki ruh olduğunu bildirir.*** Gerçək ruh dünyaya bağlı deyil, o, vücudsuz və şəkilsizdir, acı və sevincin ötəsindədir, amma görünüşdəki ruh dünyaya bağlıdır, vücudu və şəkli vardır. Özünün yaxşı və ya pis əməllərinin nəticəsi olaraq acı və ya sevinç hiss edir. Görünüşdəki ruh bu ikilikdən qurtularaq həqiqi ruhda birliyini gerçəkləşdirirsə, kədərləri və ya özünə köləliyi ortadan qalxar. Bu iki ruhun

birliyi vedik ifadələrdə əks olunmuşdur: ***"Bu sənin sənətindir", "Bu, Brahmandır", "Mən Oyam"*** **.**

Veda və brahmanizm dövründə təməlləri atılan hinduizmin yaranması orta əsrlərə aid edilsə də, bu dini təlim daim inkişaf etməkdə, islahatlara məruz qalmaqdadır. Buddizmin, caynizmin qarşısını almaq üçün vedizm və brahmanizmdə baş verən dəyişikliklər sonucda hinduizmin formalaşmasına təkan vermişdir.

Hinduizm brahmanizmin ciddi rəqibi olan buddizmi köklü şəkildə Hindistandan çıxardı, bu dini təlimin bəzi cəhətlərini mənimsədi, caynizmin rolunu zəiflətdi. B.e. ilk əsrlərində xristianların Hindistana gəlməsi, orta əsrlərdə islamın Hindistan coğrafiyasında möhkəmlənməsi, Delhi sultanlığı, Baburşahlar imperiyası, Vicayanaqar imperiyası və s. çoxsaylı dövlətlərin yaranması, ingilis koloniyası dövrü hinduizmə öz təsirini göstərmişdir.

Qərb alimlərinin rəyinə görə, *"hinduizm"* termini "vahid din" anlayışına adekvat deyil. **"Vişnuizm", "şivaizm", "şaktizm"** və s. kimi hinduizm məzhəbləri əslində ayrıca dini təlim kimi qəbul edilməlidir. Bunların hər birinin özünün tanrısı, müqəddəs yazısı, ibadət duaları, ibadət formaları, təlimləri öyrədən, yayan brahmanları **(*quru parampara*),** ardıcılları vardır.

Hindistanda vişnuizm ("Srivaishnava", "Pancharatra", "Ramanandi", Naqa", "Tyaqi" və s.), şivaizmə ("Dashanami", "Natha", "Paşupata", "Aqhori" və s.) aid dini icmalarla yanaşı, sinkretik ("Smarta", "Arya Samac", "Brahma Samac", "Ramakrişna", "Vivekananda" və s.), missioner quru icmaları ("Sathya Sai Baba", "Mata Amritanandamayi", "Maharishi Mahesh Yoqi və s.) mövcuddur.

Hindiuzmin inkişafında hind mütəfəkkiri, filosof, Veda mətnlərinin təfsirçisi, dini reformator, şair ***Şankara*** xüsusi rol oynamışdır. O, Upanişadlar əsasında "advayta-vedanta" dini-fəlsəfi sistemi yaratmışdır. Bu təlimə görə, tanrı Brahman başlanğıc və yeganə varlıqdır, hər şey tanrı Brahmandır, bütün mövcudiyyət onda cəmlənmişdir.

Hindiuzmin ortaq qurucusu yoxdur, hər məzhəbin özünün əsas bir kitabı vardır. Məsələn, vişnuitlər tanrılara ibadət zamanı *"Bhaqavatapurana",* şaktianlar *"Devi Mahatmya"* adlı dini kitabdan istifadə edirlər. Vedalar, Upanişadlar və "Mahabharata" dastanının bir hissəsi olan *"Bhaqavad Qita"* isə bütün hinduistlər üçün ortaq müqəddəs kitablardır. Bundan başqa, hindiuzmdə "sadharanadharma" adlanan qaydalar vardır, bura şiddətdən uzaq qalma- *"ahimsa",* doğruluk-dürüstlük -*"satya", "ksanti",* özünə hakim olma- *"dama",* xeyirxahlıq -*"danam",* qonaqpərvərlik- *"ahithi"* və s. aiddir. Bunlar bütün hindiustlər üçün ortaq dini qaydalardır. *"Svahdharma"* isə müxtəlif varnaların fərqli görəvlərinin olduğunu təsdiqləyir. Məsələn, kşatrı varnasına məxsus döyüşçü müharibə zamanı düşməni öldürməsi dharma qanunu olduğundan pis iş kimi onun karmasına təsir göstərmir.

Hinduizmin əksər məzhəb və inanclarına görə əbədi cəhənnəm və əbədi lənətlənmə yoxdur. Lakin XIII əsrdə vişnuizmin "dvaita" icmasını yaratmış Madhvanın təliminə görə, əbədi lənətlənmə vardır. *Madhva ruhları üç yerə bölmüşdür: mokşaya çata bilən ruhlar ("Mukti-yoqyas"), sonsuza qədər doğum və ölüm tsiklində qalan ruhlar ("Nitya-samsarins"), sonsuza qədər lənətlənən, acı çəkən və sonsuz cəhənnəmə gedən ruhlar ("Tamo-yoqyas").*

Teologiya və fəlsəfələrindəki fərqliliklərə baxmayaraq, hinduistlər birgə dua edir, dini mərasim, şənlik keçirirlər, bu müasir hindiuzmdə "fərqliliklər içində birlik" adlandırılır.

Hinduizm inancının çoxformalılığı, çoxtəbəqəli olması bu dini təlimin monoteist və ya politeist din olması barədə yekun rəy irəli sürməyə mane olur. Bir tərəfdən hindiuizmin fəlsəfi sistemləri (***"Vedanta", "Sankhya", "Mimansa***" və s.) sistemli şəkildə monoteizmin, tanrı Brahma inancının üzərində dayanır. Hind milli azadlıq hərəkatının ideoloqlarından olan Lacpat Raya (1865-1928) yazırdı ki, ***"Hinduizmin müqəddəs kitablarını və***

***hind ədəbiyyatını tədqiq edən bütün səlahiyyətli və qərəzsiz tədqiqatçıların beynində heç bir şübhə qalmır ki, hinduizmdə monoteizm bir növ ən əzəmətli tipə aiddir".***

Hind filosofu Rancan Mohapatra yazır: ***"Fəlsəfi cəhətdən hinduizm dualist deyil, dini baxımdan monoteistdir. Hinduizm fəlsəfəsi tanrı, ruh və kainatin təməldən dualist olmadığını irəli sürür, müəyyən fərqləndirmələr yalnız ad və şəkillər kimi ortaya çıxır. Ancaq son gerçəkliyə inanc kimi bütün bu fərqləndirmələr cəhalətdən irəli gəlir. Hinduizm çoxsaylı tanrıları qəbul etməsinə baxmayaraq, onları həqiqətdə tək tanrının fərqli təzahürləri sayır. Brahma, Vişnu və Şiva şəklindəki hinduizm üçləməsi, yaratma, qoruma və yox etməyi əmrində tutan baş tanrının üç təzahürü kimi qəbul edilir. Bununla yanaşı, hindu monoteizmi müxtəlif inanç və kultların fərqli tanrılarını inkar etməz, onları bir tanrının təzahürləri sayır".***

Brahmaya sitayiş təlimi əsasında monoteizm və 330 (və ya milyon) tanrı hinduizmin daxili ziddiyyəti kimi görünsə də, bu hal cəmiyyətin özünün mürəkkəb və ziddiyyətli strukturu ilə sıx bağlıdır. Hind alimi S.Radhakrişnan yazır: ***"Düşünən hindus tanrıların qarmaqarışıqlığından yüksək varlığın sükutuna doğru getməyə çalışır, lakin kütlənin gözləri hələ də göylərə zillənib. Hindli üçün kütlələrin politeizmi və yuxarı təbəqələrin təktanrıçılığı eyni təzahür, reallıqdır".***

Hinduizmdə mənəvi və ritual başlanğıc seçilmişlərin və əhali kütləsinin inancında fərqliliklərə gətirib çıxarır. Tanrı və insanlar arasında vasitəçi ilahi nüfuza malikdir, bu rolda ruhani brahman çıxış edir. Son dövrlərədək Vedaların öyrənilməsi və şərhi, upanişadların izahı birmənalı olaraq brahmanların səlahiyyətlərinə daxil idi, aşağı varnalar bununla məşğul ola bilməzdilər. Müasir dövrdə isə vəziyyət köklü surətdə dəyişmişdir. Veda və şruti sayılan bütün əsərlər həm sanskritdə, həm də hind dillərində aşağı kastaların üzünə açıqdır və hər bir icmanın öz ruhanisi ortaya

çıxmışdır. Lakin əhali kütləsinin dini praktikası ciddi şəkildə dəyişməmişdir. Onlar üçün inanc mənbəyi olaraq "smiriti"yə aid olunan əsərlər-***"Puranalar", "Mahabharata", "Ramayana" eposları, Krişna haqqında müxtəlif nağıllar ("Krişna kathi")*** qalır. Belə hesab olunur ki, xalq hinduizmi arilərinin qərbdən şərqə, cənuba doğru yayılması zamanı formalaşmışdır. Bu prosesdə Veda panteonuna 33 (və ya 333) tanrı ilə yanaşı, yerli tayfa tanrıları daxil olmuş, əvvəlki adları ilə qalsalar da, bir yerə toplanaraq ümumhind xarakteri daşımağa başlamışdır. Lakin bu tanrılarla bağlı etnik rəngarənglik hələ də qalır. Məsələn, *Durqapuca* (Durqa tanrısına ibadət) mərasimini Qərbi Benqaliyada və Hindistanın digər ştatlarında yaşayan benqallar payızın sonunda keçirirlər.

Tanrı ***Caqannath***, qardaşı ***Balabhadra*** və bacısı ***Subhadranın*** döyüş arabası ilə yürüşünü Orissa ştatının Puri şəhərində təntənə ilə qeyd edirlər, bu tanrılar oriya xalqının tanrıları sayılırlar. ***Muruqan*** tanrısına Hindistanın cənubunda yaşayan tamillər ibadət edirlər.

***Onam*** bayramı Cənubi Hindistandakı Kerala ştatında keçirilir. Fil başlı *Qaneş* tanrısına Maharaştada ibadət olunur. Bu gün Maharaştra hindliləri Qaneş tanrısının onların regional dini ruhunu ifadə etdiyinə inanırlar. Bundan başqa, maharaştralılar Vithobe, Mhasobe, Tuldze-Bhavani və s. tanrılara sitayiş edirlər. Andhra-Pradeş ştatında yaşayan teluqu xalqının əsas tanrısı isə Venateşvardır. Ümumiyyətlə, yerli tanrıların ümumi panteonda təmsil olunması hindiuizmin elastikliyi, çevikliyi sayılır. Məsələn, ***Durqa Şivanın arvadı, daha dəqiq desək, qadın başlanğıcıdır. Caqannath, Vithoba və Venkateşvar isə Vişnu tanrısının hipostazıdır (cəmidir). Qaneş Şiva və Parvatinin oğlu, Khandoba və Muruqan Şivanın hipostazıdır.*** Dravid tanrısı sayılan **Şiva** qeyri-ari tanrısı olsa da, tədricən Veda panteonuna daxil edilmişdir.

***Hindistanın elmi dövriyyəsində Veda ədəbiyyatı, "Purana", "Upanişad", epik poemalara əsaslanan tanrılar panteonu və***

***ritual praktikası "böyük hinduizm ənənəsi" adlandırılır. Regional və lokal tanrılarla bağlı kultlar isə "kiçik ənənə" adlandırılır. Bəzən isə "tayfa ənənəsi" fərqləndirilir.***

Dini ənənələr arasında sərhədlər kifayət qədər şərti olsa da yerli və veda ənənələri arasında bir təbəqə yaranmışdır, mütləq tanrı Brahma öndə olmaqla ***"trimurti"*** (hind tanrı üçlüyü) formalaşmışdır. Bu üç sifətli vahid varlığın movcudluğunun qəbul edilməsi deməkdir. Onlardan ***Brahma dünyanın yaradıcısı, Vişna qoruyucu, Şiva dağıdıcı (yoxedici)*** kimi çıxış edir. ***Hinduizmdə görə, tanrı əzabverici qüdrət, müqəddəs sevginin qaynağı sayılır. Bu dini təlimdə üçləmə tanrı – aləm birliyi (panteizm) olmaqla yanaşı, vedalara əsaslanan təktanrı inancı da vardır.*** Hindistanda çox az məbəd Brahma tanrısı ilə bağlıdır, o, bir sıra hallarda qırmızı və ya sarı rəngli, dörd əlli, dörd qollu tanrı kimi təsvir olunur. Brahmanın arvadı və ya qadın başlanğıcı **Sarasvati** sayılır.

Rancan Mohapatra bildirir: *"Hindusların tanrısı hər yerdə və hər zaman hazır, hər şeyə gücü yetən, sonsuz, çox mərhəmətli və mücərrəd varlıqdır. Onun ruhu bütün kainati əhatə etmişdir. O, bütün formaların və adların üstündədir. O, ruhların ruhudur, biz onda yaşayır, onun sayəsində varıq, onsuz hiç bir şey mövcud ola bilməz. Bizim fərqli tanrılara ibadət etməyimiz zehnimizi, diqqətimizi cəmləşdirmək və onların bizdəki tanrısal təbiətinə sahib olmaq üçündür"*.

***Hinduizmə görə insan 3 ayrı yoldan qurtuluşa gedə bilər. Birincisi əməllər (yəni qurbanlarla bağlı), ikincisi elm və mərifət (yəni, ilahi həqiqəti tanımaqla), üçüncüsü isə insanın şəxs şəklində canlandırılan bir tanrını sevməsi və özünü ona təslim etməsi ilə olur.*** Hinduizmdə qurbanlar önəmli yerdə durur, ən böyük qurbanlıq isə "Soma" qurbanıdır.

Müxtəlif bütlər çətin qavranılan tanrının xarakterinin, ya da tanrısal enerjinin simvollarıdır. Vedanta bir çox tanrıya ibadəti

əmr etmir, amma ibadət edənlərin istəklərinə görə bir çox şəkildə görünən və müxtəlif adlarla çağrılan tək tanrıya ibadəti əmr edir. Adsız və şəkilsiz olan uca varlığa, minlərlə ad verilmişdir. O, kainatdan kənar deyil, kainatın daxilindədir. O, dualist və qeyri-dualist formalarda görünür. O birdir, ancaq görünüşcə çoxdur. O, maddidir, mücərrəddir və bunların ötəsindədir.

Hindlilər arasında ən populyar tanrılar Vişnu və Şivadır, bu tanrılara daha çox məbəd həsr edilmişdir. Əfsanə və qədim mətnlərdə ***"trimurti"*** genealoji baxımdan əlaqələndirilir.

Vişnuizm inancına görə, tanrı Vişnu dünyada fərqli canlıların bədənlərində özünü göstərmişdir. Kainat düzəni, yəni "dharma"nın bozulduğu və onun xilasına ehtiyac duyulduğu zaman "avatar" şəklində "dünyada bədənlənmişdir". Vişnu tanrısı ***"avatara"*** təlimi ilə sıx bağlıdır. "Avatara" təliminə görə, tanrı tarixin hər səhifəsində müxtəlif şəxsiyyətlərin cildində gələrək insanlara özünü tanıtdırır. Pisliyi yox edir və insanların ehtiyac duyduqları vəzifələri bildirir. Beləliklə, bu proses sonsuza qədər davam edəcək, qurtarıcı tanrı Vişnu dünyaya gəlib və müxtəlif şəkillərdə olacaqdır. Onun şəkilləndiyi iki önəmli ***"avatara"*** (yəni, şəxs) **Rama** və **Krişna**dır.

Hinduizm **Şiva**nın həqiqiliyini və ya nisbi şəkildə cisimləndirilmiş fərdi qəbul edir. O, ruhun ölümdən sonra yenidən bədənlənəcəyini və bunun karma dokrinası tərəfindən yönədildiyini qəbul edir. Səbəb-nəticə qanunu üzərində qurulan yenidən doğum doktrinası, ruhun təbiətı və ölümdən sonrakı vəziyyəti haqqında təsəvvürlər geniş yayılmışdır. İnsan ruhu öz əməllərinə görə bir çox doğum və ölüm dairəsi keçirir. Vedalara görə, insan bu həyatında öncəki həyatındakı əməllərinin nəticəsi olaraq sıxıntı çəkir.

***Hinduizm karmanı iki hissəyə ayırır: 1. Hələ meyvə verməyə başlamayanlar, yəni, "Ararabdha karma"; 2. Meyvə verməyə başlayanlar, yəni "Prarabdha karma". "Ararabdha" karma da təkrarən iki qrupa ayrılır: a) Keçmiş həyatdan toplananlar ("Sanchita karma), b) Bu həyatda bir arada toplanan-***

***lar, yəni "Kriyamana və ya "Sanchayamana karma".*** Bir ruh işlərinin yaxşı və ya pisliyinə bağlı olaraq aşağı və ya yüksək varnada təkrar-təkrar doğular. Yalnız qurtulmuş ruh təkrarən heç bir fiziki formaya girməz.

***"Hind tanrı üçlüyü"*** daim bir-birinə bağlı varlıqdır, hər bir elementin öz əhəmiyyəti, təyinatı vardır. Görünür, hinduizmdə təsəvvürlərin elastikliyi ikili rol oynamışdır: bir tərəfdən, yerli tanrılar hinduizm panteonuna daxil edilmiş, brahmanların şərhi ilə hinduizmin parçalanmasının, bir-biri ilə rəqabət aparan dinlərə çevrilməsinin qarşısını almışdır.

Hinduizmin müqəddəs kitabı ***"Baqava-Qita"***nın ("Bhaqavata-Gita") fəlsəfəsi "Baqava-Qita", karma, cnana və bhaktinin sintezini yaradır. *"Baqava-Qita" hindular arasında çox populyardır, "Mahabharata" dastanındakı "Bhishma-parva" hissəsinin bir bölümüdür.*

***"Bhaqavata-Qita"*** ("İlahi nəğmə" ) əsəri Bharata nəsillərindən olan Pandav və Kaurav ailələri arasında döyüşdən əvvəl Pandav qoşununun sərkərdəsi Arcunanın bu qardaş qırğınının düzgün olub-olmaması haqqında şübhələri ilə başlayır. Arcunanın şübhələrini və tərəddüdlərini tanrı Krişna aradan qaldırır, o bildirir ki, ədalətli döyüşdə əl titrəməməlidir. Krişnanın nəsihət və göstərişləri "Bhaqavat-Qita"nın əsas məzmunudur, onun mülahizələrinin nəzəri əsasını monist, teist sankhayalar təşkil edir, bunlar da etik-sosial baxışları ifadə edir. ***Krişna həyatın mənasını tanrını dərk etməkdə görür, özünü tanrı kimi təqdim edir. Tanrını dərketmə üsullarından biri ona sədaqətli məhəbbət bəsləməkdən ibarətdir.*** İnsanın sevən ürəyi olmalıdır, ürəyi vasitəsilə biliyə sahib olmağa, çətinlikləri keçib tanrını dərk etməyə qabildir. Tanrıya məhəbbət göstərən və onu dərk edənlərə həyatda xüsusi imtiyazlar verilir.

Populyar hinduizmin fəlsəfi təməlləri sayılan "Bhaqava-Qita" tanrını ən uca səbəb və bu kainatı davam etdirmə yeri sayır.

İşvara və Brahman tanrını tanımlamaq üçün istifadə olunan adlardır. Bununla yanaşı, Sri Krişnanın tez-tez özünü tanrı ilə tanımladığı məlumdur. Onun ***"para prakriti" və "apara prakriti"*** şəklində iki prakriti və ya təbiəti vardı. Birincisi *"civa"*ları və ya yaşayanları, digəri isə ***"sattva", "rajas" və "tamas"*** şəklindəki üç ünsuru əhatə edir. "Civa"lar onun parçası və ya "amsha" kimi təsvir olunur. Onlar gerçək atman, yəni, doğulmayan, ölməyən və sonsuzdurlar. Onlar, bir adamın yaxşı paltarlarını geyinib köhnələri çıxardıqları kimi vücudu (bədəni) geyinir və çıxarırlar. Vücudları ***"kşetras"*** və ya ***"tarla"*** adlandırırlar; çünkü, əməllərin meyvələri bədəndə biçilir. Təməl olaraq atman olan civalar özlərini ***"kşetras"*** termini ilə tanıdır, bundan dolayı, doğum, xəstəlik, yaşlılıq və ölümün izdırabını çəkərlər.

***Qitanın üç yolu vardır: Birincisi, bilgi yoludur. İkinci fəaliyyət zamanı toplumun barışı üçün çalışmaq olan "nishkama karma"dır. Üçüncü itaətkar şəxs "Civa"ya və ya tanrıya doğru şiddətli eşq və ya istəyi yaradır.*** Dindar şəxs ***"cnana", "karma" və "bhakti"*** şəklindəki üç ünsür içərisində mənəvi (spiritual) həyata qoşulur. Qita istəklərimizin nizamı "Karma Yoqa"nı; həyəcanlarımızın nizamı olan ***"Bhakti Yoqa"nı; "Cnana Yoqa"*** vasitəsiylə həyəcanlarımızın nizamını əhatə edən bir bütünlük olaraq yoqanı və ya mənəvi (spiritual) həyatı təqdim edir. Bu üç nizam bölünmüş və ya biri digərindən izolə edilmiş ola bilməz. "Karma-yoqa"da bhaktinin bir elementi vardır. Bir "karma-yoqa" daim tanrının xidmətçisi olduğunu hiss edir. Bhaktisiz hiç bir işi yerinə yetirmək mümkün deyil. Bir "karma-yoqa" tanrının əlində vasitədir. O, bütün fəaliyyətini, onların nəticələrini tanrıya təslim edər. Bhakti "karma-yoqa"nın özüdür, bhakti tanrıya qeyd-şərtsiz itaətdir. Qita gerçək bağlılığın daima, bir tərəfdən "karma-yoqa", digər tərəfdən, "cnana-yoqa" yoluyla nizamlandığını (balanslaşdığını) bildirir. Bhakti əsla kor deyil, o, tanrının ağıllı eşqidir. Bilgi yolunda məqsəd isə dünyanın bir illüzi-

ya və yalnız Brahmanın gerçək olduğunu anlamaqdır. Brahman "atman" və bundan dolayı "atma cnana" deyilən gerçək bilgidir. Bu "atma-cnana" yoluyla dindar şəxs tanrıya bağlılığını əldə edir.

***Hinduizm yad tayfa kultlarını öz içində əritmək, özünün onsuz da qarışıq sisteminə daxil etmək bacarığına malikdir. Qədimdə brahmanlar hinduizmə hər hansı dravid və başqa bir xalqın dinini çox asanlıqla daxil edirdilər. Bunun üçün həmin xalqın kultu, məsələn, hər hansı bir totem canlı Vişnu və ya Şivanın "avatarı" elan olunurdu. Digər tərəfdən, fərdi prozelitizm (yəni ayrı-ayrı şəxslərin hinduizmə keçməsi) nəzəri cəhətdən qəbul olunmurdu, çünki buna "varna" sistemi haqqında təlim imkan vermirdi. Hinduist olmaq üçün isə doğulandan "varna"-ların birinə aid olmaq lazım idi.***

Hinduizmin belə elastikliyinin orta əsrlərdə (Baburşahlar və ingilis koloniyası istisna olmaqla) Hindistanın bir dövlətdə birləşməsində ciddi rolu olmamışdır. Çoxsaylı hind məbədləri hinduizm daxilində fərqlilikləri gücləndirir, hər hansı mərkəzi dini nüfuz (avtoritet) olmur. Hinduizm dini ilə bağlı məbədlərin sayı bu dini təlimdəki mərkəzi nüfuzun olmamasını göstərir. Tamilnad ştatında 52 min məbəd qeydə alınmışdır, təkcə Thançavur şəhərində 74 məbəd fəaliyyət göstərir. Qonşu Andhra Pradeş ştatında 32201 məbəd vardır. Krişnanın anadan olduğu, uşaqlığının yaşadığı Uttar Pradeş ştatının Badrinath rayonunun Qokul kəndində bu tanrıya həsr olunmuş 500-dən çox məbəd, ziyarətgah fəaliyyət göstərir.

Hinduist dini filosof və islahatçı Şankara Hindistanı səyahət edərək dörd məbəd kompleksi-matha yaratmışdır. Bu "matha"lar şimalda Badrinathe, şərqdə Puri, cənubda Srinqeri, qərbdə Dvarkda fəaliyyət göstərirdi. İslahatçı filosofa görə bu məbədlər hinduizmin qalaları və onların rahibləri inancın qoruyucuları olacaqlar. Onun tanınmış ardıcıllarına fəxri *"caqadquru şankaçarya"* (dünya müəllimi) titulu verilmiş, inancla bağlı məsələləri müzakirə

etmək üçün müntəzəm toplanmaq tapşırığını almışlar. Bu təcrübə inkişaf etməsə də müəyyən mənada məbəd təşkilatına bənzəyirdi. Yalnız 1979-cu ildə, dörd "şankaçarya" görüşmüş, lakin onlar nəinki ayrı-ayrı görüşləri müdafiə etmiş, eyni zamanda aralarında ciddi rəqabət ortaya çıxmışdır. Müstəqillik illərində kütləvi ziyarətgahlar, məbədlər ümumhind əhəmiyyəti qazanaraq Şankara məbədlərini sıxışdırmışlar. Bu məbədlər arasında Durqa tanrısına həsr olunmuş Vayşno Devi məbədi (Kəşmir), Venkateşvar tanrısına həsr olunmuş Tirumala-Tirupati məbədi (Andhra-Pradeş), Qruvayyurda Krişna məbədi (Kerala) məşhurdur. Amarnath (Kəşmir) mağarasında Şivanın əbədi buzlara bürünmüş linqaları ən çox ziyarət olunur, böyük populyarlığa malikdir.

Ümumhind xarakteri daşıyan "kumbha mela" (kuzə bayramı, div və asurlar arasında əfsanəvi döyüşlə bağlıdır) bayramı üç ildən bir Allahabad və ya Hardvar, Ucayn, Nasiq şəhərləri yaxınlığında (Prayaq) Qanq və Camna çaylarının qovuşduğu qum səhrasında keçirilir, bura ölkənin hər yerindən 3 milyondan çox ziyarətçi toplaşır. Demək olar ki, bütün Hindistanda payız məhsulu yığımından sonra "Ramayana" eposunun motivləri əsasında"Dosehra" (Daşehra) bayramı keçirilir.

Hindiuzimin çoxcəhətliliyini göstərən xüsusiyyətlərdən biri də bütün ölkə boyu gəzən "tanrı-insan", yəni ***"sadhu"***lardır. Təkcə Şimali Hindistanın Uttar Pradeş, Bihar, Madhya-Pradeş ştatlarında "sadhu"ların 66 icması, məktəbi vardır. Maraqlıdır ki, qədim ənənələrin daşıyıcıları müasir təşkilatlanma üsullarına laqeyd yanaşmırlar. Məsələn, 1997-ci ildə "Qanqasaqar mela" bayramı zamanı naqa sadhular hüquqlarının qorunması üçün həmkarlar təşkilatı yaratmışlar.

Hinduizmdə dini rəhbərlərin-quruların rolu böyükdür. Qədimdə kahinlər qurban gətirirdilər, himn oxuyurdular, mərasim keçirirdilər, bir-birlərinə veda biliklərini öyrədirdilər, bu işlə xalq kütləri məşğul olmurdu. Yeni dövrdə isə kahinlər kütlələrin

müəlliminə, onların dini həyatının rəhbərinə çevrilir, quru kultu birinci plana keçir. Quru təkcə insan və tanrı arasında vasitəçi deyil, hətta demək olar ki, tanrının ifadəçisidir. Qurunun hər sözü onun davamçıları üçün müqəddəs qanundur.

Hindistanda canlılara inam, ilan, meymun, fil kultu və s. totemist mənşəyə malikdir. Müdriklik tanrısı *Qaneşa* fil, *Hanuman* isə meymun şəklində təsəvvür edilir. Yəni bir sıra heyvanlara, məsələn, məhsuldarlıq simvolu olan inəyə inam arilərin özündə qədimdən olmuşdu.

Hinduizmdə hər yerdə ibadət etmək olar, burada icma şəklində ibadət yoxdur, ibadət fərdidir. Onların inancına görə, harda ibadət edirsənsə et, tanrı səni görür. Hindistanda daha çox bu dinə mənsub olan şəxslər tanrıların bütlərinə sitayiş edir, onu tez-tez təmizləyib önündə fikrə dalırlar. Ortaq bir ibadət simvolu "Om"-dur, müqəddəs və sirli söz olaraq qəbul edilir.

Hinduların ənənəvi dəfn adəti meyidlərin yandırılmasıdır. Bu adətə indi də ciddi surətdə əməl edilir. Təntənəli dəfn mərasiminin keçirilməsi, ölmüş adamın xüsusi ilə Qanq çayı sahilində yandırılması dini baxımdan dəstəklənməklə yanaşı, hindlilərin həyatında, ailə məişətində xüsusi yeri olan mərhələdir.

Hinduizm dinində ziyarət edilən yeddi müqəddəs yer vardır. Həmin ziyarət məskənlərinin ən məşhuru Benaresdir. Hindlilər ölülərini yandırıb küllərini Qanq çayına tökürlər. Ümumiyyətlə, su kultu ilə bağlı Qanq çayı önə çıxmışdır. Dindar hindli Qanq çayının sahilində ölməyi ən böyük xoşbəxtlik sayır.

XIX əsrədək Şimali Hindistanda dini adət-***"sati",*** yəni dul arvadın ərin dəfn tonqalında yandırılması adəti vardı. Hind filosoflarının təşəbbüsü ilə 1828-ci ildə Britaniya kolonial hakimiyyəti "sati" adətini ləğv etmişdi. Lakin müasir dövrdə də əyalətlərdə bu adətin yerinə yetirildiyi tikililərə rast gəlmək olur.

İslamın və xristianlığın təsirilə XIII əsrdə hinduizmdə belə ideya ortaya çıxmışdır ki, Vişna və Şiva cütü vahid ***Hari-Ha-***

***ra*** tanrılarının müxtəlif təzahürləridir. XV əsrdə isə Kabir adlı “bhakti” “varna”ların gərəksiz olduğunu bildirmiş, çoxlu tanrılara ibadətin, çətin və uzun sürən mərasimlərin əleyhinə çıxmışdır. Nəticədə Kabir ***“Panthi”*** adlı yeni dini-sosial hərəkat yaratmışdır. XVI əsrin axırında Kabirin təsiri altında *“kşetri”* tacirlər kastasından olan *Nanak*ın (Vedanta panteist dini təliminin təsiri ilə) təlimi böyük uğur qazanmış, siqhizm dini təlimi ortaya çıxmışdır.

Hinduizm daim özünü müxtəlif adlar altında yeniləyir. ***Nə zaman ki, hinduizm üçün daxildən və ya xaricdən təhlükə yaranırsa, ardıcıl islahatlar həyata keçirilmişdir.*** XIX əsrdə hindust filosofları *Ramakrişna, Svami Vivekananda və Ram Mohan Roy* cəmiyyətə köklü təsir edən görüş və düşüncələri ilə hinduizm dini təlimində islahatlara başlamışlar.

Hinduizmdə islahatların əsas aparıcı qüvvəsi olan ***“Brahma-samac”*** (Brahmo Samaj) hərəkatının əsasını 1828-ci ildə vişnuid **Raca Ram Mohan Roy** adlı brahman qoymuş, o, hinduizmi monoteizm ruhunda formalaşdırmağa çalışmışdır. Mohan Roy digər dinlərlə tanış olmuş, hind cəmiyyətində mövcud olan minlərlə inanc arasında həqiqəti tapmağa çalışmışdır. Raca Ram Mohan Roy XIX əsrdə hinduizmin elmə, rasionalizmə və humanizmə olan marağını, bu dini təlimin mahiyyətini göstərməyə çalışmışdır. ***“Brahma-samac” hinduizmin təktanrılı hərəkatı sayılır və onun inancları tanrının təkliyi əsasında qurulur.*** Bu təlim hinduizmdə bütlərə, tanrıların heykəllərinə sitayiş, bütlərə qurban vermək rituallarını qadağan və rədd edir.

***“Brahma Samac”*** kainatın yaradıcısı və qoruyucusu olan “sonsuz və şəkilsiz tanrı” inancını bərpa etmişdir. Xristian missionerliyinin fəaliyyətinə qarşı çıxan Ram Mohan Roy İsa peyğəmbərin tanrı olması doktrinasına qarşı çıxmış, lakin onun təliminə müəyyən istinadlar etmişdir. ***Mohan Roy hinduizm doktrinasında mühüm yer tutan ruh köçü, erkən evliliyin, “pariya” (toxunulmazlar) sisteminin əleyhinə olmuşdur.*** Bütlərə ibadətə

qarşı çıxan Mohan Roy hindu mətnlərinin yalnız bir tək tanrıya inanmağı əmr etdiyini bəyanlamışdır. Vedanta və Upanişadlarla bağlı bir çox mühüm mətnlər, tərcümələr Mohan Roy tərəfindən dərc edilmiş, dini və sosial islahatlar çərçivəsində xalq arasında yayılmışdır. ***Rabindranat Taqor, Kesap Çandra Sen "Brahma Samac" hərəkatına qoşulmuş, hinduizmdən yanlış inancları təmizləməyə çalışmışlar.***

Ram Mohan Roy dul qadınların ölmüş ərlərinin cəsədi ilə birlikdə yandırılmasına ("sati") qarşı çıxmış, eyni zamanda hinduizmin müqəddəs kitablarını, yəni vedanta və upanişadları qəbul etmişdir.

***"Brahma-samac" "varna-cati" quruluşunu rədd etməsinə baxmayaraq, hərəkatda brahmanlar yüksək məqam sahibidirlər və bu hərəkatda onlara xüsusi hörmət göstərilir.*** XIX əsrin ikinci yarısında parçalansa da, hazırda "Brahma-samac" hinduizmin ən mühüm hərəkatlarından biri kimi tanınır və Hindistanda çoxsaylı ardıcılları vardır. Bu hərəkat "Adi", "Nava Vidhan", "Sadharana Brahmo Samac" adlanan qollara ayrılmışdır

***"Arya-samac"*** hərəkatı hinduizmə mütərəqqi və humanist imic qazandırmaq, bəzi Qərb ideoloji prinsiplərinə müqavimət göstərmək məqsədi ilə yaradılmışdır. "Brahma-samac"ın əksinə olaraq, mühafizəkar və radikal olan bu hərəkat xristianlığın və Qərbin humanizm prinsiplərindən bəzilərini qəbul etməklə hinduizm inanclarında islahatlar aparmışdır. Hərəkatın yaradıcısı olan ***Svami Dayananda Sarasvati (1824-1883, Tankara, Qucarat)*** Vedaların büt və heykəllərə pərəstişə mənfi yanaşdığına; veda dövründə məbədlərdə bütlərə pərəstişin olmadığına inanmışdır. Brahman ailəsində anadan olan Sarasvati (əvvəlki adı Mul Şankar)1875-ci ildə Bombeydə "Arya-Samac" hərəkatını yaratmış, 1877-1878-ci illərdə Pəncaba səfər zamanı tərəfdarlarının sayını artırmışdır. 1878-1882-ci ildə "Arya-Samac"ın məşhur Teosof Cəmiyyəti ilə əlaqələri artmışdır. Sonradan *Teosof Cəmiyyəti* Da-

yananda Sarasvatinin Vedaların həqiqətin yeganə mənbəyi olması haqqında iddiasını qəbul etməmişdir. Svami Dayananda Sarasvati "Brahma-Samac"ı antik hindu ənənələrindən həddindən çox ayrılmaqda və xristianlığı təqlid etməkdə ittiham etmişdir.

Əsas şüarı "Vedalara dönüş" olan "Arya-Samac"ın prinsiplərini Dayananda Sarasvati aşağıdakı şəkildə formalaşdırmışdır:

*1. Bütün bilginin və bilgi vasitəsi ilə məlum olan hər şeyin ilk səbəbi "Parameşvara"dır (Ən uca varlıq);*

*2. İşvara (Tanrı) varlıqdır, ağıllıdır və sevgi, şənlik doludur ("Satchidananda"). O, şəkilsiz, hər şeyə gücü yetən, adil, mərhəmətli, doğulmamış, dəyişməyən, başlanğıcı və sonu olmayan, bənzərsiz, hər şeyin dayağı və sahibi, hər yerdə hər zaman hazır olan, pozulmayan, ölümsüz, qorxusuz, əzəli və əbədi, müqəddəs və hər şeyin yaradıcısıdır;*

*3. Vedalar gerçək bilgi mətnləridir. Arilərin ilk vəzifəsi, onları oxumaq, öyrənmək, əzbərləmək və başqası tərəfindən oxunduğu zaman dinləməkdir;*

*4. İnanan daima gerçəyi qəbul etməyə və gerçək olmayanı rədd etməyə hazır olmalıdır;*

*5. Hər şey "Dharma" doktrinasına uygun yerinə yetirilməlidir;*

*6. "Arya-Samac"ın ilk obyekti bütün dünyaya münasibətdə müsbət olmaqdır; bu, fiziki, sosial və ruhi yaxşılıqdır;*

*7. İnsanın hər şeyə marağı "Dharma" prinsiplərinə uyğun olaraq eşq və ədalət yolu ilə düzənlənməlidir;*

*8. İnsan "vidya"nı (obyekt və predmetin dərki) irəlilətməli, "avidya"nı (illüziya) aradan qaldırmalıdır;*

*9. İnsan yalnız öz yaxşılığı üçün deyil, hər kəsin yaxşılığı üçün çalışmalıdır;*

*10. Şəxsi yaxşılıqlarını həyata keçirərkən insan azad olmalı, toplumsal yaxşılığı yerinə yetirərkən özünü müəyyən çərçivədə tutmalıdır.*

Svami Dayananda bir tanrıya inanmış və bütpərəstliyin vedalarda təsdiqlənmədiyini bildirmişdir. Onun təliminə görə əsl gerçək, həqiqət Tanrıdır; bu eynı zamanda ***"Qandhici"***nin inancıdır. Həqiqət tək başına da olsa, tez-gec qalib gəlir, ona yalvaranlar, ibadət edənlər *dharma, artha, kama və mokşanı* qoruyur. Həqiqətə bağlılıq güç və yaxşılığın yanılmaz qaynağını yaradır. ***"Arya-Samac"*** insanlığın fiziki, ruhi və sosial rifahı üçün gerçək bilgi, eşq və ədaləti qəbul edir.

***Svami Dayanandanın sosio-dini islahatında ibadətkar imici, ata-babalara tapınma, kasta sistemi, heyvan qurbanı, avatar inancı, müqəddəs yerləri ziyarət, erkən evlilik və "paryalıq" (toxunulmazlar) institutu qəbul edilməmişdir.*** Dayananda veda mətnlərində dul qadının diri-diri yandırılması, uşaqların zorla evləndirilməsi barədə heç nə deyilmədiyi, əksinə, vedalarda qadınlara ehtiramın əksini tapdığını vurğulamışdır.

Sarasvati öz dövründə hindiuizmin tənəzzülə uğradığını bildirmiş, müqəddəslərin rəsmlərinə, əcdadlar kultuna ibadət etməyi, ziyarətləri, məbədlərdə qurbanverməni əhəmiyyətsiz saymış, bunların vedalarda əksini tapmadığını bildirmişdir. O, brahmanların hakimiyyətini, varna quruluşunu, "toxunulmazlar"ın vəziyyətini, erkən nikahları tənqid etmişdir. ***Sarasvatinin məqsədi Veda təlimi əsasında "hindusların qardaşlığını" təmin etmək idi.*** Bu ideya və "Arya samac"ın yaranması ənənəvi hinduizm və müsəlman "Əhmədiyyə" təriqəti, siqhlər arasında ziddiyyətlərə gətirib çıxarmışdır. Sarasvati hinduizm dini təlimində apardığı islahatlarla yanaşı, digər veda dini ayinlərin və ibadətlərinin üzərində xüsusi dayanmış, hindusların başqa insanlardan seçilməsində israr etmişdir. Bu baxımdan Sarasvati irqçi təlim yaratmağı nəzərdə tutmuş, arilərin üstünlüyünü sübut etməyə çalışmışdır.

"Arya-samac" ardıcıllarına görə, Hindistan hinduizm ölkəsidir, buna görə də müsəlman, xristian və ya qeyri-hindus məzhəb ardıcılları hinduizm qanunları əsasında yaşamaq istəməsələr

bu ölkəni tərk edə bilərlər. Bu təlimin ardıcılları məhz həmin səbəbdən dünyəvi (qeyri-dini) əsasda qurulan Hindistanın hazırkı Konstitusiyasının əleyhinə çıxaraq ölkədə hindus qanunlarının (hindu-rac) həyata keçirilməsini tələb edirlər.

XIX əsrin ikinci yarısında **Sri Rama-Krişna** hərəkatının yaradıcısı, uzun illər Kali (ana ilahəsi) məbədində dini xidmətlə məşğul olmuş Şiva məzhəbinin brahmanlarından olmuşdur. Sri Rama Krişna Paramahamsaya görə, dünya dinləri, o cümlədən hinduizm, xristianlıq, islam və digərləri bir-birləri ilə ziddiyyətdə, bir-birlərinə qarşı deyillər, ancaq əzəli əbədi dinin fərqli ifadələridirlər. Sri Ramakrişna bildirmişdir ki, "inanclar olduğu qədər bir çox yollar" vardır. Onun bir çox tələbəsi və müridi vardır. Svami Vivekananda onların arasında ən tanınmışı olmuşdur. ***Svami Vivakanandaya görə; "arilərın nəsillərinin Vedanta və Upanişadların ruhuna dəyər verməsi azaldıqca, Vedaları-əzəli əbədi dinini, yəni "Sanatana Dharma"nı pozaraq bir qarışıqlığa səbəb olanda, ari irqinin gerçək dinini açıqlamaq üçün Sri Rama Krişna ortaya çıxdı".***

Rama-Krişna sonda çoxluqlarla yanaşı, müəyyən mənada tək tanrıya, Kali ilahəsinin çeşidli izahının olmasına inanmışdır. Şri Rama-Krişna Paramahanca Vedantaya əsaslanan panteist din yaratmağa çalışırdı. Rama Krişnanı müqəddəs elan edən tərəfdarları dini-maarifçi missiya yaratdılar və bu missiya bütün Hindistanı əhatə etdi.

Rama Krişna hərəkatının məqsədləri bunlar idi:

*a) Sri Rama Krişnanın açıqladığı şəkildə Vedanta çalışmalarını, prinsiplərini və ən geniş formada qarşılaşdırmaq və inkişaf etdirmək;*

*b) Sənət, elm və sənaye sahəsində araşdırmaları müəyyənləşdirmək, inkişaf etdirmək;*

*c) Məqsədləri reallaşdırmaq üçün müəllimlər hazırlamaq, onlara kütlələrə çatmaq imkanı yaratmaq;*

*d) Əhali arasında təhsil alma imkanlarını genişləndirmək;*

*e) Məktəbləri, kollecləri, üniversitetləri, yetim yurdlarını, iş yerlərini, laboratoriyaları, xəstəxanaları, dispanserləri, xəstə evlərini, qadınları qurtarma çalışmalarını, digər təhsil və xeyirsevərlik çalışmalarını genişləndirmək, onlara yardım etmək;*

*f) Təşkilatın fəaliyətini stimullaşdırmaq üçün jurnal, dövrü nəşr, kitab nəşr etmək, yayımlamaq, satmaq, ya da pulsuz paylamaq;*

*g) Missiyanın vacib saydığı digər çalışmaları məqsədlərə çatmaq üçün birbaşa və ya dolayı yolla davam etdirmək.*

Rama-Krişnanın fikirlərini, dini şərhlərini onun Svami Vivakanda adlı tələbəsi toplamışdır. Rama Krişnanın fikrincə, bütün dinlər üslub və yollarının fərqli olmasına baxmayaraq, vahid bir prinsipdə eyni mövqeyə malikdirlər. Bu baxımdan Rama Krişna nəinki bütün dinlərin əsasını qəbul etmiş, üstəlik, bütlərə pərəstiş olunmasına, çoxtanrılığın qanuniləşdirilməsinə icazə vermişdir. Krişna Kaliyə çatmağın yeganə yolunun Şiva zahidliyi olduğuna, buna görə də Şiva məzhəbinin tutduğu yolun düzgün olduğunu, digər dini təlimlərin doğru yoldan kənara çıxdıyığını deyirdi.

Mahatma Qandhi, Sri Aurobindo və Sri Radhakrişnan hinduizmdə islahatlar aparmağa çalışan digər güçlü filosof və intellektual şəxslərdir.

XX əsrin ortalarınadək Hindistanda mənəvi həyat dini ideologiyanın müəyyən təsiri altında idi. Hindistan Respublikası hinduizmi modernləşdirməyə çalışır, ölkədə daha çox dünyəvi prinsiplər əsasında sosial-iqtisadi, siyasi islahatlar aparılır.

***Sual və tapşırıqlar:***

*1. Hinduizmin təməlində duran Brahma (mütləq varlıq) inancını izah edin..*

*2.“Trimurti”-Brahma, Şiva və Vişnu.*

*3.“Manava Dharma”nədir?*

*4. “Hinduizm brahmanizmin ciddi rəqibi olan buddizmi Hin-*

*distandan çıxardı, bu dini təlimin bəzi cəhətlərini mənimsədi, caynizmin rolunu zəiflətdi" cümləsini izah edin.*

*5. "Brahma Samac", "Arya Samac", "Rama Krişna" dini hərəkatlarının yaranması və inkişafı haqqında danışır.*

## *1.2. Buddizm.*

**Qoutama Budda** e.ə. 563-483-cü illərdə Hindistanda yaşamış ruhani müəllim və buddizmın yaradıcısıdır, əsl adı **Sidarta** Qoutamadır. Şahzadə Sidarta, yaxud **"Sakyamuni"** (Sakya qəbiləsindən olan müdrik) adlarıyla da xatırlanır. Siddharta Hindistanın şimal-şərqində bugünki Nepal sərhəddinin yaxınlığındakı **Lumbini**də doğulmuşdur. O, Kapilavastu şəhərində hakimiyyətdə olan Sakya hərbçi və idarəçi kşatrilər varnasına mənsub idi. Qoutama 29 yaşında saraydan ayrılmış, səyyah kimi gəzməyə başlamış, həyatın gerçək üzüylə tanış olmuşdur. Rəvayətə görə, şikəst, yaşlı adamla, xəstəylə, cəsədlə və dərvişlə qarşılaşmışdır ***("dörd həqiqət").*** Siddhartha bu gerçəkləri ***-yaşlılıq, xəstəlik, ölüm və ağrı***nı- həyatın ayrılmaz hissələri olaraq görmüşdür. Rifahın və zənginliyin heç bir faydasının olmadığını anlamış və gerçəyin axtarışına qərar vermiş, zahid həyatı yaşamışdır. Siddhartha bütöv aylı bir gecədə Bodhi ağacının (əncir ağacı) altında meditasiya zamanı işıqlığa, "nirvana"ya çatmış, Hindistanın şimal-şərqində 45 il boyunca "orta yol"u öyrətməyə çalışmış, 80 yaşında Kuşhinaqarda (Uttar Pradeş) ölmüş, "paranirvana"ya çatmışdır. Qoutamanın həyat hekayələrini şagirdlərindən ibarət "Sangha Birliyi" toplayaraq yaymışdır, təlimi isə ölümündən təxminən 200-300 il sonra yazıya alınmışdır. Bu təlim ***"Buddhacarita", "Lalitavistara", "Cataka" "Tipitak"*** (Üç səbət) kimi müxtəlif əsərlərdə əksini tapmışdır. Siddharthanın anadan olması, nirvanaya çatması, *paranirvanası* (ölümü) indi də Hindistanda **Vesak** bayramı kimi qeyd olunur.

Sidarta Qoutama varna-kasta sistemini qəbul etməmişdir. Buddizm sistematik teologiyası və ya tanrı haqqında müəyyən təlimi olmayan bir din kimi səciyyələndirilir. Bu təlim insanın azad edilməsinə və ya xilasına yönəlmişdir. Xilasa - *"nirvana"*ya nail olmaq istəyən insan onu bu dünya ilə bağlayan hər bir şeydən, o cümlədən fəlsəfi və dini təlimlərdən özünü azad etməyi öyrənməlidir. Buddanın təlimi "dörd nəcib həqiqət" adı altında məşhurdur:

-Birincisi, dünya əzablarla doludur. Doğulma - əzab, qocalıq - əzab, xəstəlik və ölüm - əzab. Nifrət etdiyin insanla görüş - əzab, sevdiyin insanla ayrılıq - əzab, istəklərini ödəmək uğrunda mübarizə - əzab. Arzulardan və ehtiraslardan azad olmayan həyat faktiki olaraq həmişə əzablarla çulğalaşır. Bu, *"əzablar haqqında həqiqət"* adlanır.

İkincisi, insani əzabların səbəbi dünyəvi ehtirasların təbiətindədir. Bu, *"əzabların səbəbi"* barədə həqiqət adlanır.

Üçüncüsü, bütün insani ehtirasların əsasında duran arzu kənarlaşdırıla bilirsə, onda ehtiras da ölür və insani əzabların sonu gəlir. Bu, *"əzabların kəsilməsi barədə həqiqət"* adlanır.

Dördüncüsü, arzuların və əzabların olmadığı vəziyyətə nail olmaq üçün müəyyən bir yolu tutmaq zəruridir. Bu yol səkkiz mərhələdən ibarətdir, səkkiz hissəli həmin nəcib yolun mərhələləri isə bunlardır: *düzgün anlama, düzgün nitq, düzgün təfəkkür, düzgün davranış, düzgün həyat tərzi, düzgün səy, fikrin düzgün istiqaməti və düzgün diqqət.* Bu, *əzabların səbəbindən xilas olmanın nəcib yolu* barədə həqiqətdir.

Eramızın VI-VII əsrlərində Hindistanda feodal pərakəndəliyinin guclənməsi ilə əlaqədar buddizmin tənəzzülu başlamışdır, XII-XIII əsrlərdə isə buddizm Hindistanda mövqeyini ciddi şəkildə itirmişdir.

Buddizm tarixən Hindistanda yaranıb, dünyaya yayılsa da hazırda bu ölkədə buddistlərin sayı 0,76 % (2001-ci il), yəni 7,6 milyon nəfərdir. Hind buddistləri bir-birindən fərqlənən 3 qrupa

bölünürlər. Birinci qrup, ənənəvi buddist *"hinayana"* və ya *"theravada"* ("kiçik təkər") təriqətinə aid buddistlərdir ki, onlar şimali və şərqi Hindistanda bir-birindən aralı, hinduistlərin əhatəsində yaşayırlar, adətən aşağı kastalara aid edilirlər. Məsələn, Orissada *"saraka"* adlanana buddist toxucular əvvəllər böyük icma olsalar da, indi assimlyasiyaya məruz qalmışlar, onlar təkcə Buddaya deyil, hindus tanrılarına da ibadət edirlər, tədricən hinduizmə keçirlər. Hindistan buddistləri arasında cəmi 2 % təşkil edən "hinayana" tərəfdarlarının sayı ildən-ilə azalır.

İkinci qrupa isə ölkədəki buddistlərin 10 %-ni təşkil edən, şimal-şərqdə Kəşmirdən Mizorama qədər Himalay dağları silsiləsində nisbətən kompakt yaşayan əhali qrupudur. Coğrafi şəraitdən asılı olaraq Ladakh şəhərində (Kəşmir) 50 min buddist (əhalinin 55 %-i) yaşayır. Bundan başqa, Lahaol- Spriti rayonunda 61,5 % (Himaçal Pradeş ştatı), Siqqimdə 45 % əhali buddistdir. Bu buddistlər Tibet tipli *"lamaizm"*ə, yəni *"mahayana"* (Böyük təkər) təriqətinə aiddirlər. Ladakhlıların dini buddizm, tantra və xalq inancların qarışığından ibarətdir.

Siqqim ştatında yaşayan buddistlər XI əsrdə yaranmış *"karma"*-karyuk icmasına aiddir, onların əsas ziyarətgahı Romtek dağ məbədidir. Humalay buddistləri əsasən yerli problemlərin həlli ilə məşğuldurlar. Ladakh lamaları isə öz icmalarının rəsmən "qeydiyyata alınmış" kimi tanınmasına, bununla da güzəştlər əldə etməyə, Cammu-Kəşmir bölgəsində yerli bodhi dilinin məktəb proqramına salınmasına çalışırlar. Siqqim buddistləri öz ştatlarındakı siyasi proseslərdə aktiv iştirak edirlər. Lahaol Spiti vadisində yaşayan buddistlər əsasən torpaq sahibləridir, hindus əkinçilərin torpaq üzərində icarədar olmasına qarşı çıxış edirlər. Himalay buddistlərinə 1958-ci ildə özünün 100 min tərəfdarı ilə Hindistana keçən ruhani lider Dalay Lama qoşuldu. Çinin Tibeti işğal etməsindən sonra Hindistana qaçan tibetlilər Carmşala şəhərində və Himaçal-Pradeş ştatının qonşu rayonlarında yerləşdilər. Onlar

tədricən Delhiyə və ölkənin cənubuna da köçmüşlər. Sənətkarlıq, kiçik biznes, turistlər üçün hədiyyələr biznesi və s. ilə məşğul olan tibetlilər bir neçə on il ərzində 150-dən çox məbəd və monastr, məktəblər yaratmışlar. Dalay Lama tərəfdarları hind buddistlərinin ictimai-siyasi həyatında aktiv iştirak edir, dünyadakı buddistlərlə geniş əlaqə saxlayırlar.

Hindistanda buddistlərin əksəriyyəti (88 %) üçüncü kateqoriyaya aiddir, onlar *"neobuddist"* adlandırılırlar, əsasən Maharaştra ştatında yaşayırlar. Əhali sayına görə, 1951-ci ildə bu ştatda buddistlərin ümumi sayı 0,01 % olduğu (2487 nəfər), halda 1981-ci ildə 6,3 %-ə (4 milyon nəfər) çatmışdır. "Neobuddistlər"in sayının belə sürətlə artması "demoqrafik partlayış"la bağlı deyil, Hindistan milli azadlıq hərəkatının liderlərindən olan **Bhimrao Ramci Ambedkar**ın (1892-1956) fəaliyyəti ilə əlaqədardır. Hindistan Konstitusiyasının həmmüəlliflərindən olan Ambedkar "toxunulmazlar" institutunun əleyhinə ciddi şəkildə fəaliyyət göstərmişdir. "Toxunulmaz"lara aid edilən "mahar"ların lideri kimi fəaliyyətə başlayan bu filosof hinduizmdə ciddi islahatların aparılmasına, bu dini təlimin "qaydalar dini"ndən, "prinsiplər dini"ə çevrilməsinə çalışmışdır. O, kastalararası nikahların tərəfdarı kimi çıxış etmiş, hind cəmiyyətinin bərabərlik və demokratiya əsasında qurulmasını vacib saymışdır. Onun rəhbərliyi ilə maharlar nümayişə çıxaraq "toxunulmazlar"a sərt münasibətin əksini tapdığı "Manu qanunları"nı yandırmışlar. "Maharlar" yüksək kasta hindlilərinin su quyuları, məbədə ziyarət, məbədlərdə yuyunmaq və s. ilə bağlı ənənəvi qadağalarını pozmuşlar. Əsas diqqət "toxunulmaz"lara münasibətdə psixoloji baryerləri aşmağa yönəldilmişdir. Bu çıxışlar ciddi nəticə vermədiyindən Ambedkar "toxunulmazlar" üçün ayrıca yaşayış yerlərinin yaradılmasını təklif etmişdir. Bu utopik ideya sayılırdı, belə ki, "toxunulmazlar"ın öz arasında da "daxili toxunulmazlar" vardır. Məsələn, Maharaştra *"maharları"* özlərini digər toxunulmazlarla müqayisədə yüksək sayırlar,

*"manq"* və *"bhanq"* etnik qrupları "toxunulmaz" sayaraq onların əlindən su və yemək almırlar.

Hindistan müstəqillik qazandıqdan sonra Ambedkar Konstitusiyaya "toxunulmazlar" praktikasına son verən, bu əhali qrupu üçün güzəştləri nəzərdə tutan maddələrin salınmasına nail olsa da, tez bir zamanda əmin olmuşdur ki, yaxşı qanunların qəbulu "toxunulmazlıq" anlayışını aradan qaldıra bilməz. O, daha radikal addım ataraq hinduizmdən başqa bir inanca keçməyi vacib saymışdır. Ambedkar bildirirdi ki, xristianlığın seçilməsi Hindistanda Böyük Britaniyanın mövqelərini gücləndirər, *"haricanlar"*ın (toxunulmaz) qeyri-millləşməsinə gətirib çıxara bilər. İslamın seçilməsi isə ölkədə "müsəlman ağalığını" dirçəldə bilər. Siqhizm və buddizm arasında tərəddüd edən Ambedkar sonuncunu seçmiş, ölümündən 2 ay əvvəl, 1956-cı ildə Buddanın nirvanaya çatmasının 2500 illiyi qeyd edildiyi zaman o, əsasən mahar xalqından ibarət 500 minlik ardıcılı ilə birlikdə Naqpurda keçirilən mərasim zamanı buddizmi qəbul etmişdir. Bu aksiyadan sonra bir neçə dəfə yeni dinə kütləvi şəkildə keçmə baş vermişdir. Belə mərasimin iştirakçıları yeni dini təlimin-"neobuddizmin" 22 prinsipinə, simvoluna əməl edirlər. Ambedkarın formalaşdırdığı təlim aşağıdakı kimidir: *"Mən hind tanrılarına, atalara sitayiş etməyəcəm, brahmanlara mənim dini mərasimlərimi idarə etməyə icazə verməyəcəm. Mən inanmıram ki, Rama, Krişna, Vişnu, Maheş tanrıdırlar. Buddanın orta yolunu tuturam"*. "Neobuddist"lər siyasi maraqlarını qorumaq üçün Hindistan Respublika Partiyasını yaratmışdır.

Hind siyasi leksikasına 1960-cı illərdə *"dalit"* (toxunulmaz, istismar olunanlar) termini daxil olmuş, Mahatma Qandinin irəli sürdüyü "haricanlar" (tanrı adamları) terminini sıradan çıxarmışdır. Həmin dövrdə Maharaştrada gənc neobuddist şairlər, yazıçılar, ictimai xadimlər marathi dilində "dalitlər"in faciəvi vəziyyəti barədə əsərlər yaratdılar. XX əsrin ortalarında, ikinci yarısında

"dalit"lərin dini inanclarında, siyasi, ictimai fəaliyyətlərində dəyişikliklər baş vermişdir. Buna baxmayaraq, "neobuddistlər"in ürəyində, fəaliyyətində hinduzm ritualları qalır, onlar Budda və onun təlimindən daha çox Ambedkarın təlimini, prinsiplərini əsas götürürlər.

***Sual və tapşırıqlar:***

*1.Sidarta Qoutama Budda (e.ə. 563-483-cü illər) buddizmın yaradıcısıdır.*

*2. Buddizm təlimi "Buddhacarita", "Lalitavistara", "Cataka" "Tipitak" kimi əsərlərdə əksini tapmışdır.*

*3.Budda təliminin "dörd nəcib həqiqət" haqqında danışın.*

*4. Hindistanda "neobuddist" hərəkatının yaranması və inkişafı.*

## *1.3.Caynizm*

Caynizm Hindistanda e.ə. VI əsrdə ortaya çıxan dini axınlardan biridir. Caynizmin yaradıcısı kşatrilərdən olan əfsanəvi **Vardhamana (e.ə 599-527)** olmuş, o, *"tirthankar"* ("varlığı okeanlardan keçirən") titulu almış, **Cina və Mahavira** ("böyük qəhrəman") adı qazanmışdır. Mahavira Benares vilayətində doğulmuş, 30 yaşında evini, ailəsini tərk edərək rahib kimi tərki-dünya olmuşdur. Mahavira Vardhamananın nirvanaya qovuşması caynist təqvimin başlanğıcı sayılır. Ehtimallara görə, "kşatri" (hökmdar, döyüşçü) varnasından olan Mahavira və Budda eyni çağda, eyni məmləkətdə yaşamışlar və bir-birinə bənzəyən inanc və təlimləri yaymışlar.

Caynizmə görə, Mahaviraya qədər 23 "tirthankar" olmuşdur, onlar arasında birinci "tirthankar" Rişabha və onun oğlu Bahubali (Qomateşvara) daha populyardır. Caynı müqəddəs yerlərində Bahubalinin 250-dən çox heykəlini qoymuşlar. Onların ən böyüyü Karnataka ştatında yerləşən 18 metrlik heykəldir.

Tarixi mənbələrdə Maqadha-Mauri imperatoru Sampatinin cayn olması barədə məlumat vardır. Caynaçılıq e.ə. II əsrdə Kasi və Kosalaya qədər, qərbə və cənuba doğru yayılmışdır. *V əsrdə caynist ruhanilərin məclisi "Şvetambaralar"ı "Valabhi"də toplayaraq bir araya gətirmişdir*. Burada müqəddəs mətnlər bir daha dəyişdirilməmək şərti ilə yazılmış, caynizmin müqəddəs kitabı "Aqamaları" meydana gətirmişdir.

IX əsrdə Rastrakultaların hakimiyyəti dövründə caynalar ən parlaq dönəmlərini yaşamışlar. Xüsusən X-XI əsrlərdə Qucarat və Racastanda böyük cayna ibadətgahları tikilməyə başlamışdır. XII əsrdə cayna dinini qəbul edən hökmdar Kumarapala Qucaratda cayna dövləti yaratmışdır.

Caynizm tərəfdarları yaradıcı tanrını inkar edərək, bildirirlər ki, dünya sonsuzdur və daim mövcuddur, insan isə yerin üzərində yuxarı və aşağı dünyaların arasında yaşayır. Aşağı dünyalar dinə uyğun yaşamayan günahkar insanları əzab-əziyyətə düçar edən cinlərin məskənidir. Yuxarı dünyalar isə Himalaydakı Meru dağındadır, burada "yerin göbəyi" yerləşir. Ən yüksəkdə, dağların zirvəsində "mokşa"ya (doğum və ölüm silsiləsindən xilas olma) çatmış müqəddəs şəxslərin ruhu yaşayır, dağların yamaclarında hinduizm panteonunun tanrıları və "mokşa"ya yaxınlaşan caynların ruhları məskən salmışdır. Bu şəkildə tanrıların mövcudluğu qəbul edilsə də, onlar ali varlıq deyil, hələ müqəddəs olmayan insanlara bərabər sayılırlar.

Hinduizmdən fərqli olaraq, caynizm insanların davranışında rituallara deyil, düzgün davranış prinsiplərinə önəm verir. Onların arasında *"ahimsa"* (qeyri zorakılıq), *"apariqraha"* anlayışları xüsusi yer tutur. "Caynalar "ahımsa" prinsipinə əsaslanaraq canlılara zərər vurmamaq üçün əkinçiliklə maraqlanmırlar, çoxu tacir və zəngindir. Onlar buddistlərdən fərqli olaraq hamı ilə birgə yemək yeyirlər, hinduizmdəki kimi sərt varna sistemləri yoxdur.

*"Apariqrahi"* (tamahkar olmamaq) ailənin minimal tələblə-

rindən artıq könüllü şəkildə var-dövlət toplanılmasından imtina edilməsidir. Zəngin caynların var-dövləti bu anlayışa aid edilmir, belə ki, varlı caynlar öz mal-mülklərinin, pullarının sahibi deyil, icmanın maraqları üçün xərclənəcək var-dövlətin qoruyucusu, idarəçiləridir.

Caynizm *"karma"*nı və yenidən doğulmanı qəbul edir. Bu dini təlimin məqsədi insanı əziyyətlərdən və "karma" ilə bağlı yenidən doğuşdan qurtarmaqdır. Caynaçılıqda iki kateqoriya ayrılır: canlı varlıq (mahiyyət-civa), canlı olmayan varlıq. Bunların arasındakı əsas fərq şüurdur, təməl prinsip isə *"ahimsa"*dır. Yəni bütün canlılara qarşı şiddətdən qaçmaqdır. Caynizmdə *"anekantava"* (həqiqətin fərqli görünüşləri) ideyası mənimsənilmişdir. Cayna əxlaqı üç əsas prinsipə söykənir: ***doğru görüş, doğru bilgi, doğru davranış***. Dünyəvi insanların yaşamı daha sonrakı ağır əzab-əziyyətli yaşama keçid üçün hazırlıq sayılır. Caynaçıların başlıca əxlaqi prinsipləri öldürməmək, yalan söyləməmək, heç bir şəkildə oğurlamamaq, bacardıqca cinsi əlaqədən uzaqda qalmaq kimi sıralanır. Dürüst və sadə həyat sürməyi prinsiplərinə çevirən caynistlər içki içmir, yalnız özlərinin ölümsüzlüyünə inanırlar.

Caynaçılığın ortaya çıxmasından bəri parçalanmalar iki fərqli qrupun yaranmasıyla sonuclanmış, bu dini təlim əsasən ***"şvetambalar"*** (ağ geyinənlər) və ***"digambaralar"***a (işıq geyinənlər-çılpaqlar) bölünmüşdür. "Digambaralar" qadının qurtuluşunun imkansız olduğunu bildirirlər. "Şvetambaralar" isə daha mülayim yol tutur, onların rahibəliyə qəbul edilməsinə razılıq verir, qadınların "mokşa"ya çatmasına inanırlar. Caynist ayinlərini rahib və rahibələr icra edirlər, caynizmin geniş məbədlər şəbəkəsi fəaliyyət göstərir. İbadətdə *"tirtankaralar"*la bağlı ilahilər söyləyir, bəzən də hindu tanrılarına tövbə və ibadət edirlər. Bihar və Maysora gedərək Şreveno-Belqda Bahubalinin X əsrə aid 18 metrlik heykəlini ziyarət edirlər. Bu təlimə görə, maddi dünya mənfidir, qaradır və insan bundan azad olmağa çalışmalıdır, belə yanaşma

nəticəsində isə sərt asketizm ortaya çıxır. Caynizmə sitayiş edənlər hətta paltardan imtina edirlər (digambar-işıq geyinmiş deməkdir). Caynlar *"mokşa"*ya könüllü şəkildə ac qalaraq ölmək yolu ilə çatmağa üstünlük verirlər, lakin bu yolu seçənlər çox az olur. Müdriklik vacib sayılır, evlənməmək, öldürmək qadağan olunur. Hətta su içəndə süzgəcdən keçirmək lazımdır ki, təsadüfən hər hansı canlını udmayasan. Caynizm xüsusən, tacirlər və şəhər əhalisi arasında yayılmış, hazırda bir çox tələbləri yumşalmışdır.

*Digambaralar-"visapanthi", "dravida", "kaştha", "nandi", "sena", "terapandhi" dini icmalarına, şvetambaralar isə "ançala", "kharatara" və "tara" dini icmalarına ayrılırlar.*

Hindistanda ən məşhur olan cayna *"terapanthi"* dini icmasının rəhbəri Açarya Tulsi 1949-cu ildə *"anuvrat"* hərəkatı başladaraq, ölkənin ictimai həyatında xüsusi rol oynamışdır. Hərəkatın məqsədi hind cəmiyyətini yenidən qurmaq üçün fərdləri qəzəb, lovğalıq, yalan və xəsislikdən uzaqlaşdırmaqdır.

Hindistanda 2001-ci ildə aparılmış siyahıyaalmaya görə, 4,2 milyon (əhalinin 0,4 %-i) cayn qeydə alınmışdır. Caynlar əsasən qərb ştatlarında (Racastan, Maharaştra, Qucarat), eləcə də cənubda yaşayırlar. Başqa dinlərdən caynizmə keçənlərə rast gəlinmir, caynların sayı təbii yolla artır. Müasir dövrdə caynizm tərəfdarlarının çoxu Hindistanda yaşasa da Avropa, Amerika, hətta Avstraliyaya qədər caynist cəmiyyətlərinə və məbədlərinə rast gəlmək mümkündür.

***Sual və tapşırıqlar:***

*1.Caynizmin yaradıcısı Vardhamana (e.ə 599-527) haqqında danışın.*

*2.Caynizmin müqəddəs kitabı- "Aqamalar".*

*3.Caynaçılığın iki kateqoriyası- canlı varlıq (mahiyyət-civa), canlı olmayan varlığı izah edin.*

*4.Cayna əxlaqının üç əsas prinsipi: doğru görüş, doğru bilgi, doğru davranış*

*5.“Şvetambalar” (ağ geyinənlər) və “Digambalar”(işıq geyinənlər-çılpaqlar)*

## *1.4. İslam.*

İslam dünyagörüşünə görə, Allah Adəmi Hindistanin Serendib ərazisinə endirmişdir, ən bərəkətli, xeyirli vadi Məkkə vadisi və Adəm əleyhissalamin Hindistana endiyi vadidir. Müsəlmanların inancına görə, ilk peyğəmbər Hindistandan çıxmış, Cəbrayil əleyhissalam ilk dəfə Hindistana enmişdir. “Qurani-Kərim”də ərəbcədən başqa hind dilində “Sündüs” və “Ta ba” sözləri vardir.

Rəvayətə görə, Məhəmməd peyğəmbərin zamanında astronomiya elmi ilə ciddi şəkildə maraqlanan hindlilər ayın ikiyə ayrılması hadisəsi baş verəndə təəccüblənmişlər. Muradabad hökmdarı Ouve Sinqh Məkkədə peyğəmbərin zühur etdiyi qərarına gəlmişdir. Vəziri Rattansiyə o zaman Ərəbistanda olmayan üç şey- “supari”, “suru” və “camarband” verərək Məkkəyə göndərmişdir. Hökmdar Ouve Sinqh vəziri Rattansiyə tapşırmışdır ki, əlindəki əşyaları göstərmədən bildiyi təqdirdə Məhəmməd peyğəmbərə biət etsin və onun təlimini öyrənib geri dönsün. Hadisələr gözlənildiyi kimi inkişaf etmiş, Rattansi müsəlmanlığı qəbul etmiş və beş il Mədinədə qalmış, daha sonra Hindistana dönərək islamı yaymışdır.

Müsəlman tacirlər VII əsrdə Hindistan, Malaziya, Çin kimi ölkələrə dəniz yoluyla çatmışlar. Hətta müasir Kerala ştatında yerləşən Çeruman-Perumal məscidinin hələ Məhəmməd peyğəmbərin zamanında Baskara Ravi Varma tərəfindən 629-cu ildə tikildiyi məlumdur. Əməvilər sülaləsinin hakimiyyəti dövründə isə (711-ci il) Muhamməd bin Qasım Sində hakim təyin edilmişdir.

Hindistana ayaq basan səyyah sufi və müsəlman tacirlər maraqla qarşılanırdılar. IX əsrdən başlayaraq, Hindistana Şeyx Süleyman Əbu Zeyd, Əbul Həsən əl-Məsudu və Əbu İshak, Əbu

Delef Yenbui, Beşşari Müqəddəsi kimi sufilər səfər etmiş, orada yaşamışlar, sindlilərin (hindlilər) islam mədəniyyətinə yaxınlaşmasına çalışmışlar. Sufilərin təsiri altında Şimali Hindistandakı racalardan biri "Qurani Kərimi" hindcəyə tərcümə etdirmişdir. Türk əsilli Şeyx İsmayil 1005-ci ildə Lahora gəlmiş və bölgə əhalisini islamla tanış etmişdir. Sufilər xanəgahlarda, camaatxanalarda və ya zaviyələrdə qalırdılar. Xanəgahlara gələnlər təkcə müsəlman deyil, hindus, caynist ola bilərdi. Əhali problemlərinin həlli üçün bu xanəgahlardakı şeyxlərə müraciət edərdi.

Hindistanda islamın yayılmasında islami təriqətlərin, məşhur din xadimlərinin böyük rolu olmuşdur. Gənci bölgəsi Gənci Şükker Baha Fəridəddin (Fəridəddin Gəncşəkər və ya Baba Fərid) və Bahaul Haqqın fəaliyyəti nəticəsində islamlaşmışdır. Fəridi Şükker (1173-cü ildə anadan olmuşdur) pəncab dilində yazdığı şeirləriylə şöhrətlənmiş, Pakpatanini böyük sufi düşüncə mərkəzlərindən birinə çevirmişdir. Maraqlıdır ki, Fəridəddin Şəkərgəncin xatirəsi müsəlmanlarla yanaşı, siqh və hinduizm mənsubları arasında da yaşayır. O, çişti sufi təriqətinin beş müqəddəs şəxsindən biri, siqh dini təliminin isə on beş müqəddəs şəxsindən biridir. Əsərlərinin bir qismi siqhlərin dini kitabi olan "Adi-Qrant"a salınmışdır.

Müsəlmanların Hindistanı geniş şəkildə fəth etməsi isə qəznəli Sultan Mahmudun fəaliyyəti ilə başlamışdır. "Bütqıran" kimi tarixə düşən Sultan Qəznəli Mahmud (971-1030, əsl adı Yəmin əl Dövlət Əbdülqasım ibn Səbük Tigin) 998-1030-cu illərdə Qəznə hökmdarı olmuş, Hindistana 17 dəfə yürüş etmiş, burada islamın yayılmasına nail olmuşdur.

Qəznəlilər Hindistan və ətraf ölkələri tutaraq, nəhəng bir ərazidə XIX əsrin ortalarınadək yaşamış türk-müsəlman hökmranlığının təməllərini qurdular. Qəznəlilər dövlətinin əraziləri Əfqanıstan, Türkmənistan, Xorasan, Kirman, Tehran, Sin, Bəlucistan, Pəncab, Racastan, Qucarat, Qanq vadisi, Şimali və Orta

Hindistanı əhatə etmişdir. Qəznəlilər öz dövrlərinin ən sistemli və nizamlı hökmdarlığı kimi önə çıxmışlar. Səlcuqlular türk dünyasını öz sərhədləri içərisində birləşdirərkən, Hindistanda Gurlu dövləti qurulmuş, Qəznəlilərin hakimiyyətinə son qoyulmuşdur. Gurlu dövləti bir müddət sonra Xarəzmşahların hücumu ilə qarşılaşmış, parçalanmışdır. Hindistandakı ərazilər isə Gurlu ordusunda yüksək vəzifə tutan türk sərkərdələrin əlinə keçmişdir. Beləcə, Hindistanda Bihar, Benqal, Cavanpur, Malva Qucarat, Kandeş kimi feodal dövlətlər ortaya çıxmışdır. Bir müddət sonra bu kiçik dövlətlər Delhi sultanlığının hakimiyyətini qəbul etmişlər. Delhi sultanlıqları Hindistanda islamın yayılması, möhkəmlənməsi dövrü, mənəvi və həm də maddi mədəniyyətdə islam dəyərlərinin inkişafı dövrü sayılır.

Babur şah 1526-ci ildə Hindistanda islam imperatorluğunun təməllərini atmış, Hindistan uzun zamandan sonra nizama qovuşmuşdur. Baburşahlar (Moğol) imperiyası dövründə islam hakim din olsa da, hinduizm, caynizm, siqhizm və s. dini təlimlərə tolerant münasibət özünü göstərmişdir.

Babur şah məşhur "Baburnamə" əsərində oğlu Sultan Humayuna belə vəsiyyət etmişdir: "Ey oğul! Deyəcəklərimi unutma. Ürəyində kimsəyə dini düşmənlik bəsləmə. İnsanların dini inanc və ibadətlərinə baxaraq ədalətdən ayrılma. İnəkləri açıq yerlərdə kəsməkdən çəkin. Bu səni xalqın gözündə yüksəldər. Onların ürəyini qazandırar. Başqa dinlərin ibadətxanalarını yıxıb zərər vermə. Məmləkətin hər küncünə ədaləti aparmaq istəyirsənsə, əvvəl barışı təmin etməlisən. İslamı insanların ürəyinə sevgi qılıncı ilə salmaq, hirs və nifrət qılıncı ilə qorxutmaqdan daha yaxşıdır. Şiə və sünniləri bir-birindən ayırma. Xalqının arasındaki fərqlərə mövsümlər arasındakı fərqlər kimi bax".

Baburşah imperatoru Əkbər şah Hindistanda homogen xalq yaratmağa, *"Din-i ilahi"* adi ilə din qurmağa çalışaraq hindi, siqh və xristian qarışığı bəzi inanc və təlimləri bu təlimə daxil etmişdir.

Həmin dövrdə Hindistanda islamın möhkəmlənməsində “nəqşibəndi” *Həccə Bakibillah Qəbulu*nun müridi *İmami Rəbbani Əhməd əl Faruki əl Sirhindi* (1564 – 1624) mühüm rol oynamışdır. *Əhməd əl Faruki* “nəqşibəndi” təriqətinin məcidiyyə qoluna aid olsa da, *“qadiriyyə”, “çiştiyyə”* kimi digər təriqətlər də ona hörmətlə yanaşmışlar. İmami Rəbbani şəriətsiz təsəvvüf anlayışının ola bilməyəcəyini deyərək, əvvəl şəriət qaydalarının yerinə yetirilməsini tövsiyə etmişdir. O, Əkbər şahin dini islahatlarına, yeni bir din yaratması səyinə qarşı mübarizə aparmış, hökmdarı tənqid etmiş, dəfələrlə həbsə düşmüşdür. Orta əsrlərdə “Dini-ilahi”nin çox yayılmaması məhz İmam Rəbbaninin uğuru sayılır.

Əkbər şahdan sonra hakimiyyətə gələn oğlu Cahangir şah da orduda “nəqşibəndi” müridlərin sayının artması səbəbindən İmam Rəbbanini həbsə atmışdır. Bir il həbsdə qaldıqdan sonra Cahangir şah Rəbbanini həbsdən çıxarmışdır. Şah Cahangirin təkrarən İslama bağlanması İmam Rəbbani ilə söhbətlərinin nəticəsidir.“Risalət-üt-tehliliyyə”, “Rədd-i revafid”, “İsbat-ün-nübüvvə” adli əsərlər yazan Rəbbani onlarla mürşid yetişdirərək Hindistanın müxtəlif bölgələrinə göndərmiş, islamı yaymışdır. İslam hökmləri ilə Allahı anlama, tanıma və qovuşma olan təsəvvüfü birləşdirməsinə görə ona “sila” adı verilmişdir.

Tarixən Hindistanda *“çiştiyyə” (qurucusu türk Əbu İshak), “sührəverdiyyə, “qadiri”, “rövşəniyyə”, “keraniyyə”, “qələndəriyyə”, “kübrəviyyə”, “kadiyanilik”* sufi təriqətləri yayılmışdır.

İngilis işğalı Hindistanda müsəlmanların roluna ciddi zərbə vursa da, islam burada hinduizmdən sonra aparıcı din olaraq qalmışdır. Müsəlmanlar Hindistanın azadlığı uğrunda hindlilərlə bir cərgədə mübarizə aparmış, Müsəlman Liqası və s. islam təşkilatları bu prosesdə xüsusi rol oynamışlar. Ölkənin 1947-ci ildə Pakistan və Hindistana parçalanması da məhz hinduizm və islam müstəvisində baş vermiş, dini faktorun bu şəkildə siyasiləşməsi iki yeni yaranmış ölkə arasında, eləcə də müxtəlif inanclı insanlar

arasında xüsusi ilə kənardan qızışdırılan qanlı qarşıdurmalara gətirib çıxarmışdır. Müstəqilliyin ilk illərində milyonlarla hinduist Pakistandan Hindistana, milyonlarla müsəlman isə Hindistandan Pakistana köçmüş, "böyük köç" baş vermiş, bir milyondan çox insanın ölümü ilə nəticələnmiş yerdəyişmə dinin coğrafiyasına da ciddi təsir göstərmişdir. Hazırda Pakistan İslam Respublikasında əhalinin 90 %indən çoxu, Banqladeş Xalq Respublikasında əhalinin 85 %-i müsəlmandır.

Müasir dövrdə Hindistanda müsəlman əhalinin sayı 150 milyon nəfərə (13,8 %) çatmışdır. Müsəlmanlarin əksəriyyəti isə sünniliyin hənəfi məzhəbinə etiqad edir. Malabar sahilində şafilik yayılmışdır, Uttar-Pradeş və Qərbi Benqaliyada sünnilik özünün vahabi tendensiyası ilə müşahidə olunur. Burada "Əhmədiyyə" təriqətinin ardıcıllarına da rast gəlmək mümkündür. Şiələr (Hindistan müsəlmanlarının 7 %-i) isə əsasən şəhərlərdə yaşayırlar, "işnaşari", "araqani" (ismaililər), "bohra", "hoca" və s. icmalara bölünürlər.

Hindistanda müsəlman əhalinin az qala yarısı üç ştatda- Uttar-Pradeş (22,3 %), Bihar və Qərbi Benqal (12,4 %) yaşayır. Müsəlmanların məskunlaşmasında qeyri-bərabərlik özünü göstərir. Məsələn, Rampur rayonunda müsəlmanlar əhalinin 45,8 %ini, Çhansi rayonunda (Uttar Pradeş ) 5 %-ni təşkil edir. Qərbi Benqaliyada da oxşar vəziyyətdir. Mürşibad rayonunda müsəlmanların sayı 56,3 %-ə, Rançı rayonunda isə 7 %ə çatır. Assam ştatında müsəlmanların 5,8 %-i, Kerala ştatında 6,8 %-i yaşayır. Müsəlmanların sayca çox olduğu ştatlar da vardır. Lakkadiv və Minora adalarında 94,4 %, Cammu və Kəşmir ştatında 65,8 % müsəlman yaşayır. Kəşmir vadisində müsəlmanların sayı 89-96 % olduğu halda, Cammuda cəmi 7,9 % müsəlmandır.

Müxtəlif tarixi proseslərin gedişində, fərqli etnolinqvistik mühitdə formalaşan müsəlman əhali arasında həm üfiqi, həm də şaquli bölünmələr mövcuddur. İlk olaraq müsəlmanlar iki qey-

ri-bərabər qrupa bölünürlər. Müsəlmanların 10 %ni təşkil edən "aşrafi" adlanan qrupa seyidlər, şeyxlər, moğollar, patanlar, qureyşi ərəblərin nəsilləri, torpaq sahibləri, keçmiş hökmdar nəsilləri, sahibkar və tacirlər, azad sənət sahibləri aid edilir. Daha böyük qrupa ("aclafi") isə aşağı hindust kastalarından islamı qəbul edənlər, kəndlilər, sənətkarlar, muzdurlar aid edilir. Bu sosial bölgü dini pərdəyə bürünmüşdür. Hər bir milli rayonun özünəməxsus sosial-dini bölgüsü vardır. Məsələn, Keralada yaşayan "mopla" icması digər müsəlmanların gözündə vahid icma kimi görünsə də, onların arasında ciddi endoqam bölgü vardır, yalnız doğumdan bu kastanın üzvü olmaq mümkündür. Seyid "mopla thanqallar" özlərini peyğəmbərin qızı Fatimənin soyundan sayırlar, ritual statusuna görə Keralada hindus brahman "nambudiri" catisinə bərabər statusa malikdirlər. Onlardan sonra ərəb tacir və dənizçilərinin yerli qadınlarla evliliyindən doğulanların nəsilləri gəlir. "Mopla"ların əksəriyyəti "malabarlılara" aid olunur və iyerarxiyada orta mövqedə dayanırlar. "Mopla" müsəlman icmasının arasında "aclafi"lərə "sular"( balıqçılar) və "ossanlar" (bərbərlər) aid edilirlər. Təkcə nikah münasibətlərində, gündəlik münasibətlərdə deyil, dini praktikada da status fərqi aydın görünür. Hər bir icmanın özünəməxsus məscidi, qəbristanlığı vardır.

Tamilnad ştatında ticarətçi müsəlman icmaları "marakayar", "rauthorlar", "labbai"lər statuslarına görə bir-birinə yaxın sayılsalar da, aralarında nikahagirmə olmur. Ticarətci "kaylarlar" isə aşağı kastalara aid hesab edilir, onlar heyvan dərisi, müqəvvası ilə ticarət aparır, həm hindus, həm müsəlman dünyagörüşünə görə bu qeyri-təmiz işdir.

Şimali Hindistanda müsəlmanların sosial statusuna görə bölünməsi hinduizmdəki kasta sisteminin oxşarıdır. Düzdür, müsəlmanlar arasında kastalar hinduizmdə olduğu kimi "cati" deyil, lakin *"biradari"* (qardaşlıq) və ya "biyahdari" (endoqam qrup) adlandırılsa da söz fərqliliklərin mahiyyətinə təsir göstərmir.

Hindistanda müsəlmanların da öz “toxunulmaz”ları- *“halalhorlar”, “lalbeqhi”, “bediya”* və s. vardır. Bundan başqa, Hindistan müsəlmanları arasında məzhəblər, sufi məktəbləri, icmalar, islahatçı axınlar dini ehkamlarla bağlı ciddi fikir ayrılıqlarına malikdirlər. Bəzən münasibətlər kifayət qədər gərginləşir, qarşıdurmaya çevrilir. Üləmalar Barelvi və Deobandın məktəbləri arasında teoloji xarakterli ciddi ziyyətlər vardır. XIX əsrdə onların mübarizəsinə məşhur islahatçı Seyid Əhməd xanın (1819-1898) Laknau məktəbi qoşulmuşdur.

Deobanda məktəbinin üləmaları və onun “Camaatul ülumae-yi Hindi” təşkilatı inam məsələsinə daha fundamentalist mövqedən yanaşsalar da, siyasətdə bu təşkilat praktiki olaraq dünyəvi mövqedən çıxış edir. Baralvi və Laknau məktəbinin nümayəndələri islahatçı sayılsalar da, siyasi proseslərdə icmalar arası çəkişmələri şiddətləndirən mövqe ortaya qoyurlar.

Bəzi müsəlman qruplarında hinduizm elementləri özünü göstərir. Kəşmir qurcarları əsasən iri və xırda buynuzlu heyvandarlıqla məşğul olan, sayları 1,5 milyona çatan etnik qrupdur. Onlar öz köklərini hinduist tanrısı Krişna ilə bağlayırlar. *“Bohram”* icmasının üzvləri məscidlərdə, toy və dəfn mərasimlərində sünni adət-ənənələrini yerinə yetirsələr də evdə şiə qaydalarına uyğun namaz qılır, həzrəti Əlini yüksək tuturlar. “Qurani Kərim”dən başqa onlar Vişnu tanrısının 19-cu avatarı-*“Dasavatar”* kitabını qəbul edirlər, hətta həzrəti Əli Vişnunun onuncu avatarı sayılır. Belə faktlar çoxdur. Məsələn, Suratqarha (Racastan) yaxınlığında hindus Qoqhaci məbədində müsəlman ruhanilər də xidmət edirlər. Alvar və Bhatpur rayonlarında yaşayan *“meo”* və *“min”* müsəlman etnik qrupu hindus bayramlarını qeyd edir, *“xan”* sözü əlavə edərək hindus adları qoyurlar. İndora (Madhya-Pradeş) rayonunda *“patel”* müsəlmanları hindli adı qoyur, hinduslardan yalnız paltarları ilə fərqlənirlər. Allahdan başqa, onlar Bhavani və başqa hindi tanrılarına da sitayiş edirlər.

Purnea (Qərbi Benqal) rayonunun kəndlərində demək olar ki hər bir müsəlman benqalın evində Kali tanriçasının mehrabı vardır. Puşkar rayonunda isə (Racastan) brahman *"datta"* kastasının üzvləri yaşayır, onlar eyni zamanda *"hüsseyni-brahmana"* adlandırılır. İnanca görə, onların əcdadları İraqa emiqrasiya etmiş, Vişnunun avatarı saydıqları imam Hüseynin tərəfdarı kimi yezidilərə qarşı döyüşmüşlər. VIII əsrdə Hindistana qayıtmış və o zamandan məhərrəm ayında aktiv iştirak edirlər. Qucarat ştatında racputların nəslindən olan müsəlman *"qerasiya"* icması (200 min nəfər) bir sıra hindus adətlərini saxlamışlar və hindus adlarından istifadə edirlər.

***Sual və tapşırıqlar:***

*1. Qəznəli Sultan Mahmud və Delhi sultanlıqlarının Hindistanda islam dininin yayılmasında rolu.*

*2.Baburşahlar imperiyasının Hindistan mədəniyyətində yeri.*

*3. Əkbər şahın "Din-i ilahi" təlimini izah edin.*

*4."Çiştiyyə", "sührəverdiyyə, "qadiri", "rövşəniyyə", "keraniyyə", "qələndəriyyə", "kübrəviyyə", "kadiyanilik".*

*5. Müasir dövrdə Hindistanda müsəlman əhalinin vəziyyəti haqqında təqdimat hazırlayın.*

## *1.5. Siqhizm*

Orta əsrlərdə, xüsusilə islamın Hindistana gəlməsi ilə hinduizmlə islam arasında "orta yol"çu hərəkatlar ortaya çıxmışdır. Hinduizmdə islahatlardan danışarkən XV əsrin ikinci yarısında, "bhakti" hərəkatının ən məşhur nümayəndələrindən biri **Kabir**in (1435-1518) adını xüsusi qeyd etmək lazımdır. O, hinduizmin mərkəzində tək tanri inancını yerləşdirməyə çalışmış, eyni zamanda hinduizmin bir sıra vacib anlayış və düşüncələrinə əsaslanmışdır.

Orta əsrlərdə *"bhakti"* hərəkatının iki istiqaməti mövcud olmuşdur. *"Saqun bhakti"* adlanan cərəyan Rama, Krişna, Şiva və s. tanrılara sitayişi, *"nirqun bhakti"* adlanan xətt isə abstrakt ali varlığa sitayişi üstün tutmuşdur. Siqhizmin də ikinci xətt əsasında inkişaf etdiyi məlumdur. XVI əsrin ortalarında Baburşahlar imperiyasının hökmdarı Əkbər şah da (1542-1605) bütün dinləri fəlsəfi bir monoteizmdə uzlaşdırmağı sınamış, ***"dini ilahi"*** yaratmışdır.

*"Orta yol"* ideyasının yayılmasında ən böyük uğur qazanan isə siqhizmin yaradıcısı **Quru Nanak** olmuşdur. Sri Quru Nanak (1469-1539) 1469-cu ildə Pəncabın Talvandi kəndində doğulmuş, uşaqlığı və yetkinlik çağı bu kənddə keçmişdir. "Khetri" ticarət kastasından olan Nanak uzun illər Sultanpur şəhərində müsəlman idarəçinin xidmətində çalışmış, bütün dinlərlə maraqlanmışdır. Boş zamanlarında meşəyə çəkilib düşüncələrə dalmış, bu gəzintilərinin birində ona "uca tanrının varlığı düşüncəsini yayma" vəzifəsi verilmişdir. O, 1500-cü ildən başlaraq "tək və gerçək olan tanrı" inancını yaymaq, təlimini izah etmək üçün Sultanpur şəhərindən çıxmış, müqəddəs yerləri gəzmiş, bir çox din adamlarıyla görüşmüş, müzakirələrə girişmiş, həyatının sonunacan Ravi çayı sahilindəki Kartapur kəndində yaşamışdır. Quru Nanak zahidliyə baş vuran, meşələrdə gəzib dolaşan hinduist "sanyasin"lərdən fərqli olaraq öz tərəfdarları ilə birlikdə həyatın qaynadığı, səs-küylü bazarların, sənətkar icmalarının və s. olduğu narahat şəhərlərə uz tutmuşdur.

Quru Nanak öz sistemini ***"tanrının birliyi", "insanlığın qardaşlığı", "varna-kasta sisteminin rəddi" və "bütə ibadətin faydasızlığı"*** prinsipləri üzərinə qurmuş, uzlaşdırmaçı (sinkretist) **"siqh"** hərəkatı ortaya çıxarmışdır. O, təktanrılıq inancını, buddizmin mahayana və nirvana təsəvvürlərini, hinduizmin tənasüh (ruhun köçü) ideyasını qəbul etsə də, avatarlara inanmamışdır.

İlk "quru" (müəllim) bütlərə tapınmamış, qardaşcasına sevginin əhəmiyyətini dilə gətirmişdir. Quru Nanak insanın bərabərliyi

ideyası üzərində dayanır, hindlilərlə müsəlmanları bir-birlərinə yaxınlaşdırmağa çalışır, varna sisteminə qarşı çıxırdı. Elə siqh icmasının hinduizmdən ayrılmasında ən mühüm addımlardan biri də hamının tanrı qarşısında bərabərliyinin tanınması , varna sisteminin rəddi olmuşdur.

Quru Nanakın ölümündən sonra "quru" kimi siqhlərin rəhbərliyinə **Anqad (1504-1552)** keçdi. Tənasüh (ruh köçü) inancı əsasında onun ruhunun sıra ilə özündən sonra gələn "quru"ya keçəcəyi fikri ilə Anqad və daha sonra gələn qurular Nanakın təzahürləri sayılmışdır. Üçüncü quru **Amar Das (1552-1574)** yeni adətlər, qaydalar, evlilik və doğum mərasimləri yaratdı, üç dini bayramı (Divali, Barsakhi və Maghi) qeyd etməyə başladı. Amar Das siqhizmdə "quru masası"nı yaratmışdır. Bu vacib ritual indi də mövcuddur, hər bir "qurdvar"da (siqh ibadətgahı) kasta və inancına baxmayaraq hər kəsə yemək verilir. "Quru masası" "varna" və cati "təmizliyi" haqqında, yüksək varnanın aşağı varna nümayəndələri ilə birlikdə yemək yeməməsi barədə inancların əleyhinədir. Maraqlıdır ki, ilk siqh "quruları" dövründə hinduist brahmanlar öz inanclarının çökməsindən qorxaraq "quru masa"-sının əleyhinə çıxmış, hətta Baburşah hökmdarlarını bu ritualın qarşısını almağa çağırmışlar.

Amar Dasın kürəkəni, dördüncü quru **Ram Dasın (1534-1581)** zamanında siqhizm daha geniş ərazilərə yayıldı. Hətta Baburşahlar imperiyasının bəzi məmurları Amritsarı (Ramdasın yeni ibadət mərkəzi olaraq qurduğu və yerləşdiyi yer) ziyarət etmiş, onun müridləri olmuşlar. Ram Dasın kiçik oğlu **Arcan (1563-1606)** beşinci quru kimi siqhlərin ticarət və mədəni mərkəzi olan Amritsarı daha da inkişaf etdirdi, Baburşah imperatoru Əkbər şahın siqhlərə verdiyi ərazidə Qızıl Məbədin (Har Mandar) tikintisini sona çatdırdı. Quru Arcun ilk dörd qurunun ilahilərini, hindi Bhaqatları və Bhatları yığdı, onlara özünün diqtə etdiyi *"Qurdas"*ı əlavə etdi, 1604-ci ildə siqhlərin müqəddəs

kitabı **"Adi Qranth"**ı hazırladı. Bu kitabda siqhlərin dini inanc və əxlaq qanunları əksini tapmışdır. Əkbər şahın oğlu Cahangir şah quru Arcandan "Adi Qranth"da Məhəmməd peyğəmbər ilə əlaqədar hissələrin çıxarılmasını istədi, quru isə bunu rədd etdi və quru Arcan edam olundu. Atası Arcun 1606-cı ildə öldükdən sonra **Har Gobind (1595-1644)** 6-cı quru olaraq siqhlərin başına keçdi. Onun zamanında siqhlər Cahangir şaha və Cahan şaha qarşı hərbi baxımdan təşkilatlandılar, 1637, 1638, 1643-cü illərdə Baburşahlarla müharibələr apardılar. Quru Har Qobindın uğurları siqh tarixində dönüş nöqtəsi oldu, siqhizm hərbiləşdi. **Har Rai (1630-1661) 7-ci, Harkrişhan (1656-1664) 8-ci, Teqh Bahadır (1621-1675) 9-cu quru** oldular. Teqh Bahadır Pəncabda zənginlərdən zorla pul alması, qaçaqları saxlaması və yağmalara əl atması üzündən Baburşahlar onu öldürmüşdür. İmperator Övrənqzəb Aləmşah Teqh Bahadırı həbs edərək, edam etdirmiş, beləcə o, siqh tarixində öldürülən ikinci quru olmuşdur. **Qobind (1666-1708)** atasının öldürülməsindən sonra 10-cu quru (1675-1708) seçildi. Onun zamanında siqhlər Baburşahlara qarşı açıq müharibəyə başladılar, **"Khalsa"** (Tanrının Qrupu) qurmuş, siqhlər üçün daimi "Adi Qranth" yaradılmışdır. Ümumiyyətlə, siqhizm hərəkatına rəhbərlik edən 10 quru (müəllim və ya ustad) 1469 -1708-cı illərdə özündən əvvəlkinin çağırışını, təlimini gücləndirmişdir.

Yarandığı ilk dövrlərdə siqhizm islahatçı hərəkat idi, Pəncabın şəhər əhalisindən dəstək alırdı. İlk siqh quruları da şəhər ticarət kastası olan "khetri"lərdən ibarət idi, onların çağırışları bu təbəqəyə daha yaxşı aydın idi. Tədricən siqhlər arasında feodal qaydaları bərqərar olmağa başladı, "quru" Qobind Sinqh (sinqh "şir" mənasındadır) Pəncabın "cat" əkinçilərinin antifeodal hərəkatına rəhbərlik etmiş, "halsa" ordusunu yaratmışdır.

**"Siqhizm"** (sanskritcə şagird və ya qalib mənasını verir) dini buddizmdən qaynaqlanan mahayana və nirvana təsəvvürlərini

mənimsəmişdir. Siqhizmin iki inanc əsası vardır: Birincisi, tək tanrıya inanmaq. Siqhlərin müqəddəs mətnlərinin ilk cümləsi yalnız iki söz uzunluğundadır və siqh inancının təməlini açıqlayır: **Ek Onkar** və ya "tək yaradıcı". İkincisi, siqhlər 10 siqh qurusunun və digər müqəddəslərin təlimlərinə, siqhizmin müqəddəs kitabı Quru Qranth Sahibdə izah edildiyi kimi boyun əyməlidir.

Siqhizm tanrının birliyinə inanır, lakin quru Nanak tanrı, yaxud ad deməkdən çəkinərək ***"Hari"*** demişdir. Nanaka görə, tanrı görünməz üç varlığı -Brahma (var edən), Vişnu (ruzi verən), Şiva (öldürən, məhvedən, yoxedən) yaratmışdır. Siqhizmdə tanrı "Ek-Onkar" hindus Brahma tanrısı kimi xarakterizə olunur: "Ek-Onkar"ın hər hansı xüsusi atributu yoxdur, o, məkan və zamandan kənardır, yeganə reallıqdır. Bir sözlə, siqhizmdə tanrı *"nirqun"* (hər hansı xüsusiyyəti olmayan) və *"anami"* (adsız) kimi təsəvvür olunur.

Siqhlər tanrını hər hansı bir cinsə aid etmir, tanrının insan formasına düşə biləcəyinə də inanmırlar. Siqhizmdə bütün insanlar din, irq və ya cinsiyyət ayrı-seçkiliyi edilmədən bərabər sayılırlar, çünki insanlar (tanrı) *Vahequru*nun qız və oğlan övladlarıdırlar. İnanclarına görə, siqhlər bütün canlıların, xüsusilə də insanların haqlarını qorumaq və onların haqları üçün döyüşmək məcburiyyətindədirlər. Siqhizm bakti hərəkatı, hinduizm və sufizm ilə bəzi ortaq nöqtələrə malikdir. Bəziləri siqhizmin sinkretik bir din olduğunu bildirsə də, bir sıra siqh alimlərinə görə bu səhv düşüncədir. Siqhlər "quru"larının tanrıdan vəhy aldığını bildirir, onların eyni ruha (və ya jota), lakin fərqli bədənlərə sahib olduqlarına inanırlar.

Siqhlərin müqəddəs kitabı Quru Qranth Sahib sonuncu "quru"dur və siqhlər onu "Əbədi Quru" olaraq görürlər. Quru Qranth Sahib kitabı "Qurdvara" adlandırılan siqh ziyarətgahında saxlanılır. Quru Qranth Sahibdə əvvəlki quruların inancıyla üst-üstə düşən məsələlər, fərqli inanclara mənsub şəxslərin təlim və yazı-

ları da əsas götürülmüşdür. Bura Kabir, Namdev, Ravidas, Şeyx Farid, Trilochan, Dhanna, Beni, Şeyx Bhikan, Caidev, Surdas, Parmanad, Pipa və Ramanand sufi şeyxləri, hindi şairləri daxildir. Quru Qranth Sahibdəki mətnə "Qurbani" deyilir. Quru Nanaka görə, "qurbani" tanrıdan gəlmiş vəhydir və yazarlar vəhyi dinə inananlara çatdırmaq üçün qələmə almışlar.

Siqhizmin ən əsas inancları - *"Qars"*dan başqasının qarşısında əyilməmək, Amritsarda yuyunmaq, bir-birlərinə "siqh" deyə xitab etmək, taraş olmamaq, xəncər-qılınc daşımaqdır. Quru Qobind siqhlər üçün "pahul" və "khalsa" sistemini yaratmışdır. *"Khalsa"*ya girənlər "pahul" deyilən bir mərasimdən keçməli və "k" ilə başlayan beş əsas prinsipi yerinə yetirməlidir:

Birincisi, **"keşa"**, yəni saç və saqqalların kəsilməməsidir. Siqhlər uzun saçlı olmalarıyla fərqlənirlər, saçlarını kəsə bilməzlər. **"Keşa"** siqhlərə bir nişan olaraq verilmişdi. Buna görə də siqhlər saçlarını səliqə ilə darayırlar və türbanla örtürlər. Qaydalara görə siqh qadınlar saçlarını kəsə, qaşlarını ala bilməzlər.

İkincisi, **"kanqha",** yəni daraqdan istifadə olunmasıdır. Siqh saçlarını daim "kanqha"yla düz, təmiz saxlayır. Qaydalara görə taxta daraqla səhər və axşam olmaq üzrə gündə iki dəfə saçlarını darayırlar. Saçın uzadılması tanrının mükəmməlliyinin xatırlanmasını, daraq isə nizamı ifadə edir.

Üçüncüsü, **"karha"**da hər siqh sağ biləyinə yalnız polad bilərzik taxır.

Dördüncüsü, **"kaçhehra"** qaydasına görə hər siqh qısa şalvarı yüksək xarakterin nişanəsi olaraq geyinir.

Beşincisi, **"kırpan"** adlanan xəncər gəzdirmək adətidir. Siqh kişilər azadlığın simvolu olan xəncəri (ya da qılıncı) "qatra" deyilən sırmalı lentlə belinə qurşayır. Siqhin daşıdığı polad bilərzik tanrı qarşısında öhdəlikləri yerinə yetirməyi, ağ don isə iffət və ailə həyatına verilən əhəmiyyəti xatırladır. Bəzi siqhlər gündəlik həyatlarında qaydalara tam olaraq riayət etmirlər. *"Sahackari"* adlandırılan bu şəxslər də siqh sayılırlar.

Siqhizmdə bir insanın bu dünyada etdiklərinin o biri aləmdəki həyatına təsir edəcəyinə və ruh köçünə (tənasuh) inanılır. Sadə ibadət və ayinləri seçən siqhlərin **Amritsardakı Qızıl Məbədi** bu gün də əhəmiyyətini qoruyur. Siqhizmin simvolu sayılan qılınc da burada saxlanılır. Siqhlərin ayin və ibadətləri sadə dua, dəstəmaza bənzər yuyunma, Qızıl Məbədə getməkdən ibarətdir. *Dindar siqhin gündəlik ibadəti bu üç dini hökmdə toplanır: "Adi Qranth"dan və Quru Nanaka aid mətnlərdən əzbər oxumaq, hər səhər ailəvi toplanıb "Adi Qranth"dan hər hansı bir parça oxumaq, məbədə ibadətə getmək.*

Siqh ənənəsində ölənlərin cəsədinin yandırılması ənənəsi əsasdır. Nadir hallarda meyit qəbir qazılaraq basdırılır. Cəsəd əvvəl yuyulub kəfənlənir, sonra yandırılacaq yerə aparılır, cəsəddən qalan küllər isə axar suya atılır.

Siqhizmdə optimist bir dünyagörüşü sayılan **"Çhardi Qala"**ya (Chardi Kala) sahib olmaları təşviq edilir, siqhlər reinkarnasiyaya, bütün varlıqların, öldükdən sonra fərqli bədənlərə keçən bir ruha sahib olduğuna inanırlar. Bu ruh köçü müstəqilliyə, azadlığa çatana qədər davam edir. Siqh dini qurtuluşun tək yolu olaraq sayılmır, digər dinlərdən insanlar da qurtuluşa çata bilərlər.

Hər siqhin beş pisliyi məğlub etmək öhdəliyi vardır: *"ankhar" (eqo –mənlik), "krodh" (istək), "lobh" (ehtiras), "moh" (maddi bağlılıq), "kam" (şəhvət).* Hər siqhin itaət etməsi lazım olan və beş pisliklə mübarizə apararkən istifadə edəcəyi beş üstünlük- məmnuniyyət, xeyirxahlıq, şəfqət, müsbət tutum və təvazökarlıq vardır.

Bütün siqhlər əsas təməl dəyərlərə inanmaq məcburiyyətindədir. Birincisi odur ki, tanrı (Sam Nam) qatında bütün insanlar bərabərdir. Bütün varlıqlar Tanrının ruhlarının sahibidirlər, bu səbəblə də uyğun şəkildə hörmət görməlidirlər. Hər adamın yaşamaq haqqı vardır. Qurtuluş adamın hərəkətləri, davranışları əsasında əldə edilə bilər; yaxşı işlər, Tanrının xatırlanması və s. Siqh-

zimdə ailə qurmaq, ailə həyatı yaşamaq təşviq edilir. Müqəddəs mətnə görə, bütün siqhlərin qazanclarının heç olmasa 10 %-ni, həyatlarının 10 %-ni birliyə, digərlərinə kömək etməyə və tanrı xidmətinə xərcləməlidirlər. Xoşbəxt hadisələrlə pis hadisələri eyni şəkildə görə biləcək şəkildə şəxsiyyəti inkişaf etdirmək, Tanrının təqdir etdiyi hər cür hadisəni (yaxşı və ya pis) qəbul edə bilmək. Siqhizmə görə həyatın dörd meyvəsi- həqiqət, məmnuniyyət, təfəkkür və "naam" vardır.

Qadağan edilən davranışlar aşağıdakılardır: *Məntiqsiz davranışlar*: siqhlərə görə, mənası olmayan ayinlər (sünnət olmaq, həccə getmək, oruc tutmaq, çaylarda yuyunmaq, görünüş və ya bütlərə tapınmaq və s.); *Maddi bağlılıq:* ("Maya") maddi şeylərin (mal-mülk, zinət) yığılması, bunlara həddindən artıq bağlılıq mənasızdır, çünki ölərkən bütün mal varlığın burada (dünyada) qalacaq; *Canlıların qurban edilməsi:* (Sati) dulların özlərini ölmüş ərləriylə birlikdə yandırması, xırda və ya iri buynuzlu heyvanların müqəddəs bayram və s. zamanlarda qurban edilməsi və bənzəri şəkildə canlıların qurban edilməsi qadağan edilmişdir; Ailə nizamı olmayan həyat tərzi: bir siqhin zahid, keşiş və ya yoqi həyatı yaşaması uyğun görülmür, təşviq edilmir;. *Gərəksiz danışmaq:* Öyünmək, qeybət, yalan danışmaq və s. qadağan edilmişdir; Spirt, narkotik maddələr, tütün və digər bənzəri məstedici, sərxoşluğa səbəb olan maddələrin istifadəsi qəbul edilmir; Siqhlərin dini vəzifələrini yerinə yetirmək üçün ruhanilər təbəqəsinə və ya hər hansı rahibin sözlərinə əsaslanmaq lazım deyil; *Önfikirli davranış:* siqhlər varna, irq, sinif və ya cinsiyyət ayrı-seçkiliyi etməməlidirlər. Ayrı-seçkilik və ədalətli olmayan davranışlar siqh təlimlərinin tam əksi sayılır.

Siqhizmdə **"üç qızıl qayda**" əhəmiyyətinə görə sıralanmışdır: *"Kirat Karo"*, yəni tanrını xatırlamaq, dürüst qazanc, əmək və s; *"Naam Capna",* yəni siqhizmdəki tanrı adının (*"Vahequru")* təkrarlanması; *"Vand Chakkna"* yəni ehtiyacı olanlarla

paylaşma, pulsuz yemək *("langar"),* gəlirin 10 %-ni bəxş etmək *("dasvand")* zamanın 10 %-ni yaxşı işlərə xərcləmək.

Pəncab əyalətində siqhlərin dövləti 1875-ci ildə dağılmış, ingilis işğalı altına düşmüşdür. Siqhlərin kolonializmə qarşı çıxışları ingilislərin himayəsinə sığınan, onlara xidmət göstərən, *"qurdvar"*ların rəhbərləri olan *"mahanta"*lara qarşı çevrilmişdir. XX əsrin 20-ci illərində bu mübarizə daha da şiddətlənmiş, siqhlərin könüllü dəstələri *"qurdvar"*ları tutaraq "mahantaları" qovmuşlar. Bu könüllü qruplar arasında **"Akali dal"** (Ölümsüzlər) adlanan korpus təşkil edilmişdir. Sonralar bu təşkilat Pəncabın ictimai-siyasi həyatında mühüm rol oynayan siyasi partiyaya çevrilmişdir. 1925-ci ildə kolonial hakimiyyət Pəncabda və qonşu vilayətlərdə siqh "qurdvarlar"ına nəzarəti **Qurdvarların İdarəolunması Komitəsinə** (QİK) verilmişdir.

Hazırda QİK 750 "qurdvar"a nəzarət edir, bu təşkilat siqhlərin mini –parlamenti sayılır. QİK rəhbəri siqhlərin dini və mülki təşkilatı olan "Akali taxt"ın rəhbərini-*"cathedar"* (rəhbər) təyin edir, o isə öz növbəsində "qurdvarlar"ın rəhbərlərini müəyyənləşdirir. Siqhlər üçün *"Akali taxt"*ın qərarı yekundur, ondan şikayət oluna bilməz. *"Akali taxt"* icmanin hər bir üzvünü cəzalandıra bilər, ən biabırçı cəza isə Amritsara, Qızıl Məbədə gələnlərin ayaqqabısını təmizləməkdir. Siqh dövlətinin hökmdarı Rancit Sinqh, mərkəzi hökumətin keçmiş daxili işlər naziri Buta Sinqh bu şəkildə cəzalandırılmışdır.

Hindistanla Pakistanın 1947-ci ildə ayrılmasından sonra siqhlərin böyük hissəsi Pəncabdan Hindistanın müxtəlif bölgələrinə göndərildilər, assimlyasiyaya məruz qaldılar. Hindistan və Pakistan arasında ərazi uğrunda müharibələr dini qarşıdurmaları gücləndirmişdir. Xüsusilə siqhlərin hindli və müsəlmanlarla qarşıdurmalarında on minlərlə insan həyatını itirmişdir. Hətta bu qarşıdurmalar 1984-cü ildə bir siqh mühafizəçinin Hindistanın baş naziri İndira Qandini öldürməsinə qədər gedib çıxmışdır.

Müasir dövrdə siqhizmin islam və ya hinduizmdən yarandığı haqqında iddiaları qəbul etməyən siqh dini və siyasi xadimləri bildirirlər ki, siqhizm müstəqil dindir. Maraqlıdır ki, siqhizm hinduizmə qarşı deyil, hind ümummədəni vətəndaş ənənələrinə qarşı qoyulur. Bu da müəyyən mənada siqhlər arasında separatizm meyllərini gücləndirir. Siqhizmin ayrı bir dini təlim olması 1973-cü ildə siqh liderlərinin şurasında rəsmən açıqlanan "Anandapur qətnaməsi" ilə təsdiqlənmişdir. Qətnamədə bildirilir ki, siqhlər təkcə dini icma deyil, öz ərazisi və müstəqil inkişafa haqqı olan ***"koum"*** (millət) sayılır.

Siqhlər arasında rituallara görə bir-birindən fərqlənən icmalar mövcuddur. Məsələn, ***"amritdhari"*** və ***"çarni"*** siqhləri "halsa"ya daxil olarkən müxtəlif ritualları yerinə yetirirlər. 1970-ci illərdə ortodoks ***"keşdhari"*** və ***"qırxıq sahacdhari"*** siqhlər arasında ciddi ziddiyyətlər baş vermişdir. Fundamentalist əhval-ruhiyyə əsasında ***"sahacdhari"*** anlayışı ittihama çevrilmişdir. Onların saqqallarını qırxması siqh inancından uzaqlaşma kimi qəbul edilmişdir.

Müasir *"namdarlar"* sadə həyat tərzi keçirir, onlar vegeterian yemək, siqaret və alkoqol içkilərə tam qadağa, sadə nikah adətləri və s. kimi qaydalara ciddi əməl edirlər. Ağ türban və ağ geyim fikirlərdə və əməldə təmizliyin simvoludur. *"Saqquru"*-nun rəhbərlik etdiyi "namdharlar ağ rəngli yundan kəmər taxırlar. Siqhlər arasında aşağı kastaların nəslindən olan "nihanq"lar xüsusi yer tutur. Onlar Qobind Sinqh və Rancit Sinqhin quru ordusunda intiharçı zərbə qüvvəsini təşkil etmişlər. Onlar "qurdvar"ların mühafizəsini, siqh adətlərinə əməl olunması funksiyasını yerinə yetirirlər. "Nihanqlar" QİK-lərə deyil, öz icmalarının rəhbərlərinə tabedirlər. Onlar ənənəvi qara türban, açıq yaşıl xalat geyinir, əyri qılınc gəzdirirlər. Əkinçi "catlar" və şəhər ticarətçi "khetri"lərdən başqa siqhlərin "ramdasi", "mazhabi" və "ramqarhi" adlanan icmaları vardır.

Bu gün siqhlər əsasən şimal-qərbi Pəncab bölgəsində yaşayırlar. Sayları 20 milyon nəfərə yaxındır, bu da Hindistan əhalisinin 2%-ni təşkil edir. Siqhlər kiçik qruplar halında İngiltərə, Kanada, ABŞ, Malayziya, İndoneziya və Şərqi Afrika ölkələrində yaşayırlar.

Siqhlər Quru Nanakın doğumu, Quru Arcanın öldürülməsi kimi müxtəlif hadisələrin xatırlandığı "Gurpurb", bayramını, eyni zamanda Hindistanda məşhur olan "Vaisaki", "Divali" bayramlarını qeyd edirlər.

***Sual və tapşırıqlar:***

*1.Siqhizmin yaradıcısı Quru Nanak haqqında danışın.*

*2. Siqhlərin müqəddəs kitabı: "Adi Qranth".*

*3. Siqhizmin iki inanc əsası: Tək tanrıya inanmalı və 10 siqh qurusunun təlimlərinə əməl edilməli.*

*4. "Pahul" və "khalsa" ("keşa", "kanqha", "karha", "kaçhehra" , "kırpan") sistemi barədə təqdimat hazırlayın.*

*5. Qurdvarların İdarəolunması Komitəsinin rolu nədən ibarətdir?*

## *1.6. Xristianlıq*

Hindistanda üçüncü böyük dini qrup xristianlardır (əhalinin 3%-i). Cənubi Hindistana ilk xristianlar hələ I əsrdə gəlmişlər. Rəvayətə görə, 52-ci ildə Malabar sahillərinə (müasir Kerala ştatı) İsa peyğəmbərin şagirdlərindən biri olan apostol Foma gəlib çıxmış, burada xristianlığı yaymış, sahillərdə 7 məbəd tikmişdir. Apostol Fomanın Malabar sahillərinə gəlməsinin 1900 illiyi münasibəti ilə 1953-cü ildə Apostol Foma kilsəsi tikilmişdir, burada onun İsa peyğəmbərin yarasına toxunan əlinin qalıqları saxlanılır. Rəvayətə görə, apostol Foma Mahadevana hakiminin hökmü ilə

Madras (Çennayi) şəhərinin yaxınlığındakı təpədə yerləşən Bakirə Mariya kilsəsində ibadət edərkən öldürülmüşdür.

Miladdan sonra ilk əsrlərdə Hindistana gələn xristianlar sonrakı dövrdə xristianlıq tarixində baş verən proseslərdən demək olar ki, kənarda qalmışdır. Orta əsrlərdə Hindistanda xristianlığın yayılması portuqal və ingilis kolonializmilə sıx bağlı idi, bunu xristianlığın yayılması coğrafiyası da təsdiqləyir. Portuqaliyalılar ölkəyə müdaxilədən sonra yerli xristianlara məcburi şəkildə katolikliyi qəbul etdirmişlər. Onları Roma katolik kilsəsi ilə uniyaya daxil olmağa məcbur etmiş, bunun nəticəsində də Hindistanda Silo-Malabar kilsəsi yaradılmışdır. Müəyyən zaman keçdikdən sonra bir qrup Roma ilə münasibətləri pozaraq kilsədən uzaqlaşmış, lakin öz əvvəlki nestorian ənənələrinə qayıtmamışlar. Onlar yakobit (monofizit) ehkamlarını qəbul etmişlər.

Hindistanda əhalinin xristainlaşdırılması ilə katolik-portuqallarla yanaşı, protestantlar-ingilislər, hollandlar, danimarkalılar, daha sonralar amerikalı missionerlər məşğul olmuşlar. Böyük Britaniya imperializminin siyasi-hərbi nəzarətindən yararlanan ingilis missionerlər üstünlük qazanmışlar. "Plimut qardaşları" adlı dini icmanın nümayəndəsi Entoni Norris Qrouvs 1833-cü ildə Hindistana gəlmiş, ölümünədək, yəni 1852-ci ilədək Qodavari çayı deltasında missioner fəaliyyəti ilə məşğul olmuşdur. Mormon missionerləri, o cümlədən, Hyu Findley 1850-ci illərin əvvəllərindən Bombey və Puna şəhərlərində missioner fəaliyyəti göstərmişdir. Ahmadnaqar və Maharaştrada missionerlər XIX əsrin əvvəllərindən fəaliyyət göstərmişdir.

Hazırda xristianların 70 %-i Kerala, Tamilnad, Andhre, Karnatak, Qoa və Maharaştrada yaşayır. Ölkənin cənub hissəsində xristianlıq portuqal və fransızlar tərəfindən, şimal-qərbində ingilislər tərəfindən yayılmışdır. Yalnız müstəqil şəkildə inkişaf etmiş Apostol Fomanın yaratdığı Malabar- Suriya kilsəsi, onun hissəsi olan Malabar müstəqil Suriya kilsəsi və Malankar Yakobit Suriya

kilsəsi istisna təşkil edir. Yakobit kilsəsi IV əsrdə Suriya və İrandan gələn xristianlar tərəfindən yaradılmış, bu kilsələrdə indiyədək qədim aramey dilində rituallar yerinə yetirilir.

Ölkədə xristianların 14 %-i şimal-şərq ştatlarında yaşayır, burada onların sayı önəmli faktora çevrilmişdir. Kerala ştatında 7 milyon xristian əhalinin 20,4 %-ni, şimalda 500 min xristian Mizoram ştatının əhalisinin 82 %-ni təşkil edir. Naqalandda xristianlar 75 %, Manipurda 30 %-dir. Azsaylı xalqların xristianlığı qəbul etməsi prosesi davam edir. Əgər 1950-ci illərin əvvəllərində Arunaçal Pradeş ştatında 5 min xristian vardısa, 1980-ci illərdə onların sayı 60 min nəfərə çatmışdır.

Hindistan xristianları çoxsaylı icmalara ayrılırlar. Burada xristianların dörddə üçü (14 milyon) katoliklərdir. 1944-cü ildə katoliklərin 48 yeparxiyası olduğu halda, indi 102 yeparxiya fəaliyyət göstərir. Hind katolikləri İtaliya, Braziliya, ABŞ katoliklərindən sonra sayca dördüncü yerdə durur, onlardan 3 kardinal, 18 arxiyepiskop Vatikanın fəaliyyətində mühüm rol oynayırlar. Son illərdə katoliklərə Siro-Malabar kilsəsi (3 milyon inanan, 21 yeparxiya), qoşulmuşdur. V əsrdə Suriyadan gələnlərin yaratdlğı bu kilsə “haldeylər” adlanır, onlar ortodoks (latinlilər) və hindliləşmə tərəfdarları ilə ciddi konflikt içindədirlər. 1930-cu ildə katoliklərə Siro-Malankar kilsəsi (400 min inanan, 3 yeparxiya) birləşmişdir. Katolik icmaları arasında liturgiya və ibadət dili ilə bağlı fikir ayrılıqları özünü göstərir. Roma papalarının Hindistana səfərləri (1986, 1999) buradakı katolikləri birləşdirə bilməmişdir.

Ölkənin şimal-şərqində protestant icmaları-Amerika baptist kilsəsi, Şotland presveterian kilsəsi, Yeddinci günün adventistləri, İeqova şahidləri, İrland xristian qardaşlığı, meninitlər və s. fəaliyyət göstərir. 1978-ci ildə hind xristianlarının konvensiyasında 100 kilsə təmsil olunmuşdur.

Xristian missionerlərinin xüsusilə azsaylı və sosial-iqtisadi baxımdan geri qalmış xalqlar arasında fəaliyyəti onların həyat

tərzində ciddi dəyişikliklərə gətirib çıxarır. Naqalandda fəaliyyət göstərən müxtəlif protestant kilsələri tez-tez "naqlar" arasında tayfalararası münasibətləri kəskinləşdirir, rituallar və bayramlarla bağlı ziddiyyətləri düşmənçiliyə çevirirlər. Oxşar vəziyyətə düzənlik ərazilərdə də rast gəlinir.

Bir çox hallarda xristianlığın qəbul olunması səthi olur. Acmer rayonunda (Racastan) 1904-cü ildə xristianlığı qəbul edən racaput kastasından olan "ravatlar" katolik kimi dua etsələr də, hindli kimi yaşayırlar. Onlar eyni coşğunluqla Milad gününü, Divali, Pasxa, Holi bayramını qeyd edirlər. Ümumiyyətlə, Hindistanda xristianlıq dərin kök salmışdır. Keşişlər təkcə dini həyata təsir etmir. Kilsələr yüzlərlə məktəb, xəstəxana, yaşlılar üçün evlər və yataqxanalar, kənd təsərrüfatı və sənətkarlıq mərkəzləri saxlayırlar. Xristianlarla hakimiyyət orqanları və siyasi partiyalar hesablaşmağa məcburdurlar. Xristian missionerləri xüsusi ilə Arunaçal-Pradeş ştatında fəaliyyət göstərirlər. Burada çoxsaylı dialektlərdə danışan 26 tayfa məskunlaşmış, bu tayfalar ruhlara, əcdadlara, Günəş-Ay tanrısı (Donyi-Polo), bolluq tanrısı Kine-Naneyə sitayiş edirlər. Missionerlərə qarşı *"dandai"*adlanan kahinlər fəaliyyət göstərirlər.

Şimal-şərq ştatlarında xristianlığın qəbulu təsərrüfat həyatına, hətta ekologiyaya ciddi təsir göstərir. Yerli əhalinin animist inancları "tanrıların, ata-babaların ruhunun yaşadığı" meşələrə müqəddəs baxmağı, qorumağı tərbiyə etmişdir. Xristianlığın qəbulu ilə bu "tabu"lar aradan qalxmış, meşələrin qırılması prosesi sürətlənmiş, *"chum"* adlanan tala əkinçiliyi genişlənmişdir. Lakin bu vəziyyət təkcə dini inanclarla bağlı deyil, bazar iqtisadiyyatının inkişafı ilə sıx əlaqəlidir. Analoji vəziyyətə Madhya-Pradeş ştatının dağlıq rayonlarında da rast gəlinir.

Hindistanın müstəqilliyi dövründə xristianlığa münasibət birmənalı deyil. Cəmiyyətin modernləşdirilməsinin tərəfdarı olanlar hindli xristianları dözümlə qarşılayırlar. Ənənəvi hind siyasət-

çiləri hindli xristianlara qarşı kifayət qədər barışmaz münasibətlərini ifadə edirlər. Hind dirçəlişinin ideoloqu M.C.Qolvarkar yazır: *"Bizim ölkədə yaşayan xristian centlmenlərin məqsədi təkcə bizim dini-sosial strukturu dağıtmaq deyil, eyni zamanda müxtəlif rayonlarda özlərinin siyasi hakimiyyətini qurmaqdır. Nə qədər ki, Hindistan xristianları öz vətənlərinə tam loyallıqlarını bəyanlamırlar, özlərini əcdadlarının yaratdığı mədəniyyətin əsl varisi kimi aparmırlar, onlar bizim düşmənimiz olaraq qalacaqlar, biz onlara bu cür münasibət bəsləyəcəyik".* Hətta 1978-ci ildə "Canata parti" hakimiyyətdə olarkən, parlamentə təqdim olunan "Din azadlığı haqqında" qanunda hindusların xristianlığı və islamı qəbul etməsinə qadağa qoyulması təklifi irəli sürülmüşdü. Bu qanun İndira Qandi hökuməti zamanı (1980) parlamentdən keçməsə də, bəzi ştatların qanunverici orqanlarında qəbul edilmişdir.

Hindistanda 1947-ci ildə lüteran və metodistlərdən başqa, bütün protestant axınlarının birləşdiyi Cənubi Hindistan Kilsəsi, 1970-ci ildə Şimali Hindistan Kilsəsi yaradıldı. Bundan başqa 24 təriqəti, 14 regional şuranı, 10 təşkilatı birləşdirən Milli Xristian Şurası fəaliyyət göstərir. Xristian icmalar 1978-ci ildə Kəlküttədə Müqəddəs Pavel Kilsəsində, Müqəddəs Fomanın Malabar Kilsəsində birgə ibadət keçirmişlər, bu praktika get-gedə daha çox tərəfdar qazanır.

Hindistanda sadə xristianlar bu dini təlimin incəliklərini o qədər də bilmirlər. Bir sıra din xadimləri sadə xristianların eyküменist hərəkata qoşulması üçün ***"kilsənin hindliləşməsi"*** ideyası ilə çıxış edirlər. Katoliklər bu prosesi *"inkulturallaşma"* adlandırırlar. Bu prosesdə ruhanilər xristianlığa məxsus paltarları deyil, hind "sadhu" və buddist monaxlarının paltarlarına bənzər zəfəran rəngində paltarlar geyinirlər. Hind musiqi alətlərinin sədaları altında keçirilən dini ritual zamanı şərab və birlik çörəyi əvəzinə kokos südü və kətədən ("çapati") istifadə olunur, ritual *"çandam"* (möminin alnına dəfnə yarpağından hazırlanmış rəngin çəkilməsi) mərasimi ilə davam edir, hətta ikonalarda ənənəvi hind motiv-

lərinə üstünlük verilir. Bu sahədə katolik kilsəsi xüsusi aktivlik göstərir. Kilsənin rituallarına inanan şəxsin hindli, hətta hindust, inanc və ehkamlarına görə xristian qalması əsas götürülür.

Müsəlmanlar arasında olduğu kimi, xristianlar arasında da hinduist ənənələri yaşamaqdadır. Maharaştada xristianlar *"konkan brahmanları", "sarasvat brahmanları","xristian maharlara"* ayrılırlar. Onlar nikah adətlərində və bir-birindən yemək qəbulunda "varna-cati" qadağalarına kifayət qədər sərt şəkildə əməl edirlər.

Xristianlığı ilk qəbul edənlərdən biri olan Manqalor (Karnataka) katolikləri özlərini xristian aristokratlar sayırlar. Sosial bölgünün bir tərəfi xristianlar və hinduslar arasından, digər hissəsi *"dalitlər"* arasından keçir. Belə hesab olunur ki, hindli xristianların 60 %-i "toxunulmazlar"dan ibarətdir. "Neobuddist"lər kimi, "xristian dalitlər" yeni dini qəbul etməklə sərt sosial diskriminasiyadan yaxa qurtarmağa, maddi vəziyyətlərini düzüəltməyə çalışırlar. Lakin xristian kilsəsinin qoynunda belə "toxunulmaz"lar yenə də "toxunulmaz" olaraq qalırlar. Bu ayrı seçkilik özünü nikah münasibətlərində, rituallarda göstərir. Kilsələrdə ibadət zamanı "dalitlər" yalnız qapılarda, yaxud onlar üçün ayrılmış hissədə dayanırlar. Əksər təriqətlərdə hətta qəbristanlıqlar da fərqləndirilir, yüksək kastalardan olan xristianların qəbirləri xristian "dalitlər"in qəbirlərindən hasarla ayrılır. Seminariyaya qəbul zamanı ayrı-seçkiliyə məruz qalan "dalitlər" xristianlığı qəbul etdiklərinə görə, maddi itkilərlə də üzləşirlər. Hindistan prezidentinin 1950-ci ildə imzaladığı fərmana görə, xristianlığı qəbul edən ***"qeydə alınmış kastalar"***ın ("toxunulmaz"ların rəsmi adı) üzvləri olan ***"dalitlər"*** hinduizmindən xristianlığa keçdikləri təqdirdə bütün güzəştlərdən məhrum edilirlər. Hindistan Ali Məhkəməsi 1985-ci ildə prezidentin bu fərmanını təsdiqləmişdir. Güzəştlərin bərpa olunması məqsədilə "Xristian dalitlərin azadlığı uğrunda hərəkat" yaradılmışdır. Hələlik Tamilnad və Kerala ştatlarında güzəştlər bərpa olunmuşdur.

Hindistanda Roma Katolik Kilsəsi daha çox nüfuza malikdir (9,7 milyon nəfər ardıcılı var). Katoliklər daha çox ölkənin cənubunda, eləcə də bəzi Qərb rayonlarında məskunlaşmışlar. Protestant kilsələri (4,3 mln nəfər) içərisində daha çox ardıcıllrı olanlar Cənubi Hindistan kilsəsi (700 min nəfər) və Şimali Hindistan kilsəsidir (1530 min nəfər). Cənubi Hindistan kilsəsini 1947-ci ildə ölkənin cənub hissəsində fəaliyyət göstərən protestant təşkilatlar yaratmışlar. Bundan başqa, Hindistanda baptistlər (2,1 milyon nəfər), lüteranlar (1,1 milyon nəfər), mennonitlər, Qurtuluş ordusunun (227 min nəfər) ardıcılları da vardır. İngilislərin işğalı ilə bağlı olaraq, Hindistanda anqlikan təriqəti yayılmışdır.

***Parslar.*** Hindistanda VII əsrdə islamiyyətin yayıldığı dövrdə İranın Fars əyalətindən Hindistana köçmüş pars-zərdüştülər də məskunlaşmışlar. Hazırda təxminən 100 min nəfər "zərdüşti-pars" dini-etnik icması (Maharaştra, Bombey) yaşayır. Bu dini icmanın üzvləri doğulandan "athorhan"lara və "behdin"lərə (dünyəvi) ayrılırlar. Rəsmən "pars" sözü "zərdüşti" sözü ilə sinonim sayılsa da, parsların öz aralarında bu identifikasiya fərqlidir. Onlar hesab edirlər ki, bütün parslar atəşpərəst deyil, eləcə də bütün oda sitayiş edənlər pars deyil.

Parsların icması kifayət qədər təmin olunmuş şəxslərdən-sahibkarlar, alimlər, siyasətçilər, təhsil işçiləri, hərbçilərdən ibarətdir. Onların arasından Hindistan azadlıq hərəkatının məşhur üzvləri (Dadabhai Naoroci), böyük ticarət-sənaye konsernlərinin ("Tata", "Modi", "Dastur") sahibləri, nüvə fiziki Homi Bhabha çıxmışdır. Bu icmada kasıblara, evsiz-eşiksizə rast gəlmək mümkün deyil və aralarında "toxunulmazlar" da yoxdur.

Kompakt yaşadıqları yerlərdə parslar ***"ancumanlar"***da birləşir, bura icma üzvlərinin sosial-mədəni ünsiyyət yeri sayılır. Mumbay (Bombey) şəhərində parsların əsas təşkilatı-"Bombey pançayatı" fəaliyyət göstərir. Bu təşkilat parslar arasında böyük nüfuza malikdir. Beş ildə bir dəfə parsların qurultayı keçirilir.

"Ancuman"larda martın 31-də parsların "camşedi- novruz" adlanan bayramı keçirilir, bunun üçün "caşah" (şükran mərasimi) təşkil olunur. Parslar Mumbayda çoxsaylı təhsil müəssisələrinə, xəstəxanalara, dini "sükut qalalarına" , od məbədi "aqiara" malikdirlər. Bombeydə 13 ailə-"khandiyar"lar dəfn adətlərini yerinə yetirir, ölmüş parsların meyidlərini "sükut qüllələrinə" qoyurlar.

Od məbədləri arasında ən məşhuru Udvade şəhərində 1742-ci ildə əsası qoyulmuş İranşo (Ataş behram) məbədidir, mərkəzi ziyarətgah sayılır. Hindistan hökuməti Udvadanı dinindən asılı olmayaraq hindlilər üşün 9 əsas ziyarət yerindən biri elan etmişdir.

Müasir dünyagörüşlü olmalarına baxmayaraq, kifayət qədər qapalı icma sisteminə malik parslar başqalarını öz daxillərinə buraxmamaqla yanaşı, heç bir başqa din mənsubu ilə nikah qurmurlar. Onların arasında gec evlənmə, qohumla evlənmə adəti yayılmışdır. Qarışıq nikah günah sayılır, belə nikahdan olan uşaqlar pars sayılmır, beləəri "navcot" mərasimini yerinə yetirə bilməzlər. Sayları sürətlə azalan parslar Avropa ölkələrinə köçməyə meyl edirlər.

***Yəhudilik.*** Hindistanda yəhudilər üç dövrdə məskunlaşmışlar. İlk dəfə e.ə. 175-ci ildə Qalileyadan gələnlər Bombeydə məskunlaşmışlar. Onlar özlərini "bene israil" və ya "*ağ yəhudilər*" adlandırır, "təmizqanlı yəhudu" olduqlarını bildirirlər. Roma hökmdarı Tito e.ə. Qüds şəhərindəki yəhudi məbədini dağıtdıqdan sonra daha bir qrup yəhudi qaçqınları Keralanın Malabar sahillərindəki Koçin şəhərində məskunlaşmış, yəhudi məhəlləsi qurmuşlar. Onların əsasını qoyduqları sinaqoqların bir çoxu hazırda fəaliyyət göstərmir. Bu qrup yerli əhali ilə qaynayıb-qarışmış, "koçini yəhudilər" və ya "qara yəhudilər" adını almışlar. Onlar özlərini İbrahim peyğəmbərin birbaşa nəsilləri sayırlar. Kəlküttə şəhərində XVIII əsrdə İraqdan köçmüş ***"bağdadi yəhudiləri"*** yaşayır, onlar digər yəhudi qruplarla müqayisədə daha yüksək statuslu sayırlar. Hindistanda 1940-cı illərdə 40 mindən çox yəhudi yaşayırdı, 1991-ci il siyahıyaalmasında isə 5618 yəhudi qeydə alınmışdı,

hazırda isə onların sayı cəmi iki min nəfərdir. Saylarının belə azalması yəhudilərin İsrailə köçməsi ilə əlaqədar idi.

XX əsrin ikinci yarısında Hindistanın şimal şərqində iki yeni yəhudi qrupu ortaya çıxdı. Manipur və Mizoram ştatlarının qovuşuğunda yaşayan "meytheylər"dən 4300 nəfər 1972-ci ildə özlərinin İsrail oğullarının 10 qolundan biri olduqlarını açıqladı, bunun üçün Hindistan hökumətinə, Hind Yəhudi Şurasına müraciət etdilər. Daha sonra Meqhala və Mizoram ştatlarında yaşayan, sayları iki milyon nəfər olan "çinkuki" tayfasının nümayəndələri özlərinin yəhudi olduqlarını bildirdilər. Hətta Mizoram ştatının paytaxtı Aycal şəhərində Sion küçəsi yarandı. Bu qrupun özünün ravvinləri, sinaqoqları vardır, Tora öyrədilir. "Çinkuki"lər özlərini Manmasi və ya Manaşi (İosif Manassiyanın böyük oğlu) adlı yəhudi peyğəmbərinin nəslindən sayırlar. Monqoloid irqinə aid "çinkukilər" həyat tərzlərinə görə ətrafdakılardan fərqlənmirlər. İsrail hökuməti onları yəhidi saymır və ölkəyə gəlmələrinə icazə vermir. Lakin "çinkuki"lərin bəzi nümayəndələri Toranın öyrədilməsi, yəhudilərin həyat tərzi ilə tanış olmaq üçün İsrailə dəvət olunmuşdur. Həm coğrafi şəraitin əlçatmazlığı, həm də bölgədə separatçı qrupların fəaliyyəti, Hindistan hökumətinin həssaslığı bu tayfalarla əlaqə qurmağı çətinləşdirir.

***Sual və tapşırıqlar:***

*1.Cənubi Hindistana ilk xristianlar I əsrdə gəlmişlər.*

*2. Apostol Foma haqqında məlumat ver.*

*3. Orta əsrlərdə Hindistanda xristianlığın yayılması portuqal və ingilis kolonializmi ilə sıx bağlı idi.*

*4. Xristianların 70 %-i Kerala, Tamilnad, Andhre, Karnatak, Qoa və Maharaştrada yaşayır.*

*5. "Xristian din xadimləri xristian hindlilərin eykümenist hərəkata qoşulması üçün kilsənin "hindliləşməsi" ideyası ilə çıxış edirlər"-cümləsini izah edin.*

# II FƏSİL

# HİNDİSTAN CƏMİYYƏTİNİN VARNA-CATİ QURULUŞU

Modernləşmə baxımından əldə olunan uğurlarla yanaşı, mürəkkəb tərkibi ilə seçilən Hindistan cəmiyyəti ənənəviliyini qoruyub saxlayır. Bu ölkədə çoxsaylı etnolinqivistik, etno-ərazi, irqi, dini, lokal icma, korporativ, sosial-iqtisadi, status kateqoriyalar mürəkkəb şəkildə bir-birinə çulğalanmışdır. Sosiumda hər bir komponent bir neçə daxili identifikasiya göstəricisinə malikdir. Belə hal sosial münasibətlərdə çoxtərəfli konfiqurasiya ortaya çıxarır. Rəngarəng identiklik, icma qapalılığı sosial inkişafın dərin ənənəvi forma və modellərini əks etdirir. Maraqlıdır ki, hind cəmiyyətində dini-sosial qrupların qapalılığının müəyyən üstünlükləri vardır. Kasta qaydaları adətən, şəxsi və ictimai gigiyenanın kortəbii dərk edilməsi, bütövlükdə isə tropik iqlimə adaptasiya olunmuş strategiya kimi qəbul olunur.

Ənənəvi sosial münasibətlər özünü iyerarxik baxımdan sıralanan, xarici əlaqələri sərt şəkildə məhdudlaşdıran endoqam icmalarda daha çox inkişaf etmişdir. Avropalı alimlər buna “kasta” (cins, növ) adını vermişdir və bu anlayış XIX əsrin ortalarından elmi baxımdam aktuallaşmışdır. Həmin dövrdə hind cəmiyyətinin spesifik xüsusiyyətlərinin öyrənilməsi Böyük Britaniya kolonial hakimiyyətinə praktiki baxımdan lazım idi.

## 2.1."Varna-cati" sisteminin dini-ideoloji əsasları.

"Caste" ispan və portuqaliya mənşəli sözdür, "övlad" və ya "irq" deməkdir. Bu latın "castus" sözündən götürülmüşdür, "təmiz" anlamına gəlir.

***"Varna-cati"sistemi*** hind dini dünyagörüşünün əsaslarına uyğundur, bu sistem hinduizm ideologiyası əsasında formalaşmışdır. Ən azı 3 min ildir ki, hind cəmiyyətinin dini təlimlərə söykənən etik imperativləri qarşılıqlı sosial təsirin və ictimai dünyagörüşün mühafizəkarlığına xidmət edir.

Hindistanda olduğu kimi heç bir digər sivilizasiyada din bu qədər dərin rol oynamır, ictimai həyata bu qədər təsir göstərmir. Din sosiumun inkişafında, onun strukturunun müəyyənləşməsində böyük əhəmiyyət daşıyır. Hind cəmiyyətinin əsasında anadan olandan insanın bərəbərsizliyi, qeyri-bərabər hüquq durur. Cəmiyyətin hər bir təbəqəsinin vəzifələri sərt şəkildə müəyyənləşdirilmiş, bu və ya digər təbəqənin nümayəndələri vəzifələrə bütün həyatı boyu əməl etməlidir.

Hind cəmiyyətinin kasta quruluşu, yəni, dini-sosial təşkilatı e.ə. I minilliyin əvvəllərindən b.e. V əsrinə qədər formalaşma dövrü keçirmişdir. Kasta quruluşunun ideologiyasını hinduizmin dini təliminin təbii tərkib hissəsi kimi qəbul etmək lazımdır. Bu sistem hinduizmin ***"dharma", "karma" və "sansara"*** (ruhun transmiqrasiyası) kimi əsas konsepsiyaları və anlayışları ilə sıx bağlıdır.

***"Dharma"*** sanskrit dilində "dhar" və ya "dhri" sözündən yaranmışdır."Dharma" və ya "dhamma" termini hinduizmdən başqa, buddizm, caynizm və siqhizm dini təlimlərində də istifadə edilir, ümumiyyətlə, 10-dan çox fərqli mənada işlədilir.

Hinduzimdə ən önəmli prinsip sayılan **"dharma"** fəlsəfi olaraq *"dünya iradəsi"* mənasını daşıyır. Hind dini fəlsəfəsində insanın məqsədləri dörd mühüm anlayışla ifadə olunur: ***"kama"***

***- hissi həzz; "artha" - sərvət; "dharma" - əxlaqi borc; "mokşa" - maddi dünyanın əzablarından xilas olma.*** "Upanişadalar"da da "dharma" – qanunauyğunluq sayılır. Nizam, vəzifə, düzgünlük, əxlaq, müdriklik, yüksək həqiqətlərə aparan yol olan "dharma"ya uyğun həyat sürən insanlar "mokşa"ya çatırlar.

Hinduizmə görə, "varnalar" ilahi düzülüşdür. Bu dini təlimdə ilahi və ictimai vəzifələrlə (dharma təlimi) kasta sisteminə mənsubluq arasında əlaqə vardır. ***"Varna" sisteminə görə, brahmanın (brahmin) vəzifəsi "Vedaları" öyrənmək və öyrətməkdir.*** İnanca görə, brahman başqa kasta üzvündən su alırsa, bu kasta təmiz hesab olunur. Yaxud brahman bir kastadan yağda bişirilmiş yemək qəbul edərsə, onda kasta daha yaxşı sayılır. Brahman hər hansı kastadan suda bişirilmiş yemək qəbul edirsə, onda kasta hələ yaxşıdır. İnanca görə, bir kasta üzvü brahmana su verirsə, ya ona toxunursa, bu kasta olduqca yaxşıdır. Bir kasta üzvü suyu çirkləndirmədən brahman qadına verərsə, ya toxunarsa, bu kasta hələ yaxşıdır. Bir kasta üzvü çirkləndirmədən brahmin dul qadına su verərsə, qadın ona toxunarsa, bu kasta ən yaxşıdır və s. ***"Kşatri"nin vəzifəsi isə cəmiyyətə liderlik, hökmdarlıq etmək, onu hərbçi kimi qorumaqdır.*** Kşatrilərin hamısı döyüşçü olmasa da, hərbi hazırlıq keçirdi, onlardan bəziləri tacir və sənətkar "cati"sinə daxil olurdu. Yüksək "varna" üçün əsas "dharma" ədalətli idarəetmə və döyüş meydanında igid davranmaqdır. Aşağılar üçün isə yüksək varnalara xidmət və ona tapşırılan işi yerinə yetirmək "dharma" sayılır. ***İlk dövrlər vayşilər əkinçi, torpaq sahibi olsalar da zaman keçdikcə varlanaraq, zəngin tacirlərə çevrilmiş, "gildiyalar" yaratmışlar.*** Məhz vayşilər buddizm və caynizmə yardım göstərmiş, burjuaziya rolunu oynamış, elmə, sənətə dəstək olmuşlar. Lakin onlara qarşı diskriminasiya özünü göstərmiş, vayşilər daha çox vergi ödəmiş, brahman və kşatrilərlə müqayisədə ictimai iyerarxiyada aşağı yer tutmuşlar. Varna inancına görə, hər fərdin davranışı onun sonrakı həyatını müəyyənləş-

dirir. İnsanın ruhu ölmür və ölümdən sonra hansısa canlıya keçir. ***Əgər insan xeyirxah əməllərlə məşğul olubsa, növbəti dəfə doğulanda onun "varnası" yüksəlir. Əgər pis işlər görübsə, onda "varna" sisteminə daxil olmayan "toxunulmaz"a çevrilir, hansısa heyvan, bitki kimi doğulur.***

İki min il əvvəl olduğu kimi, indi də hinduizm səmərəli sosial texnologiya sayılır, bu texnologiyanın əsas instrumenti sosial kollektivlərin kasta üsulu ilə təşkilatlanmasıdır. Ənənəvi elita dinin mənəvi imperativləri və dövlət institutları vasitəsi ilə sistemin aşağı səviyyələrinə nəzarət edir, etnoslararası problemlərin həlli, sosial təsir yollarıni tapır. ***Hinduizm dini təliminə görə, "sansara" və "karma" kainatın nizamını və ruhi inkişafı təmin edən qanunlarıdır.*** Bu təlimə əsasən, həyat – sadə təbiətdə maddələr mübadiləsindən, mövcudatdan daha yüksək səviyyədə təkrarlanan yenidəndoğulma zənciridir, bu dövran ***"sansara çarxı"*** adlandırılır. İnanca görə, yalnız insan öz ağlı-dərrakəsi ilə bu dövrü qıra və maddi dünyanın qoyduğu bütün məhdudiyyətlər torundan azad ola bilər. ***"Karma" səbəb-nəticə qanunudur. İnsanın keçmişi onunla qarşı-qarşıyadır. Yaxşıdan yaxşı, pisdən pis olacaqdır. Karma qanunu insanın taleyinə təsir edir.*** Əgər insanın vəziyyəti pisliyə doğru gedirsə, bu onun vaxtilə etdiyi pis əməllərin, yaxşılığa doğru gedirsə, yaxşı əməllərinin qarşılığıdır. Ümumiyyətlə, hind dini fəlsəfəsində yenidən doğulma təlimi "karma" adlanır. ***Karma qanununa əsasən fərdin bütün yaxşı və pis əməlləri onun həyatında əks olunur. İnsan öz davranışı ilə özünün gələcək taleyini müəyyənləşdirir. "Karma" fəlsəfəsinin bu ideyası brahmanizmin yenidən dirilməsi haqqında təlimin əsasında durur.***

"Karma" hərəkət, əməl mənasını verir, reinkarnasiya, yenidən doğuluş inamı ilə, həm də əxlaqi səbəbiyyət inamı ilə sıx bağlıdır. Konkret varnaya mənsub olma insanın yaxşı və ya pis olduğunu müəyyənləşdirir. İnsanlar özlərinin əvvəlki həyatları

"müqabilində" bu və ya digər varnaya məxsus olurlar. "Mahabharata və ya Bharata övladlarının böyük vuruşları haqqında dastan"da Şakuntala hökmdar Duşyantaya deyir: "-İndi ki bilə-bilə həqiqəti inkar edirsən, deməli, təkcə məni və xalqını aldatmırsan, doğma oğlunu danmaqla hən də böyük bir sərvətdən məhrum olursan. Elə bilmə ki, sənin bu haqsızlığından heç kim xəbər tutmayacaq. Nahaq deməyiblər ki, heç bir günah cəzasız qalmır:

*Bizim naqis əməllərimiz*
*Sanma bir gün yaddaşlardan*
*Öz-özünə çıxasıdır!*
*Həqiqətin adıyla*
*Könüllərdə yaz olur!-*
*Unutma ki, həqiqət*
*Günəşin, Yerin, Göyün*
*Ayın, Odun, Küləyin*
*Bir də ki, bu ürəyin*
*Yaddaşına yazılır!*

Qədimdən hind cəmiyyəti təbəqələşmiş sistem əsasında inkişaf etmişdir. Bu vəziyyət ***"çaturvarna"*** və ya *"çrama-dharma"* (dörd "varna"nın və həyatın dörd mərhələsi haqqında qanun) adlanan sosial təlimdə əksini tapır. Çoxsaylı "cati"lərdən ibarət "varna"ların strukturunun mürəkkəbləşməsi, ***"kula"*** *və* ***"cati"*** adlanan, sənət sahələrinə görə icma-tayfa strukturlarının yaranması kasta cəmiyyəti tərəfindən yerli icma və tayfaların udulması (absorbisiyasiya) prosesini əks etdirirdi. Eksterritorial varna sisteminə lokal icmaların "qəbulu" kasta quruluşunun formalaşmasının əsas mexanizmi idi. Ehtimal ki, arilərlə üz-üzə gələnədək yerli icmalar kastayabənzər cəmiyyətə malik idilər və kasta bölgüsü ariyaqədərki mədəniyyət ənənələrinə aid edilir.

***"Dharmaşastra"***larda kasta quruluşunun vacibliyi Hindistanda etnik rəngarəngliklə əlaqələndirilir, hind-arilərin "mədəni" obrazı brahmanların hakimiyyəti altında olmayan "qeyri-mədə-

ni" xalqlara (*mleççha, nişada, kirata* və s.) qarşı qoyulur. Hətta yuxarı "varna"ya mənsub insanların aşağı "varna" nümayəndələri ilə birlikdə yemək yeməlәri qadağan idi, çünki yuxarı "varna"-lar bunu xoş qarşılamırdılar, özlərini "çirklətmə" qorxuları vardı. E.ə. I əsrdə kasta cəmiyyəti bir sıra özünəməxsus xüsusiyyətləri mənimsəmişdi: **İlk üç hind-ari "varna"ya dördüncü şudra "varna"sı əlavə olunmuş və "varna"ya daxil olmayan "avarna" yaranmışdır. Dörd "varna"ya aid şəxslər "təmiz", "varna"ya daxil olmayanlar isə "çirkli" sayılırlar. "Varna"lar çoxsaylı "kapsul" formalı kastaya bənzər "cati"lərdən ibarət idi.**

*"Dharmaşastra"*ya görə, varna sisteminə daxil olmayanlar beşinci "avarna"nı təşkil edirlər, saylarına görə hazırda ölkə əhalisinin beşdə birini təşkil edirlər. Dini baxımdan "qeyri-təmiz" sayılan "avarna"lara Hindistanda müsbət diskriminasiya tətbiq olunur. "Avarna" özünün iyerarxik sistemini yaradır, hökumət onlara qarşı təhsil, dövlət xidmətinə qəbulda kvotalar tətbiq edir. Bu digər kasta qruplarının qısqanclığına gətirib çıxarır.

Tarixən "hinduizm ərazisi"nin genişlənməsi və brahmanizm təliminin hind əhalisi arasında yayılması nəticəsində hind cəmiyyəti bölümlü (seqmentli) xarakter daşımış, kasta cəmiyyətində sosiallaşma baş vermişdir. Bu xüsusi assimlyativ variantın təsviri üçün ***"sanskritləşdirmə"*** (hərfən mədəniləşdirmə) anlayışı uyğun gəlir. Sistemli sanskritləşmə hinduizmin sosial texnologiyasının əsas aspektlərindən biri, etnoslararası qarşılıqlı təsir üsullarından biridir. Brahman nəzəri və praktiki cəhətdən etnik icmaların mədəni muxtariyyatını hər bir "cati"nin "öz həyat qanunları" əsasında tanıyır, bu da "cati"lərin etnik özüməxsusluqlarının qorunub saxlanılmasına imkan vermişdir. Bu yanaşmanın nəticəsi belədir ki, sanskritləşməsinin obyekti və ənənəvi cəmiyyətin struktur vahidi olan "cati"lər etnik konsolidasiyanın əsas formasına çevrilmişdir. *"Svadharma"* prinsipi və bu prinsipdə əksini tapan, "cati" və kula sosial seqmentləri üçün nəzərdə tutulan dini göstərişlər

sanskritləşmə yolu ilə etnoslararası qarşılıqlı münasibətlərin qurulması üçün ideoloji təminata çevrilir. Maraqlı odur ki, ənənəvi magik-animist dünyagörüşlərin təsiri altında sərhədlər müəyyənləşir, brahmanizmin "cati" naturfəlsəfəsi daxilində qəbul olunur. "Cati" ona ünvanlanan *"Cati-daharma"* ("cati"nin həyatı haqqında qanun") dini göstərişləri əsasında inkişaf edir. Sanskritləşmə yad qrupların hind cəmiyyətində sosiallaşmasını nəzərdə tutan unikal, universal üsuldur. Beləliklə, institusional transformasiya-sanskritizasiya prosesi nəticəsində etnokasta icması formalaşır. "Cati"lərin statusu və etnokasta icma "varna" terminlərində əks olunur, təsərrüfat-mədəni tipləri ilə əlaqələndirilir. *İsti qurşaq əkinçilərinin təsərrüfat-mədəni tipi (şudra), köçəri və yarımköçəri maldarların təsərrüfat-mədəniyyət tipi (kşatri), tropik qurşağın yığıcılar və balıqçıların təsərrüfat-mədəniyyət tipi fərqləndirilir*.

## 2.2."Cati"lər hind cəmiyyətinin sosial əsası kimi

*"Cati"*nin mövcudluğu haqqında arxaik təsəvvürə əsasən, yalnız qapalı və qohumlardan ibarət kollektiv ("cati" tayfa icmaları birliyi) "ümumi taleyi" bölüşmək üçün ortaq həyat tərzi sürməli və həyat üçün vasitələri birgə əldə etməli, bu həyati bacarıqları başqaları ilə bölüşməməlidirlər. İbtidai cəmiyyətlərin "cati"lərə bölünməsi bu qapalı formalı icmalarda özünəməxsus etnomədəni xüsusiyyətlərin cəmləşməsinə, dəqiq şəkildə sərhədlərin müəyyənləşməsinə gətirib çıxarmışdır. Bu vəziyyət magik-animist inanclarla, yadlarla münasibətlərdə özlərinə qarşı hörmətsizliyin qarşısını almaq cəhdi ilə əlaqədar idi. Mədəniyyətə və həyat tərzinə görə müxtəlif "cati"lərin fərqi aydın şəkildə bilinir. Kasta həyatının qaydaları arxaik tabu ilə assosasiya olunur. Bu tabular, inanclar Hindistanın təbiəti, flora və faunası ilə, ilk əkinçilər, ovçular və yığıcılar dünyası ilə bağlı idi.

Hind ənənəvi cəmiyyətinin struktur modulları sayılan “cati”lər kasta quruluşunun formalaşması tarixi boyu Hindistan subkonentinin yerli və gəlmə tayfa seqmentlərini özündə toplamışdır. Tədricən ona yarıtayfa qohum professional sənətkar kollektivləri, kasta-“icmalar” əlavə olmuşdur.

Brahmanizmin təsiri altında hind-arilər üçün xarakterik “varna” dini bölgü prinsipi hind avtoxtonlarının tayfa icmalarının sosial bölgüsü əsasında dayanmışdır. İki dini-sosial sistemin tətbiqi ***“cacmani”*** formasında baş vermişdir. ***Bütün “cati”lərdə “cacmani” qarşılıqlı yardımı (ictimai əmək bölgüsü) mənəvi borc sayılır.*** Kasta quruluşu “cati”lər və onun tayfa tərkibi ilə sistemli qarşılıqlı təsirə əsaslanır. Adətən brahmanlar və tayfa başçıları ətrafında qurulan status bölgüsü sosial əlaqələrin əsasına çevrilmişdir.

Əsrlərdir ki, hind cəmiyyətinin intellektual elitası-barahmanlar kasta sisteminin mövcudluğuna dəstək verir, çünki burada hakimiyyətinin, hökmranlığının effektiv mexanizmini görür. Bu fəaliyyətdə sosial məsuliyyət çərçivəsində qüvvələr və maraqların müəyyən mənada balanslaşdırılmasını inkar etmək olmaz. Kasta təşkilatının mövcudluğunda ümumi məşğulluq zəmanəti, əmək məhsullarının və xidmətlərin mübadiləsi əksini tapır, yəni yaşayış vasitələri birbaşa “cati” statusu ilə sıx bağlı olur.

Ənənəvi hind cəmiyyətində icma-tayfa strukturları arasında qarşılıqlı təsirin ən yüksək bölgüsü kimi “cati” qəbul olunur, hind cəmiyyətinin əsas funksional vahidi sayılır. “Cati” nizamı ilə əlaqədar nə bir təşkilat, nə də bir sənəd vardır. Təxminən iki min il ərzində fərqli qəbilələrin birləşməsindən ümumi bir sistem yaradılmışdır. Bu sistemin qaydaları ilk dəfə ***“Manu Smriti”***də, yəni ***“Manu qanunları***”nda (e.ə. 200 və b.e. 200 illəri arasında) yazılmışdır. Başqa hind mənbələrində də “cati” sistemi gerçəklik kimi təqdim olunmuşdur.

***“Cati”*** anlayışı “can” sözündən törəmişdir, “doğuş” mənasını verir. “Cati” (“jati”) geniş ailə, ya da qəbilə olaraq qəbul edilə

bilər. "Cati"lər kasta sisteminin ictimai və ailə ölçüsüdür. Fərd "cati" içindəki statusuna doğuşdan sahib olduğundan bu statusu dəyişdirmək mümkün deyil. "Cati"lər həm professional, həm də etnik, sosio-ekonomik və mədəni müxtəlifliyə malikdir.

Çoxsaylı "cati"lərdən ibarət dörd "varna"da ***("çaturvarna")*** strukturlaşmanın, iyerarxık bölünmənin xüsusi prinsipi yaranmışdır. "Varna"ların təbəqə-professional ixtisaslaşmasında Hindistanın etnik icmalarının həyat təminatı üsulları əksini tapır. Varna iyerarxiyası və onlara aid "cati"lər brahman etalonu əsasında həyat təminatı parametrlərinə görə düzülür. Brahmanlar müxtəlif etnik icmaların landşaft-iqlim xüsusiyyətlərinə əsaslanan təsərrüfat fəaliyyətini tanrının "payı" və onların "mədəniliyinin" göstərici saymışlar. Buna görə də kasta cəmiyyətinin formalaşdığı ilk dövrlərdə müxtəlif tayfalar, professional ixtisaslaşmış tayfa seqmentləri, yerli və gəlmə tayfalar müəyyən varnaların komponentləri kimi, özünün təsərrüfat - mədəni tipi əsasında formalaşırdı. Onlar öz varnalarına uyğun olaraq, ünsiyyət sxemi əsasında sosial və ritual status əldə etmişlər.

"Cati"lər dörd "varna"ya aid olurlar. Birinci 3 varna ***"iki dəfə doğulanlar"*** sayılır. Brahman "varna"sı rahiblər, müəllimlər, məmurlar ziyalıların digər nümayəndələrindən ibarətdir. "Döyüşçü və hakimlər" "varna"sına – kşatrilərə hərbçilər, torpaq sahibləri, məsələn, ***"racputlar", "nayarlar", "samanthan"*** və başqa "cati"lər daxildir. Vayşı varnasına ticarətçi ***"baniya", "çatti"*** və bir sıra sənətkarlar, məsələn zərgər- sonar "cati"si aiddir. Aşağı "varna" sayılan və sayca çox olan şudralara- əkinçi ***"cat", "koli"***, çobanlar- ***"ahir", "qoala"***, dəmirçilər- ***"lohar"***, dülgərlər-***"barhan"***, dulusçular- ***"kumhar"*** və s. "cati"lər aid olunur. Aşağı, yəni, rəsmən "qeydə alınmışlar" adlandırılanlara, yəni keçmiş," toxunulmazlar"ın (paryalar) kastaları dəriçilər- ***"çamar",*** təmizləyicilər-***"bhanqi"*** və başqaları daxildir.

Hər bir hindli anadan doğulanda bu və ya digər "varna"ya olduğu kimi, hər hansı "cati"yə məxsus olur. Burada hindli öz

qrupunun ənənəvi həyat tərzindən total şəkildə asılıdır. Siyasi baxımdan, bu kastalar "icma" da adlandırılır.

"Cati" təsisatı üçün əməyin unikal şəkildə bölünməsi xarakterikdir. Burada qohumların özünü təşkili sistemin vahid prinsipi kimi fəaliyyət göstərir, iyerarxik və paritet statuslar isə sosial kollektivlər arasında qarşılıqlı təsir üsulu sayılır. Kasta cəmiyyətinin seqmentləri "yadlarla" əlaqələrini məhdudlaşdırır, bu münasibət qapalılıq prinsipləri və tabularla xarakterikdir. Din amili nəticəsində sosial təşkilat olan "cati" təkcə uzunömürlülük nümayiş etdirmir, eyni zamanda müxtəlif tarixi dönəmlərdə kasta quruluşunun funksional əsası kimi qalır.

"Cati" nizamının Hindistanda həyatın bütün sahələrinə təsiri aydın görünür. Kimin hansı peşə ilə məşğul olmasını da bu sistem müəyyənləşdirir. ***Hər bir kastanın ("varna"-"cati") özü onlarla altkastaya malikdir, əsrlərlə öz identikliyini qoruyub saxlayır.***

"Varna-cati" (kasta) quruluşunun əsasları cəmiyyətin qapalılığına gətirib çıxarsa da, bu gün bu ayrı-seçkilik müəyyən səviyyədə aradan qaldırılmışdır. Ancaq kəndlərdə qədim qaydaları görmək mümkündür. Lakin onu xüsusi vurğulamaq lazımdır ki, kasta sistemində təsnifat varlı və kasıblıq səviyyəsinə görə müəyyənləşmir, kasta ritual təbəqə və peşə vəziyyəti ilə ölçülür. Yəni insanın dini statusi ilə yanaşı, sosial statusu da onun "varna"sından asılıdır, bu dəyərləri fərdi və ictimai həyatın bütün aspektlərinə təsir göstərir. Məsələn, brahmanların bir çoxu rahib olsa da, ən yaxşı restoranlar aşbaz brahmanlara üstünlük verirlər. Müasir dövrdə belə, bəzi yuxarı varna nümayəndələri aşağı "cati"yə mənsub aşbazların hazırladığı yeməkləri yemirlər. Lakin hazırda ənənəvi işləri, hətta rahibliyi digər "cati" üzvlərinin yerinə yetirməsi təcrübəsi çoxalır. Məsələn, hazırda kşatrilərin yalnız bir hissəsi hərbçidir, dini lider *Svami Vivekananda* vayşa olmuşdur və s.

Qədimdə olduğu kimi, müasir dövrdə də ənənəvi nikah-qohumluq əlaqələri "cati"nin icma-tayfa kateqoriyasını formalaş-

dırır. Kasta (varna-cati) üzvləri yalnız öz aralarında nikaha girə bilərlər və kastanın əsası ailədir. Ailə ekzoqam sayılan nəsilə daxildir. Yəni, kasta sistemində qrup içində evlənmələr (endoqam, qohum-əqraba) əsasdır. ***Qohumluq kasta bağlantısının kökündə dayanır, üzvləri arasında həmrəyliyi, qarşılıqlı yardımı artırır.*** Kasta sistemində ailə münasibətləri kifayət qədər sərtdir, valideynlər qohum dairənin ekzoqamiyasına əməl edərək, öz statusuna yaxın "bərabərlik-qardaşlıq"la, "ümumi tale"li şəxslərlə qohum olmalı, övladlarını evləndirməlidirlər. Kasta üzvünün həyatının bütün sahələrini nəzarət altında saxlayırlar.

***"Cati"lər arasında "saf" və "çirkli" anlayışları mühüm yer tutur və təsnifatda bunlar əsas götürülür.*** Xüsusilə brahmanlar "saf soylu" sayılırlar. Qab-qacaq düzəldən sənətkar, zibil toplayanlar "çirkli soydan" hesab edilir. "Saf soylular" təbəqəsi özünü "çirkli"lələrdən uzaq tutmağa çalışır, hətta "toxunulmazlar"ın məbədlərə girmələri qadağandır.

Hələ ingilis işğalı dönəmində kastalar sayılır, qruplaşdırılırdı, Hindistan kastaların kolleksiyası hesab edilirdi. Kastalarla bağlı müxtəlif təriflər, yanaşmalar ortaya çıxmışdır. 1881-ci ildə siyahıyaalma həyata keçirən Pəncabın qubernatoru *D.İbbetson* kastalara əməyin ictimai bölgüsünün nümunəsi kimi baxırdı. İxtisaslaşmada tayfa və qəbilələr mühüm rol oynayır, kastanın sosial statusu tayfanın irqi statusu ilə deyil, siyasi təsir imkanları ilə ölçülürdü. *E.Blant* (1931) kastanın 3 mühüm xarakteristikasını qeyd edir: **varislik, endoqamiya, ünsiyyətin məhdudlaşdırılması.** O, aşağıdakı kastaları qruplaşdırır: ***"ixtisas ümumiliyi" ilə bağlı funksional kastalar; "qanla birləşən" tayfa və ya irqi kastalar; sektant kastaları (məsələn, qosain və bişnoi); dağ kastaları; toxunulmazlar; müsəlman kastaları:*** "Bütün kastalar öz müstəsnalığı ruhu üzərində möhkəmlənir, bu da başqaları ilə ünsiyyəti, əlaqələri qadağan edir. C.Hatton 1946-cı ildə yazdığı "Hindistan kastaları: təbiəti, funksiyaları, mənşəyi" adlı kitabda

kastaları 14 təbii-tarixi əlamətlərə görə, fərqləndirir. Onun fikrincə, məhz kastalara görə, Hindistan mədəniyyətinin rəngarəngliyi nəticəsində 3 min ildir ki, sosial sistem mövcud olmuş, yadelli təsir və hücumlara ciddi müqavimət göstərmişdir.

Hind alimi *Q.S. Qhurye* (1969) hindlilərin kastalara münasibətini bu şəkildə izah edir: ***"Kasta bir-birindən fərqlənən, bir cəmiyyətdə mövcud olan ayrı-ayrı kiçik, mükəmməl, ayrıca sosial dünyalardır"***. Onun sözlərinə görə, kastaların mühüm əlamətlərindən biri seçkili şuralarının olmasıdır: "Brahman və kşatri kimi yüksək kastalardan fərqli olaraq, əksər kastaların cəzalandırma da daxil olmaqla bir çox məsələləri həll edən daimi şurası fəaliyyət göstərir. Kasta üzvləri həyatın hər dönəmində bir-birinə kömək göstərir".

*İ.Karve (1961)* yazır ki, kasta sisteminin bünövrəsini qohumluq əlaqələri təşkil edir: *"Kasta endoqamiyaya əsaslanan, adətən, müəyyən linqivistik regionda yerləşən, yayılan, bir və daha çox ənənəvi məşğuliyyəti olan qrupdur. Bu qrup digər kastalara münasibətdə davranış modellərinə malikdir, iyerarxik nərdivanda müəyyən yer tutur".*

Son illərdə hind alimləri kasta sisteminin bir dini institut kimi sosial bərabərsizliyin obyektiv əsasını gizlətmək üçün brahmanlar tərəfindən yaradıldığını qeyd edirlər.

Müasir dövrdə Hindistan Respublikasında "kasta" sözü istifadə olunmur, bu sözə siyasi baxımdan korrekt sayılan "icma" sözü işlədilir. Dövlət orqanları insanın kasta mənsubiyyəti ilə maraqlanmır, eyni zamanda kasta ənənələri sosial həyatdan çıxmır. Çünki hər bir hinduist bu və ya digər "cati"yə mənsub olaraq doğulur, bu mənsubluq atadan, bəzən də anadan gəlir. Bu "cati"də o qədimlərdən gələn nəslini izləyə bilər. Lakin hinduizmi "qəbul etməklə" bu yolla kasta qrupuna daxil olmaq qeyri- mümkündür, çünki yalnız hinduist olaraq doğulmaq olar, hinduist olmaq olmaz. Hinduist hind sosial qrupunda, yəni kastada anadan olur, bu

qrupa ritual təmizlik və nikah qaydaları ilə sıx bağlı olur. Burada Şiva və ya Vişnu kimi çoxsaylı hindust tanrılarından birinə uyğun olaraq rituallar yerinə yetirilir. Hindistan müsəlmanları, siqh, cayna, xristian, yəhudilər, pars icmaları az da olsa kasta forması əldə edir, münasibətlərdə kasta rejimini qoruyub saxlayırlar. İqtisadi, sosial münasibətlər müstəvisində hind icmaları ilə əlaqələr inkişaf edir.

***"Catilər" özlərinin etno-mədəni xüsusiyyətlərini, təsərrüfat fəaliyyəti və məişətlərində, dini inanc və rituallarda öz daxili dünyalarının toxunulmazlıqlarını, ailə-qohumluq münasibətlərinin qapalılığını təmin edirlər.*** "Cati"lər sosial və ritual statusuna görə, paritet ekzoqam tayfaların (kvazitayfa) nikaha girməsi, təkrar istehsalı əsasında yaranır, endoqamiya da bu dairədə formalaşır. Bu müstəvidə "biradari" prinsipi mühüm əhəmiyyət daşıyır. "Biradari" bərabər statuslu kastaların ünsiyyət prinsipidir. Bu prinsip "tale bərabərliyi" ideyası əsasında paritet status qrupunu formalaşdırır, bu özünü gündəlik münasibətlərdə, nikah əlaqələrində və s. göstərir. "Biradari" prinsipinə əsasən, bir neçə "qardaş" ekzoqam qrupları öz statuslarını itirmədən bir-biri ilə nikaha girirlər. Bu prinsip əsasında ("bərabərlik"-"qardaşlıq" və "ümumi tale") "cati"lər formalaşır, eləcə də "cati"lərlə yanaşı, sosial ünsiyyətə girən "cati"lərin "paritet dairələri" yaranır. Bu "ünsiyyət dairələri"ndə məqsəd nikahların yaranması deyil, lakin kasta cəmiyyətində ritualların yerinə yetirilməsi baxımından "təhlükəsiz" zona yaranır. Bir sıra hallarda bunlar sosial-iqtisadi maraqların ümumiliyinin dərk edilməsi ilə bağlıdır. Hər bir hinduistin çoxsəviyyəli, fərqli identifikasiyası onun öz "cati"si ilə yanaşı, bir neçə "cati" kompleksinə eyni zamanda daxil olur. Beləliklə, "cati" sosial strukturun modulu sayılır, özünün uyğunlaşma, adaptasiya olunma bacarığı ilə seçilir. Dövlətin cati komplekslərini tanıması "kastaüstü birləşmələrin" formalaşmasına gətirib çıxarır. Cəmiyyətdə, xüsusi ilə dövlət orqanlarında belə "catı

kompleksləri"nin maraqları ciddi şəkildə nəzərə alınır. *"Cati"* səviyyəsində ənənəvi hind cəmiyyətinin bütün əsas xüsusiyyətləri ortaya çıxır. Catilər arasında münasibətlərdə əlaqələr kifayət qədər az, reqlamentləşdirilmiş, ritualllaşdırılmış olur, bu ünsiyyət üsulunun dini əsaslarını isə hinduzim dünyagörüşü, təlimi təşkil edir.

***Son 150 il ərzində Hindistanda kasta quruluşunun modifikasiyası "varna"lara (status qrupları) bir neçə "cati"-altkastanın daxil olması ilə xarakterizə edilir. Bu "cati"- "altkasta" sənət sahəsi, etnik mənşə, dini mənsubiyyət və s. xüsusiyyətlərə görə seçilir.***

## 2.3. Kasta sisteminin müasir vəziyyəti

Hindistanda "varna-cati" sisteminin formalaşması VIII-X əsrlərdə yekunlaşmışdır. Tədricən dəyişikliklərə uğrayan sosial sistem nəinki aradan qalxmamış, əksinə, müasir Hindistanın sosial-iqtisadi və siyasi həyatında mühüm rol oynayır. Hind kastalarında ən ciddi dəyişikliklər XIX əsr və XX əsrin birinci yarısında milli-azadlıq hərəkatının gedişində ortaya çıxan dini islahatçı hərəkatların fəaliyyəti nəticəsində baş vermişdir. Hind dini islahatçılarının tələbi ilə Britaniya kolonial hakimiyyəti kasta qaydalarını zəiflədən qanunlar qəbul etmişdir. Belə qanunlar müxtəlif kasta, icmalar arasında nikahları, qızın evlənmə yaşının dəyişdirilməsi, təhsili və s. məsələlərlə bağlı olmuşdur. "Ost-Hind" şirkəti 1833-cü ildə işə götürülmədə anadan olduğu yer, dini, məzhəbi, etnik mənşəyi, dərisinin rəngi və s. məsələlərin nəzərə alınmadığı qaydalar hazırladı. İngilis hökuməti 1844-cü ildə rəsmi şəkildə açıqladı ki, dövlət xidmətinə işə götürülmədə ingilis dilində təhsil alanlara üstünlük veriləcək. Bu da ilk növbədə brahmanlar idi. Beləliklə, formal da olsa, bütün kasta və din nümayəndələrinin qarşısında təhsilalma, işə düzəlmədə bərabər

imkanlar yaradılmış və bu imkanlardan XX əsrin əvvəllərinədək yalnız yuxarı kastaların nümayəndələri yararlana bilmişdilər. Digər kastalar (varnalar), eləcə də "toxunulmazlar" sosial və iqtisadi bərabərlik tələbləri ilə çıxış edirdilər.

Hindistanın qərbində, Bombey prezidentliyində qeyri-brahman hərəkatının lideri "şudra" varnasından çıxan, "bağbanlar" catisinə aid olan *Dzotiba Phule* (1827-1890) idi. O, brahman mədəniyyətinə qarşı çıxaraq, "xalq mədəniyyəti" və bütün hindlilər üçün universal olan din yaradılması, bərabər üzvlərdən ibarət "qeyri-ari" kənd icmalarının təşkili uğrunda mübarizə aparırdı. Bərabərlik əldə etmək üçün sadə xalqın təhsilli olması, öz dilində təhsil alması, anti-kasta düşüncəsinin inkişafı, brahmanların inhisarçı hakimiyyətinin aradan qaldırılması və s. əldə edilməsini vacib sayırdı.

XIX əsrin sonunda Hindistanın cənubunda narazılıq təkcə qeyri-brahman deyil, anti-brahman forması da almışdı. ***Anti-brahman əhval-ruhiyyənin gücləndiyi bir zamanda britaniyalılar brahmanların "ari mənşəyi" barədə tezis irəli sürdülər.*** Bu "ari tezisi"ni ölkənin cənub rayonlarındakı brahmanlar həvəslə mənimsədilər və bununla da özlərinin yüksək vəziyyətlərini, avropalılarla yaxınlıqlarını əsaslandırmağa çalışdılar. Phule ölkənin cənubuna "gəlmə" saydığı brahmanlardan başqa bütün digər kastaları "qeyri –ari" kastası sayırdı. ***Madras prezidentliyində qeyri-brahman kastalarının lideri Ramasami Naiker (1879–1973) və ya Periyar, ümumiyyətlə, brahmanları dravid etnosundan silərək, "ari brahmanları" tənqid atəşinə tutmuş, onlara şimaldan olan "gəlmə", hətta düşmən kimi yanaşmışdır***. Brahman ideologiyasından narazılıq isə "ari şimalı" ilə "dravid cənubu" arasında konflikt kimi təqdim edilmişdir. Periyarın rəhbərlik etdiyi "Özünəhörmət hərəkatı" (1920-1940) geniş kütlələrin maraqlarını təmin edən sosial islahatlar keçirməyi qarşıya məqsəd qoymuşdur. Periyar kasta sistemini, ritual-dini iyerarxiyanı tənqid

etmiş, bütlərə sitayişləri rədd etmişdir. O, aşağı kastaların geri qalması, yüksək kastaların üstünlüyü haqqında konsepsiyanı, hindus kasta sistemini rədd etmiş, 1924-cü ildə Travankur knyazlığında (Kerala ştatı) "toxunulmazlar"ın hindus məbədlərinə buraxılması üçün kampaniya təşkil etmiş, bu məsələdə milli-azadlıq hərəkatının lideri Mohandas Karamçand Qandi ilə əməkdaşlıq etmişdir. Periyar bildirirdi ki, az sayda brahmanın yaratdığı hinduizm "toxunulmazlar"ın savadsızlığına, istismarına, onlara qarşı hörmətsizliyə haqq qazandırır, dar maraqları, eqoist yanaşmaları təmin edir. Hindus aşağı kastaların insan hüququ və azadlıqlarını irəli sürən Periyar "toxunulmazlar"ın başqa varnaların istifadə etdikləri su mənbələrinə buraxılmasına, qadınların azadlığına, müxtəlif kastalara məxsus insanlar arasında ünsiyyətə nail olmağa çalışırdı. Onun iştirakı ilə keçirilən mitinqlər "toxunulmazlar"ın aşağılandığı hindus kitablarının yandırılması ilə yekunlaşırdı. Bu hərəkatın siyasi arenaya çıxması Hindistanın cənubunda Andhre, Kerala, Karnatak və s. oxşar proseslərə səbəb olmuş, orta və aşağı kastaların sosial-mədəni vəziyyətinin yaxşılaşdırılması tələbləri önə çıxmışdır.

Tədricən brahmanlar əleyhinə hərəkat onların sosial-iqtisadi və siyasi mövqelərinə ciddi təsir göstərərək onları zəiflətmiş, ölkənin demoktatik inkişafına mühüm təsir göstərmişdir. Nəticədə qeyri-brahman kastaların konsolidasiyası, onlar arasında ünsiyyətə mane olan bəzi ənənəvi qadağalar aradan qaldırılmışdır. Bu hərəkatların liderləri kolonial hakimiyyət orqanlarından siyasi institutlarda təmsil olunmaq, məktəb və kolleclərdə, dövlət xidmətlərində onlara yer ayrılmasına nail olmuşlar.

***İngilis hakimiyyəti Andhra-Pradeş, Karnataka, Kerala, Tamilnad, Maharaştrada Hind Vətəndaş Xidmətində (HVX) qeyri-brahman və "toxunulmazlar" üçün yer (kvota) müəyyənləşdirmişdi.*** İngilis hakimiyyəti bununla dövlət idarəçiliyində yuxarı varnalar üçün üstünlük yaradan kasta sistemi ənənələrini aradan

qaldırmağa çalışırdı. Məsələn, Madras prezidentliyində 1921-ci il "İcmalar haqqında" qanuna əsasən HVX-də altı kateqoriyada nümayəndələr müəyyənləşdi: qeyri-brahman hinduslar (48 %), brahmanlar (22 %), müsəlmanlar (15 %), xristian hindlilər (10 %), avropalılar və ingilis hindlilər (2 %), digərləri (3 %). 1927-ci ildə "istismar olunan siniflər"in, yəni "toxunulmazlar"ın payı daha 8 % artırılmışdır. Sonrakı mərhələdə bu proses Hindistanın cənubunda yuxarı kasta nümayəndələrinin HVX-də təmsilçiliyini xeyli məhdudlaşdırdı. Məsələn, 1937-ci ildə Madras Qanunverici Assambleyasında 17,2 % brahman var idisə, 1947-ci ildə onların sayı 5 %-ə enmişdi, bu da onların vilayətdəki ümumi sayına uyğun gəlirdi.

Hindistanın şimalında hindi dilli arealda torpaq məsələsində kifayət qədər mürəkkəb münasibətlər mövcud idi, burada brahmanlarla yanaşı, yüksək kasta nümayəndələri-. "racputlar", "bhumiharlar" və s. cənuba nisbətən daha çoxsaylıdır. Əkinçi kastalar isə ənənəyə uyğun olaraq, kəndli-əkinçi rolunda çıxış edərək yuxarı kastaların torpaqlarını əkib becərirdilər. Tarixi baxımdan şimalda elə bir vəziyyət yaranmışdır ki, əkinçi, "toxunulmaz" kastaları yüksək kastaların mənəvi və iqtisadi tabeçiliyində olmuşlar.

XX əsrin əvvəllərində Hindistanın şimalında ümumi "yadavi" adı altında maldar tayfaların konsolidasiya prosesi getmişdir, 1924-ci ildə onlar öz təşkilatlarını yaratmış, hətta jurnal nəşr etmişlər. Əkinçi "kurmi", "yadava" və "koeri" kastaları 1934-cü ildə birləşərək, "Trive sanqh" (Üçlər ittifaqı) təşkilatını yaratdılar. Dini adət və rituallarda ciddi fərqlərə baxmayaraq bu böyük kasta qruplarını iqtisadi fəaliyyətlərinin xarakteri birləşdirirdi. İlk mərhələdə "Triveni sanqah" bu kastaların sanskritləşməsi, yəni yüksək kastaların adət və ənənələrinin mənimsənilməsi ilə məşğul olurdu, bu prosesi isə "Arya Samac" başlamışdı. Lakin bu proses dəyişməz varna sistemində ritual statusunu yaxşılaşdırsa da kas-

taların bərabərliyini təmin etmədi, “Trive sanqh” sanskritləşməyə son qoyaraq diqqətini siyasətə yönəltdi.

Hindistanda siyasi qüvvələr arasında və kasta münasibətlərində 1930-cu illərdə baş vermiş proseslər, Hindistanın idarəedilməsi haqqında qanun layihəsinin hazırlanmasının gedişi mühüm rol oynadı. Britaniyanın baş nazirinin 1932-ci ilin avqustunda imzaladığı “Əməkdaşlıq qərarı” ilə “toxunulmazlar” üçün ayrı seçki dairəsinin yaradılması, Mahatma Qandinin aclıq aksiyası ilə qarşılaşdı. Bu qərar “toxunulmazlar”ı ümumi hindus cəmiyyətindən ayrı sala bilərdi. B.R.Ambedkarın rəhbərliyi ilə “toxunulmazlar”ın hərəkatının aktivləşməsi, onlarla “təmiz” kastalar arasında Pune paktının imzalanması ilə nəticələndi, bu sənəddə diskriminasiyanın ləğvi, təhsilə imkan verilməsi, seçkili hakimiyyət orqanlarında kvota ilə təmsilçilik kimi tələblər əksini tapırdı. ***Pune paktı*** “Hindistanın idarə olunması haqqında” 1935-ci ildə qəbul olunmuş, hindus cəmiyyətinin “toxunulmazlar” hissəsinin hüquqlarını rəsmən tanıdı və siyasi dövriyyəyə “qeydə alınmış kastalar” (scheduled castes) anlayışı daxil oldu. “Toxunulmazlar” mərkəzi və vilayət qanunverici yığıncaqlarında yerlər əldə etdilər. 1936-cı ildə “qeydə alınmış kastalar”ın siyahısı hazırlandı, 1943-cü ildə onlara dövlət xidmətində 8,3 % yer ayrıldı, 3 il sonra bu kvota 12,5 %-ə çatdırıldı, bu “toxunulmazlar”ın Britaniya Hindistanındakı sayına uyğun idi.

Göründüyü kimi, kasta sistemi (“varna”-“cati”) xüsusi, uzun sürən tarixi proseslərdə formalaşmış, inkişaf etmişdir. Burada brahmanizm-hinduizmin ideoloji əsasının etnik, sosial-iqtisadi proseslərə təsiri mühüm rol oynamışdır. Hinduizmdə dini bölgü olan “varna”lar çoxsaylı “cati”ləri birləşdirir, lakin tam olaraq sosial-iqtisadi mahiyyət daşımır, dini-ideoloji bölgü sayılırlar. “Varna”lar hindlilərə “cati okeanında” istiqamətlərini müəyyənləşdirməyə imkan verir, bununla da cəmiyyətdə mənəvi mövcudluqlarını qoruyub saxlayırlar. Bu sıralamada “cati”lər “varna”

iyerarxiyasının davamına çevrilmişdir. “Varna”lar yüzlərlə “cati”lərə ayrılır. “Cati”lər isə nəsilləri əsas hərəkətverici elementi olan ənənəvi məşğuliyyətlə bir-birinə bağlayan irsi endoqam qruplardır. Qeyd edək ki, hazırda Hindistanın Antropoloji Xidməti 3,5 min kasta qeydə almışdır.

Hindistan müstəqilliyini qazandıqdan sonra kastalar arasında bərabərlik uğrunda hərəkatlar gücləndi. Bu hərəkatların liderləri Konstitusiyanın “dinindən, dilindən, irqi mənsubiyyətindən asılı olmayaraq hər kəsin qanun qarşısında bərabər olması” haqqında maddəsinə əsaslanırdılar. Konstitusiya “toxunulmazlarla” bağlı bütün qadağaları ləğv edirdi. Lakin bu kasta sistemini aradan qaldırmadı, “toxunulmazlar” anlayışının ləğvinə gətirib çıxarmadı.

Hindistan cəmiyyətində kastalararası münasibətlərin o qədər böyük əhəmiyyəti vardır ki, Konstitusiyanın müəllifləri 1950-ci ildə kastaların mövcudluğunu rəsmən qeydə aldılar, “qeydə alınmış kastaların” (əvvəl “toxunulmazlar”, “qeydə alınmış tayfalar”), yəni müasir “dalitlərin” (istismar olunanlar) inkişafı üçün 10 il müəyyənləşdirdilər. Lakin bu müddət belə bir fundamental problemin həlli üçün yetmədi. Ona görə də hər 10 ildən bir ölkə parlamenti bu müddəti daha 10 il müddətinə uzadır.

Müstəqillik illərində sosial-iqtisadi inkişafın təsiri ilə kasta sisteminin, kasta məhdudiyyətlərinin zəifləməsinə baxmayaraq, parlament demokratiyası cəmiyyətində kastaların rolu daha da artmışdır. Kastaların ideoloji-sosial gücü siyasi səfərbərlik prosesini sürətləndirmişdir, ilk dövrlər qeyri-brahman kastalarının ənənəvi sosial-iqtisadi qadağaları aradan qaldırmağa yönəlmişdisə də, sonrakı mərhələdə dövlət orqanlarında, ali məktəblərdə kvotaların müəyyənləşməsi uğrunda mübarizə forması almışdır. Bu prosesdə konsolidasiya kastaları güclü siyasi lobbilərə, təşkilatlara çevirdi, demokratik dəyərlərin inkişafına səbəb oldu. Kastaların maraq qruplarına, siyasi təşkilatlara çevrilməsi hind demokratiyasının spesifik xüsusiyyəti sayılır. Yeri gəlmişkən, Hin-

distanda rəsmən əhalinin yarısı aşağı kastalara aiddir. Bu kastalar öz haqq və hüquqlarını tanıtmaq üçün uzun illər mübarizə aparmışlar, lakin indi əhalinin çoxluğu səbəbindən hər kəsdən üstün gücə malikdirlər. Aşağı kastaya mənsub əhalinin sayının çox olması parlament demokratiyasında həlledici faktora çevrilmişdir.

Yuxarı və aşağı kastalar arasında münasibətlər sosial gərginliklə müşayiət olunmuşdur. Hindistan dövləti cəmiyyətdə baş verən bu dəyişikliklərə reaksiya verərək təhlükəli sosial problemlərin həlli üçün güzəştlər, əhalinin əksəriyyətini təşkil edən aşağı kastalara münasibətdə mülayimləşməsi yolunu tutmuşdur. Məhz bu müstəvidə aqrar islahatlar keçirilmiş, ali məktəblərdə, dövlət və yerli özünü idarəetmə orqanlarında "geri qalmış siniflər" üçün kvotalar müəyyənləşdirilmişdir. Bununla da iki məqsədə nail olunmuşdur: Birincisi, sosial partlayışa imkan verilməmiş, ikincisi isə hind cəmiyyətinin əsaslarına zərbə vurmadan aşağı kastaların təhsilə, dövlət idarəçiliyinə cəlb olunması baş tutmuşdur.

Hindistanda 1977-ci il parlament seçkilərində şimalda "hindidilli qurşaqda" və qərbdə (Qucarat) çoxsaylı kəndli kastaları "Canata Parti" (Xalq Partiyası) koalisiyasının Hind Milli Konqresi üzərində qələbəsini təmin etdilər. Bu kastalar təkcə iqtisadi tələblər irəli sürmür, indiyədək yuxarı kastaların nəzarətində qalmış sosial həyatın bütün sahələrində təmsil olunmağa çalışırdılar. Parlament üzvü B.P.Mandalanın rəhbərlik etdiyi komissiya "geri qalmış siniflər" (qeydə alınmış kastalar), "qeydə alınmış tayfalar" və "digər geri qalmış kastalar"ı öyrənərək 1980-ci ildə parlamentə təklif etdi ki, onların dövlət orqanlarında, ali məktəblərdə təmsil olunması üçün kvotalar müəyyənləşdirilsin. Öz hesabatında (1980) *Mandala komissiyası* bildirdi ki, 1955-ci ildə yaradılmış oxşar komissiyanın gəldiyi rəy hələ öz qüvvəsində qalır, yəni kasta faktoru hind cəmiyyətinin inkişafına mühüm təsir göstərir. "Mandala komissiyası" bildirirdi ki, yuxarı kastalar ölkə əhalisinin 17,6 %-ni təşkil etməsinə baxmayaraq dövlət orqanlarında

işləyənlərin 68,8 %-i onlardandır. Əksəriyyəti kəndlilər və sənətkarlar olan "geri qalmış siniflər" əhalinin 52 %-ni təşkil etmələrinə baxmayaraq, onlar dövlət orqanlarında cəmi 12,5 % yerlə təmin olunurlar. "Qeydə alınmış kasta və tayfalar" isə ölkə əhalisinin 22,5 %-ni təşkil etmələrinə baxmayaraq dövlər orqanlarında ən aşağı vəzifələrdə 18,7 % kvotaya malikdirlər. Beləliklə, ölkə əhalisinin dörddə üçü dövlət idarəetməsindən kənarlaşdırılmışdır. *"Mandala komissiyası"* "geri qalan siniflər" üçün 27 %-lik kvota müəyyənləşməsini təklif etsə də bu təklif parlamentdə qəbul olunmadı. Yalnız 1990-cı ildə Milli Cəbhə hökumətinin baş naziri *Vişvanath Pratap Sinqh* parlamentdə dövlət müəssisələrində, ali məktəblərdə 27 %-lik kvotanın parlamentdə qəbul edildiyini bildirdi. Bu yuxarı kastaların ciddi etirazına, hətta toqquşmalara səbəb oldu. Kvotaların tətbiqi hakimiyyətə yolu açırdı. Delhi və digər "hinddilli qurşaq" şəhərlərində bu qərarın əleyhinə aksiyalar keçirildi, hətta etiraz olaraq 63 tələbə özünü yandırdı. Bu əks reaksiya doğurmuş, kəndli kastaları şimalda kvota qərarını dəstəkləmək məqsədi ilə, brahmanların əleyhinə çoxsaylı mitinqlər təşkil etmişlər. Ali Məhkəmənin kvotanın əleyhinə qərarı baş nazir Sikhi istefa verməyə məcbur etsə də, bu məsələ sonrakı illərdə də siyasi mübarizənin əsas istinad nöqtələrindən biri oldu. Hindistan Ali Məhkəməsi 1992-ci ilin dekabr ayında hökumətin "Mandala komissiyası"nın "digər geri qalmış kastalar" üçün 27 %-lik kvotanın tətbiqi təklifinin həyata keçirməsi barədə qərar çıxardı. Ali Məhkəmənin bu qərarı "geri qalmış siniflərin" siyasi identifikasiyasının formalaşmasına xidmət etdi. Bu siyasi nomenklaturaya "geri qalmış kasta və icmalar", yəni əksəriyyəti keçmiş kəndli əkinçi kastalar, eləcə də qeydə alınmış kasta və tayfalar aid edilir. Onlar hamısı bir yerdə yuxarı kastalara qarşı qoyulurdu, hətta vahid cəbhədə çıxış edirdilər. Siyasi həyata əvvəllər dövlətin idarə olunmasına iddia etməyən sosial qruplar cəlb olundu. Həmin dövrdə Bihar və Uttar-Pradeş ştatlarında hökumətə "geri qalmış

siniflərin" nümayəndələri seçildilər: Bihar ştatında Lalu Yadovo, Kalyan Sinqh, Uttar-Pradeş ştatında Mayavati, Mulayam Sınqh Yadovo hökumətə rəhbərlik edirdilər. Hindistan səviyyəsində isə "dalitlərin" ("toxunulmazlar") nümayəndəsinin dövlətdə ən yüksək postlara seçilməsi tarixi fakt idi. K.R.Narayanan 1997-2002-ci illərdə Hindistanın prezidenti, Q.M.Balayoqi 1998-2002-ci illərdə parlamentin aşağı palatasının sədri olmuşdur.

Sosial-iqtisadi bərabərlik uğrunda mübarizə aparan kəndli kastalarından fərqli olaraq, ən aşağı kasta sayılan "dalitlər" özləri çoxsaylı kastalara və alt-kastalara ayrılır, heç bir ştatda çoxluğu təşkil etməyərək zəif təşkil olunmuş əhali qrupu sayılır. Maharaştrada "dalit" hərəkatı diqqəti cəlb etsə də onların maraqlarından çıxış edən Hind Respublika Partiyası çoxsaylı, bir-biri ilə mübarizə aparan fraksiyalara parçalanmışdır. Şimali Hindistanda "dalitlər" daha təşkilatlanmış vəziyyətdədirlər. *"Çamara"* və *"catava"* dalitləri "Bahucan Samac Parti"nin (Xalqın Partiyası) əsasını təşkil edirlər, bu partiya bir neçə dəfə Uttar-Pradeşdə hakimiyyətə gəlmişdir. Saylarının çox olmasına baxmayaraq, zəif iqtisadi güc, hakimiyyət uğrunda mübarizədə resursların olmaması səbəbindən dalitlər həmişə başqa partiyalarla ittifaqa girməyə üstünlük verirlər.

Kəndli kastalarının güclənməsi Hindistanda brahmanların ənənəvi hakimiyyətinin rolunu azaltmışdır. Hələ 1920-1940-cı illərdə çox sayda brahman ölkənin cənubundan şimalına köçmüşdür. Mahatma Qandinin 1948-ci ildə brahman Qodse tərəfindən öldürülməsindən sonra isə xüsusi ilə Maharaştrada brahmanlar kəndləri tərk etmiş, hətta xaricə köçmüşlər. Aqrar islahatlardan sonra isə kəndlərdə yaşayan brahmanlar öz iqtisadi vəziyyətlərinə görə, "digər geri qalmış siniflər"lə bərabər idi. Şəhərlərdə də brahmanlar öz təsirlərini itirmişlər, onlar xidmətçi, aşpaz, mexanik, avtobus sürücüsü, poçtalyon, dənizçi və s. işləyirlər. Ümumiyyətlə, Hindistanda brahmanların sayı əhalinin 5,5 %-ni keçmir. Brahmanlar

yüksək dövlət vəzifələri tutsalar da, orta və qeydə alınmış kastaların nümayəndələrinin dövlət və hökumət orqanlarında sayı artır. Məsələn, şimal ştatların qanunverici orqanlarında "geri qalmış siniflər"in nümayəndələrinin sayı 39 %-dən (1980), 47 %-ə (1999) qədər artdığı halda brahmanların sayı müvafiq olaraq 18 %-dən 11 %ədək azalmışdır. Hindistanda ictimai vəzifələr əhalinin 50 %-dən çoxunu təşkil edən 3 fərqli aşağı kasta arasında- hind qəbilə kökənli "adivasilər" 10 %, "dalitlər" 12,5 %, "digər aşağı kastalar" 27 % olmaqla bölünmüşdür. Bəzi bölgələrdə yerli hökumətlərdə çalışan aşağı kasta mənsublarının sayı isə 65 %-i keçir.

Son illərdə brahmanlar öz mövqelərini bərpa etmək üçün fəaliyyətlərini intensivləşdirmişlər. Bunun üçün əvvəllər rəqabət aparan brahman kastaları və alt-kastaları arasında əlaqələr qurulur. Təkcə Qucaratda brahmanların 84 altkastası vardır, bunlar da öz növbəsində növbəti alt-kastalara ayrılmışdır. Alt kastalar arasında birlik yaranması üçün brahmanlar arasında endoqam nikahlar təbliğ olunur. Brahman altkastaları *Ümumbrahman Assosasiyasına* daxildirlər, bu təşkilat çərçivəsində nikah yarmarkaları keçirilir, burada gənclər valideynlərinin razılaşmaları ilə deyil, bir-birini sevərək nikaha girə bilərlər. Bu assosiasiya üzv brahmanlara kreditlər verir, yardım göstərir, müxtəlif brahman altkastalarının yaxınlaşması üçün müxtəlif tədbirlər keçirirlər. Brahmanlar "yeni brahmanizm" təliminə üstünlük verməyə başlamışlar. Burada əsas ideal *Paraşurama (Baltalı Rama),* ali tanrı Vişnunun altıncı təzahürü sayılır. Paraşurama brahmanlara məxsus mənəvi və sosial hakimiyyəti ələ keçirməyə çalışan özündənrazı kşatrilər tərəfindən pozulan sosial nizamı bərpa etmək üçün göydən yerə enmişdir. Əfsanəyə görə, Paraşurama üç dövrdə yeddi dəfə kşatriləri məhv edərək, Kurukşetre gölünü onların qanı ilə doldurmuşdur. Sonra hakimiyyəti brahmanlara vermişdir.

Brahmanlar sosial, iqtisadi və siyasi maraqlarını təmin etmək üçün Hindistan Assosiasıyası və Paraşurama Fondu yaratmışlar.

2005-ci ilin iyun-iyul aylarında bu assosasiya yürüş keçirərək 40 gün ərzində müqəddəs kasanı-*"Paraşurama kaylaş"* Qucarat ştatının əsas şəhərlərində gəzdirmişdir.

Müasir dövrdə təhsilin səviyyəsinin yüksəlməsi ilə əlaqədar olaraq kastalararası münasibətlərdə yaranan ən maraqlı cəhətlərdən biri "təmiz" və "natəmiz" anlayışlarının xeyli dəyişməsidir. İndi cəmiyyət insanın hakimiyyət, kommersiya strukturlarında işləməsini daha çox qiymətləndirir, nəinki hər hansı kastaya aid olmasına əhəmiyyət verir. Təhsil almış hindlilər arasında kastalararası, dinlərarası, beynəlxalq nikahlara tez-tez rast gəlinir. Məsələn, Brahman Assosiasiyası Tamilnad ştatında brahman qızın nikahına ona görə razılıq verib ki, "dalit" oğlan ali təhsillidir və yaxşı işdə çalışır.

Son 60 ildə Hindistanda sosial vəziyyət orta və aşağı kastaların xeyrinə ciddi dəyişikliklərə uğramışdır. Bu, dövlət və hökumət orqanlarına işə qəbulda, ali təhsil müəssisələrində işlə təminatda, siyasi proseslərdə, xüsusi ilə qanunverici orqanlarda daha çox diqqəti cəlb edir.

***Sual və tapşırıqlar:***

*1."Varna-cati" sisteminin dini-ideoloji əsaslarını izah edin.*

*2. "Varna-cati" sistemi hinduizmin "dharma", "karma" və "sansara" (ruhun transmiqrasiyası) kimi əsas konsepsiyaları ilə sıx bağlıdır.*

*3. İnsanın məqsədləri: "kama" - hissi həzz; "artha" - sərvət; "dharma" - əxlaqi borc; "mokşa" - maddi dünyanın əzablarından xilas olma.*

*4. "Çaturvarna" və ya "çrama-dharma" (dörd "varna"nın və həyatın dörd mərhələsi haqqında qanun) sosial təlimi*

*5."Mandala komissiyası"nın fəaliyyəti və müasir dövrdə Hindistanda kastaların vəziyyəti barədə təqdimat hazırla.*

# III FƏSİL

# BAYRAMLARIN VƏ MUSİQİNİN HİND CƏMİYYƏTİNDƏ ROLU

## 3.1. Bayramlar

Hind yarımadasında bayramlar, mərasimlər, rituallar böyük əhəmiyyət daşıyır. Onların qeyd olunması vaxtı o qədər üst-üstə düşür ki, onların mənbəyini, əhəmiyyətini dəqiq şəkildə izah etmək çətindir. Müxtəlif xalqların, etnosların, dinlərin, təriqət və məzhəblərin cəmləşdiyi Hindistanda bayramların çoxluğu tarixən burada bərqərar olmuş rəngarəngliyin nəticəsidir. Hətta ayrıca vilayətin, hər bir dini təriqətin, inancın bayramları vardır. Bəzən bir bayram başqaları üçün heç bir əhəmiyyət daşımır, yaxud da bayramlar bir-birinə qarışır. İlk baxışdan hamının eyni bayramı qeyd etdiyini düşünürsən.

***Hindistanda əksər bayramlar fəsillərin dəyişməsi, əkinçilik, maldarlıq, sənətkarlıq və s. sahələrlə bağlı olsa da zaman keçdikcə dini motivlə zənginləşmiş, dini mahiyyət daşımağa başlamışdır.***

Bütün qədim dünyada olduğu kimi Hindistanda da fəsillərin bir-birini əvəz etməsi bayramlar və mərasimlərlə müşayiət olunur. Sevgi tanrısı Kamanın şərəfinə keçirilən, indi “Holi” adı ilə tanınan yeni il bayramı (və ya məhsul bayramı) yaz gün bərabərləşməsi zamanı başlayır, həmin gün evdə təmizlik aparılır, evin ətrafı təmizlənir. Bütün kənd icmasının qoşulduğu bayram zamanı kasta fərqləri unudulur, insanlar küçələrə çıxaraq bir-birinin üstünə toz səpir, yaxud rəngli su tökürlər. Bir zamanlar bu məhsul

bayramı bir-birinin üzərinə bəzən qan çilənməsi ilə müşayiət olunurdu, sonralar bu adət qan qırmızı toz və rəngli su ilə əvəz edilmişdir. Bayram zamanı bütün məhdudiyyətlər, sevgi qadağaları aradan qaldırılır.

***Hind yeni ilinin birinci ayında ("çaytra", mart-aprel ayları) kənd sakinləri birinci şumlamanı bayram edirlər.*** Yaz günəşinin şərəfinə kəllər qoşulan, parlaq bəzədilən arabalar küçələrə çıxarılır, yürüşlər təşkil olunur. Mərasim alatoranda başladığından məşəlçilər arabaları dövrəyə alırlar, mahnılar oxunur, arabarın üstünə çiçəklər və düyü səpilir, irəlidə təbilçilər çıxış edir, böyük balıqqulağından hazırlanmış şeypurun səsi eşidilir. Əkinçi şumlanmış tarlaya, kotanın üstünə müqəddəs su səpir, kotanı qoşqu qüvvəsindən açır, tarlada qoyaraq evə gedir. Növbəti gün rituallar keçirilir, insanlar şuma və onu qoruyan ruhlara qurban gətirirlər ki, yaxşı məhsul olsun. Usta əkinçi torpağı yenidən şumlayır, bundan sonra şuma öncə müqəddəs yağa salınmış üç ovuc buğda atır və səpinə başlayırlar. Ziyafətdən sonra yeməklərin qalıqlarını dən ilə birgə şuma atır və inanırlar ki, bu bol məhsul olmasını təmin edəcək. Ölkənin bəzi yerlərində qadınlar arasında yelləncəkdə yellənərək yüksəyə qalxmaq yarışları təşkil olunur. İnanca görə, kim yüksəyə qalxsa, onun məhsulu bol olacaq. Xırdabuynuzlu, iribuynuzlu heyvanların məhsuldar olması üçün xəmirdən qoyun və quzu fiquru düzəldir, onun üstünü yunla örtürlər, iki həftə müddətində xüsusi mərasimlər keçirir, qurban gətirirlər. Üstünə müqəddəs su səpilmiş (təqdis edilmiş) buğanı açıb çölə buraxırlar. May-iyun ayında birinci məhsul yığımı vaxtı inəklər də balaladığından kəndli daha diqqətli olmağa çalışır. Hind kəndlisi düşünür ki, pis ruhlar həm məhsula, həm də buzovlara zərər vura bilər. Buna görə də, "ruhlar anasının" şərəfinə ***"Bhutamatr"*** bayramı keçirilir. Bu bayramın əsas personajı kəndin yaxınlığındakı çayda və ya göldə yaşayan ikicinsli varlıq sayılır. Ona görə də qadınlar kişi paltarı, kişilər də qadın paltarı geyinirlər, bu za-

man hər cür sevgi münasibətləri məhdudlaşdırılır. Magik rituallar əkinçilik və maldarlıq təsərrüfatının bütün mərhələlərini əhatə edir. Kəndlilər dualar oxuyaraq məhsulu heyvanlardan və həşəratlardan qorumağa çalışır, məhsul yığımı və döyülməsi zamanı eyni ritualları təkrarlayır. Göründüyü kimi, əkinçi və maldarın əmək fəaliyyətinin hər bir mərhələsi uğur gətirmək, pis ruhlardan qorunmaq üçün rituallarla zəngindir.

Musson yağışlarının başlanması bayram və mərasimlərlə müşayiət olunur. Əgər yağışlar ləngiyirsə, yağış çağırılması üçün dualar oxunur, 12 gün oruc tutulur. Yağış yağacağı bilinsə də, mərasim davam etdirilir. Evlərdə ata və ananın yatağı döşəmədən yuxarı qaldırılır, tanrılara düyü və meyvə qurban gətirilir. Xüsusi ilə ilanların könlünü almağa çalışırlar, çünki sel və daşqınların başlanması ilə yuvalarından çıxmağa məcbur olan ilanlar həddindən artıq qəzəbli və aqressiv olur, insanlara təhlükə törədir. Sadə hindlilər selə, yağışa baxmayaraq, qurbanvermə, mahnı, dua oxunması mərasimlərini dayanmadan, qaydalara uyğun davam etdirir, bununla da həyatın normal ritminin təmin edildiyi düşünürlər. Mərasimlərin keçirilməsində hər hansı qaydanın pozulmasının insanlara bədbəxtlik və uğursuzluq gətirəcəyinə inanılır.

Qupt imperiyası dövründən Şiva tanrısının arvadı Parvatinin təzahürlərindən olan Durqa tanrısına həsr olunan xüsusi bayram keçirilmişdir. Tanrının şəkli zənglər və güzgü kimi parlaq metal lövhələrlə bəzədilmiş araba ilə gəzdirilirdi. Araba rənglənmiş evlərin yanından keçir, qızlar və qadınlar onun üstünə çiçəklər, düyü, rəngli su səpirlər, rənglənmiş düyülərlə yerdə rəsmlər çəkirdilər.

Qədimdə olduğu kimi, indi də yağışlar mövsümü qurtardıqda valideynlərin yatağı əvvəlki yerinə qaytarılır. Ailə başçısı döşəmədə oturaraq torpağa verdikləri qurbanları elan edir və bildirir ki, “yağışlar yeri tərk etsələr də insanlar tərk etmir və yağışların getməsini əvəz etməyə çalışır, yağışları vaxtında dönməyə çağırır”. Payızın əvvəlində mal-heyvanın məhsuldar olması

üçün qurban verilir, dualar oxunur. Məhsul yığımı zamanı isə bu prosesdə istifadə olunan əmək alətlərinə həsr olunan mərasimlər yerinə yetirilir. Soyuq havaların başlaması və sona çatması münasibəti ilə də müxtəlif mərasimlər təşkil olunur. Yeni ilin başlaması ilə növbəti bayram və mərasimlər silsiləsi başlayır.

Göründüyü kimi, Hindistanda hər gün bayramdır. ***Burada bazar günü Günəş (Surya), birinci gün Ay, ikinci gün Mars, üçüncü gün Merkuri, dördüncü gün Yupiter (Dyaus), beşinci gün Venera, şənbə günü Saturn günü sayılır. Hər gün üçün müəyyən mərasimlər və "puci" həyata keçirilir.*** Eyni zamanda hər bir gün Ay ilə bağlıdır və bütün mərasimlər çıxan və batan aya görə həyata keçirilir. Buna görə də ayın zodiakda hərəkəti və ayın başqa planetlərlə əlaqəsi nəzərə alınır. Bu kosmik obyektlərin-planetlərin hərəkətlərinin insanlara təsiri haqqında miflərə uyğun olaraq, mərasimlərin, bayram və adətlər müəyyənləşir. Mif və əfsanələrdə planetlərin təsiri ilə yanaşı, qaydalara əməl etməyin müsbət və mənfi nəticələri haqqında da danışılır.

"Astroloji" bayramlardan başqa, mühüm tarixi hadisələrə, qədim tarixi qələbələrə, xalqların köçünə, qəhrəmanlara, məşhur hökmdarların taxta çıxmasına həsr olunmuş bayramlar vardır. Hindistanda bir sıra bayram və mərasimlər bu və ya digər şəkildə "Ramayana" və "Mahabharata" dastanları ilə sıx bağlıdır.

Qədim Hindistan tarixinin öyrənilməsində ədəbi mənbələrin mühüm əhəmiyyəti vardır. Bu mənbələr xalq yaradıcılığının nümunəsi kimi meydana gəlmiş, nəsildən-nəslə keçmişdir. ***Tarixən hindlilərin üç böyük dastanı vardır. Bunlar ilk növbədə Şimali Hindistana aid edilən "Ramayana", "Marabharata" və "Harivamşa" dastanlarıdır.***

E.ə. VI əsr- b.e. II əsrlərində yazılan "Ramayana" dastanı 24 min beytdən ibarətdir. Üç əsas variantı (Qərbi Hind, Benqal, Bombey) olan eposun birinci və yeddinci bölümləri sonradan əlavə olunmuşdur. ***Əsas mətndə (2-6 bölümlər) ən böyük tanrı-***

***nın İndra olduğu qabarıq şəkildə görünür, bu da dastanın hələ Veda dönəmində formalaşmağa başladığını göstərir.*** Rama ilə Ravana arasındakı savaşın tanrı İndra ilə Vritra arasındakı müharibəyə bənzəməsi, Ravananın oğlu İndraşatrunun adının "Riq Veda"dakı Vritranın ləqəblərindən biri olması "Ramaya" ilə Vedalar arasında əlaqəni təsdiqləyir. ***Eposun qəhrəmanı Rama insandır, yalnız birinci və yeddinci bölümlərdə tanrı Vişnu kimi təzahür edir, bu da brahmanizmdə "avatar" (tanrının təzahürü) təliminin yayılması ilə əlaqədardır.*** Əsrlər boyu müxtəlif hissələr əlavə edilən dastanlarda hikmətli sözlər, təmsillər, qədim tanrıların, xalqların, şəhərlərin, nəsillərin və s. adları əks olunmuşdur. "Ramayana" dastanında Brahma, İndra, Manu, nağalar (insan üzlü və ilan quyruqlu tanrılar), Narada (Valmiki ilə danışan müdrik, tanrılar arasında vasitəçi), Vişvakarman (tanrıların arabalarını və silahlarını düzəldən), Kinnara (yarı-insan səma varlıqları), Rambha (gözəl pəri qızı) və s. obrazlar vardır.

***Müdrik Valmikinin e.ə. VI əsrdə yazmağa başladığı bu eposu müxtəlif müəlliflər b.e. II əsrində tamamlanmışdır.*** "Ramayana"da ilahi qəhrəman Ramanın (Vişnunun təzahürü) həyatından danışılır. Dastanın digər əsas qəhrəmanları torpaq tanrıçasının qızı və Ramanın arvadı Sita, meymun tanrı Suqriva, Lanka hökmdarı və Ramanın düşməni nəhəng Ravanadır. Dastan qədim hind mədəniyyəti, dini, ictimai və siyasi həyatı haqqında maraqlı məlumatları özündə əks etdirir.

***"Ramayana", yəni "Ramanın sərgüzəştləri" epik poeması şahzadə Ramanın arvadı Sitanın qaçırılması əhvalatı ilə başlayır.*** Şahzadə Rama saray intriqası nəticəsində hökmdar atası Dasaratha tərəfindən sürgün edilmişdir. Sitanı isə Ravana qaçırmışdır. Rama böyük sərgüzəştlərdən sonra Sitini tapır. Dəhşətli döyüşdən sonra, meymunlarla ayıların kömək etdiyi Rama Ravananı öldürür, Sitanı geri alır və yenidən taxta çıxır.

***"Mahabharata", yəni "Bharata oğullarının böyük müharibəsi" poeması iki sülalə arasında hakimiyyət uğrunda gedən mü-***

***haribədən bəhs edir.*** Poemada nəql edilir ki, Pandav nəsli hakimiyyətini geri qaytarır, lakin döyüşən tərəflərin əksəriyyəti həlak olur.

Təxminən e.ə. IV əsrdə yaranmış "Mahabharata" Kuru ərazisində yaşayan xalqların sitayiş etdiyi Vişnu tanrısına aid ən qədim ədəbi abidələrdən biridir. Yüz min beytdən- "şloka"dan ibarət dastan 18 kitabdan ibarətdir. Dastanı müdrik Vyasa yazmış, onun şagirdi Vayşampayana ifa edərək yaymışdır. ***"Mahabharata" dastanının mövzusu Bharata nəsli haqqında rəvayətdən götürülmüşdür:*** Dastan öz mənşəyini Ay tanrısından alan, Hastinapur şəhərində Bharata şah nəslinin Pandavlar və Kauravlar adlanan qolları arasında gedən müharibələrdən danışılır. "Mahabharata"-nın əsas ideya xətti hind xalqının birliyini, düzgünlüyünü, ədalətli olduğunu və s. açıb göstərməkdən ibarətdir. Burada bir çox tanrıların adları çəkilmişdir, lakin bunların hamısının başında tanrı İndra durur. Mahabharata dastanından görünür ki, baş tanrılar Veda tanrıları- İndra, Aqni, Soma və s. olmuşdur.

Hind dastanları anlaşıqlı sanskritcə yazılmışdır. Onların forması isə nəzmlə olub, yalnız *"şloka"* ölçüsündə tərtib edilmişdir. Şloka hər birində 8 heca olan 4 bənddən ibarət şeir formasıdır. Eposların məzmunu rəngarəngdir: burada qəhrəmanlar haqqında başlıca əfsanələrdə vedalarda təsvir olunan tanrılar və müqəddəs şəxsiyyətlər haqqında əfsanələr, düşüncələr əlavə edilmişdir.

***"Ramayana", "Mahabharata" eposları Hindistanda ənənəviləşmiş, dini inanışa əsaslanan bir həyat forması halına çevrilmişdir.*** Dastanların bir çox qismi, bayramlarda, mərasimlərdə sərgilənən oyunlara, film və kitablara mövzu olmuşdur. Hinduizmin müxtəlif təriqətlərinin, eləcə də Hindistanda yaşayan bir sıra dini-etnik konfessiyaların heyranlıqla izlədikləri "Ramayana" və "Mahabharata" dastanlarının vahid hind mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Təsərrüfat həyatı, eposlar hind bayramlarında mühüm yer tutsa da, Hindistanda hinduizm, caynizm, buddizm, islam, xristi-

anlıq, siqhizm və s. dinlər, dini təlimlər bayramlar və mərasimlərin keçirilməsində həlledici rol oynayır.

***Hinduizm inancına görə, tanrı Vişna hər bir varna üçün 4 başlıca bayram müəyyənləşdirmişdir. Həmin inanca görə, brahmanlar "Rakhi Purnima", kşatrilər "Dasera", vayşalar "Divali", şudralar "Holi" bayramını qeyd etməlidirlər.***

***"Rakhi Purnima"*** bayramı hindu "şravan" təqviminin bədirlənmiş (tam) ay zamanı, yəni iyul-avqust ayında qeyd olunur. Bu bayramda əsas tanrı kimi sular tanrısı-Varuna çıxış edir. Dəniz, çay sahillərində yarmarkalar təşkil olunur, əhali bura axışır. Varuna tanrısına ibadət olunur, qurbanlar verilir, rituallar icra olunur. Bu bayramda əsas diqqəti çəkən məsələlərdən biri budur ki, Varuna tanrısına ibadət məqsədi ilə suya çoxlu kokos meyvəsi atılır. Kokos satıcıları bu bayram zamanı öz məhsullarını evlərə aparıb satırlar. "Rakhi Purnima" bayramı "Narali Purnima" (Bədirlənmiş kokos ayı) adlanır, yaxud xalq arasında "Kokos günü" kimi tanınır.

Rakhi Purnima (və ya Narali Purnima) bayramı musson yağışlarının sona çatması dövrünə düşür. Musson yağışlarının kəsilməsi balıqçıların və dənizçilərin gözlədikləri bir işarə sayılır, bu günlərdə gəmilər dənizə çıxır.

Rakhi Purnima (və ya Şravan Purnima) bayramında yuxarı varnaya mənsub olan hindlilər daim çiyinlərində gəzdirdikləri müqəddəs iplərdən tikilmiş şalları təzələyirlər. Bu bayram günündə bacılar qardaşlarına ipək ipli gözmuncuqları, qızıl, gümüş tellər, qızıl muncuqlar hədiyyə edirlər. Qan qohumluğu olmayan qadınlar kiməsə xüsusi rəğbətlərini ifadə etmək, öz qardaşı hesab etdiyini bildirmək üçün onların biləklərinə gözmuncuğu bağlayırlar. Məsələn, racaput şahzadəsinin ingilis polkovniki Toda gözmuncuğu verməsi haqqında rəvayət məşhurdur.

***"Dussehra"*** (Dasera) bayramı hindus bayramları içində ən məşhurudur və 10 gün davam edir. Onuncu gün Navaratha (

doqquz gecə) bayramının kulminasiyası sayılır. Navaratra aşvin ayının (sentyabr-oktyabr) ayının birinci gecəsində başlayır və doqquz gün davam edir. Hər gündüz-gecə Durqa tanrısının bir təzahürünə həsr olunur. Durqa tanrıçasını ərə getməmiş qız canlandırmalıdır. Tanrıça rolunda olan qızın heç bir qüsuru olmamalı, sağlam, gözəl olmalıdır. Bir qıza doqquz gün ərzində və ya doqquz qıza bir gün ərzində ibadət edilir. Bu mərasim beşinci gün keçirilir, bu gün müqəddəs Durqaya həsr olunur və "Lalita Pança" adlanır.

Doqquz günlük Navaratra ərzində Devaya ibadət edənlər ya qidadan kənar dururlar, ya da gündə cəmi bir dəfə yemək yeyirlər. Öz inancında zəif olan və ya mərasimə sonacan əməl edə bilməyənlər üç, beş və ya yeddinci gün ərzində ibadəti dayandıra bilərlər.

Kahin brahmanlar mərasimlər həyata keçirir, magik rituallar yerinə yetirirlər. Minnətdarlıq naminə onları yedizdirir, az miqdarda pul və paltar verirlər. Navaratra Durqaya həsr olunduğundan "Durqa-puca" və ya "Durqotsava" adlanır.

***"Navatratra"*** orucu Ramanın Lanka döyüşü zamanı Durqanı bağışlamaq üçün tutduğu orucun şərəfinə tutulur. Ramanın cinlər hökmdarı Ravananı məğlub etməsi bayram günü Ravananın simvollarının yandırılması ilə qeyd olunur. Orucun səkkizinci günü qəhrəman Rama təşəkkür qurbanı vermiş, onuncu gün Ayodhaya geri qayıtmışdır. Bütün bu hadisələrin şərəfinə Dasera bayramı keçirilir.

Delhidə bu bayram Ram Lila adlandırılır, bayram günləri Ramayana dastanı canlandırılır və havaya fişənglər atılır. Maysor və Əhmədabadda böyük bayram nümayişləri keçirilir. Qərbi Bengal əyalətində bu bayram Ramanın Ravananı Durqanın köməyilə məğlub etdiyinə görə *"Durqa Puca"* adı ilə məşhurdur.

Maharacalar bu bayramı əsl hökmdar təntənəsi ilə keçirirlər, səhər tezdən "qadi" ayini keçirilir, taca baş əyilir, bundan sonra fillərin, atların, arabaların yürüşü keçirilir. Maharaca mərasimə

rəhbərlik edir, nümayişə qatılanları salamlayır. Nümayiş sonunda brahmanlara hədiyyələr verilir. Günorta isə knyazlığın ordusu (toplar, süvarilər, piyadalar və s.) yürüş keçirir, sonda qurbanvermə və "puca" mərasimi keçirilir, fillərin üstündə gedən maharaca və sərdarlar "şriman maharaca bidcai bhava" (Maharaca qalib gəlsin!) sədaları altında yürüşü davam etdirirlər, sonda əsgərlər mükafatlandırılır. İnanca görə, hərbi yürüşlər "Dasera" bayramı günü başlamışdır. Hazırda Hindistanın bəzi bölgələrində dərslər bu gün başlayır, bu bayram "kitablara ibadət günü" kimi də qeyd edilir.

***"Divali"*** (Dipavali) bayramı Vikrama erasını (təqvimini) qəbul edən hinduslarin keçirdiyi təntənəli gündür. Bayram oktyabr-noyabr aylarında başlayır. Beş gün davam edən bu bayramın birinci günü yeni iş ilinin başlanğıcıdır. İkinci gün Krişnaya, üçüncü gün Şivaya, dördüncü gün isə yoldaş kimi görünən, lakin şeytanı bir güc olan Baliyə həsr olunmuşdur. Beşinci gün oğlanlar qızlara baş çəkir, qızlar və qadınlar ərlərinin, oğullarının, qardaşlarının alınlarına *"tikka"* deyilən qırmızı boya ilə bir nöqtə qoyur, kişilərə ziyafət verirlər.

Bayram haqqında müxtəlif əfsanələr vardır. Əfsanələrin birində qeyd olunur ki, bu gün Vikramaditya hakimiyyətə gəlmişdir. Digər bir rəvayətə görə, məhz bu gün tanrı Vişna hakimiyyəti cin Balinin əlindən almışdır. Həmin gün Maharaştada qadınlar öz kastalarının adətlərinə uyğun olaraq düyü unundan Balinin təsvirini hazırlayır, ona sitayiş edir, *"Bütün şər məhv olsun, Balinin hakimiyyəti bərpa olsun"*. Üçüncü rəvayətə görə, Divali günündə tanrı Vişna Şər qüvvə olan Narakasurunu öldürmüşdür. Ən geniş yayılmış əfsanəyə görə isə Divali günündə Lankadan geri qayıdan Rama hökmdar olmuşdur. Gecələr yandırılan saysız-hesabsız yağ şamı Ramanın sürgündən evinə dönüşünü canlandırır.

Ehtimal ki, Divali əvvəllər Ramanın hakimiyyətə gəlməsi günü kimi qeyd olunmuşdur. Vikramatitya da özünün hakimiyyətə gəlməsi, taxt-taca oturması günü kimi Divali bayramını

uğurlu gün kimi seçmişdir. Buna görə də iki tarixi hadisə üst-üstə düşmüşdür. Bu bayram Bombeydə Lakşmi və Kəlküttədə Kali tanrısının şərəfinə keçirilir. Hind tacirləri öz hesab kitablarını təzələyir, öz evlərini, iş yerlərini yuyub təmizləyirlər. Var-dövlət tanrısı sayılan Lakşmiyə ibadət xüsusi təntənə ilə keçirilir, həmin ilin uğurlu olacağına inanılır. Həmin gün qohumlara, dostlara, işçilərə hədiyyə verilir. Bayram günü insanlar gözəl paltarları ilə yarmarkalara, məbədlərə, ictimai parklara baş çəkirlər. Uşaqlar bu bayramı "şamlar və şirniyyat" bayramı adlandırırlar.

Divali bayramı qumar oyunları üçün uğurlu gün sayılır. Əfsanəyə görə həmin gün tanrı Şiva öz arvadı Parvati ilə oynayır, hər şeyi uduzduqdan sonra Qanq çayı sahilində yaşamağa gedir. Atasının bu vəziyyətini görən Kartikeya oyunu öyrənir, anasını oyuna çağıraraq, hər şeyi udub atasına qaytarır. Anasının vəziyyətini, yoxsullaşdığını görən Qaneş oyunu öyrənir, öz qardaşını udur. Bu oyun bir neçə mərhələdə davam etmiş, ailədaxili ziddiyyətlərə gətirib çıxarmışdır. Sonda Şiva tanrısı sülh yaradır və bu günü oyun üçün uğurlu gün elan edir.

***"Divali"*** sözü "dipavali" sözünün təhrif olunmuş formasıdır, "od xətti" deməkdir. Hindistanın bir sıra bölgələrində Narakasuru və Ravananın şəkilləri yandırılır. Benqaliyada inanırlar ki, bu bayram günü gecəsi "pitra" (ruhun əcdadlar dünyasına getməsi) başlayır. Gecələr mayak funksiyasını yerinə yetirən lampalar yandırılır. Bu gün Krişna tanrısına və Qovardhana dağına ibadət olunur. Divali bayramı məhsul bayramı da sayılır.

***"Holi"*** hindu bayramları içində ən coşğulu olanıdır. İnama görə, qış qurtarır, yay başlayır. Bu bayramda, yazın gəlişini qeyd etmək üçün boyalı sularla və toz boyalarla rənglənmək lazımdır. Bu xoş və şirin arzuların ifadəsi deməkdir.

Gecə yandırılan ocaqlar şeytan ruhlu Holikanın yox edilməsinin simvoludur. Bu günlərdə iştirakçılar köhnə paltarlar geyinirlər, bayram bitdikdən sonra təmizlənməsi qeyri-mümkün olan

paltar atılır. Əsasən aşağı kastaların bayramı sayılan Holi məhsuldarlıq bayramıdır, phalqun (fevral-mart) ayında keçirilir. Bayram haqqında çoxlu əfsanələr vardır. Bu bayram Krişnanın demon Putananı məhv etməsinə həsr olunur və qışı simvolizə edir.

Başqa bir əfsanəyə görə, "Holi" bayramı Şivanın sevgi tanrısı Kamunu yandırmasına həsr olunmuşdur. Cənubi Hindistanda bu bayram günü oxunan mahnıların bəziləri Ratinin öz xanımı haqqında ağılardır. Bayramın əsas xüsusiyyətlərindən biri ədəbsiz mahnıların oxunması, rəngli su ilə bir-birini islatmaq, hay-küylü kütləvi izdihamın hərəkətidir.

Holi günlərində küçələr rəqs edən, müxtəlif mahnılar oxuyanlarla dolub daşır. Belə bayram üsulu Pəncab üçün daha xarakterikdir. Bayram iştirakçılarının paltarları göy qurşağı kimi rənglənir. Bu günlərdə qadınlar evdə oturmağa çalışırsa da, onlar da bayramda iştirak edir, öz qardaşlarını, yaxın kişi qohumlarını su ilə isladırlar. Holi bayramında qocalar əylənirlər, uşaq və qadınların su hücumlarına itaətkarlıqla tab gətirirlər. Həmin gün müxtəlif oyunlar oynanılır, sadəlövhlər kələksiz yalanla aldadılır.

Madrasın bəzi vilayətlərində kişi və qadınlar arasında zarafatyana döyüş təşkil olunur. Qadınlar bir dəstə sünbül götürüb ağaca çıxırlar. Kişilər bu dəstəni almaq üçün çalışırlar, qadınlar kişilərə qarşı dururlar. İndorada tacirlər Nathuramanın (yerli tanrı) 12 metrlik böyük heykəlini gil və küləşlə bəzəyirlər. Təsvirin utandırıcı açıqlığına görə, hökumət şurası onu qadağan etmiş, lakin çoxlu müraciətlərdən sonra, imzatoplamadan sonra müəyyən şərtlərlə Nathuramanın təsvirinin gəzdirilməsinə icazə verilmişdir.

Bayramın beşinci günü odla bağlı qışın basdırılması anlamına gələn əsas mərasimdən sonra milli knyazlıqlarda sərdarlar, məmurlar rəngli toz atır, meydanları rəngli su ilə sulayırlar. Ranqpançami adlanan bu adət ailələrdə bayramın sonuncu mərasimi sayılır.

***"Mahaşiva Ratra"*** bayramı "maqha" (yanvar-fevral) ayında keçirilir. Bayramla eyni zamanda Şivanın şərəfinə oyaq qalma və

oructutma gecəsi başlayır. Buna görə də bayram Şivaratra (maha-böyük deməkdir) adlanır. Oruc tutanlar gündüz vaxtı özlərini yeməklə "mükafatlandırırlar", çünki bundan sonra oruc mərasimi başlayır. Əfsanəyə görə Şivaratra (Şivaratri) bayramının keçirilməsi ovçunun orucunu və oyaq qalma bilmədən pozması ilə bağlıdır. Bundan sonra ovçu heyvanları sevmiş və Şivaya ibadət edən müqəddəsə çevrilmişdir. Bu çevrilmənin əsas tarixi isə aşağıdakı kimidir: Lubhdhaka adlı bir avam ovçunu borc sahibləri tutaraq Şivanln məbədinə həbs edirlər. Məbəddə bağlı qapılar arxasında qalanda o eşidir ki, Şivanın pərəstişkarları tanrının adını təkrar edirlər, o, bu ilahinin mənasını başa düşməyə çalışır. Şivaya ibadət edənlər ovçunun borcunu verdiklərindən onu azad edirlər. Azadlığa çıxan ovçu yenidən ov dalınca meşəyə gedir. Yarpaqları Şivaya qurban verilən bel ağacının yarpaqları arasında gizlənir. Ovçu tərpəndikcə yarpaqlar linqaların (fallos) üstünə tökülür. Bu isə çox dindar əməl sayılır. Bundan başqa həyəcanlanan ovçu bir neçə dəfə Şiva tanrısının adını çəkir. Özü başa düşməsə də bu onun böyük mənəvi xidməti olur. Axşam vaxtı ağaca dişi, boğaz maral yaxınlaşır. Ovçu nişan alanda maral ona yalvarır, deyir ki, ondan sonra daha bir maral gəlir, onu öldürə bilər. Əgər buna razı deyilsə, o, yuvasına getsin, körpəsini doğub, yoldaşlarına tapşırıb, geri qayıtsın və bundan sonra ovçu onu öldürsün. Dişi maral onu da deyir ki, Şivanın təsviri önündə rəqs etməyə laqeyd yanaşdığına görə, tilsimlənib, bunun nəticəsində marala çevrilib və qara marala çevrilmiş asurla yaşamağa məcbur olub. Şivanın adının təkrarlanması nəticəsində ovçu heyvanlara qarşı məhəbbətlə yanaşır və maral geri qayıdacağına and içdikdən sonra onu buraxır. Lubdhaka Şivanın adını çəkərək yenidən bel ağacına çıxır, gündüz və gecə heç nə yemir. Gecəyarısı, acından vəziyyəti pisləşəndə ona bir erkək maral yanaşır. Bu maral da öz yoldaşını axtarırmış. Ovçunun onu nişan aldığını görüb yoldaşını görməmiş onu öldürməməsi üçün yalvarır. Ovçu onu da buraxır. Birinci

maral yuvasına dönür, balalayır. İkinci dişi maral və qara maral görüşürlər. Bundan sonra qara maral dişi maralları yuvada qoyaraq, öldürülmək üçün ovçunun yanına qayıtmaq istəyir. Amma marallar buna razı olmurlar. Hər üçü ovçunun yanına gələrək ilk olaraq hansının öldürülməli olduğunu soruşurlar. Şivanın adını zikr etməklə, onun şərəfinə oyaq qalmaqla ovçunun günahları yuyulduğundan o, yemək naminə canlıları öldürməyin günah olduğunu dərk edir. Ovçu vəz oxuyaraq maralları buraxır. Həmin anda müqədds arabada Şivanın elçiləri gəlirlər və ovçunu Şiva-lokuya (Şiva ölkəsi) aparırlar.

***"Şivaratra"*** hindilərin ən vacib bayramlarından biridir. Bu bayram günü çayların sahillərində yarmarkalar təşkil olunur, minlərlə insan bu yarmarkalara gəlirlər. Yarmarkalarda mahnı oxunur, rəqs edilir.

***"Qaneşa-Çaturti"*** bayramı Bhadparad ayının (avqust-sentyabr) dördüncü (çaturthi) günü keçirilir. Həmin gün gildən Qaneşin fiqurları hazırlanır, onlara sitayiş olunur. Hər evdə Qaneş heykəlinin yanına su qoyulur. Puna, Madras və Bombey "Qaneşa Çaturti" bayramın mərkəzləri sayılır. Məbədlər bəzənir və evlərdə Qaneş heykəllərinin qarşısında ibadət edirlər. Gün boyunca havaya fişənglər atılır. Bayram günü Qaneş heykəlləri çayda, çöldə və ya dənizdə batırılır. Gil heykəlləri çiçəklərlə bəzəyir, başlarının üstündə musiqi sədaları altında, rəqslərin müşayiəti ilə aparırlar. Sahildə gil fiquru yerə qoyur, ayinlər keçirir, sonra onu suya buraxırlar. Gil fiquru suda axıtdıqdan sonra həmin yerdən gil və ya qumu sinilərdə, yaxud Qaneşin heykəlini gətirdikləri qutularda apararaq taxıl anbarlarında, ərzaq saxlanılan otaqlarda saxlayırlar ki, növbəti ildə bol məhsul olsun. "Qaneşa-Çaturti" günündə ayın görünməsi uğursuz əlamət sayılır, həmin gün ayı görən tilsimləndiyini düşünür.

Əfsanəyə görə, Krişna nahaqdan Prasenanın ölümündə günahkar bilinmiş, eyni zamanda ayı gördüyü gün Sımantakunu oğurlamışdır. Bu günah (ayı görmək) yalnız növbəti gün and iç-

məklə yuyula bilər. Buna görə də Qaneş gecəsi ayı görən kəslərə qonşular gülür, istehza, lağ edirlər.

Rəvayətə görə, bir gün Qaneş Ayın ölkəsi olan Çandra-lokudan keçəndə yıxılır və Ay ona gülür. Qaneşin zahiri, davranışları gülüş doğursa da, tanrıların iradlarına səbəb olsa da, heç kəs ona gülməyə cəsarət etmirdi, lakin Çandra açıq şəkildə ona gülür və qaydaları pozur. Qaneş bundan qəzəblənir və deyir ki, indən sonra Çandraya baxan hər kəs alçaldılmaya məruz qalacaq. Bunun da nəticəsində üç dünyanın sevimlisi olan Çandra tanrısı bədbəxtlik simvoluna çevrilmiş və insanlar ondan vəba kimi qaçmışlar. Bu ayıba dözə bilməyən Çandra lotos çiçəyində gizlənir. Buna görə də tanrılar Qaneşin yanına gedirlər. Brahma Qaneş-puca mərasimi keçirməyi təklif edir. Bu ritualı yerinə yetirən tanrıları görən Qaneş yumşalaraq deyir ki, Çandra özü bu mərasimi yerinə yetirməlidir. Buna görə də pucanı öyrətmək üçün Brihaspati Çandranın yanına göndərilir. Çandra bu ayini yerinə yetirdikdən sonra Qaneş onun qarşısında peyda olur və Çandra ondan bağışlanmağını istəyir. Başqa tanrılar da günahkarın bağışlanmasını xahiş edirlər. Qaneş tilsimin bütün birbaşa nəticələrini aradan qaldırır. Amma Çandranın ayıbını yaşatmaq üçün bildirir ki, Qaneş günü ayı görən kəs tilsimlənəcək, bilərəkdən və ya bilməyərəkdən ayı görən sonrakı gün lağa məruz qalacaq.

***“Datta Cayantı”*** bayramı Dattatreinin (üç tanrı forması) yaranmasına həsr olunmuşdur. Bu bayram marqaşirşa (noyabr-dekabr) ayının 15-ci günü keçirilir. Əfsanəyə görə , müdrik **Narada** heç bir yerdə mübahisə olmaması və hamının sülh içində yaşamasından narahat olur. Bu vəziyyəti düzəltmək üçün o, Parvatinin yanına yollanır və söhbət zamanı təsadüfən deyir ki, üç dünyada müdrik Atrinin arvadı Anasunun dindarlığı və xeyirxahlığı heç kəslə müqayisə edilə bilməz. Parvati həmişə özünü ən xeyirxah saydığından Naradanın sözləri ona toxunur. Narada gedəndən sonra Parvati birbaşa Şivanın yanına gedir və ondan Anasunu yoldan çıxararaq dindarlığını əlindən almasını istəyir.

Kaylas dağından Narada Brahma-lokuya yola düşür və Sarasvatidə də Anasuya qarşı kin yaradır. Ondan sonra Narada Vaykuntuya gedir və Lakşminin öz ərinə Anasunu yoldan çıxarmaq təklifini etməsinə nail olur.

Üç tanrı Brahma, Vişna, Şiva Atri adlanan məskənə gəlirlər, üç yol ayrıcında görüşərək öz səyahətlərinin məqsədi haqqında bir-birinə məlumat verir, birgə hərəkət etməyi razılaşdırırlar. Onlar səyahət edən brahmanlar sifətində gəzərək sədəqə istəyirlər. Anasuya onlara buğda verir, ancaq onlar hazır yemək istəyirlər. Anasu onları yaxınlıqdakı bulağa dəstəmaz almağa göndərir və özü yemək bişirir. ***Brahmanlar süfrəyə yaxınlaşırlar, xahiş edirlər ki, Anasu tamam soyunsun və onlara qulluq etsin.*** Anasuya bir ləyəndə öz ərinin ayaqlarını yuyur, sonda həmin suyu brahmanların üstünə tökür, brahmanlar körpəyə çevrilir. Anasuya soyunaraq, onları döşündən əmizdirir, beşiyə qoyub yatızdırır. Tanrılar öz əsl simalarına dönmək gücünü itirirlər, Anasunun yurdunda, onun uşaqları kimi yaşayırlar. Sarasvati, Lakşmi və Parvati ərlərinin belə gec gəlmələrindən narahat olaraq, onları axtarmaq üçün yola çıxırlar. Üç yolun ayrıcında onları görən Narahada tanrıların Atri yurduna doğru getdiklərini bildirir. Sarasvati, Lakşmi və Parvati öz ərlərini beşikdə görürlər, Anasuya yalvarırlar ki, ərlərini onlara versin. Anasu deyir ki, hərə öz ərini beşikdən götürsün. Ancaq körpələr bir-birlərinə bənzəyirdilər, Lakşminin beşikdən Şivanı götürməsi Anasu və tanrıların gülüşünə səbəb oldu. Narahat olan Sarasvati, Lakşmi və Paravatı ondan ərlərini öz sifətlərinə qayıtması üçün yalvarırdılar. Anasu deyir ki, onun da uşaqlar üzərində hüququ var, çünki o xeyli vaxt uşaqları əmizdirib, qayğılarına qalıb. Tanrılar onun yanında üç sifətli və altı qolu olan uşaq kimi qalmağa razı olurlar. Bundan sonra Anasu yenidən öz ərinin ayaqlarını yuyur, suyunu körpələrin üstünə tökür, tanrılar əz əvvəlki formalarına qayıdırlar. Tanrılar öz vədlərinə sadiq qalaraq, bədənlərini birləşdirir, üç sifətli (üç başlı) Dattatrei yaranır. Ortadakı baş Vişnaya, sağdakı Şivaya, soldakı Brahmaya aiddir.

***"Ramanavami"*** bayramı "çaytra" (mart-aprel) ayının 9-cu günündə keçirilir. Bu bayram Ramanın anadan olmasına həsr olunmuşdur. Doqquz gün ərzində "Ramayana" dastanının oxunması dindarların əsas işi sayılır. Bunun üçün məbədlərdən müqəddəs mətnləri oxuyan pantidlər dəvət olunur, onlar dinləyicilərə əfsanələr danışır, onları əyləndirir. Bu mərasim "katha" adlandırılır. Bir sıra bölgələrdə Ramanavami bayramı Yeni il kimi qeyd edilir. Mart ayında qeyd edilən Ugadi bayramı isə Tulugunun Yeni ili sayılır. Pəncabda isə Yeni il birinci Vaisaik ilə başlayır, bu da "Baisaki" (13 aprel) məhsul bayramı ilə üst-üstə düşür. Benqal Nava Varsha da bəzən bu dövrdə başlayır. Tamil Yeni ili də bu dövr də başlayır. Assamda Yeni il Goru və mal- qaraya həsr olunmuş Rahgoli Bihu bayramı sayılır. Kerali ştatında isə kani mərasimi ilə əlamətdar olan Vishu bayramı keçirilir. Kani mərasimi bayram günü gecə oyaq qalır, ibadət edirlər.

May ayında Keralanın Trichur əyalətində təşkil olunan "Poram" festivalının ən maraqlı məqamı dəbdəbəli şəkildə bəzədilmiş fillərin nümayişidir.

***"Canmaştami"*** bayramı şravan (iyul-avqust) ayında, Krişnanın doğum günü münasibəti ilə şən əhval-ruhiyyədə keçirilir. Bu bayram bütün Hindistanda deyil, əsasən Krişna kultu yayılan bölgələrdə, xüsusi ilə Krişnanın doğum yeri sayılan Mathurada, eyni zamanda Aqra və Bombeydə böyük coşğuyla qeyd olunur.

***"Vasant Panchami"*** bayramı "maqha" ayında Sarasvanın şəninə keçirilir. Bu bayram xüsusi ilə Benqalda qeyd olunur. Həmin gün xüsusi ilə mirzələr, yazıçılar, müəllim və tələbələr bilik tanrısı Sarasvatiyə sitayiş etməlidirlər. İnama görə, həmin gün yazı yazmaq olmaz və bütün kitab, qələm, karandaş, mürəkkəb qabları və s. bir qutuda Sarasvatinin şəklinin qarşısına qoyurlar. Digər bir inanca görə isə bu gün vacib sənədlərin yazılması üçün uğurlu gündür. Bayram günü iştirakçılar əsasən yaşıl paltar geyinirlər. "Maqa" (yanvar-fevral) ayının yarısında Maharaşvati bayramı keçirilir. Tanrı Şivaya həsr olunan bu gün oruc tutulur, ibadət edilir.

Hindistanın bayramlar silsiləsi il boyu davam edir. Bütün ölkədə keçirilməyən, yalnız bir ştat, vilayət, xalq və tayfa üçün xarakterik olan bir çox bayramlar vardır. Hər bir məbədin öz baş tanrısı var, yerli ənənəyə görə həmin tanrının şərəfinə bayram keçirilir.

***“Şankranti”*** bayramı daha çox Uttar Pradeş ştatında qeyd olunur. Bu günlər, əkinlərin biçilməsi və mövsümün dəyişməsi günləridir, bu tarixdə günəşin şimaldakı “evinə” getməsi кimi qəbul edilir və gündüz uzanır, gecələr qısalır. Əhali adətən bayram günləri Qanqa və Yamuna çaylarının sahillərinə yığışır. Şankranti bayramından bir gün əvvəl Pəncabda Lohri bayramı qeyd edilir. Bu paus ayının axırıncı günü sayılır. Lohri tonqalı günəşin şüalarının daha da parlaqlaşdığını, qışın soyuğunun başa çatdığını xəbər verir. Tonqalın yanında revdi (şirin) və qarğıdalı yemək əyləncəli olur. Şankrant bayramı ilə üst-üstə düşən “Ponqal bayramı” Tamil ştatında qeyd olunur, bu bayram tamil təqviminə uyğun, “tai” adlanan ayda keçirilir. Bu bayram məhsul bayramı sayılır. Həmin gün düyü, palma şirəsi, süd və s. qarışığından ibarət ponqal qaynadılır. Ponqal yeməyi bolluq və firavanlığın simvolu sayılır. Ponqal bayramına bir gün qalmış İndira tanrısına həsr olunur. Sonrakı gün keçirilən Mattu Ponqal isə inək bayramı sayılır.

***“Onam”*** əkin bayramı isə Kerala ştatında keçirilir, bu zaman məşhur ilan gəmisi yarışları təşkil olunur.

***“Şivaratri”*** oruc günü tanrı Şivaya həsr olunmuşdur. Mantralar zamanı Şivanın heykəllərinə yağ sürtülür, gecələr məbədlərində ilahilər oxunur. Dindarlar bu gün oruc tutarkən hər 3 saatda bir “puja” dualarını oxuyurlar. Purana yazılarında bu gecəni oyaq qalaraq ibadətlə keçirənlərin ruhi dincliyə və qurtuluşa çatacaqları əкsini tapmışdır.

İyun-iyul ayında keçirilən “Arabalar bayramı” zamanı tanrı Caqannathın böyük, əzəmətli arabası Puridəki məbədindən çıxardılaraq izdihamın müşayiəti ilə dolaşdırılır. Bu bayram Puridəki kimi coşğulu olmasa da, Hindistanın bir çox yerində

qeyd edilir. Mathurada Krişnanın xalasının yanına səyahət etməsi şərəfinə keçirilən Rath Yatra şənlikləri təntənəli şəkildə baş tutur. İzdiham Krişnanın qardaşı Balarama, bacısı Subhadranın da şəkillərini daşıyır.

***"Naqa Panchami"*** (iyul-avqust) Vişnunun kainatlar arasında gəzərkən istirahət etmək üçün üzərində oturduğu yatan ilan Anantaya həsr olunmuşdur. Bu müqəddəs ilan simvoluna qurban verilir. Bu bayramda ilan oynadanlar çox yaxşı pul qazanır. İlanların musson yağışlarına təsir göstərdiyinə və bədxah qüvvələri evlərdən qovduğuna inanılır. İnanca görə, ilanlar bədxah qüvvələri qovmaq üçün böyük gücə malikdir. "Şravana" ayının bədirlənmiş ay günündə "Raksha Bandhan" bayramı gəlir. Qızlar qardaşlarının biləklərinə rəngarəng chors (rakhi) bilərzik taxırlar. Bu qardaş və bacı arasında bağı simvolizə edir. Şravana (və ya Bhadra) ayının ikinci həftəsinin doqquzuncu günündə Krişnanın doğum günü- Janmastami (Canmastami) günündə gecə yarısına qədər dua və şənlik edirlər.

***"Buddha Purnima"*** bayramı buddizm inancına görə Buddanının doğumu, işıqlanması və Nirvanaya çatması fərqli illərin eyni gününə düşür. May ayının bütöv ay günündə bu bayram кeçirilir.

Rakşa Bandhan günündə qızlar qardaşlarının gələcək il qorunmalarını təmin etmək üçün biləklərinə "Rakhi" deyilən bilərziklər taxar. Kişilər də bacılarına hədiyyələr verir.

Hindistanın saysız-hesabsız bayramları arasında "Pateti" (Zərdüştlərin Hindistana gəlmələrinin ildönümü) Zərdüştün ad günü, Caisalmerdə Çöl festivalı, Ahmedabadda Beynəlxalq Uçurtma Festivalı Keralada fillərin nümayişi, Naqaurda dəvə nümayişi, Rishikeshdə beynəlxalq yoqa festivalı, Elephanta adasında fil bayramı, Ladakhda *"Hemis"*, Caypurda *"Teej"*, Saharanpurda *"Manqo"* festivalı, Ellora festivalı, Qoa karnavalı, Koçində Beynəlxalq Ədviyyat festivalı (Koçin), Khajurahoda rəqs

festivalı, Caypurda *“Qanqaur”* bayramı, *“Qovardhana”* inək bayramı, Puşkar Dəvə Yarmarkası (Racastan) və s. vardır.

Siqhlər *“Quru Nanak Cayanthi”* (Quru Nanakın ad günü) bayramını, caynistlər Mahavir Cayanti (Mahaviranın doğumu) bayramlarını təntənə ilə qeyd edirlər. Hindistanda xristianlar Müqəddəs cümə, 25 dekabr Milad bayramını təntənə ilə qeyd edir, həmin gün rəsmi tətil günü sayılır.

Hindistan da islam bayramları və əlamətdar günləri də qeyd olunur. Orucluq ayı (Ramazan bayramı, yəni Raya İdul Fitr), Qurban bayramı (İdul Adha).və Aşura günləri Hindistanda rəsmi tətildir. Bundan başqa, Hindistan müsəlmanları Qədr gecəsi (Əhya gecəsi), Mövlud Nəbi (Məhəmməd peyğəmbərin mövludu), Məhəmməd peyğəmbərin “İsra Merac gecəsi” təntənə ilə keçirilir, məscidlərdə, meydanlarda namaz qılınır, dualar oxunur, müsəlman ənənələri, ritualları yerinə yetirilir.

Bütün bunlardan başqa, Hindistanda 26 yanvar Respublika günü, 15 avqust Qurtuluş günü, 2 oktyabr Qandi Cayanti günü (Mahatma Qandinin ad günü) və s. rəsmi bayramlar təntənə ilə qeyd olunur.

***Sual və tapşırıqlar:***

*1. Hindistanda əksər bayramlar fəsillərin dəyişməsi, iqlim, təsərrüfatla bağlı olsa da zaman keçdikcə dini mahiyyət daşımağa başlamışdır.*

*2.Hind yeni ilinin birinci ayında (“çaytra”, mart-aprel ayları) kənd sakinləri birinci şumlamanı bayram edirlər.*

*3. Musson yağışlarının başlanması bayram və mərasimlərlə müşayiət olunur.*

*4. Hindistanda hinduizm, caynizm, buddizm, islam, xristianlıq, siqhizm və s. dinlər, dini təlimlər bayramların keçirilməsində həlledici rol oynayır.*

*5. Vedalara görə, brahmanlar “Rakhi Purnima”, kşatrilər*

*“Dasera”, vayşalar “Divali”, şudralar “Holi” bayramını qeyd etməlidirlər.*

*6.“Mahaşiva Ratra”, “Qaneşa-Çaturthi”, “Datta Cayantı”, “Ramanavami” , “Canmaştami” , “Vasant Panchami”.*

## *3.2. Musiqi*

Hind musiqisi dünyanın ən qədim musiqilərindən biridir. Fərqli mədəniyyət, din və dilə sahib insan birliklərinin Hindistanda məskən salması, mədəniyyət və incəsənətin bütün sahələrində olduğu kimi, musiqi və rəqslərdə də əksini tapmışdır. Dini inanclar bayramlar, mərasimlər, adət-ənənələrdə olduğu kimi, hind musiqisinin, rəqslərinin yaranmasına, inkişafına əsaslı təsir göstərmişdir. Qədimdə olduğu kimi, müasir dövrdə də hind musiqisi və rəqsləri dini rituallar, bayramlar, toy şənlikləri, oyun və əyləncələrlə vəhdət təşkil edir.

Hindistanın ən qədim əhalisi neqroid irqi xalqlarına aid edilsə də, sonrakı dönəmlərin mədəni təbəqələri dravidlər, monqoloidlər, arilərlə əlaqələndirilir. Müxtəlif mədəniyyətlərin qovuşması Hindistan musiqisi üçün də xarakterikdir.

*“Sanqita”* sözü əksər hindi dillərində “musiqi” kimi başa düşülür, hərfi baxımdan “hər şeyin birləşməsi və ifadəsi” kimi tərcümə olunur. “Hər şey” dedikdə isə *bədən, ağıl və ruh* başa düşülür. Şimali Hindistanın musiqisində *“şacaca”* və ya əsas ton əbədiliyi, tanrını simvolizə edir. *“Şacaca”* termini hərfi mənada *“6 notdan ibarət sıra”* mənasını verir. Musiqi sıralamasının əsası, musiqinin mahiyyətinin açarı qammanın birinci notu “sa”dan asılı olur, Avropa musiqisində bu “do” qammasıdır. İfaçı üçün şacaca səsinin imkan verdiyi tonda və ya musiqi alətinin imkan verdiyi tonda qoyula bilər.

Ölkənin müxtəlif ştatlarında məskunlaşan ***“pulayana”, “oraon”, “santal”, “savara”, “çençu”, “bhil”*** və s. tayfaların spesifik

musiqi və rəqsləri vardır. Belə etnik musiqi hind musiqi mədəniyyətinin ümumi xüsusiyyətlərinin formalaşmasında xüsusi rol oynamışdır. Digər qədim mənbə tamil və qohum xalqların musiqisidir, bu musiqi melodikdir, özünəməxsus xüsusiyyətləri vardır. Bu musiqi veda ilahilərinin oxunmasında ari musiqisi ilə müəyyən qədər uyğun gəlmişdir.

Veda mətnlərinin ("Riq Veda", Sama Veda", "Yacur Veda", Artharve Veda"), hamısı musiqi üstündə köklənmişdir. Vedaların yayılmasında, brahmanizmin, hinduizmin formalaşmasında, hind cəmiyyətində möhkəmlənməsində musiqi, mahnı və nəğmələrin mühüm rolu olmuşdur. Müxtəlif formalı, üslublu musiqilər, nəğmələr, rəqslər dini məzmunlu ideyaların geniş əhali kütləsinə çatdırılmasında vasitə, ünsiyyət rolunu oynamışdır.

Vedalar arasında qurban əsnasında oxunan ilahiləri əhatə edən "Sama Veda" xüsusi yer tutur. Müqəddəslik, ayinlər baxımından sonra "Riq Veda"dan sonrakı yerdə duran "Sama Veda" bəzən "rituallar vedası" və ya "melodiyalar vedası" kimi tanınır. Qurban mərasimlərində, dini rituallar zamanı "Sama Veda" ilahiləri yüksək səslə oxunur. Sonuncu veda olan "Artharve Veda" (yaxud "Acur Veda") da dini ilahilər, mahnı və nəğmələr əksini tapmışdır.

Yüzillərlə davam edən qarşılıqlı dini-etnik təsir nəticəsində Hindistanda *"hindustani" və "karnatak"* klassik musiqi incənəti yaranmışdır.. Bu musiqi ənənələri oxşar melodik və qanunlara uyğun əsasa malikdirlər, bu da *"raqa" və "tala"* üçün xarakterikdir.

Qədim hind musiqi və rəqsləri haqqında ilk əsər dram sənətinin yaradıcısı müdrik Bharataya məxsusdur. O, "Bharatanatyaşastra" əsərində dövrünün musiqi sənəti haqqında geniş məlumat vermişdir. Bu qədim traktatdan aydın olur ki, qədim hind musiqisi müasir "klassik" hind musiqisindən müəyyən qədər fərqlənmişdir.

Veda musiqisi ilk dövrlər üç tondan ibarət olsa da, inkişaf nəticəsində tədricən yeddi tonadək artmışdır. Məbəd və ***"matha"-***

larda (monastr) musiqi dini xidmət və duaların ayrılmaz hissəsi idi. Veda dönəmində brahmanların monoton dini ilahilər oxuması məlum idi, brahmanların təxminən 2500 illik ilahilər oxuması təcrübəsi praktiki baxımdan dəyişməz qalaraq davam edir. Sadə dini nəğmələr ***("bhacan", "abhanq", "kirtan" və s.)*** vasitəsi ilə əhali arasında dini təlimlər yayılmışdır.

Brahma tanrısının arvadı və ya qadın başlanğıcı Sarasvati musiqinin himayədarı sayılır, hətta müasir dövrdə belə məktəblilər, tələbələr, musiqiçilər ildə bir gün Sarasvatiyə ibadət edirlər, həmin gün ***"Sarasvati puca"*** adlanır. Sarasvatinin heykəli və ya şəklinin qarşısına kitab və musiqi alətləri düzürlər. Dini əfsanəyə görə, Sarasvatinin oğlu, ***"rişi"*** Narada istedadlı musiqiçi olmuşdur, adətən o, əlində musiqi aləti ***"vina"*** ilə təsvir olunur.

Hökmdar Samudra Qupta elm və incəsənətin himayədarı olmuş, şair və musiqiçi olmuşdur, bəzi sikkələrdə o əlində musiqi aləti ilə təsvir edilmişdir.

"Varna-cati" sistemi sənətkar, tacirlər və s. ilə məhdudlaşmamış, bura ayrıca cati təşkil edən musiqiçilər, aktyorlar, mirzələr də daxil idi. "Maytri-upanişad"da brahmana rəqqas və aktyorla ünsiyyətin qadağan edilməsi bu sənət sahəsinin yarandığını göstərir, aktyorların sosial statusu aşağı olmuşdur.

Bir sıra qədim mənbələrdə musiqiçilər, xanəndələr, müxtəlif musiqi alətləri haqqında məlumatlar vardır. Paninінin əsərində instrumental musiqi, mahnı oxumaq, rəqs sənət kateqoriyalarına ***("şilpa")*** aid edilir. Panini orkestr, musiqi qrupu haqqında məlumat verir, belə qruplar Bharhuta heykəllərində təsvir edilmişdir.

Müəllifi *Muni Bharata* (e.ə.II əsr) olan ən qədim musiqi və rəqs bilgisi kitabı əfsanəvi şair və musiqiçilərin adını *("Qandharva"vedaları)* daşıyır. Matanqinin *"Brihaddeşi"* (VI-VII əsrlər) adlanan əsərində yeddi əsas mahnı, nəğmə növü "qiti" haqqında məlumat verilir, *"raqa"*, ya da *"qiti"*lərdən biri kimi baxılır. Naradanın *"Sanqitamakarande"* (VII-IX əsrlər) əsərində cinslərə

(kişi, qadın, orta) görə raqaların təsnifatı verilir. Şarnqadevanın (XIII əsr) *"Sanqitaratnakara"* əsərində isə təsnifat mürəkkəbləşir, müxtəliv növlər, səviyyələr müəyyənləşdirilir.

Hindistanın musiqi nəzəriyyəsinin inkişafında hind-müsəlman mədəni sintezi də mühüm rol oynamış, orta əsrlərdə Əmir Xosrov Dəhləvi (Amır Husro) *"Saranqadhara paddhati"* (1363), Tomar Mansinqhanın *"Mankutucalu"* (XV əsr), Miyanu Tansenu *"Raqamalu"* (1549) adlı musiqi əsərləri yazmışlar.

Cayadeva (XII əsr), Kabir və Tiruvvaluvar, Purandaradasa (1486-1564) , Kşetrayn (1600-1680), Muttusvami Dikşitara (1775-1835), Tyaqaraca (1775-1835), tanrı Krişnaya məhəbbətdən ağlını itirən hökmdar qadın *Mira* hind dini-lirik musiqisinin inkişafında mühüm rol oynamışlar. Hind musiqisinin inkişafında yazıçı, şair, Nobel mükafatı laureatı Rabindranat Taqor (1861-1941), Digambar Paluskar (1872-1931), Vişnu Narayana Bhatkhande (1860-1936) bəstəkar, musiqiçi kimi xüsusi rol oynamışlar.

Hindistanda müsəlman-türk hökmdarlarının hakimiyyətləri dövründə musiqi və rəqs inkişaf etmişdir. Baburşahlar dövlətinin qurucusu Baburşah şair və hökmdar olaraq əyləncə məclisləri qurmuşdur. İncə ruhlu Babur musiqi alətlərində ifa etməyi bacarmış, musiqi bəstələmiş, hətta oxumuş, "Musiqi elmi" haqqında risalə yazmışdır. O, "Baburnamə" əsərində Xoca Abdullah Mərvari, Qul Məhəmməd Udi, Mir Seyid Bədr, Müzəffər Mirzə, Yusif Əli Göyəldaş kimi musiqişünas və rəqqaslar haqqında məlumat vermişdir. Baburşah ***"çahargah nəqşi", "əməl", "pəncgah nəqşi", "pişrov"*** kimi musiqi növləri, ***"çəng", "gicək", "rübab"*** kimi simli musiqi alətləri barədə maraqlı faktları əks etdirmişdir.

***Hind musiqisinin iki ayrı ənənəsi vardır: "Hindustani" musiqi ənənəsi (Şimali Hindistan), Karnatak musiqi ənənəsi (Cənubi Hindistanın Tamilnad, Kerala, Andhra, Karnatak ştatları).***

Hər iki musiqi ənənəsi təməldə eyni əsaslara söykənsə də detallarda bəzi dəyişikliklər vardır. Şimali Hindistan musiqisi isə

digər mədəniyyətlərdən təsirlənmiş, xüsusilə müsəlman və hindi ənənələrinin qarşılıqlı təsiri ilə zənginləşmiş, amma sistematik cəhətdən zəif bir musiqi olmuşdur. "Hindustani" musiqidə mahnı azdır, "karnatak" musiqinin təməlində isə vokal musiqi durur. Hər ikisində də sözsüz və vokal musiqi növləri vardır.

Cənubi Hindistan musiqisi sistemli nəzəriyyə əsasında inkişaf etmişdir. "Karnatak" musiqi hinduizm ilə çox yaxından əlaqəlidir, bu ənənənin əsas mahnı növünə ***"varnam"*** deyilir. Adətən, Cənubi Hindistanda konsertlər "varnam" ilə başlayır. Cənubi Hindistanda digər mahnı növü üç hissədən ibarət *"kriti"*dir. Bu növdə mətnlər izahlı olur. ***"Kriti" üç hissədən ibarətdir: "pallavi" bir, ya da iki sətirlik sözlərdən ibarət ilk hissədir, ikinci hissə "anupallavi"dir. Son hissə olan "çaranam" digərlərindən daha uzundur, çox vaxt "pallavi" ilə bitir. "Karnatak" musiqinin "raqam", "tanam", "pallavi", "tillana" və s. növləri vardır.***

Hind musiqisi mikrointervalları *("şruti")*, melodik modeli *("raqa")*, ritmik incəliyi ilə *("tala")* dünya mədəniyyətinin zənginlikləri sırasındadır. Bu yüksək inkişaf etmiş, incə musiqi ifadəsi qədim dini və dünyəvi musiqilərin çulğalaşması nəticəsində ortaya çıxmışdır.

Ənənəvi hind musiqisi olan ***"raqa"*** sanskritcə "rəng" deməkdir. İlk mənası "duyğunu ifadə edən" mənasını daşıyır. Musiqidəki mənası isə "raqa" mövqe, melodiya deməkdir.

"Ramayana" dastanında (e.ə.IV əsr) və Muni Bharatanın "Natyaşastra" (e.ə.II əsr) "raqa"nın "qrama"sı haqqında məlumatlar əksini tapmışdır.

***"Hindustani" musiqisində adətən "raqa"nın ən çox 7 tonu olsa da, bəzən 9, qarışıq "raqa"larda 12 səsə qədər artır. "Karnatak" musiqisində yeddi səsdən çox "raqa"ya çox nadir hallarda rast gəlinir. Bharata altı "raqa" ("Bhairava", "kauşika", "hindola", "dipaka", "şri-raga", "megha") sadalayır. Bəzi yazarlar isə 26 "raqa"nın olduğunu bildirirlər.***

Ən geniş yayılmış “raqa”da beş və daha çox səs vasitəsi ilə melodiya yaranır. Musiqiçilər 6 “raqanı” şəxsləndirərək 5-6 “dişi raqa” ilə birləşdirərək yeni musiqi tonları yaradırlar. ***Ənənəvi olaraq altı “raqa” kişi başlanğıclı, “raqaynami” adlanan melodiyalar isə “raqa”ların “qadınları” sayılır.*** Hər bir cüt “raqa” sutkanın vaxtları (dan yeri, səhər, günorta, axşam) ilə assosiasiya olunur. Digər melodiyalar isə sevinc, qorxu və məhəbbəti ifadə edir.

Hind musiqisi üçün harmoniyadan daha çox bir-birini izləyən müxtəlif ritmlər xarakterikdir, ritmik struktur kifayət qədər mürəkkəbdir. Bu çərçivədə hind musiqiçisi daim müəyyən mənada improvizator olaraq qalır. “Raqa”nı və taktı seçən musiqiçisi bundan sonra müxtəlif variasiyalara keçir, sadədən mürəkkəbə doğru gedir. “Raqa” notları solfej şəklində oxunur, Qərb musiqisindəki “do-re-mi-fa-sol-la-si” ekvivalenti hind musiqisində ***“sa-re-qa-ma-pa-dha-ni”***dir. Bu yeddi notdan başqa səslər də vardır. Hər ikisində 7 not olsa da, Qərb səs sistemində 12 ton, hind musiqisində 22 fərqli ton olur.

“Hindustani” musiqi ənənəsinə görə, 7 tondan ibarət “raqa” (“sam” və “urna”) “Yaman”(sa, ri, qa, ma, pa, dha, ni) və “mayyamalavaqo-ula” (sa, ri, qa, ma, pa, dha, ni), “Yamani-Bilaval” raqasında 9 səs nizamından (sa, ri,qa, ma, ma, pa, dha, ni, ni) , “Basant-Bahar” raqasında isə 12 səs tonundan istifadə olunur. Hindistanda əsas “raqa”lar aşağıdakılar sayılır: ***“bilaval (hərəkətli, sevincli), “lalit (şəffaf, duyğulu sabah melodiyası), “todi” (yumşaq sabah raqası), “saranq” (günorta raqası), “bhup (yumşaq aksam raqası), “des (eşq dolu gecə raqası), “malkauns” (gecə yarısı raqası), “bhairavi” (dan yeri), “megh malhar (yağmur və göy gurultusu), “dipak”. Sonuncu, yəni “dipak” raqasından istifadə edən ölür, ona görə də istifadə olunmur.***

Etnik, ənənəvi və qarışıq ənənələr müstəvisində formalaşan hind musiqi ənənəsindəki bir başqa əhəmiyyətli qamma ***“tala”***dır. “Tala” iki mənanı verir: Birincisi, Hindistan musiqi sistemlərindəki ritm, ikincisi isə xüsusi “musiqi ölçüləri”dir. Tala zamanın

və təbiətin qarışıq fəlsəfi düşüncələri ilə əlaqələndirilir. "Tala"da davam edərək ritmik silsilə təşkil edir, hər bir silsilə qapalıdır və təkrarlanır. Silsilə seqmentlərə bölünür, bu bölümlər bir-birinə bərabər və qeyri-bərabər ola bilir, onlar ritmik vahidlərin əlavə olunması ilə formalaşır. Burada qapalı və silsilə ritmik vahidlər mühüm əhəmiyyət daşıyır, burada "tala" ilə sadə ritm arasında fərq ortaya çıxır. Bu sistemin daxilində müxtəlif yaradıcılıq üslubları mövcuddur, onlar ritm, ton, lirik xüsusiyyətlərinə görə fərqlənirlər. Belə fərqlənən üsullar Şimali Hindistanda ***"dhrupad", "khayyal", "thumri"*** və s., Cənubi Hindistanda ***"kriti", "varnam", "padam", "cavali"*** və s. yayılmışdır. "Raqa"nın ciddi üsulları yavaş kompozisiyadan başlayaraq bir-birini əvəz edən "alapa", "çiza" və ya "kriti" kimi müəyyən "tala"ya daxil olan melodik frazalar nisbətən sürətli templə ifa olunur. Şimali Hindistan musiqisində müəyyən metroritmik əsasda formalaşan müstəqil instrumental kompozisiya ("qat") mövcuddur. Cənubi Hindistanda isə musiqi alətləri ilə vokal əsərlər müşayiət olunur. ***"Thumri", "drupad", "qazal", "padam", "cavali"*** lirik məhəbbət nəğmələri olsalar da dini mistik dünyagörüşlə sıx bağlıdır. Bu növlərin alt növlərinə, bunlarla əlaqəli müxtəlif üsullara rast gəlmək mümkündür. Hər növün fərqli icra texnikaları vardır və müğənnilər bütün növləri öyrənsələr də yalnız biri üzrə ixtisaslaşırlar.

***Sual və tapşırıqlar:***

*1."Sanqita" anlayışını ("hər şeyin birləşməsi və ifadəsi") izah edin.*

*2. Şimali Hindistanın musiqisində "şacaca" ("6 notdan ibarət sıra") adlanan əsas ton əbədiliyi, tanrını simvolizə edir.*

*3.Vedalar arasında qurban zamanı oxunan duaları əhatə edən "Sama Veda" xüsusi yer tutur.*

*4.Hindistanda "hindustani" və "karnatak" klassik musiqi incənəti haqqında təqdimat hazırlayın.*

*5."Raqa" və "tala"*

## 3.3.Musiqi alətləri.

Hind musiqi alətlərinə dair ən qədim materiallar, möhür və piktoqramlar üzərində simli, zərb alətlərinə bənzər təsvirlər, quş səsi çıxaran alətlər Hind vadisində aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır, bu materiallar Harappa sivilizasiyasına (e.ə.III minillik) aid olunur.

E.ə.II-I minilliklərdə veda dönəmində musiqi alətləri incəsənətin ümumi inkişafı əsasında daha da təkmilləşmişdir. Veda mətnlərində arfaya bənzəyən ***(“bana vina”, “kanda vina”, “qodha vina”), “bhumi dun lubhp” (heyvan dərisi ilə örtülmüş) zərb alətləri (“vanaspati”, “lamqla”), fleytalar (“tunava” və s.)*** adları çəkilmişdir.

Maqadha-Mauri imperiyası dövründə hind musiqi nəzəriyyəsinə dair bir sıra əsərlər yazılmış, musiqilər, mahnılar, musiqi alətləri qruplaşdırılmışdır. Müdrik ***Bharata “Natyaşastra”*** (e.ə.II-b.e.II əsr) əsərində ***“tata” (simli), “avan” (örtülmüş, baraban), “qhana”(çubuqlar, dəmir lövhələr), “suşira” (nəfəs)*** terminləri ilə alətlərin təsnifatını aparmışdır, “vadhya” sözü isə bütün musiqi alətlərini ifadə etmək üçün istifadə edilmişdir. Qədim traktatların və müasir materialların təhlili göstərir ki, Hindistanın musiqi alətləri yüzillər ərzində müəyyən dəyişiklərə uğramışdır.

Hindistanda musiqi alətləri (“vadya”) dörd qrupa ayrılır: ***“taqavadya” (simli), “suşiravadya” (nəfəs), “avanaddhavadya” (barabanlar), “qhanavadya” (zınqrovlar, dəmir lövhələr, çubuqlar və s.) aiddir. “Taqavadya” qrupuna “vina”, “sitar”, “tambur” və s., yaylı “saranqi”, “dilrubu”, “suşiravadya”ya müxtəlif tipli fleytalar, “şenai”, “nafern”, “naqasvar”, “avanaddhavadya”ya “tabla”, “pakhavac”, “mridanq”*** və s. aiddir. Zərb alətlərinə bənzəyən zənglər, çubuqlar və s. adətən klassik konsert heyətlərinə daxil edilmirlər.

Vedalarda adı çəkilən qədim ***“vina”*** (və ya “vine”, “veena”) aləti əvvəlcə on simli arfaya bənzəyirdi, yayla ifa olunurdu. Qupt

dövründə isə bu musiqi alətinin forması dəyişərək armud formasını almış, barmaq və ya mizrabla ifa olunmağa başlamışdır. Sitara bənzəyən, amma ahəng telləri olmayan "veena"da nizamlana bilər pərdələr yoxdur. Bu alətdən daha çox "karnatak" musiqisində istifadə edilir. Simli alət olan "vina"lar arasında ən geniş yayılanı "Sarasvati vina" deyilən növdür. Bilik, təhsil, şeir himayədarı olan tanrı Sarasvati həmişə bu alətlə birgə təsvir edilir. Uzun bir sapın hər iki ucunda su balqabağı vardır, sonunda yuxarı qıvrılır. Simlər isə sapın üzərinə bağlanır. Bəzi "vina"ları çalmaq üçün quş yumurtası kimi yonulmuş, oval, parlaq daşdan istifadə olunur.

***"Şankha"*** (balıqqulağı borusu) min illərdir ki, istifadə olunan alətdir, üfləndə güclü səs çıxarır. Savaşlarda düşməni qorxutmaq, xəbərləşmək üçün istifadə edilirdi. Dini mərasimlərin əvvəlində və sonunda "şankha" çalınırdı. "Bhagavadgita"da Arcuna və qardaşları döyüşdən əvvəl bu musiqi alətindən istifadə edirlər, hər birinin "şankha"sının xüsusu adı da vardır.

İplə boyundan asılan, belə bağlanan, qucaqda tutulan ***"dholak"*** *(baraban, davul)* qədimdən Hindistanın hər yerində istifadə olunan alətdir, yüzdən çox növü vardır. Hər bölgənin özünün "dholak"ı olur. Məsələn, Benqaliyada nəhəng ölçüsü ilə seçilən bu alət "dhak" adlanır. Tanrı Şivanın ***"tandava"*** rəqsini oynarkən çaldığı isə ***"damaru"*** adlanan və "dholak"a bənzəyən barabandır. Qədimdə olduğu kimi, indi də kiçik barabanlar barmaqlarla ifa olunur. Böyük barabanlar müxtəlif növ qonq, zənglər, dəmir lövhələrlə birgə istifadə edilir. Böyük silindrik baraban olan "dholak" (dhok) sağ əl barmaqları və ovucla, sadə metal boşqaba bənzəyən "thala" isə nazik çubuqla çalınır.

Hindistanda musiqiçilər ***"sarod", "sandır", dördtelli "tambura", forfor qablardan ibarət "calataranq", "saranqi", "harmomiya", metal pərdələrdən ibarət "min", iki barabandan ("tiz", "bas") ibarət "tabaq", karnatak musiqisində istifadə edilən ikitərəfli "mridanqam" (baraban), bambuk fleyta aləti***

***"bansuri" ("venu" və ya "kuzhal"), "şehnayi" ("naqasvaram")*** *və s.* alətlərdən istifadə edir.

Orta Asiyadan gələn əsas alətlərdən biri ***"rübab"*** sayılır. Qoboy tipli ***"şenai"*** isə Orta Asiyada yayılmış ***"surnayi"*** (zurna) alətinin oxşarıdır. Hind ənənəvi musiqisində geniş istifadə olunan ***"kinnari"*** aləti Bibliyada adı çəkilən "kinnor" və Çin ***"khinyu"*** alətinə bənzəyir. Gitaraya bənzəyən ***"sitar"*** akkord pərdələrə malikdir, təxminən otuza qədər teli olur. Bunlar melodiya telləri, bas teli, titrəşmə və ya dəm səsləri çıxaran ahəng telləridir. Hind skripkası müasir skripka ilə eyni xüsusiyyətlərə malik olsa da, yerli musiqiçilər bardaş quraraq, skripkanı çiyin xəttindən aşağıda çalırlar.

***"Harmonium"*** XIX əsrdə Hindistanda yayılmışdır, bir qutu içində olan, pianino dilləri kimi ağ-qara dillərdən ibarət, arxasındakı körüyün havası ilə səs çıxaran musiqi alətidir. Musiqiçilərin sevimli aləti olan "harmonium"da akkorda ehtiyac olmur, çünki daim eyni, yumşaq səs çıxarır.

***"Saranqi"*** yayla çalınan 4 telli (simli) xalq musiqi alətidir, 60 sm uzunluğunda taxtadan ibarətdir, çökək yeri genişdir, aşağıya doğru bir az daralır. Barmaqları tellərə sıxıb, yayı tellər üzərində gəzdirmək yoli ilə ifa olunur. Şimali Hindistanda "saranqi"nin bir neçə növü vardır.

***"Sarod"*** taxta gövdəli, sap qismi isə dəmirlə örtülü alətdir, 4 əsas, 4 yardımçı simdən ibarətdir. Bu alət Orta Asiyadan gətirilən "ud" alətinin dəyişdirilməsi, təkmilləşdirilməsi ilə yaradılmışdır.

***"Tanpura"*** dörd metal simli, uzun saplı, balqabaq gövdəli bir musiqi alətidir. Bu gövdə uzun illər davam edən bu qurutma yolu ilə əldə edilir. Adətən bu alət digər musiqi alətləri ilə birlikdə ifa olunur. Cənubi Hindistanda balqabaq yerinə ağacdan istifadə edilir.

***"Sitar"*** aləti su balqabağı kimi gövdəli, uzun saplı taxtadır, qabarıq mis pərdələri isə ştatlara görə fərqli şəkildə düzənlənir. Beş əsas metal teli vardır, bundan başqa, ikisi bas, 12-17-si zil (soprano) olmaqla başqa simləri də vardır.

***"Tabla"*** iki hissədən ibarət, vurmaqla çalınan çalğı alətidir, kiçik hissəyə "tabla", digərinə "daqqa" adı verilsə də, hər ikisi birlikdə "tabla" adlandırılır. "Daqqa" taxta, "tabla" isə metaldır, hər ikisinin üzəri dəri ilə örtülür. "Tabla" sağ, "daqqa" isə sol əllə çalınır.

Bu musiqi alətlərinin ustad ifaçıları ilə məşhurdur. Məsələn, "şehnayi"nin ən böyük ustadı Bismillah Han, "tabla"nın ustadı Alla Rakha, Zakir Hüseyn, "sitar"ın ən böyük ustadı Pandit Ravi Şankar və s. sayılır.

*Sual və tapşırıqlar:*

*1.Bharatanın "Natyaşastra" (e.ə.II-b.e.II əsr) əsərində əksini tapan "tata" (simli), "avan" (örtülmüş, baraban), "qhana"(çubuqlar, dəmir lövhələr), "suşira" (nəfəs) terminlərini izah edin.*

*2.Hindistanda musiqi alətləri ("vadya") dörd qrupa ayrılır: "taqavadya" (simli), "suşiravadya" (nəfəs), "avanaddhavadya" (barabanlar), "qhanavadya" (zınqrovlar, dəmir lövhələr, çubuqlar və s.). Bu haqda təqdimat hazırlayın.*

*3."Vina" , "şankha" ,"dholak", "sarod", "sandır", "saranqi"ni təsvir edin.*

### *3.4. Hind rəqsləri.*

Şimalda Kəşmirdən cənubda Kanyi-Kuması burnuna, qərbdə Kaçav, şərqdə Manipura qədər rəqslər geniş yayılmışdır. Həyat şərtlərinin fərqliliyi, dil və ətraf mühitin müxtəlifliyi rəqs forma və üsullarının, geyimlərinin, musiqi alətlərinin rəngarəngliyinə gətirib çıxarmışdır.

Hind rəqsləri xalqın həyatı, dini dünyagörüşü, yerli adət ənənələri ilə sıx bağlıdır. Cəmiyyətin mahiyyətində duran mühafizəkarlıq rəqslərə də sirayət etmişdir, belə ki, qədim və müasir hind rəqsləri ciddi şəkildə fərqlənməmişdir.

Hind rəqslərinin qədimliyi bir sıra maddi mədəniyyət nümunələri ilə təsdiqlənir. ***Mohenco-Daro arxeoloji qazıntıları za-***

***manı tapılan rəqs edən qız heykəlinin e.ə.II minilliyə aid olduğu ehtimal edilir***. Madhya-Pradeş ştatında Bhimabetaka mağaralarındakı qaya rəsmlərində rəqs edənlərin təsviri, Sanchinin girişində rəqs edən "Apsaralar"ın təsviri, Acanta və Ellora divar rəsmləri, Khacuraho daşişləmələrində rəqqasların heykəlləri, Hoysala sülaləsinə aid məbədlərdəki divar rəsmləri Hindistanda rəqslərin qədimdən populyar olduğunu göstərir.

Hind rəqsləri daim qaynağını toplumun dini dünyagörüşündən almışdır. Məsələn, ***rəqs edən tanrı Şiva (Nataraca) heykəli hind rəqsinin ən məşhur simvoludur.*** Onun başının üstündəki ay duyğulara nəzarətin, bədəninə dolanmış ilanlar həyat verən yaşam gücləri üzərində hökmün, şeytanın üzərinə doğru qalxmış ayağı isə eqonu məhv etməsinin göstəricisidir.

Hind rəqsləri bədən hərəkətlərinin dinamikliyi, dramatikliyi ilə diqqəti cəlb edir. Bu rəqslərin əksəriyyəti haqqında qədim "Bharatanatyaşastra" traktatında məlumat verilmiş, boyun, göz, baş, gövdə və s. ilə bağlı rəqs hərəkətləri izah olunmuşdur. ***"Natyaşastra"da isə rəqs zamanı başın 10, gözün 36, əlin 37, bədənin 10 vəziyyəti təsvir edilmişdir.***

Hind rəqsləri zamanı əllər, qollar ilə bağlı çoxsaylı hərəkətlər təkcə hər hansı hissi ifadə etmir, hansısa tanrının, müqəddəs qurunun, müqəddəs heyvanın, çiçəyin, ağacın və s. simvolu sayılır. Belə bir sənət uzun illər hazırlığı tələb etdiyindən qədimdən rəqslə professionallar məşğul olmuş, hətta rəqqas "cati"ləri yaranmışdır. Hindlilərin teatr tamaşalarına, musiqi və rəqslərə böyük sevgisinə baxmayaraq, rəqqas "catiləri" statuslarına görə aşağı kastalara aid edilmişlər.

Hind dini əfsanələrindən məlumdur ki, rəqslə şahzadələr, eləcə də yuxarı kastanın digər nümayəndələri də məşğul olmuşlar. "Kamasutra"da qeyd olunur ki, rəqs etməyi bacarmaq mədəni, tərbiyəli şəxsin vacib xüsusiyyətidir.

***Hind rəqslərinin 3 fərqli növü vardır: "Nritta" bədən, qol və ayaqların hərəkətlərindən ibarət sadə rəqs; "Nritya" smvolik***

***vücud duruşları və əl hərəkətlərini üz ifadələri ilə əlaqələndirən rəqs; "Natya" dram elementlərinə malik, söz, şeirdən istifadə olunan rəqs.*** Bütün bu rəqs növlərində ***"mudras",*** yəni, rəqs zamanı əl-qol hərəkətlərindən istifadə edilir, rəqqaslar tamaşaçılarla əlaqə qurmaq üçün bədən hərəkətlərindən istifadə edirlər.

Ən məşhur hind rəqsləri ***"bharata natyam", "kathakali", "kathak", "manipuri", "kuchipudi", "odissi", "mohini attam"***-dır. Bunlarla yanaşı ölkədə çoxsaylı tayfa rəqsləri də vardır.

***"Bharata natyam"*** rəqsində əl, qol hərəkətləri, üz ifadələri rəqsin ən əhəmiyyətli xüsusiyyətləridir. Əvvəllər məbəd rəqsi sayılan bu rəqs, indi səhnədə tək rəqqas tərəfində sərgilənir. ***"Katha"*** Hindistanın şimalına xas klassik rəqs növüdür, bu rəqsdə, sürətli ayaq hərəkətləri, dönmələr və əl hərəkətləri əsas yer tutur. Hər rəqs bir əfsanəni izah edir. Qədimdən ***"Kathakas"*** adlandırılan mifik hekayələr rəqs hərəkətlərinin müşayiəti ilə tamaşaçılara çatdırılmışdır. Bu rəqs-hekayə ənənəsindən indiyədək istifadə olunur.

Yüzillər boyu Hindistanda rəqs bir növ ibadət üsulu, çoşğunluğun ifadəsi kimi qəbul edilmişdir. Məbəd rəqqasları (Devasis) tanrıları məmnun edə bilmək üçün müqəddəs rəqslər etmiş, ağır bir həyatı qəbul etmişlər və klassik rəqsin mərkəzi məbədlər olmuşdur. "Devasis" sistemi Hindistanın bəzi ştatlarında indi də geniş yayılmışdır. Portuqaliyalı səyyah Dominqo Paes 1520-1522-ci illərdə Vicayanaqar dövlətində olarkən rəqqasların həyatı ilə tanış olmuşdur, o, xüsusi ilə gənc qadın rəqqaslara ağır təlim verildiyini yazmış, rəqs salonlarını gəzmiş, rəqs duruşlarını rəsmlərə köçürmüşdür. Hökmdar Krişna Devaraya rəqs təlimi ilə çox yaxından maraqlanmış, rəqs salonlarını davamlı olaraq ziyarət etmişdir. Vicayanaqar dövlətində "Navatari" bayramı zamanı rəqslərə böyük önəm verilirdi, rəqqaslar qızıl, inci və almazlarla bəzədilirdilər.

***Hind rəqsləri arasında üç növü ayırmaq mümkündür: müxtəlif bayramlar və mərasimlər zamanı ifa olunan rəqslər,***

***rəqqas "cati"lərin rəqsləri, tayfa rəqsləri.*** Xalq rəqsləri həyat mərhələləri, mövsümlərlə, xalq bayramları ilə sıx bağlıdır.

Professional rəqqasların oynadığı rəqslər də xalqların sosial həyatı, adət-ənənələri, bayramları ilə sıx bağlıdır. Bu rəqslərə Racastanın *"teretali"* rəqsini misal göstərmək olar. Bu rəqsin ifaçıları *"kamada"* adlanırlar. Rəqs meydanının mərkəzində Rama tanrısının fiquru durur. *"Kamada"*lar bütün gecə boyu oynayır, bu zaman mahnını sifariş verənlərə bərəkət gətirən eposdan hissələr oxuyurlar. *"Teratali"*də üç rəqqas qadın kişi müğənnilərin və musiqiçilərin iştirakıyla oynayırlar. Rəqqaslar əllərindəki *"mancır"*ı (çadırçiçəyi) bir-birinə vurmaqla səs çıxarırlar. İfa tədricən çətinləşir, rəqqas xəncəri dişləri ilə tutaraq mancırları səsləndirir. Həmin anda rəqqasın başının üstündə kiçik gil küpə durur, hər hansı hərəkətdə həmin gil qab yerə düşməməlidir.

Xalq rəqsləri sadə və şən olmaqla birlikdə, mövsümün dəyişməsi, uşağın doğulması, toylar, bayramlarda (məsələn, "holi" bayramında) ifa olunur. Ailə həyatı ilə bağlı olan rəqsləri daha intim xarakteri, sərbəstliyi, bilavasitəliyi ilə diqqəti cəlb edir.Tayfa rəqsləri isə sosial əhəmiyyəti, təzahür vasitələri, formalarına görə fərqlənir, bu rəqslər dini inanclar, rituallarla, ümumi emosiyalarla müşayiət olunur. Rəqslərdə icma üzvləri arasında birgəlik hissi o qədər güclüdür ki, bu hiss individual ustalığı göstərməyə yer qoymur. Eyni zamanda musiqilərin melodiyası çox sadədir, mətn isə improvizasiyaya, ora yeni obraz və əlavələr etməyə imkan verir.

Hər bölgədə özünə məxsus rəqslər daha geniş yayılmışdır. *Racastanda "qhumar", "teretali", Qucaratda "qarbha", Mizoramda "bambuk çubuqları", Racastanda "qair", Assamda "huçari", "bihu", Madhya Pradeşdə marilərin toy rəqsi, sema nanqi tayfasının döyüş rəqsi, Pəncabda "bhfanqa", Kəşmirda "ruf" və s. rəqslər məşhurdur.*

***Sual və tapşırıqlar:***

*1.Rəqs edən tanrı Şiva (Nataraca) heykəli haqqında nə düşünürsən?*

*2.Hind rəqslərinin 3 fərqli növü vardır: "nritta", "nritya", "natya"*

*3.Məşhur hind rəqsləri - "bharata natyam", "kathakali", "kathak", "manipuri", "kuchipudi", "odissi", "mohini attam" haqqında təqdimat hazırlayın.*

*4. "Hind rəqsi- ibadət üsulu və çoşğunluğun ifadəsi"fikrini izah edin.*

*5. Məbəd rəqqasları-Devasis.*

# IV FƏSİL

# HİNDİSTANDA AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİ

Hindistan əhalisinin ailə-nikah münasibətləri kifayət qədər mürəkkəbliyi ilə seçilir. Ənənəviliyin demək olar ki, tam olaraq qaldığı hind ailə münasibətlərində ilkin inanclar, hinduizm, islam, siqhizm və s. dinlərlə, dini inanclarla yanaşı, hindari, dravid xalqlarının etnik xüsusiyyətləri də özünü göstərir. Vedalara söykənən ailə-nikah münasibətləri təxminən 4 min ildir ki, formalaşmış, təkmilləşmişdir, bəzi hallarda tarixi hadisələrin təsiri ilə müəyyən dəyişikliklərə uğramışdır.

## *4.1. Ailədaxili münasibətlər.*

Əksər ənənəvi cəmiyyətlərdə olduğu kimi, Hindistanda da ailə ictimai quruluşun yeganə və vacib institutudur. Maraqlıdır ki, qədim yazılı mənbələr olan "Sutra" və "Şastra"larda böyük patriarxal ailələrdən danışılsa da, Hindistanda böyük ailələrin öz yerini kiçik ailələrə verməsi prosesi daha qədim zamanlardan başlamışdır. E.ə. 2500-1750-ci illərdə mövcud olmuş Harappa sivilizasiyasına aid yaşayış yerlərində arxeoloqların apardığı qazıntılara əsasən, qədim cəmiyyətin əsas nüvəsini ayrıca evdə yaşayan kiçik ailələr təşkil etmişdir. Ehtimal ki, kiçik və böyük ailələrin bir arada olması yaşayış yerlərinin, təsərrüfatın, sənətkarlığın, ticarətin və s. inkışafı ilə sıx bağlı idi. Şəhərlərdə böyük ailələr yerini kiçik ailələrə versə də, kənd yaşayış yerlərində böyük ailələr mövcudluğunu hətta müasir dövrədək qoruyub saxlayır. Çox yəqin ki, şəhər və kənd yaşayış yerlərinin xüsusiyyətləri

ilə yanaşı, Hindistanda varna-cati sistemi, hinduizmin prinsipləri, adət-ənənələr və s. amillər böyük və kiçik ailələrin bir arada mövcud olmasını təmin etmişdir. Bu sadalanan məsələlər xüsusi ilə böyük ailələrdə minillərdən gələn ənənəvi, mühafizəkar ailə-nikah münasibətlərinin qorunub saxlanmasına səbəb olmuşdur.

Ənənəvi böyük ailə forması özünün sabitliyi ilə seçilir, bu ailə sabit, nizamlı aqrar cəmiyyətə uyğun böyük, birləşmiş ailədir. Son dövrlərə qədər belə ailələrə kənd yerlərindəki kastalarda rast gəlinirdi. Böyük ailələrdə üzvlərin sayı 100 nəfərdən çox olur. XX əsrin sonunda ***"kurq"***larda böyük ailələrin sayı 200 nəfərdən çox olurdu. Adətən, inkişaf etmiş dravid xalqlarında matriarxal münasibətlərin qalıqlarının (nəslin ana xətti, tam və müvəqqəti matrilikallıq, mülkün matriarxat xətlə ötürülməsi və s.) yaşadığı patriarxat, patrilokal ailələr üstünlük təşkil edir. Malay döyüşçü kastası olan nayarlar istisna təşkil edir, nayarlarda ana xətti və matrilokal ailə-taravad qeydə alınmışdır. Kiçik dravid xalqlarında ana xətti və matrilokal ailələr əsasən üstünlük təşkil edir. Kroskuzen nikahlar geniş yayılmışdır, toda, panya, muduqar, qond xalqlarında isə *poliandriyaya* rast gəlinir.

***Hindistanda ailə-nikah münasibətlərinin əsasında vedalar və "Manu qanunları" durur.*** Yəqin ki, bu qədim dini, siyasi, hüquqi mətnlər hind dünyagörüşünü, xüsusi ilə də ailə-nikah münasibətlərinin ardıcıllığını, möhkəmliyini, sarsılmazlığını təmin etmişdir. Hind ailəsi patriarxal olsa da, ailədaxili münasibətlərdə qadın məsələsi mərkəzdə dayanır, yəni məhz qadının hüququ və ya hüquqsuzluğu bu əlaqələrin formalaşmasında mühüm rol oynayır.

E.ə.I minilliyə aid "Manu qanunları" nikah razılaşmalarında varna-kasta prinsiplərini, nikahın tiplərini, ər və arvadın rolunu, valideynlərin vəzifələrini müəyyənləşdirir.

Orta əsrlərdə də hind hüququnun əsas mənbəyi Manu qanunları idi, bu qanunlar feodalizm dövründə hökmdarların tapşırığı

ilə çoxsaylı yazılı şərhlərlə dəyişdirilmiş, hüququn mənbələri kimi məhkəmə presedentləri də əsas götürülməyə başlamışdı. Müsəlman hakimiyyətinin möhkəmlənməsi hüquq sistemini xeyli dəyişdirmişdi. Məsələn, cinayət işlərinə şəriət əsasında müsəlman hakimləri, qazılar baxırdılar.

Hindi hüququnda ailə-nikah münasibətləri mülkiyyət hüququ ilə sıx bağlı idi və nikah əsasında ailələrin razılığının durduğu müqəddəs akt sayılırdı. Ənənəvi baxımdan gənc ailə bir neçə il ərin atasının evində yaşamalı idi.

Ümumi ailə mülkiyyəti birgə sahibliklə yanaşı, təsərrüfatın birgə idarə olunmasını əhatə edirdi. Ailənin mülkiyyətinin özgəninkiləşdirilməsi məhdudlaşdırılmışdı, daşınmaz mülkiyyət ailədə qalmalı idi. Böyük ailənin mülkiyyəti üzrə hökm vermək atanın əlində idi, ailənin idarə olunmasında əsas söz sahibi ata idi. Patriarxal ailədə hakimiyyət atanın nüfuzuna əsaslanırdı, ata öz babalarından mülkiyyət alırdı, bu mülkiyyət nəsildən-nəslə keçirdi. ***Böyük ailənin tərkibinə ortaq vərəsələr, onların anaları, arvadları, uşaqları (evli qızların övladlarından başqa), dullar, ölmüş ortaq vərəsələrin ərsiz qızları daxil idi. Bundan başqa digər ortaq vərəsələrin razılığı ilə (əgər başqa uşaq yoxdursa) nikahdankənar doğulan oğullar da aid olunurdu.*** Parçalanmamış ailənin mülkiyyəti bir ortaq varisin payı olan mülkiyyət idi, hər birinin özünə məxsus şəxsi mülkiyyəti vardı. Sələmçiliyin genişlənməsi zamanı əgər ortaq varislərdən biri borca düşürsə, kreditçi-sələmçinin maraqlarını qorumaq üçün ailə mülkiyyəti məcburən satılır, ortaq varislər və sələmçilər arasında mübahisə sələmçinin xeyrinə həllini tapırdı.

Hind hüququna görə ortaq varislər ailə mülkiyyətindən öz payını istəyə bilərdi. Əgər ata ölsə və başqa səbəbdən ata öz ağsaqqallıq rolunu yerinə yetirə bilməsə, ortaq varislərin razılığı ilə varislərdən biri ailənin ağsaqqalı seçilirdi. Ailənin varis olmayan üzvlərinin mənzil, yemək, geyim, nikah bağlamaq üçün xərc, təh-

sil, tibbi yardım hüququ vardı. Şübhəsiz, belə xərclər maddi imkanla ölçülürdü.

Ailə rəhbərinin xüsusi statusu olmalı idi, geniş fəaliyyət imkanına malik olmalı, ailənin ən azı yarısının dəstəyini qazanmalı idi. O, ailənin gəlir və xərcləri ilə bağlı məsələləri həll edirdi, əgər qanuna zidd deyildisə, ailə üzvləri onun bağladığı müqavilələrə əməl etməli idi. Mübahisələr ənənəvi qaydalar və məhkəmə presedentləri ilə həll olunurdu. Ağsaqqal ailə mülkiyyətinin saxlanması və inkişafı ilə məşğul olmalı idi. Buna görə də, torpaq satılması, icarəyə verilməsi, girov, mübadilə və s. məsələlərdə ailənin maraqları nəzərə alınmalı idi. Ağsaqqalın tanrıların, məbədlərin, mathamaların, ümumiyyətlə, dini, xeyirxah məqsədlər üçün fəaliyyəti rəğbətlə qarşılanırdı. Ağsaqqalın ailə mülkiyyəti üzərində hüquqları digər varislərlə müqayisədə daha çox idi. Ata arvadına, qanuni nikahdan doğulmuş qızına, ortaq varislərə daşınan əmlak hədiyyə verə bilərdi. Ağsaqqal ailə mülkiyyətinə qəsdən vurulan zərbəyə, ziyana görə məsuliyyət daşıyırdı, məhkəməyə cəlb oluna bilərdi. Hind hüququnda "müqəddəs vəzifə" adlanan anlayış vardır. Buna ilk növbədə ağsaqqalın öhdəlikləri, kişi ortaq varislərin özlərinin və ata-babalarının borclarını ödəmək daxil idi. Amma varislər "əxlaqsız", "çirkli" bir sözlə, bununla qeyri-mənəvi, qeyri-qanuni məqsədlər güdülmüşsə (məsələn, məşuqə saxlanmasından yaranan borclar, alkoqollu içkilərin alınması və s) belə borclardan yayına bilirdilər.

*Ərgən qıza ər gəzməyən bir ata,*
*Bir kişi ki, evlənməsin arvada,*
*Dul anaya baxmayan hər bir oğul-*
*Bax, bu üçü lənətlikdir dünyada! ("Mahabharata"dastanı).*

İlkin orta əsrlərdə böyük ailə sarsılmaz idi, sonradan onun parçalanması daha asan oldu. Bu prosesdə böyük hind ailəsinin

parçalanmasından gəlir əldə edən brahmanlar xeyli maraqlı idilər. Böyük ailənin parçalanması ortaq varisin iddiası əsasında həyata keçirilirdi. Buna görə də, yeniyetmə varislər ataları ilə birlikdə ayrılırdılar, bununla da özləri də parçalanma tələb edənədək yeni ailə yaradırdılar.

***Hind hüququnun ən özünəməxsus özəlliyi "tanrıların mülkiyyəti", o cümlədən, qurbanlar verilən fərdi, ictimai məbədlər, dini məktəblər idi.*** Tanrılara aid olunan mülkiyyət əbədi sayılırdı, bu mülkiyyət daşınar və daşınmaz əmlakın qurban verilməsi nəticəsində yaranırdı. Dini mülkiyyətin yaranma formalarından biri *"matha"*ya (mahantın rəhbərlik etdiyi hindus məktəbi) verilən qurbanlar idi. "Mathalar"ın əksəriyyətinin özünün məbədləri olurdu, bir qədər böyük mathaların lokal şöbələri-"pithi" olurdu. Bunlar Hindistanın fəlsəfi və siyasi dünyagörüşünün formalaşmasında xüsusi rol oynayırdı.

Hind hüququnun ənənəvi institutlarından olan ***"binami"*** mülkiyyəti etibar olunmuş mülkiyyət mənasındadır. Binaminin əsasında əşya (mülk) münasibətləri dururdu. Mülkiyyətin sahibinin qohumu olan və ya ondan asılı olan şəxs (binamidar) adətən, binaminin maraqlarına uyğun olaraq, mülkiyyətin sahibliyini öz üzərinə götürür. "Binami" mülkiyyəti hələ qədim Hindistanda mülkiyyətin real sahiblərini hökmdarların hücumlarından, ortaq varislərin və qohumların iddialarından qorumaq üçün tətbiq olunurdu.

Hindistanda borc müqaviləsi də geniş yayılmışdı, bu müqavilədə faizlər borcun ikiqat artırılmış məbləğini keçə bilməzdi. Bu onunla bağlı idi ki, hind müqavilə hüququ borc cərimələrinin müddətlərinin məhdudlaşdırılmasını nəzərdə tutmurdu. Bundan başqa, kişi varislər valideynlərinin borcunu verməli idilər. Bu da borcların faizlərlə artmasına gətirib çıxarırdı.

Patriarxal xarakter daşıyan Şimali Hindistan ailəsində, xüsusi ilə hind-ari xalqları arasında ata evin sahibidir, ailənin mülkiy-

yəti üzərində hökm edir. Dravid xalqlarının yaşadığı, matriarxat prinsiplərinin sıradan çıxmadığı Kerala, Tamil, Kannara ştatından başqa, hər yerdə atanın bu səlahiyyəti oğula keçirdi.

Qızların çox erkən ərə getdikləri bu poliqam cəmiyyətdə ənənəvi olaraq ailənin çoxsaylı üzvləri olur. Qədim dövrlərdə hind ailəsinə valideynlər, oğullar, nəvələr, əmi və onun nəsli, hətta bəzən övladlığa götürmə uşaqlar daxil idi. Ailə kasıb deyildisə, onun xidmətçiləri, qulları olurdu. Brahmanların ailəsində uzun illər təlim keçən şagirdlər də yaşayırdı və onlar da ailənin üzvü sayılırdı.

Hər bir individ fərd deyil, ailə icmasının üzvü sayılır, əhalinin sayı sakinlərin sayına görə deyil, ailənin sayına görə hesablanır. Böyük ailədə üzvlərin arasında qohumluq əlaqələri az əhəmiyyət daşıyır. Məsələn, uşaqlar atalarının bütün arvadlarını öz anaları sayır, qardaşla, əmioğlu arasında elə də ciddi fərq yoxdur. Elə müasir dövrdə Hindistanda qardaşla əmioğlu eyni sayılır, "qardaş" adlandırılır.

*Atasının üzünə*
*Qayıtmayan hər oğul,*
*Doğma ata yurduna*
*Dirək oğul, nər oğul*
*Comərd övlad sayılır.*
*Atasına acıyan,*
*Qəlb yandıran bir oğul,*
*Atasının yolunda*
*Şirin canından keçən*
*Qızıl oğul, zər oğul*
*Yaxşı övlad sayılır ("Mahabharata"dastanı).*

Böyük ailələr çərçivəsində müxtəlif keçid dönəmləri zamanı (toy, yas və s.) reallaşdırılan ***"şradhha"*** adlanan yemək mərasimi keçirilir. Bu mərasimin kökü Vedalar dönəminə gedib çıxır.

Mərasim zamanı oğullar, nəticələr, kötükcələr yığışırlar ki, bununla da 3 nəslin iştirakı təmin edilir. ***"Sapinda"***nın (ailə icması) üzvü olan hər bir kəs ***"şraddha"*** da qoşula bilir. Bu yemək mərasimində ***"pinda"*** adlanan düyü kürələri hazırlanır.

Ailə icması öz üzvlərinin müdafiəsini təşkil edir. Ağır zamanlarda, çətinliyə düşəndə insan özünün "sapinda"sına müraciət edə bilər. Burada qocalara baxmaq ümumi öhdəlikdir, bundan qaçmaq olmaz. Məsələn, böyük ailə evində qoca əminin özünün bir xudmani hissəsi olur.

Hindistanda yaşlı insanlara çox ehtiramla, hörmətlə yanaşırlar. Burada qocalıq köməksizliyin deyil, müdrikliyin əlamətidir. Ona görə də yaşlı, qoca olmaq fəxr sayılır. Qocalıq zəngin dünyagörüş və biliklərdən xəbər verir, yaşlılar da öz növbəsində xeyirxah olmağa çalışırlar.

Ailə həmrəyliyinin sərt qaydaları, ənənəvi ailə münasibətləri sistemi ***"nepotizm"ə*** (qohumbazlıq, müasir dövrdə vəzifələrin qohumlara verilməsi və s.) kimi qeyri-normal hallara gətirib çıxarır, gənc nəsli çətinliklərlə üzləşdirir.

Patriarxat prinsiplərinin güclü olduğu Şimali Hindistanda ailə başçısı olan ata güclü, zəhmli fiqur olsa da, tiran deyil. Onun hakimiyyətini (hökmdar hakimiyyətini olduğu kimi) müəyyən qədər müqəddəs qanun və adətlər məhdudlaşdırır. Atanın hüquqları xüsusi ilə ailə mülkiyyəti məsələsində ortaya çıxır.

Hindistanda ailə mülkiyyəti ilə bağlı iki hüquq mövcuddur, bu hüquqda atanın mülkiyyət hüququ ilə yanaşı onun ailədə rolu da müəyyənləşir: Qədim hind qanunverici traktatlarında ***"mitakşara" və "dayabhara"*** adlanan ailə hüququ sistemləri əksini tapmışdır. Benqal və Assamda ailələrin əksəriyyəti "dayabhara"nın qanunlarına əməl edirdi, Hindistanın qalan bölgələrində isə "mitakşara"nın hökmlərini əsas götürürdülər. *"Mitakşara"ya görə, hətta ailə başçısı yaşadığı zamanda oğullar və nəvələr mülk payı tələb edə bilərdilər. "Dayabhara" hüquq məktəbi isə yal-*

*nız ata öldükdən sonra oğulların ailə mülkiyyətinə tələbini qanuniləşdirirdi.* O da qeyd olunurdu ki, ata mülkiyyət üzərində qeyri-məhdud hakimiyyətə malik deyil və öz varislərinin mülkiyyətinin idarəçisi sayılır.

***"Katha Upanişad"***ın bir neçə hekayəsinə görə, ata öz övladları üzərində qeyri-məhdud hakimiyyətə malik idi. Ancaq atanın öz övladının həyatı haqqında hökm verməsi heç yerdə qeyd olunmur. Üstəlik, e.ə. II əsrə ail olan Kautilyanın yazdığı ***"Arthaşastra"*** hüquq traktatı oğulun öldürülməsinə ən çirkin cinayət kimi baxır. Bunun əksinə, özünü müdafiə zamanı oğulun atanı öldürülməsinə belə münasibət bəslənilmir.

"Mahabharata" dastanında meşə ruhunun suallarına cavab verən Yudhişthira atanı səmadan yüksək sayır, atanı ruhunun oğulda olduğunu, ən yaxın dostun isə arvad olduğunu deyir.

Ailənin sayı həddindən artıq çoxalanda müqəddəs qanun parçalanmanı nəzərdə tuturdu. Bu vaxt brahmanlar parçalanmanı qəbul edirdilər. Böyük ailələrin parçalanması nəticəsində hind tanrıları daha çox ibadət və hörmət qazanırdılar.

Ailənin parçalanması atanın ölümündən sonra baş verirdi, ancaq ailənin mülkiyyətinin bölüşdürülməsi ata yaşayarkən mümkün ola bilərdi. Məsələn, ata zahid həyatı keçirmək arzusunu söyləyə bilərdi, bundan sonra mülkiyyət oğullar arasında bölünürdü. ***"Mitakşara"*** sistemində həddən artıq qoca və ya sağalmaz xəstəliyə düçar olan, yaxud da biabırçı həyat keçirən atanın razılığı olmadan ailə mülkiyyəti bölünə bilərdi, bunun üçün oğullar arasında razılaşma əldə edilməli idi. Burada atanın ailə mülkiyyəti üzərində hökm vermək iqtidarında olmaması əsas götürülürdü. Mətnlərin əksəriyyətində qadınların birbaşa varis olmasından imtina olunur. Müdrik Yadnavalın yazdığı ***"Dharma"***da mülkiyyətin varisi kimi oğullardan sonra, arvadın və qızlarının adı göstərilir. "Mitakşara" məktəbi məhz buna əsaslanaraq, oğullar olmadığı təqdirdə qadının mülkiyyətə varislik hüququnu tanımağa çağırırdı. Nəhayət,

ailə üzvlərinin əsasən orta əsrlərdən başlayaraq, öz mülkiyyətləri vardı. Amma bu əvvəlki dönəmlərə aid deyildi, *"Manu qanunları"nda göstərilir ki, oğulun, arvadın və ya qulun əşyası ailənin sahibinə məxsusdur*. Belə göstərişlərə digər qədim qanunvericilərin mətnlərində tapmaq mümkündür. Buradan da aydın görünür ki, ailə başçısının hüquqları zaman keçdikcə məhdudlaşmışdır.

Hind ailəsi valideynlərdən, onların evli-uşaqlı oğullarından, evlənməmiş oğullarından, ərə getməmiş qızlardan ibarət olur. Adət və ənənələr gəlini tam şəkildə qaynananın ixtiyarına verir. Hind qızlarında uşaqlıqdan tərbiyə olunan təmkinlilik qaynanaya oğlunun arvadını çox incitməyə imkan vermir. Əgər gəlin ailədə yaşca kiçikdirsə, yaşlı gəlinlər də onun üzərində hökm edə bilirlər. Kişilər bütün gəlirlərini valideynlərinə verirlər, evin sahibəsi pulu xərcləməyi müəyyənləşdirir.

Riq Vedada evlənməyə hazırlaşanlara belə öyüd verilir: ***"Gənc kişi zəkası, gözəlliyi, ərdəmi, xoşbəxtlik əlamətləri olan və eyni zamanda sağlam bir gənc qız seçməlidir. Amma, əslində xoşbəxtlik əlamətləri çətinliklə təyin oluna bilər".***

Vedalara görə, ailə qurmayan və ya ərə getməyən qadın günahı təcəssüm etdirir, karmanı pozur. Qadınların erkən nikaha girməsi, qadınların tərkidünyalığı, sati mərasimi (dul qadının özünü yandırması) və ya bundan imtina edərsə, qul edilməsi və s. hinduizm dünyagörüşündə xüsusi yer tutur. Eyni zamanda sanskrit dilində aydın şəkildə *"Ana ən birinci qurudur"* deyilmişdir.

*Arvad evin bəzəyi,*
*Qədrin bilmək gərəkdir!*
*Ağır gündə təsəlli,*
*Bərk ayaqda dirəkdir! ("Mahabharata" dastanı).*

Hind dünyagörüşünə görə, ana uşağa həyatda ilk addımı atmağı öyrədir və dünyada ən əziz, yaxın sevgi ananın övladına

sevgisidir, çünki bu sevgi ürəkdəndir. Ana özü haqqında düşünmür, övladı ilə məşğul olur və ana məhəbbəti heç nəylə məhdudlaşmır. Buna görə də uşaqlar analarına daha çox bağlı olurlar.

Hindistanda ənənəvi olaraq, kişi ailənin qoruyucusu, himayəçisi, qadın isə ailə ocağının qoruyucusu sayılır. Ailə hind qadını üçün mühümdür, evdən kənar dostlara, ünsiyyətə elə də təlabat yoxdur. Qadın bütün enerjisini, qəlbini ailəsinə verir, ailə həyatı onun yaradıcılığıdır.

Riq Vedada sevgilisini qısqanan bir qadının bu xəbərdarlığı əksini tapır: ***"Mənim deyiləcək sözüm var. İstəsən, yığıncaqlarda söz al, amma, sən yalnız mənə aidsən. Başqa qadınlarla heç danışa bilməzsən". Qadın ərinə çağırış edərək belə müqavimət göstərir: "Ağaca şarılan sarmaşıq kimi möhkəm sarıl mənə, məni eşqlə sev və məndən başqasına bağlı olma".*** Qadının bədəninə sahib olmaq kişiyə yetməz, sevgilisinin ruhuna da sahib olmaq istəyir: "Uçduğu zaman kərkəs quşu iki qanadından necə istifadə edirsə, mən də sənin ruhuna sarılıram".

*Hind qadınları tələskən deyil, ərinə sadiq və itaətkardır. Ailədə qadının səsini qaldırması ləyaqətsizlik sayılır.* Ənənəvi hind ailəsində qadınlar uşaqları və ev işləri ilə məşğul olur. Əgər xidmətçi yoxdursa, qadın saat 4-də durur, gün qızmamış bütün günün yeməklərini hazırlayır. Hind ailəsində kişi arvadını ata bilməz. Əgər nəsə baş versə, dul qalan qadının yenidən öz həyatını qurmaq şansı çox azdır. Belə olsa, qadının yanına atası və ya qardaşı gəlməli, ya da qadın ata evinə qayıtmalıdır, çünki qadın tək və sahibsiz qala bilməz.

Qədimdən Hindistanda intim münasibətləri çoxsaylı dini rituallardan sayılmışdır. Nikaha qədər intim münasibətləri ağır cəzalandırılır. Bu cəza əsasən qadına münasibətdə tətbiq olunur. Sosial statusundan asılı olmayaraq, qadına qarşı münasibət həmişə daha sərtdir. Hətta ***"Kamasutra"da yazılır ki, yalnız nikah daxilində münasibətlər mükəmməldir və burada qadının üzərinə daha çox məsuliyyət düşür.***

Qədim hind mənbələrində, ədəbi abidələrində qadının *“dharması”* haqqında müxtəlif rəylər var. *“Mahabharata”* dastanında göstərilir ki, əvvəllər qadınların hər davranışına icazə verilirdi. Lakin bu vəziyyəti müdrik Şvetaketun dəyişmişdir. Onun anasını gözlərinin önündə başqa bir brahman aparmışdır. Atası ona başa salmışdır ki, qadınlar öz hərəkətlərində azaddırlar və öz varnalarından olan istənilən kişi ilə əlaqə qura bilərlər. Şvetake bu qaydanın əleyhinə çıxmış, lənətləmiş və yeni qayda yaratmışdır. Həmin qaydaya görə, qadın öz ərinə sadiq olmalı, ***“patiseva” (ərinə xidmət), “pativratya” (ərinə və onun dharmasına sözsüz əməl etmə) prinsiplər****i*nə əməl etməlidir. Bu qaydanı pozan qadın “məhv olunmuş toxum”a bərabər tutulmuş, “ahimsa”nın pozulması ağır günah sayılmışdır.

*“Patiseva” və “pativratya”* prinsipləri “Manu qanunları” ilə təsdiqlənirdi. Qadın uşaqlığında atasının, gəncliyində ərinin, onun ölümündən sonra isə oğullarının hakimiyyəti altında olmalı idi. Qadının itaət etməsi ən böyük xeyirxah iş sayılırdı. Hətta qadın layiq olmayan ərə hörmətlə yanaşmalı idi, bu itaətin mükafatı göylərdə verilməli idi. Bununla yanaşı, “Manu qanunları” qadına yüksək qiyməti verirdi: ***“Qadınların sayıldığı yerdə tanrılar sevinir, qadınların sayılmadığı yerdə bütün mərasimlər nəticəsizdir”.*** Hindistanda qədimdə olduğu kimi indi də çoxlu uşaq, xüsusilə oğlan uşağı doğan qadın daha hörmətli sayılır, hamiləlikdən qaçmaq cəhdləri ciddi şəkildə pislənir, ictimai qınağa məruz qalır.

Veda dövrü dünyagörüşünə görə, kişinin uzunömürlülüyü və sağlamlığı onun arvadının əlindədir. Ərinin gözünü sevindirmək üçün qadın həmişə gözəl geyinməli, şən və xidmətkar olmalı, qəmli və qəzəbli olmamalıdır.

Qız ərə gedəndə ***“suhaqin”*** olur, o, yaşlı qadınların qarşısında təzim edəndə, qulluq göstərəndə ona ***“Sada suhaqin raho”*** *(“Həmişə suhaqin ol”).* Qoy sənin alnını həmişə “sindur” bəzəsin. Sənin qolbağların İndra tanrısının *“vadca”*sı (ildırımı) kimi möhkəm və qırılmaz olsun”-deyə xeyir-dua verirlər. Veda mətn-

lərində də *“sumanqali”* təriflənir. Ümumiyyətlə, Hindistanda hər bir qadın “suhaqin” kimi ölməyi arzulayır. Əgər qadın ərindən əvvəl ölürsə, kremasiyadan (yandırma) əvvəl ona gəlin kimi parlaq rəngli sari geyindirir, qolbağ, boyunbağı taxır, topuqlarını “alta” adlanan qırmızı rənglə boyayırlar. Bütün bunlar ərli qadının əsas göstəricilərdir. Qədim hind inanclarına görə dul qadınlar (“vidava”) toy qolbağları taxmırlar. Ərinin kremasiya prosesindən dərhal sonra dul qadın saçını ortadan iki yerə ayıran yerini rəngləyən “sindur”u yumalı, öz qolbağlarını qırmalı, ağ rəngli matəm sarisinə bürünməlidir. O, heç zaman zinət əşyaları taxmamalı, gözəl paltar geyinməməli, şən görünməməlidir. Ərsiz, dul yaşamaq qadın üçün böyük dərddir, ərindən çox yaşayan qadın qınağa məruz qalır. ***Xüsusi ilə əri xəstəlikdən ölən dul qadınlar özünə qarşı hər yerdə pis münasibəti hiss edirlər. Dul qadınların sosial statusları ən aşağı sayılır, onların müxtəlif bayramlarda, şənliklərdə iştirakı pis qarşılanır, onların bədbəxtlik gətirdiyinə inanılır.*** Hətta dul qadınlar dini mərasimlərə buraxılmırlar.

Hindistanın cənubunda tamil-dravid xalqları arasında isə qadınların vəziyyəti fərqlidir. Qadınlar burada daha azad və müstəqildirlər, bir çox hallarda ailə başçısına çevrilirlər. Burada tərkidünyalıq və erkən nikahlar olmamış, ***“sati”*** mərasimləri həyata keçirilməmişdir və qadının boşanmaq və təkrar nikah hüququ var. Qadın ənənəvi biliklərin, ailə qaydalarının nəsildən-nəslə ötürücüsü, uşaqların tərbiyəçisidir. Ananın sosial və ritual statusu atadan yüksək olsa da, ailədən kənarda qadın kişiyə hörməti nümayiş etdirməlidir.

“Manu qanunları”nda olan qadına pərəstiş də məhz Hindistanın cənubunda önə çıxmışdır. Bu qadının xüsusiyyətləri haqqında biliklərlə, yəni qadın energetik başlanğıc olan “şakti” ilə bağlıdır. “Şakti” yaradıcı qüvvədir. Hinduizm panteonunun bütün tanrıçalarına şaktidən pay düşür. Öz tanrıçasının şaktisi olmadan heç bir tanrı hərəkət edə bilməz. Tamil məsəlində

deyilir ki, ***"Şaktisiz Şiva şavadır".*** "Şava" isə cəsəd deməkdir. **"Şakti" ikili xarakterlidir, o yarada və dağıda bilər.** Toplaya və xərcləyə bilər. Şakti qızdırma, isti, ehtirasların coşması ilə assosiasiya olunur. Qadın başlanğıc qadına kişi ilə eyni səviyyədə dayanmaq hüququ verir. ***Qadının gücü o qədər çoxdur ki, hadisələrin gedişini dəyişdirə bilər. Əgər nəzarət olunsa, bu enerji bəhrə verər, hər cür çiçəklənməyə gətirib çıxara bilər. Əgər nəzarətdən çıxsa, dağıdıcı olar, hər cür ziyan törədər.*** Lakşmi tanrısından (evli, uşaqlı qadın tanrı) başqa digər hallarda qadın dağıdıcı enerjiyə çevrilə bilər.

Hindistanda müasir dövrdə ***"sati"*** adəti rəsmən ləşğ olunsa da, hələ də bəzən reallaşdırılır. Bu adətin yaranması ilə bağlı bir sıra əfsanə və rəvayətlər vardır.

Əfsanəyə görə, özünü yandırmanın əsasını qadın tanrı Parvati qoymuşdur. Parvati Sati simasında Yerdə təcəssüm etmişdir. Tanrı Şivanın atası onun ərini, yəni tanrı Şivanı xoşlamırmış. Bir dəfə ata ziyafət təşkil edir, bütün tanrıları dəvət etsə də Şivanı çağırmır. Sati bunu öz ərinə qarşı təhqir sayır, etiraz olaraq özünü oda atır. Bundan sonra qadınlar öz ərlərinə sədaqətlərini göstərmək üçün özlərini oda atmışlar.

Digər bir versiyaya görə, işğalçı yürüşlər zamanı *"cohar"* adlanan adət yayılmışdı. Mühasirə zamanı müdafiə imkanları tükənən qalada qalan qadın və uşaqlar bir binaya yığışaraq özlərini yandırırlarmış ki, düşmənin qənimətinə çevrilməsinlər. Özünü yandırmadan əvvəl qadınlar narkotik, uyuşdurucu vasitə içirlərmiş ki, ağrıları hiss etməsinlər. Lakin odun dilimləri dul qadını ayıldılmış, ona görə də qədim zamanlarda mərasimi həyata keçirən brahman dəyənəklə dul qadının başına vurur və uzun dəyənəklə onu odun içinə itələyirmiş.

Başqa bir əfsanəyə görə isə, *"sati"* adəti Çitor şəhərinin racasının gözəl arvadı Padmani ilə bağlıdır. Onun əri və digər döyüşçülər düşmənin əlində həlak olanda Padmani və şəhər qadınları

özlərini oda atmışlar. Bununla da şəhərin tamam yanmasına səbəb olmuşlar. Bu adət Şimali Hindistanda, Racastan, Maharaştrada, əhalinin əksəriyyətinin kşatrilər olduğu ərazilərdə geniş yayılmışdır. Hətta Çitor və Qvaliolada özünü yandırmaq üçün xüsusi tikililər də var. Bu adət belə bir rəyin yaranmasına gətirib çıxarmışdır ki, özünü yandırma mərasimində iştirak edənlər də günahlardan təmizlənirlər. Rəsmi qadağalara baxmayaraq, bu adət indi də qalır. Camna çayı sahilində dəfn mərasimləri keçirilən yerdə balaca kərpic tikililərdə ovucun qırmızı rəngini görmək mümkündür. Bu izi özünü oda atan qadınlar qoyurlar.

Qədim mətnlərin tədqiqi göstərmişdir ki, Vedalar qadının yandırılmasına qarşı çıxırdı, onun təkrar nikaha girməsinə imkan verirdi.

XIX əsrdə reformist dini-islahat hərəkatı qadınların dolayı, mühafizəkar adət və ənənələrdən xilas olunması üçün ciddi addımlar atmışdır. Qadınların azadlığı uğrunda hərəkatı başladan maarifçi, hinduizmdə islahatların əsasını qoyan "Brahma Samac" hərəkatının yaradıcısı *Ram Mohan Roy* (1778-1833) olmuşdur. Onun fəaliyyəti nəticəsində ingilis kolonial hakimiyyəti 1828-ci ildə "sati" adətini qadağan edən qanun çıxarmışdır.

XIX əsrin ortasında Dayananda Sarasvati tərkidünyalığın, erkən nikahın əleyhinə çıxır, qadınların təhsil hüququ, ər seçmə hüququnun olması, qadının ictimai həyatda fəal iştirakı uğrunda fəaliyyət göstərirdi. O, qadının haqq və hüquqlarına indus cəmiyyətinin çiçəklənməsinin əsası kimi baxırdı. O, Vedalara əsaslanaraq bildirirdi ki, brahmanların qadına aşağılayıcı yanaşmasına baxmayaraq, Veda qadını yüksək qiymətləndirmişdir.

Mahatma Qandinin aşağıdakı fikirləri hind ailəsində qadının yerini göstərməklə yanaşı, ailədaxili münasibətlərə də müəyyən aydınlıq gətirir: *"Qədim hind qanunlarında qadınların mülkiyyət haqları yox idi. Qadın yalnız üzərində daşıya biləcəyi əşyalara sahib olurdu. "Bəzi kişilər deyirlər ki, qadının iqtisadi istiqlalı*

*onun əxlaqının pozulmasına gətirib çıxaracaq, ailə həyatını pərişan edəcək. Siz bu haqda nə düşünürsünüz?"-deyə məndən soruşurlar. Bu suala cavab vermək üçün öncə soruşmalıyam: kişilərin iqtisadi istiqlalı onların əxlaqlarının pozulmasına, ailə yaşamının pərişan olmasına səbəb olurmu? Bu sualın cavabı müsbətsə, o zaman buraxın qadınlar da elə olsun. Qadınların bərabər haqları olursa, onların özgürlük və sorumluluq anlayışları dəyişəcək. Bu məsuliyyət duyğusu onların əxlaqsızlığa sürüklənməsinə əngəl olur. Qadın və ya kişi yoxsulluq üzündən əxlaqsızlıq etmirsə, bu əxlaqın heç bir dəyəri yoxdur. Gerçək əxlaq insanın könlünün təmizliyindən qaynaqlanmalıdır".* XX əsrdə hindli qadın müxtəlif peşələrdə müəllim, həkim, hüquqşünas kimi çalışmaqla yanaşı, yüksək dövlət vəzifələri də tutmuşdur.

Hindistanda ailədaxili münasibətlərin formalaşmasında din, kastalar, regional fərqlər mühüm rol oynayır. Hindlilər ailə üzvləri ilə münasibətdə həssas, emosional davranırlar, ər və arvad bir-birinə münasibətlərini açıq şəkildə göstərə bilməzlər. Nikahlar adətən, valideynlərin qərarı əsasında bağlanır, burada isə bəy və gəlin uyğun varna, kasta və dindən seçilir.

***Sual və tapşırıqlar:***

*1. Hindistanda ailə-nikah münasibətlərinin əsasında Vedalar və "Manu qanunları" durur.*

*2.Böyük ailələr müxtəlif keçid dönəmləri zamanı (toy, yas və s.) "şradhha" adlanan yemək mərasimi keçirir.*

*3. Qədim hind qanunverici traktatlarında "mitakşara" və "dayabhara" adlanan ailə hüququ sistemləri əksini tapmışdır.*

*4. "Qadın uşaqlığında atasının, gəncliyində ərinin, onun ölümündən sonra isə oğullarının hakimiyyəti altında olmalı idi"-cümləsini izah edin.*

*5. "Şaktisiz Şiva şavadır"-fikrini izah edin.*

## *4.2. Nikah adətləri.*

Ənənəvi hindli ailəsi iki sevən ürəyin romantik ittifaqı deyil, belə ailələrdə dini vəzifə və ictimai öhdəlik əsasdır. Möhkəmlənmiş baxışlara görə, kişi və qadın ayrılıqda fiziki və sakral baxımdan ayrılıqda ola bilməzlər, yalnız onların ittifaqı, yəni nikahı bir bütöv təşkil edir. Bunun üçün hindli ənənəsinə əsasən ailə sakral institut kimi qəbul olunur və ailə həyatı həyatın vacib komponentidir, ailənin yaradılması kişi və qadının vacib vəzifəsidir.

Yüzillər ərzində Hindistanda dini inanclar, yerli adətlər, tarixi hadisələrin təsiri ilə monoqam, poliqam, poliandriya və s. nikah adətləri, nikahagirmə formaları yayılmışdır.

Hindistanda ***çoxarvadlılıq ("poliqamiya") və çoxərlilik ("poliandriya")*** və özünəməxsus ***levirat*** yayılmışdır. Bu ənənələr öz kökü ilə qədimlərə gedib çıxır. Hökmdarlar, brahmanlar, hətta aşağı kasta nümayəndələrinin bir neçə arvadı olurdu. ***"Manu qanunları" kişiyə icazə verirdi ki, 8 il ərzində oğlu olmayan qadının üzərinə başqa arvad alsın.***

Poliandriya (çoxərlilik) nikah münasibətlərində xüsusi yer tutur. Hazırda Himalay dağlarında, Nepal sərhədlərinə doğru yaşayan tayfalar arasında bir neçə qardaşın bir qıza evlənməyini təsdiqləyən faktlar vardir. Klassik nümunə "Mahabharata"da əksini tapır. Eposun qəhrəmanlarının, yəni Pandava qardaşlarının Draupadi adlı bir arvadı var. Poliandriya Dekanın aşağı kastaları arasında indi də mövcuddur. Tədqiqatçılar bunu təbii- coğrafi şəraitin sərtliyi, çoxsaylı ailəni dolandırmağın çətinliyi ilə əlaqələndirirlər.

***"Manu qanunları" nikahların 8 tipini fərqləndirir. Onlardan 4-ü xeyirxah nikah sayılır, "dharmaya" uyğun hesab olunurdu. Qalan 4-ü isə pis nikah sayılırdı.*** Ehtirasa (seksual həvəs) əsaslanaraq qurulan nikah "qandhrarva" adlanırdı və pis nikahlardan biri idi. Xüsusilə, "payşaça" və "asura" nikahları lənətlənir-

di. “Payşaça” gizlicə yatmış, sərxoş olmuş, ağlını itirmişlə (ruhi xəstə) nikah idi. Asura isə qadınların satılması isə həyata keçirilən nikah idi. Digər bir pis nikah qadının qaçırılması (rakşasa) idi. Belə nikahagirməyə yalnız döyüşçü kşatrilərə icazə verilirdi. Ailə-nikah münasibətlərinin formalaşmasında hindust tanrıları və qəhrəmanlarının həyatından bəhs edən miflər, əfsanələr xüsusi rol oynayır. İdeal ər-aprvad Rama və Sita, Krişna və Radha, Şiva və Parvati sayılır.

***“Şrimad Bhaqavat”***da yazılır ki, “kali- yuqu” (gələcəyin insanı) insanları yalnız ehtirasdan nikaha girməməli, nikah bağlayarkən üzərlərinə böyük məsuliyyət götürdüyünü dərk etməlidir.

“Manu qanunları”nda qeyd olunur ki, bütün qadınlar ərə getməlidirlər. Möhkəm ailənin əsası kimi kişi öz hisslərini cilovlamağı bacarmalıdır. Bu özü *“brahmaçariya” (zahidlik)* təlimindən irəli gəlir. *“Brahmaçariya”* brahmanın 25 il ərzində cinsi həyatdan kənarda qalmasını nəzərdə tutur. Bu kişini mənəvi cəhətdən güclü insana çevirir. Əgər insanın təkmilləşməsi prosesi düzgün gedərdisə, kişi aşağıdakı xüsusiyyətlərə malik olardı:

*1. Kişi ailəsini zorla idarə etməyəcək.*

*2.Heç zaman başqa qadına yaxınlaşmayacaq, öz öhdəliklərini yerinə yetirməyi unutmayacaq.*

*3. Heç zaman ailənin nə məqsədlə qurulduğunu yaddan çıxarmayacaq.*

*4. O, heç zaman ruhdan düşməyəcək.*

*5. O, həmişə arvadının və övladlarının mənəvi inkişafı ilə məşğul olacaq.*

Kişi bir neçə il brahmaçari (zahid kimi) kimi yaşayardısa, bu həyatı hazırlıq sayılırdı. Əgər kimsə, gənc yaşlarında, kamilləşmədən evlənərdisə, gələcəkdə çoxlu mənəvi problemlərlə üzləşirdi. Brahmaçari kimi yaşayaraq, müəyyən müddət tanrıya xidmət edən şəxs ağıllı qərar verərək, gələcək ailənin məsuliyyətini öz üzərinə götürürdü.

Hindistanda sevib evlənmək o qədər də vacib deyil, bu ölkədə qədimdə olduğu kimi indi də nikahların 95 %-i bəy və gəlinin valideynləri arasındakı razılığa əsasən bağlanılır. Hindlilər arasında bakirə qızla evlənməyən şəxs müsbət qarşılanmır, belə nikahlar çürük sayılır. ***Veda dünyagörüşünə görə, qadın tarla ("kşetra"), kişi isə sahibkar-əkinçi ("kşetrin") sayılır: "Birinci toxum səpən bu tarlanın, orada çıxanın (anadan olanın) sahibi sayılır. Əgər tarlanın ilk əkinçisi sən deyilsənsə, sənin toxumundan olan məhsul (uşaqlar) sənin deyil və sən başqasının tarlasından istifadə edən, əkib-becərən oğruya bənzəyirsən"***.

Hind qadınları arasında boşanmalar və ikinci evlilik çox az rast gəlinən haldır, bu hindusların dördüncü varnası sayılan şudralar (fəhlələr, kəndlilər, qulluqçular, ev qulluqçusu, çobanlar və s.) və varnaya aid olmayan ***"toxunulmazlar" ("aççhut", "aşpruşa", "harican" və ya "dalit" tayfa-kastaları)*** arasında baş verir. Qədim adətlərə görə, yenidən ərə gedən və ya kiminləsə yaşayan qadın *"Parapurva"* və ya "Purva" elan olunur. Hətta 1856-cı ildə, ingilis müstəmləkəçiliyi dövründə dul qadınların evlənməsinə icazə verən qanun qəbul olunsa da, bu qanunun reallaşdırılması praktiki cəhətdən qeyri- mümkün görünür.

Müasir dövrdə Hindistanda 30 yaşında evlənmək məqsədəuyğun sayılır. Buna qədər brahmaçari kimi yaşamaq, özünü mənəvi həyata həsr etmək daha düzgün sayılır. Lakin aşram brahmaçari vəziyyətində yaşadığı təqdirdə insan güclü mənəvi sarsıntı keçirə bilərdi. Ona görə də hər bir şəxs bu qərarı verərkən çox düşünməli idi. Əgər evlənmək istəyirsənsə, gecikmək olmaz, lakin bütün hallarda qərar düzgün verilməlidir.

***Sual və tapşırıqlar:***

*1. Ənənəvi hindli ailəsi üçün dini vəzifə və ictimai öhdəlik əsasdır*

*2.Hindistanda çoxarvadlılıq ("poliqamiya") və çoxərlilik ("poliandriya") və özünəməxsus levirat yayılmışdır.*

*3."Manu qanunları" nikahların 8 tipini fərqləndirir. Onlardan 4-ü xeyirxah nikah sayılır, "dharmaya" uyğun hesab olunurdu. Qalan 4-ü isə pis nikah sayılırdı". Bu haqda təqdimat hazırlayın.*

*4. "Veda dünyagörüşünə görə, qadın tarla (kşetra), kişi isə sahibkar-əkinçi (kşetrin) sayılır"-fikrini izah edin.*

## *4.3. Toy adətləri*

Hind toyları özünün ənənəviliyi ilə fərqlənir, minillər əvvəl olduğu kimi indi də eynilə yerinə yetirilir, toylardakı ritual və ənənələrin kökü Vedalara əsaslanır. Hind cəmiyyətində toy təkcə iki insanın, iki qəlbin birləşməsi deyil, toy gəlinin və bəyin ailələrini birləşdirir. Həmin andan hörmət və şərəf ailənin hər bir üzvünə aid olur. Sakral Vivaha veda toy adəti hər bir hindusun həyatında ən vacib mərhələlərdən sayılır. Buna görə də onun hazırlanmasına, keçirilməsinə böyük əhəmiyyət verilir. ***Hinduslar inanırlar ki, toy adətləri ər və arvadı sonrakı 7 həyatda bağlayır və toy hindusların həyatında 16 sanskardan (sirli qurbanvermə) biridir.***

Ənənənəyə görə, ailə qurmaq üçün gənc oğlan və qız seçilərkən qoroskopa baxılır, gənclərin xaraktercə bir-birinə uyğun gəlmələri nəzərə alınır ki, ailə həyatları ziddiyyətlər içində keçməsin, həmişə razılıq olsun. Toydan bir həftə öncə brahman gəlir, oğlanla qızın ulduz falına baxır. Çünki, ulduzlar toya yaxın birləşirlər. Əgər belə olmasa, toy ya təxirə salınır, ya da ləğv olunur.

Rabindranat Taqorun *"Haqq-hesab"* adlı hekayəsində nikah münasibətləri, toya hazırlıqla bağlı maraqlı süjet xətti vardır: "Beş oğul atası Ramşundor Mitronun axır ki, qızı oldu. Sevincək valideynlər qıza incə Nirupoma (hərfi mənada "Əvəzsiz" ) adı qoydular. Bu nadir ad hələ indiyə kimi onların nəslində heç bir uşağa qoyulmamışdı. Onlar çox vaxt uşaqlara tanrı adı- ***Qaneşa***

(hind əsatirində müdriklik tanrısı, elmlər hamisi), ***Kartik*** (müharibə tanrısı) və yaxud ***Parvati*** (yaratma və dağıtma tanrısı olan Şivanın arvadıdır, ona ***Durqa*** da deyirlər) qoyardılar, daha Nirupoma qoymazdılar. Vaxt gəldi, Nirupoma ərgən qız oldu. Qayğıkeş ata, qızına münasib adaxlı axtarmağa başladı, ancaq bir xeyli vaxt ürəyinə yatan adam tapa bilmədi. Nəhayət, adaxlı tapıldı. Bu, Raybahadurun (ingilis müstəmləkə hökuməti tərəfindən verilən yüksək rütbədir) aman-zaman bircə oğlu idi. Oğlan adlı-sanlı, lakin, indi yoxsullaşmış nəsildən idi. Oğlanın atası on min rupi cehiz istədi. Ramşundor adlı-sanlı adaxlını əldən çıxarmamaq xətrinə əməlli-başlı götür-qoy eləməmiş razılıq verdi. Ancaq bu pulu toplamaq çətin oldu. Ramşundor pula gedən nəyi vardısa hamısını satdı, girov qoydu, ancaq yenə də təyin olunmuş vaxta kimi pulun altı-yeddi minini hələ də tapa bilməmişdi. Toy günü isə getdikcə yaxınlaşırdı, nəhayət, toy günü çatdı".

***Hind toyu toyaqədərki mərasimlərdən, toy mərasimindən, toydan sonrakı rituallardan ibarətdir. Şimali Hindistanın toy mərasimləri Cənubi Hindistanın toy mərasimlərindən müəyyən qədər fərqlənir. Cənuba doğru toylarda dravid elementləri diqqəti daha çox cəlb edir.***

Vedalara uyğun olaraq, hindus toy adətləri müqəddəs qurban odunun yanında *"vipra" (brahman kahini) və "purohitin" (sıravi brahman)* iştirakı ilə keçirilir. Bəyin və gəlinin evi svastika ilə bəzədilir. Svasti –*"su asti"* qədim veda ayinləri də xoşbəxtliyi, uğuru, rifahı ifadə edir. Müqəddəs odun qarşısında keçirilən mərasimin mənası budur ki, qadın ərini Tanrı kimi qəbul etməlidir və başa düşməlidir ki, əri olmadan onun həyatınln heç bir mənası yoxdur. Əri olmadan qadının ruhani dünyaya yolu bağlıdır, ər qadın üçün tanrının özüdür. Qadın isə əri üçün tanrının qiymətli hədiyyəsidir.

Toya qədər ***"tilak"*** (tilak, saqan və ya saqayi) adlanan nişan mərasimi baş tutur. Vedalarda təntənəli, şənlik içində keçən "ti-

lak" mərasimləri haqqında da məlumat verilir. Hindistanda ər və onun ailəsi mötəbər sayılır, kişi başlanğıc (puruşa) üstün tutulduğundan öz qızı üçün bütün ömrü boyu "dharma"ya əsaslanan həyat sürəcək nəcib ər tapmaq hər bir ailənin arzusudur. ***"Tilak"*** mərasimində məhz bu arzu əksini tapır. Adətən, "tilak" toya bir ay qalmış baş tutur. Mərasimin vaxtı hər iki ailənin arzusu və imkanları ilə müəyyənləşir. Bu mərasimdə hər iki ailədən kişilər iştirak edir. Mərasim zamanı gəlinin atası qohumları ilə birgə bəy evinə gedərək bəyin alnına qırmızı şafran və sarıkök tozundan hazırlanmış müqəddəs "tilak" işarəsi qoyur, bununla da bəyin ailəsi onu quda (qayınata) kimi qəbul edir.

Pəncabda ***"tilak"*** (Şaqan, Şaqun, Tikka) mərasimi toydan 7-10 gün əvvəl baş tutur. Bu mərasim Pəncabda "Çunni Çadana" adlanan mərasim ilə birləşib, həmin gün bəy evi qız evinə qonaq gedir, bir-birilərinə hədiyyələr verirlər. Brahman odlu puca-***"havan"*** mərasimi keçirir, bundan sonra gəlinin atası bəyin alnına şafran pastası (məcunu), düyü unundan hazırlanmış ***"tilak"*** vurur. Brahman (iki dəfə doğulanların ən yaxşısı) tanrılara həsr olunan dini ***"mantra"***lar (ilahi, dua) söyləyərək "puca"nı (tanrılara ibadət) yerinə yetirir, tanrılardan gənc evlənənlərə xeyir-dua istəyir. Gəlinin qardaşı, eləcə də kişi qohumları gələcək kürəkənə hörmət və rəğbət əlaməti olaraq onun alnına ***"tilak"*** işarəsi qoyurlar. Bu mərasimi bitirdikdən sonra ailələr ziyafətə başlayır. Bəyin ailəsi gəlinə hədiyyələr verir. Adətən, toyun vaxtı elə həmin gün müəyyənləşir. Üzüklərin taxılması mərasimi "tilak" mərasimi ilə yanaşı keçirilir. "Mahabharata" dastanından da məlumdur ki, qədim adətlərə görə bacını ər evinə qardaşı köçürürdü.

Ayrı-ayrı ştatlarda *"tilak"* mərasimi ***"Çunni Çadana", "Manqni", "Misri"*** adı ilə tanınır. Orissada ***"Baracati"*** ("Baraat") mərasimi zamanı bəyi gözdəymədən qorumaq üçün onun alnına düyü unundan ***"çandan"*** (tilaki, tikki) sürtürlər. Qərbi Benqaliyada uzun, mürəkkəb toy mərasimində əsasən yaxın dost-

lar və ***"qhotok"*** adlanan qohumlar iştirak edir, brahman evlənən gənclərin bir nəsildən *("qotra")* olmadığını müəyyənləşdirəndən ***("Adan Pradan")*** sonra toyun vaxtı dəqiqləşdirilir ***("Peka Dekha"),*** daha sonra, toya bir neçə gün qalmış ***"Aaşirvad" ("Patri Patra")*** mərasimi keçirilir, nikah bağlanır.

Hindistanın hər yerində olduğu kimi, Ərəb dənizi sahillərində yerləşən Maharaştra ştatında da gənc ailələrin qurulmasında əksər hallarda valideynlərin sözü əsas olur, ağsaqqallar gələcək bəyi və ya gəlini seçdikdən sonra toya hazırlıq başlayır. ***"Laqnaaç Bedi"*** ritualında qoroskopa baxıb oğlan və qızın taleləri üst-üstə düşürsə, toy günü müəyyənləşir, ilk olaraq nişan mərasimi –***"Sakhar Puda"*** keçirilir, üzüklər taxılır, bəyin valideynləri qıza sari və nişan simvolu olan bilərzik verirlər. Gəlin də öz növbəsində bəyin valideynlərinə şəkərlə dolu kisə (***Sakhar Puda***) verərək, özlərinin, qaynana və qaynatanın həyatlarının şirin keçəcəyini bildirir.

Qərbi Benqaliyada valideynlər arasında ilkin razılaşmadan sonra gənclərin iki görüşünü ***"aaşirvad"*** təşkil edirlər. Bu görüşün birincisi gəlin, ikincisi bəy evində keçirilir. Pəncabda gəlin evində keçirilən ***"Roka"*** mərasimi zamanı tanrılara "puca" ibadətindən sonra qohumlar bir-birlərinə hədiyyə verirlər. *Burada toya qədər bəyin və gəlinin evində* ***"Rut Caqa" ("Sanqit"), "Mehehendi" (Mehendi, Mehandi), "Çuda", "Vatna" ("Ubtan"), "Qhara Qhardoli"*** mərasimləri keçirilir.

Qucaratda toya hazırlıq ***"Saqai"*** (nişan) mərasimi ilə başlayır, gəlin qohum qadınların, rəfiqələri və musiqiçilərin müşayiəti ilə başında şirniyyat, hədiyyələrlə dolu metal "matli" xonçası ilə bəy evinə yola düşür.

Qucaratda toya bir neçə gün qalmış Qaneş tanrısına ibadət mərasimi-***"Mandap Mahurat",*** hər iki ailədə brahmanın iştirakı ilə ***"Qriha Şanti"***, bəy və gəlinin dərisinin təmizlənməsi, parlaqlıq verilməsi üçün sarıkökdən hazırlanmış sarı rəngin vurulduğu ***"Pithi",*** gəlinin qohumlarının iştirak etdiyi, musiqili, şən, xına qoyulan ***"Mendi"*** mərasimləri keçirilir.

Kəşmir panditlərinin toya qədərki ilk mərasimi ***"Kasamdri"*** adlanır, ***"purohitlər"*** (brahmanların xüsusi təbəqəsi, tayfa brahmanı) məbəddə qohumların iştirakı ilə nikah gününü müəyyənləşdirir, gül çələnglərini dəyişdirirlər, ziyafət verirlər. ***"Livun"*** adlanan mərasimə isə bəy və gəlin qatılmır, bəy evi və gəlin evi təmizlənir, toya hazırlıq görülür, vegeterian yeməklərindən qonaqlıq verilir. Musiqi və rəqs axşamı ***"Vanvun" ("Sanqit")*** keçirilir, sonda qonaqlara gül rəngli duzlu çay (nun və ya şir çay) verilir.

Toya 15 gün qalmış Qaneş tanrısına həsr olunmuş ***"Barni Bandhvana"*** mərasimi keçirilir. Valideynlər Qaneş tanrısından toy mərasiminə əngəl törədə biləcək bütün əngəlləri aradan qaldırmağı diləyir, toya qədər hər gün bəy və gəlinin ailələri bu tanrıya ibadət edirlər. Maharaştrada isə toydan 15 gün əvvəl keçirilən ***"Kelvan"*** mərasimi zamanı bəy və gəlinin evində tayfa tanrısı olan "Kuladevta"ya ibadət olunur, sonda qonaqlıq verilir.

Kəşmirdə toya bir həftə qalmış ***"Maenzirat"*** mərasimi keçirilir, bu mərasim daxilində baş tutan "Krul Khanun" ritualı zamanı bəy və gəlinin qapısı bəzədilir, böyük xala gəlinin əlləri və ayaqlarına xına ***(Maenz)*** qoyur.

Kəşmirdə ***"Phulan Ka Gehna"*** mərasimi toya iki gün qalmış keçirilir, bəyin valideynləri gəlinə bəzək əşyaları və çiçəklər göndərir, "Sanzvara" (kosmetika, kiçik güzgü, sindur (qırmızı toz), şal və betel yarpaqları) verir. Sol yanaqda xal, bindi və sindur hind qadınlarının evliliyinin klassik simvoludur.

Toy mərasimi adətən gecələr təşkil olunur, müəyyən edilmiş zamanadək nikah üçün parçadan xüsusi, kiçik məbəd-***"mandap"*** hazırlanır. Qərbi Benqalda toya bir-iki gün qalmış və ya toy günü ***"Qaye holud"*** mərasimi keçirilir, şənlik zamanı ayrı-ayrılıqda bəy və gəlinin bədəninə sarıkökdən hazırlanmış qızılı rəngli toz sürtülür, bundan sonra qohumlar onları ***"Snan"*** adlanan ritual zamanı yuyundururlar. Ənənəyə görə həmin gün gəlinin evinə

gələn bəyin qohumları müxtəlif hədiyyələr (altı sari, "mendi" üçün xına, gəlin və bəy kimi bəzədilmiş iki balıq, ***"Paan"*** (betel yarpağı), şirniyyat) verirlər.

Toy günü bəyə və gəlinə nikahkəsmə mərasiminin əvvəlinədək yemək yeməyə icazə verilmir. Bəyin evində qohum qızlar rəqs edir, mahnı oxuyurlar, sonra "Qaye holud" mərasimində-günəşlə assosiasiya olunan və sadiqliyin simvolu olan sarı rəngə dair təriflərlə dolu mahnılar oxunur, hər yerə sarı rəngli toz tökülür. Bu mərasim müəyyən mənada rənglər bayramına, yəni "Holi"yə bənzəyir, amma burada yalnız sarı rəngdən istifadə olunur. İştırakçılar əvvəlcə alınlarını sarı rəngləyirlər, sonra bir-birinin üzərinə sarı toz tökürlər.

***"Qaye holud"***dan sonra keçirilən ***"Şraddha"*** mərasimində bəyin atası təntənəli şəkildə ailənin vəfat etmiş üzvlərinin adını çəkir, onların ruhunu şahidlik etməyə çağırır ki, onların nəvələri evlənir. Sonra mərasimin iştirakçıları gəlin evinə yollanırlar, burada *"Qaye holud"* təkrarlanır.

Qərbi Benqaliyada ***"Vridhi Puca" (Şraddha")*** mərasimini toydan bir-iki gün əvvəl atanın qardaşları keçirir. "Puca"nın əvvəlində Narayanaya (Vişnunun avatarı), sonra Kula Devata (tayfa tanrısı) ibadət olunur, ondan sonra isə mərhumların sevdiyi yeməklər gətirilir. "Puca" zamanı ev ətirli tüstü ilə dolur, "paradip" adlanan çıraqlar yandırılır. Həmin gün gəlinin ailəsi ***"Ai Buro Bhat"*** adlanan qonaqlığa toplanır. Maharaştada toydan əvvəl valideynlər *"Qanapati Pucu"*-Qaneş tanrısına ibadət mərasimi keçirir, toy günü isə gəlinin alnına uğur əlaməti olaraq yarı ay işarəsi qoyur, ailə ocağının hamisi olan Parvati tanrısına ibadət edirlər.

Toya gələnlərə süd və vegeterian yeməkləri verilir, burada ət, balıq, yumurta istifadəsi qadağandır. Toyda ***"şubho-drişte", "bozarqan"*** və s. ritualları keçirilir.

Kəşmirdə ***"Kanişran"*** mərasimi zamanı bəyin dayısı paltar komplekti hədiyyə edir, bəy və gəlinin ailəsi qarşılıqlı olaraq ana

qohumlarını qonaq dəvət edirlər. Toydan 2-3 gün əvvəl gəlin evi bəy evinə çoxlu şirniyyat və meyvələr, qurudulmuş meyvələr, əridilmiş yağdan hazırlanan ***"qhi",*** şəkər və s. göndərir. Kəşmirdə keçirilən ***"Divaqon"*** (Devqon) mərasimi isə gənclərin ***"aşram brahmaçarya"***dan ***"aşram qrihastraya"*** keçidini simvolizə edir. Həmin gün bəy və gəlin tanrı Parvati və tanrı Şivaya ibadət edir, "havan" (odlu puca) ritualını yerinə yetirirlər. Daha sonra isə bəy və gəlinin qüsl alması (yuyundurulması) həyata keçirilir, onlara təzə paltar geyindirirlər.

Maharaştrada toydan bir gün əvvəl ***"Haldi Çadavane"*** mərasimində sarıkök və səndəl ağacı yarpağından hazırlanan məcun bəyin, gəlinin bədəninə və üzünə sürtülür, sonra yuyulur. Bundan sonra toyadək bəy və gəlin evdən çıxmır.

Bir sıra ştatlarda toya bir gün qalmış *"Haldi"* mərasimi keçirilir, gəlin və bəyin üzləri, əlləri, ayaqları sarıköklə yağlanır ki, dəriləri parıldasın. Həmin gün gəlin və bəy evində əcdadların xatirəsinə həsr olunmuş "Şradha" mərasimi keçirilir, bunun üçün ***"pinda"*** adlanan, süddə qaynadılmış düyü kürəsi hazırlanır. Bunun hazırlanmasında küncüt buğdası, bal və "qhi"dən istifadə olunur.

Toya hazırlığın növbəti mərhələsi əsasən qadınların iştirak etdiyi, musiqi və rəqslərlə dolu ***"Sanqit"*** şənliyidir. Hindistanın şimal ştatlarında məşhur olan "sanqit" mərasimi cənub ştatlarında da keçirilir. Bu adətə görə gəlinin çağırdığı qohumlar barabana bənzər "dolak" musiqi alətinin sədaları altında toya və gəlinə həsr olunan mahnılar oxuyurlar, rəqs edirlər, gəlinə sataşırlar, zarafat edirlər, gənc ailəyə xoşbəxtlik, rifah arzulayırlar. "Sanqit" mərasimi ziyafətlə başa çatır.

Gəlin evində keçirilən ***"Suhaqin"*** (Sumanqali, Sadhaba) mərasimində ərlərindən əvvəl ölərək öz müqəddəs borclarını yerinə yetirən qadınlara dualar oxunur, belə mərhum qadınları ***"suhaqin" (sumanqali və ya suhaq)*** adlandırırlar.

Orissada *"**Diya-Manqala puca**"* mərasimi zamanı məbəddə Devi (Durqa) tanrısına ibadət olunur, gəlinə xeyir-dua verilir.

Qərbi Benqalda "Dodhi Manqal" mərasimi çərçivəsində 10 nəfərədək evli bacı və xala ayrı-ayrılıqda bəyi, eləcə də gəlini yaxınlıqdakı bulağa aparır, Qanqa tanrıçasını xeyir-dua vermək üçün toya dəvət edirlər. Burada bəyin və gəlinin evində xəzinələrin qoruyucusu Kuber (Kuver və ya Vayşravana) tanrısına ibadət olunur, bunun üçün düyü və paxlalı bitkilərdən ibarət xonça hazırlanır.

Toydan əvvəl Assamda ***"Curan"*** (toydan iki gün əvvəl gəlinin anası bəyin anasını qəbul edir, qonaqlıq verir), ***"Tel Diya", "Pani Tola", "Nuani"*** mərasim və ritualları keçirilir. ***"Tel Dya"*** ("tel"-yağ, "diya"-gətirmək) mərasimində bəyin anası gəlinin saçına üç dəfə ətirli yağ tökür, xonçaya üzük və betel qozu qoyur. "Pani Tola" mərasimində bəyin və gəlinin anaları saxsı qablarla gəlinin çimməsi ("Nuani") üçün müqəddəs su gətirirlər.

Hindistanda toya hazırlıqda ən həyəcanlı mərhələ ***"Mendi"*** (Mehendi) mərasimidir. Bu zaman gəlinin əli və ayağına xına qoyulur. ***"Mendi"*** (Solah Şrinqar) gəlinin 16 bəzəyindən biri sayılır. Bu mərasim gəlinin evində qohumlarının və rəfiqələrinin iştirakı ilə keçirilir. Müəyyən qədər ***"Sanqit"***ə bənzəyən ***"Mendi"*** mərasimi böyük təntənə ilə keçirilir. İnanca görə, "mendi"nin naxışları tünd olsa, gələcək ər öz arvadını çox sevəcək. Ənənəyə görə evlənəndən sonra gəlin mendinin naxışları pozuladək öz evində işləməməlidir. Mahnı və musiqi ilə müşayiət olunan "Mendi" mərasimindən sonra gəlin toyadək evdən çölə çıxmır.

Qucaratda toydan bir gün əvvəl rəqs və əyləncələrlə zəngin ***"Qarba"*** mərasimi keçirilir, ***"Raas"*** və ya "Raas Dandiya" rəqsində əllərində çubuq tutan rəqqaslar ritmə uyğun olaraq, çubuqları bir-birinə vururlar. Bəy evində baş tutan ***"Qhodi Çadna"*** ritualında ***"bhabi"*** (böyük qardaşın arvadı) bəyin gözünə sürmə çəkir, bəyin bacıları atı və ya avtomobili bəzəyirlər. Adətən, ***"sar-***

***bala"*** adlanan bəyin qardaşı oğlu bəy kimi geyinərək atın belində və ya avtomobildə toy evinə gedir.

Orissa ştatında başqalarından ən mühüm fərq odur ki, bəyin ailəsində yaşlı qadınlar, hətta anası toyda iştirak etmirlər. Orissa brahmanları digər varnalardan fərqli olaraq, mərasimi axşam, gecəyə yaxın deyil, gündüz vaxtı keçirirlər.

Hindistanda toy mərasiminin özü müxtəlif cür tanınır, məsələn, Assamda toy mərasimi "biya" adlanır, qadınlar ilk növbədə "Biya naam" mahnısını oxuyurlar.

Toy günü əlverişli vaxtda ***"şervani", "çuridari", "paqdi"*** (paqri-toy türbanı) geyinmiş bəy bəzədilmiş at və filin üstündə mahnı oxuyan, rəqs edən qohum və dostlarının müşayiəti ilə toy keçirilən yerə yollanır. "Barat Nikasi" adlanan toy yürüşündə müasir dövrdə adətən avtomobillərdən istifadə olunur.

Qucaratda toy günü "Barat" ritualı keçirilir, bəy at, faytonla, "baraat"ın-qohumlar və dostların müşayiəti ilə toyun keçirildiyi yerə gedirlər.

Assamda toy günü ***"şraddha"*** ilə, yəni mərhumların anılması ilə başlayır, bu mərasimi ata keçirir, sonra müqəddəs suda yuyunurlar, bu bəy və gəlinin təmizlənməsi anlamına gəlir. Bundan sonra bəyin adamları gəlin evinə yollanırlar. Bəyə hörmət göstərən, hədiyyələr verən qız evi birlikdə toyun keçirildiyi yerə-***"mandap"****a* gedirlər. Mərasim öncəsi gəlin *"qhi"* (əridilmiş yağ), qatıq, bal, şəkər və süddən ibarət qarışığı qəbul edir, müqəddəs ocağın qarşısında əyləşən bəy və gəlin "mantra" sədaları altında gül çələnglərini dəyişirlər, bəy gəlinə müxtəlif bəzək əşyalarından ibarət sindur (parlaq qırmızı) gətirir.

Təzə bəyi gəlinin anası qarşılayır. Qaynana ***"arati"***dən (baş əymə) sonra bəyi hər cür bədbəxtlikdən qorumaq üçün alnına ***"tilak"*** işarəsi qoyur. Maharaştada gəlin evinə gələn bəyi qarşılayan gəlinin valideynləri gələcək ərin ayağını yuyaraq, "Siman Puca" mərasimini həyata keçirir, ona hədiyyələr verirlər.

Gəlinin anası ilə görüşən bəy ortasında qurban odu yanan yerə bahalı parça, betel yarpaqları, mandapu (şatra) gülləri qoyur. Elə orada da "Var Mala" və ya "Cay Mala" adlanan, çələnglərin dəyşdirildiyi nikah mərasimini keçirmək üçün gəlini gözləyir. Bu mərasim haqqında Veda mətnlərində məlumat verilmişdir.

Kəşmirdə Veda ***"mantra"***larının (ilahi) oxunması ilə başlayan, ***"laqan"*** adlanan toy mərasimi zamanı bəy və gəlinin bir-birini güzgü vasitəsi ilə görməsi təmin olunur.

İlahi ***"mantra"***ların sədaları altında üz-üzə dayanan bəy və gəlin çələngləri dəyişərək bir-birilərinin boyunlarına taxırlar. Bu bir-birilərini ər və arvad kimi qəbul etmələrinin göstəricisidir. Daha sonra hər bir sütunu bəy və gəlinin valideynlərini simvolizə edən, məbədə bənzər "mandap"da müxtəlif rituallar yerinə yetirilir. Qucarat toyunda ***"Kanya Aqaman"*** ritualı zamanı dayı gəlini "mandap"a aparır, qohumlar ***"mandap"***da bəy və gəlinin arasında ağ parça tuturlar, brahman rituala başlayır, ağ parça endirilir, yeni evli cütlük müqəddəs odun başında çələnglərini dəyişirlər.

Maharaştada bu mərasim ***"Antarpaat"*** adlanır, ağ rəngli "antarpaad" parçasının üstündə uğur, rifah, inkişafı simvolizə edən Veda svastikaları əksini tapır, bəyin üzü şərqə, gəlinin üzü qərbə doğru dayanır, brahman "mantra" oxuyur, parça aradan götürülür, ***"Var Mala"*** (çələnglərin dəyişdirilməsi) ritualı həyata keçirilir.

Qucaratda bəy gəldikdən ("Ponkva") sonra ***"Cay Mala"*** ritualı keçirilir, bəy və gəlin iki dəfə çələnglərini dəyişirlər. Gəlinin anası bəyi toy mərasiminin keçirildiyi "mandap"a dəvət edir, ***"Madhuparka"*** ritualı zamanı isə bəyin ayaqları yuyulur, süd və bal yedizdirilir. Bu zaman gəlinin bacıları bəyin ayaqqabısını gizlədir ("Cuta Çurai"), nəmər istəyirlər.

Kəşmirdə keçirilən ***"Athvas"*** ritualı bəy və gəlinin əlinin parça ilə bağlanmasıdır. Bundan sonra onların alnına ***"Mananmal"*** adlanan qızılı rəngli ip bağlanır. Pəncabda olduğu kimi Kəşmirdə də bəy və gəlin odun ətrafına yeddi dəfə fırlanırlar. Birinci

dövrədə gəlin sağ ayağı ilə yeddi ədəd bir rupini tapdalayır. Toy mərasimindən sonra ***“Poş Puza”*** ritualı zamanı evlənənlərə xeyir-dua verilir.

Pəncabda ***“Var Mala”*** ( Cay Mala) mərasimində bəy və gəlinin gül çələngləri dəyişən zaman gəlinin bacıları və rəfiqələri bəyin ayaqqabısını oğurlayır, sonra isə nəmər istəyirlər. Bu ritual ***“Cuta Çupai”*** adlanır.

Toyda vacib rituallllardan biri ***“Kanya Daan”*** adlanır. “Kanya” bakirə, “daan” isə hədiyyə, bəxşiş mənasındadır. Bu mərasim zamanı gəlinin atası qızının sağ əlini bəyin sağ əlinə qoyur, gənclərin ovuclarına müqəddəs su tökülür. “Mantra”ların sədaları altında həyata keçirilən bu mərasim atanın öz qızını bəyə verməsini simvolizə edir. Ata kürəkənindən qızına həyatda “trivarqa” adlanan üç əsas məqsədə (dəyərə) çatmaq üçün kömək göstərməsini istəyir: “dharma”, “arthi”, “kama”. “Dharma” dini, mənəvi etik vəzifəyə, ilahi qanuna əməl etməkdir; “artha”- maddi rifahı təmin edən xeyir, məqsəd, gəlir deməkdir; “kama” emosional-hissi ləzzət, istək, sevgiyə işarədir. Qucaratda *“Kanya Daan”* mərasimi zamanı gəlinin valideynləri bəyi tanrı Vişnuya bənzədərək bəyin ayağını yuyur. Tanrı Lakşmini təcəssüm edən gəlin öz ərini tanrı Vişnunun təcəssümü olaraq qəbul edir.

***“Paniqrahana Hatleva”*** ritualında bəyin və gəlinin birgəliyin əlaməti olaraq əli parça və ya iplə bağlanır, brahman (vipra) ***“Qaneş puca”*** mərasimi keçirir. Müqəddəs nikah heç zaman pozulmamalıdır, buna görə də “Qathabandhan” ritualı keçirilir, brahman bəy və gəlinin paltarlarının uclarını bir-birinə düyünləyir, bu düyünlər hətta toydan sonra açılmır. Bəyin şərfinin (uzun dəsmalının) ucunun gəlinin sarisinə bağlanması Qucaratda ***“Hasta Milap”*** adlanır, onların boğazlarına müqəddəs ip asırlar, ***“varmala”*** adlanan bu ip iki qəlbin birləşməsini simvolizə edir.

Toy ***“mandapı”***nda keçirilən ən maraqlı mərasimlərdən biri *“Laca Homa”* adlanır. Bu mərasim zamanı bəy və gəlin düyü

dənini oda qurban olaraq atırlar. Gəlin ovcunu bəyin ovcuna qoyur, gəlinin qardaşı onların ovcunun üstünə düyü (adətən yüngül düyü- ***“layya”, “laca”, “muri”)*** səpir, düyünün yarısı gəlinin ovcundan keçərək bəyin ovcuna tökülür. Gəlin düyünü oda atır, ölüm tanrısı, mərhumların himayədarı olan tanrı Yamaya (Yamaraca) dua edir, ərinə xoşbəxtlik, uzun ömür, sağlamlıq və rifah arzulayır.

Hind toylarının kulminasiyası ***“Aqni Parinaya”*** (Manqalphera, Manqalfera) ritualı sayılır. Mərasim zamanı bəy və gəlin saat əqrəbi istiqamətində üç dəfə müqəddəs odun (“phere”) başına fırlanırlar. Bu insanın çatmaq istədiyi üç dəyəri- ***“dharma”, “artha” və “kama”***nı ifadə edir. Qucaratda brahman “mantra” oxuyaraq Lakşmi və Parvati tanrılarını gənc aləyə xeyir-dua verməyə çağırır. Sonra bəy və gəlin müqəddəs odun başına fırlanaraq ***“Manqal Phera”***nı yerinə yetirirlər. Bəy sağ əli ilə gəlinin sağ əlindən tutur, odun başına dolanır. Son dövrədə gəlin birinci gedə bilər. Bu o deməkdir ki, qadın ***“kama”***nın (ləzzət, şəhvət) yerinə yetirilməsinə cavabdehdir. Hərdən bu rituala ***“mokşa”***nı (maddi dünyadan uzaqlaşmaq) ifadə etmək üçün dördüncü dövrəni də əlavə edirlər.

Bundan sonra ***“Santapadi”*** mərasimi gəlir: bəy və gəlin şimala doğru hər dəfə sağ ayaqla başlayaraq yeddi addım ataraq dua edir, tanrıları onlara xeyir-dua vermələrini, “dharma”ya əməl etmək üçün sağlamlıq, rifah, uşaq bəxş etmələrini istəyir, uzun ailə həyatında xoşbəxtlik arzulayırlar. Əksər mərasimlərdə olduğu kimi burada da ***“Drahoma”*** (oğlan uşaqlarının olması üçün edilən dua) oxunur. Bəzi yerlərdə ***“Aqni Parinaya” və “Saptapadi”*** mərasimləri qarışıq keçirilir, bu zaman bəy və gəlin müqəddəs odun ətrafına yeddi dəfə fırlanırlar.

Hind toyunda son ritual ***“Sundurdana” (“Sahaaq” və ya “Subhaqya Çinya”)*** adlanır. Bu mərasim zamanı bəy gəlinə onu öz arvadı kimi qəbul etməsinin işarəsi olaraq “kinovari”dən ha-

zırlanmış qırmızı toz verir. Bundan başqa, gəlinə sevgini ifadə edən ***"Manqalsutra"*** adlanan qızıl boyunbağı hədiyyə edir. Bəy və gəlin bir-birinə şirniyyat verirlər, bir-birinin qayğısını çəkmək anlamında olan bu ritual "Anna Praşana" adlanır. Toy mərasiminin sonunda gənc ailəyə "purohit" (tayfa brahmanı), valideynlər, yaxın qohumlar xeyir-dua verir, bu mərasim isə ***"Aşirvaad"*** kimi tanınır. Toy ritualları başa çatdıqdan sonra qonaqlıq başlayır.

Sonda ən emosional mərhələ-gəlinin ər evinə getməsi, öz valideynləri ilə sağollaşması ***("Vidaii" və ya "Ruhsati")*** olur. Ənənəyə görə valideynlərin, qohumların xeyir-duasını qazanan bəy və gəlin kəcavədə, müasir dövrdə isə avtomobil karvanı ilə ər evinə  yollanırlar.

***"Dvar-rokai"*** ritualında isə evə gələn gənc ailəni əlində saxsı qab tutan bəyin xalası və ya bacısı qarşılayır. Bütün şər qüvvələri qovmaq mənasını daşıyan duzlu su ilə dolu saxsı qab evin astanasında sındırıldıqdan sonra bəy və gəlin evə daxil olur.

Sonrakı vacib mərhələ isə ***"Qriha Praveş"*** adlanır. Bu zaman öz evinə gələn gəlini qaynanası qarşılayır, "arati" ritualı keçirilir. Evə girərkən gəlin düyü və metal pullarla dolu saxsı küpü sağ ayağı ilə vurub sındırır. Səpələnmiş taxıl və pullar rifah və bolluq əlamətidir. Sonra gəlin qırmızı tozla (kinovar, su və süd ilə qarışdırılmış) doldurulmuş böyük podnosun içində yalın ayaq dayanır. Ayaqların rəngləyən gəlin evə daxil olaraq döşəməyə sərilmiş ağ parçanın üzərində addımlayır, bu isə uğuru simvolizə edir. Onun topuqlarında evliliyin göstəricilərindən biri olan "alta" izləri qalır.

Kəşmirdə toydan sonra keçirilən ***"Satraat"*** mərasimi zamanı gəlin ərinin və ya ərinin qardaşı oğlanlarının müşayiəti ilə ata evinə gedir, burada valideynləri ona paltar, duz, pul, "paşmin" (Kəşmir ipəyindən şal) hədiyyə edirlər.

Qucaratda ***"Saubhaqyavati Bhava"*** ritualında yeddi nəfər ərli qadın gəlinin qılağına xeyir-dua pıçıldayır. ***"Çero Pakario"*** ritualında isə toydan sonra hamı ***"mandap"***dan çıxır, kürəkən

qaynanasının sarisindən tutur, hədiyyə verməmiş buraxmır. Toy mərasiminin sonundakı ***"Aşirvaad"*** mərasimində gənc ailəyə valideynləri və qohumları xeyir-dua verir.

***Uşaq tərbiyəsi.*** Hindistanda ailələrin əksəriyyəti böyük ailələrdir, hər bir ailə üzvünün özünün xüsusi rolu vardır, bu yaşından və cinsindən də asılı məsələlərdir. Uşaqlara tanrının hədiyyəsi kimi baxılır, başqa ölkələrdən fərqli olaraq, uşaqlar həyatı boyu ailəsindən dəstək ala bilər, eyni zamanda uşaqlar böyüklərə və valideynlərinə hörmət etməlidirlər. Uşaqlar ailədə xeyirxah mühitdə böyüyürlər, onlarda bütün canlılara yazığı gəlmək tərbiyə olunur. Vaxt keçdikcə, "Qarışqanı əzmə", "iti, keçini vurma", "quşlara daş atma", "quş yuvalarını dağıtma" və s. tələblərin istiqaməti dəyişir, dini müstəviyə keçir.

*Zülm əkən zülmə də sahib olacaq,*
*Düşəmməz payına bir ayrı qismət,*
*Dəyişmir dünyanın köhnə qaydası:*
*Nur əkən-nur tapır, zülm əkən-zülmət!*
("Mahabharata" dastanı).

Ailədə uşaq böyük nemətdir, böyük arzu və böyük lütfdür. Şimali Hindistanda ortodoksal hinduizmdə valideynlərin həyatında oğulun mühüm yeri vardır. Vedalar, brahmanizm dini öhdəlikləri görə oğul naminə nikahın qurulmasını əmr edir. Çünki yalnız oğul dünya atanın ruhunu ***"svarqa"*** (o dünyaya) apara bilər. Hətta ***brahmaçarya*** (evlənməmək andı içən) şəxs bir oğlan uşağını övladlığa götürməli idi. Xüsusi qeyd etmək lazımdır ki, bunun dini ibatət (sakral) qiyməti vardır, məhz oğul ölümsüzlük gətirəndir, oğul dəfn və yas mərasimlərinin (şraddhi) əsas təşkilatçısı, icraçısıdır. Oğul atasının növbəti doğulma mərhələsinə maneəsiz keçidini təmin edir.

*Tanrıya yalvarıb bir oğul dilə,*
*Oğuldur dünyada övladın xası.*
*Oğuldur uzadan ata ömrünü,*
*Yaşayır, ölməyir oğul atası!*
*("Mahabharata" dastanı).*

Anaya gəldikdə isə oğul dini, hüquqi və sosial baxımdan onun mövcudluğunu təsdiqləyir, oğulun olmaması son illərə qədər qadın üçün dəhşətli dərəcədə faciəvi idi. Bu baxımdan da qızların sosial statusu çox aşağıdır, onların doğulması sosial baxımdan o qədər də əhəmiyyətli sayılmır, hətta götürmə uşaq statusunda qəbul olunur.

Hind qızları öz emosiyalarını və hisslərini açıq şəkildə təzahür etmək tərbiyəsi almamışlar. Burada körpə yaşlarından qızları gələcəyin qadını kimi tərbiyə edirlər, kiçik yaşlarından zinət əşyaları taxırlar, gözlərini və dodaqlarını rəngləyirlər. Gözdəymədən qorunmaq üçün sifətin sağ hissəsində ənənəvi nöqtə qoyurlar. Qız anadan olan kimi, onun üçün pul toplamağa başlayırlar. Ərgənlik zamanı çatanda valideynlər və ya qohumlar ər axtarmağa başlayırlar. Vedalar nikah yaşını qadınlar üçün 15-20 yaş, kişilər üçün 25-30 yaş müəyyənləşdirirdi.

Müasir dövrdə Hindistan müasir, inkişaf etməkdə olan ölkə olsa da, qədim ənənə və adətlər qorunub-saxlanmışdır. Bu ölkədə erkən nikah halları qalsa da, qızlar əsasən 18-20- yaşlarında ərə gedir, gənc oğlanlar 25-35 yaşlarında evlənirlər. İndi də toy gününü müəyyənləşdirmək, uğurlu gün seçmək üçün astroloqa müraciət edilir, nikah, toy mərasimi ənənəvi dini rituallar əsasında keçir.

Hindistanın ***"demoqrafik partlayışı"*** ölkədə sosial –iqtisadi problemlərin həllinə mənfi təsir göstərir. 1901-1991-ci illərdə Hindistanda hər kv-km-ə düşən əhalinin sayı 27 nəfərdən 267 nəfərə çatmışdır. Ölkə əhalisinin yarısı 18 yaşadək olan uşaq və

gənclərdir, onların evlə təmin olunması üçün hər həftə min ev tikilməsi və 100 min iş yeri yaradılması vacibdir, bu da praktiki baxımdan qeyri mümkündür. Eyni zamanda orta təhsil problemini aradan qaldırmaq üçün Hindistanın federal hökuməti üçün hər il 9 min yeni məktəb tikmək və ildə 400 min müəllim hazırlamaq xeyli çətindir.

Sayı sürətlə artan əhalinin ərzaq, mənzil, təhsil, tibbi təminat və s. ilə təmin olunması ölkənin qarşısında duran ciddi problemlərdəndir. Problemlərin həlli istiqamətində ciddi addımlar atmaqla yanaşı, Hindistanda doğumun tənzimlənməsi, ailə planlaşdırılması üçün ən müxtəlif təbliğati-tibbi, administrativ, təhsil və s. proqramlar həyata keçirilir.

***Sual və tapşırıqlar:***

*1. "Hinduslar inanırlar ki, toy adətləri ər və arvadı sonrakı 7 həyatda bağlayır və toy hinduslarən həyatında 16 sanskardan (sirli qurbanververmə) biridir". Bu cümləni təhlil edin.*

*2.Vedalara uyğun olaraq, hindus toy adətləri müqəddəs qurban odunun yanında vipra (brahman kahini) və purohitin (sıravi brahman) iştirakı ilə keçirilir.*

*3. Toya qədər bəy və gəlinin evində "Rut Caqa" ("Sanqit"), "Mehehendi" (Mehendi, Mehandi), "Çuda", "Vatna" ("Ubtan"), "Qhara Qhardoli" mərasimləri keçirilir.*

*4.Hind toylarının kulminasiyası "Aqni Parinaya" (Manqalphera, Manqalfera) ritualı sayılır.*

*5.Vedalara görə yalnız oğul atanın ruhunu "svarqa" (o dünyaya) apara bilər.*

# V FƏSİL

# HİNDİSTANDA ETNİK PROSESLƏR

Hindistan ərazisi mədəniyyətlərin beşiyi olmaqla yanaşı, müxtəlif irq və etnosların bir arada yaşadığı, bəşər sivilizasiyasının təşəkkül tapdığı subkontinental ərazidir. Tarixən burada müxtəlif etnoslar yaşamış, fərqli irqlərə, dillərə, dinlərə məxsus tayfalar gələrək burada məskən salmışlar. Arxeoloji tədqiqatlar göstərir ki, tarixi Hindistan ərazisində üst paleolitdə zənci irqinin nümayəndələri, mezolitdə qərb hissədə avropoid, şərq hissədə monqoloid irqinin nümayəndələri məskunlaşmışlar.

## *5.1. Hindistan əhalisinin etnik tərkibi*

***Hind çayı vadisində təxminən e.ə. 3000-1750-ci illərdə mövcud olmuş Harappa sivilizasiyası,*** şəhər mədəniyyəti burada çoxçalarlı etnik proseslərin getdiyini göstərir. Harappa sivilizasiyasının (Sarasvati vadisi sivilizasiyası) Şumer əsaslı olması, dravid və ya hind-ari tayfalarının yaratması haqqında müxtəlif rəylər vardır. Son illərdə isə hind alimləri bu bölgəyə mədəniyyətin gətirilməsi haqqında iddianın əleyhinə çıxır, II minilliyin ortalarında arilərin gəlməsindən xeyli əvvələ aid çoxsaylı arxeoloji və maddi mədəniyyət nümunələrinə istinad edərək qədimdən inkişaf etmiş yerli mədəniyyətin mövcud olması mövqeyini müdafiə edirlər.

Arxeologiya, etnologiya, toponimika və dilçilik üzrə tədqiqatlar ilkin dravid və Sarasvati vadisi sivilizasiyası element-

lərinin Riq Vedada (o cümlədən, sanskrit dilində) əksini tapdığını və indiyədək hesab ediləndən daha çox olduğunu təsdiqləyir. Tanınmış amerikalı hindşünas və arxeoloq ***Corc Erdosi*** hind-ari dillərində dravid elementlərinin mövcudluğunu belə izah edir: ***"Qədim hind-ari dillərinin daşıyıcıları üçün dravid dili doğma idi və onlar bu dili tədricən unutdular".***

Müasir dövrdə belə dravid dilli bhaqui xalqının Hind (Sind) çayının orta axarlarında yaşaması Harappa sivilizasiyasının yaradıcılarının dravid mənşəli olması barədə iddiaları gücləndirir.

Ümumiyyətlə, son 40 ildə arxeoloji, kulturoloji, filoloji və s. sahələr üzrə toplanmış materiallar "ari müdaxiləsi", "arilərin gəlməsi" nəzəriyyəsini sual altında qoymuşdur. XIX əsrdə ***Fridrix Şlegel***in irəli sürdüyü ***"Hindistandan getmə" nəzəriyyəsi ("Out of İndia" theory)*** artıq tam ayrı bir şəkildə yenidən ortaya atılmışdır.

F. Şlegel (1821-1868) ***"Hind-Avropa dillərinin müqayisəli qrammatikası kompendiumu"*** (1862) əsəri ilə müqayisəli-tarixi metodun böyük bir dövrünə yekun vuraraq "ulu dil" nəzəriyyəsini yaratmışdır. O, Hind-Avropa dillərinin ilk təsnifini vermiş, dillərin şəcərəsi nəzəriyyəsini yaratmış, qohum dillərin bir "ulu dil"dən – kök dildən əmələ gəldiyini və sonrakı dillərin həmin ulu dilin nəsilləri, budaqları olduğunu göstərmiş, fikirlərini "Şleger ağacı" deyilən bir ağac şəklində təsvir etmişdir. Onun fikrincə, ulu dilin xüsusiyyətləri (müəllif "ulu dil" dedikdə Hind-Avropa protodilini nəzərdə tutur) slavyan-german dillərində daha az mühafizə olunmuşdur. Deməli, slavyan-german dilləri ulu dildən daha qədim dövrlərdə ayrılmışdır; yunan-itali-kelt qrupu bir müddət ulu dil daxilində dialekt kimi yaşamış, nisbətən sonralar ayrılmışdır.

Ulu dilin parçalanması səbəbləri çox olmuşdur. Təbii fəlakət və zəlzələlər, yanğın və uçqunlar, təbii şəraitin əlverişli olmaması, qohum tayfa və qəbilələr arasında ixtilaflar, əhalinin getdikcə artması, izlərini dini kitablarda saxlamış Nuh daşqını, iqlimin də-

yişməsi, havaların soyuması və istiləşməsi, şimala doğru hərəkətin mümkünlüyü, daha yaxın ailə və qəbilələrin özlərinə müstəqil məskən seçmək istəyi, yeni otlaqlar və əkin yeri axtarışları, miqrasiyalar və s. insan dəstələrinin bir-birindən uzaq düşməsinə, minilliklər ərzində qohumların yadlaşmasına, ərazi iddiaları ilə düşmənçilik münasibətlərinin artmasına, dillərin, dinlərin, antropoloji quruluşun dəyişməsinə səbəb olmuşdur.

Hind mənşəli alimlər əsasən "Arilərin Hindistana müdaxiləsi" nəzəriyyəsinin əsasının olmadığını və XVIII – XIX əsrlərdə avropalıların müstəmləkəçilik siyasətinə xidmət etdiyini bildirir, ortaya qoyduqları "Hindistandan getmə" nəzəriyyəsində Sarasvati vadisi sivilizasiyasının (Harappa sivilizasiyası) qədim hind-iranlılar tərəfindən yaradıldığını və hind-iranlıların məhz qədim Hindistandan Mərkəzi, Orta və Ön Asiyaya, oradan Avropaya yayıldığını iddia edirlər. Nə qədər inanılmaz görünsə də, bu nəzəriyyənin tərəfdarları arasında tanınmış hind alimləri Ş. Talageri, B.B. Lal , N.S. Rajaram və d. ilə yanaşı samballı Qərb hindoloqları vardır *(Qasımov P. 2011, s.38).*

XX əsrin tanınmış dilçi alimi, alman mənşəli Kanada hindoloqu K. Klostermayer tanınmış hindoloqlar G.Feuerstein, S.Kak, D.Fravley-nin birgə yazdıqları əsərinə ("In search of the Cradle of Civilization", Wheaton: Quest Books, III., 1996) istinad edərək "Ari müdaxiləsi" nəzəriyyəsinə qarşı 17 arqumenti əsas gətirir. Bu arqumentlərin bir neçəsini göstərərək yazır: Qədim Hind mənbələrində işğal və ya geniş miqyaslı miqrasiya barəsində heç bir xatırlatma yoxdur – onlar nə Vedalarda, nə buddist və ya caynist mətnlərdə, nə də tamil ədəbiyyatında yoxdurlar. Riq Vedada təsvir olunan fauna və flora, məkan, iqlim Hindistanın şimal hissəsi üçün xarakterikdir; Hind– Sarasvati sivilizasiyaları dövrünün arxeoloji tapıntıları və sonrakı Hind cəmiyyəti və mədəniyyəti arasında heyranedici vərəsəlik mövcuddur: dini təsəvvürlərin, incəsənətin, sənətlərin, memarlığın, ölçü və çəki sistem-

lərinin vərəsəliyi; Merqardakı arxeoloji tapıntılar (e.ə. 3000 illər) - mis, iribuynuzlu qaramal, arpa vedik hindlilərin mədəniyyəti ilə oxşar mədəniyyətlərə şahidlik edir. Əvvəlki şərhlərə əks olaraq Riqveda köçəri deyil, şəhər həyat tərzini təsvir edir ("Puruşa" - pur vasa-"şəhər sakini"ndən törəmədir); Ari müdaxiləsi nəzəriyyəsi belə bir ehtimala əsaslanırdı ki, atlara və ikitəkərli döyüş arabalarına malik köçərilər, atları tanımayan şəhər sivilizasiyasını dağıtmışlar və atların təsvirləri Hindistanda yalnız e.ə. II minilliyin ortasından peyda olur. Amma Harappa və Harappayaqədər dövrdəki məskənlərdə atların mövcudluğu barədə arxeoloji sübutlar tapılmışdır; Hindistanda atların təsvirləri paleolit dövrünə aid mağaralarda tapılmışdır. Atların qoşulduğu ikitəkərli cəng apabaları maldar – köçərilər üçün tipik deyil, onlar məhz şəhər sivilizasiyaları üçün xarakterikdir ; Riqveda Şimali Hindistanda e.ə. 1900-cü illərədək (Sarasvati çayı misalında) və e.ə. 2600-cü ilədək (Drişadvati çayı misalında) mövcud çay şəbəkələrini təsvir edir. Veda ədəbiyyatında əhalinin Sarasvatidən (*Riq Veda*) Qanq (*Brahmanlar* və *Puranalar*) vadisinə doğru miqrasiyası təsvir edilir, bu da arxeoloji tapıntılarla isbat olunur; *Hind vadisi şəhərləri işğalçılar tərəfindən məhv edilməmişdi, onlar, regionun səhraya çevrilməsi səbəbindən əhali tərəfindən tərk edilmişdir.* Strabon "Coğrafiya" əsərində məlumat verir ki, Aristobul Hind çayının məcrasını dəyişdiyindən tərk edilmiş minlərlə kənd və şəhərləri görmüşdür; Riqvedada təsvir edilmiş savaşlarda işğalçılar və yerli sakinlər deyil, eyni mədəniyyətə mənsub insanlar döyüşürdülər; Harappa yazısı ilə Brahmi və Devanaqari yazılarında morfoloji fasiləsizlik; Əvvəllər "dəmir" kimi tərcümə olunan "ayas" vedik sözü çox güman ki, misi və ya tuncu ifadə edirdi. Hindistanda dəmiri Kəşmir və Dvarakda e.ə. 1500-cü illərdə tapmışlar; Riqvedanın özü inkişaf etmiş və təkmilləşmiş mədəniyyətin nümunəsidir, "Hindistana at belində gətirilməsi mümkün olmayan sivilizasiyanın" uzun inkişafının məhsulu idi; E.ə 1100-cü illərə

aid, Qanq vadisinin qərbində olan "boz naxışlı keramika" (bu mədəniyyəti Hindistana gəlmə hind-arilərlə bağlayırdılar) daha qədim boz və qırmızı keramika ilə əlaqəlidir və i.a."*(Qasımov P. 2011, s. 38-39).*

Hələlik Qərb tarix elmində hind-arilərin miladdan 1500 il əvvəl İran yaylalarından Hindistana köçməsi haqqında nəzəriyyə üstünlük təşkil edir. Həmin nəzəriyyəyə görə, neqroid irqinə mənsub yerli dravidlərlə müharibə aparan arilər Hindistan yarımadasının şimal hissələrini ələ keçirdilər, Vendiya sıra dağlarına, daha sonra isə Dekan məntəqəsinə qədər cənuba doğru yayıldılar, öz mədəniyyət və etiqadlarını yaymağa başladılar.

Harappa sivilizasiyasının məhv olduğu tarixdən (e.ə.1750) təxminən 150 il sonra Sarasvati vadisində, eləcə də Hind çayı ilə paralel, qərbdə Qanq çayı vadisində hind-ari mədəniyyətinin meydana gəlməsi Corc Erdosin "dravid elementlərinin mövcudluğu" haqqında fikrini təsdiqləyir. Yəni, Qanq vadisində, Hindistanın mərkəzi hissələrində çiçəklənən hind-ari mədəniyyəti Harappa sivilizasiyasının davamı idi və hind-ari mədəniyyəti daha çox yerli köklərə malik olmuşdur.

Tarixin gedişatı Hindistan coğrafiyasını etnik-dini baxımdan daha da zənginləşdirmişdir. Maqadha-Mauri imperiyası, Kuşan-Qupt dövrü, Harşi imperiyası, Vicayanaqar imperiyası, Delhi sultanlığı, Baburşahlar imperiyası burada etnik-dini rəngarəngliyi daha da artırmışdır. Böyük coğrafi kəşflər, XVII əsrdən ingilis, fransız işğalları, beynəlxalq ticarətin inkişafı və s. proseslərin Hindistanın etnik tərkibinin formalaşmasında xüsusi rolu olmuşdur.

İlk növbədə qeyd etmək lazımdır ki, dünyanın ən çox əhalisi olan ölkələrindən biri olan Hindistanda milli məsələ mühüm rol oynasa da dini konfessional fərqliliklər, dini mənsubiyyət daha çox önə çıxır. Bir çox hallarda Hindistanda dini kimlik, kasta mənsubiyyəti etnik kimliyin üzərində olur, daha həlledici amil sayılır.

Müasir dövrdə Hindistanın etnik tərkibi bir neçə yüz xalqdan ibarətdir. Bu ölkədə *adivasi, akha, anqam, adaman, apatani, assam, badaqa, bayqa, balti, benqal, bihari, bondo, burişi, bhili, bhotiya, bhutiya, qond, qucarati, qucari, dardı, caravara, cat, cuanq, doqra, kannara, kristanqi, khasi, khası, khondi, ladakhi, lepça, lisu, loba, maqari, malayali, maler, manipuri, marathi, minaro, monpa, naqa, onqe, oraon, oriya, pəncabi, pars, pahari, racastani, racputi, rai, savara, santali, sentineli, seraiki, siddi, siqhi, sindhi, tamanqi, tamil, teluqu, toda, tripura, hindustani, ho, çakma, şerp* və s. xalqlar, tayfalar yaşayır.

***Hindistan xalqları arasında sayca ən çoxu hindi, teluqi, maratha, benqal, qucarat, kannara, pəncablar və başqa xalqlardır.*** Hindlilərin bir etnos kimi formalaşmasında farslar, ərəblər, türklər, əfqanlar, ingilislər iştirak etmişlər.

Hindistan xalqlarının və irqi elementlərinin təsviri kifayət qədər mürəkkəb məsələdir. Bura daim dünyanın müxtəlif yerlərindən gələn fərqli etnosların qovuşduğu, qarşılaşdığı ərazi olmuş, bu prosesdə müharibələr, təqib, iqtisadi faktorlar mühüm rol oynamışdır. Fərqli irqi xüsusiyyətlərə malik etnoslar burada məskunlaşmış, qaynayıb-qarışmış, bu qarışıqlardan lokal xüsusiyyətlərə malik xalqlar yaranmış, Hindistanda rəngarəng insan cəmiyyətinin formalaşmasına gətirib çıxarmışdır.

XIX əsrin əvvəllərində Hindistana səyahət etmiş, məşhur azərbaycanlı səyyah Hacı Zeynalabdin Şirvani bu ölkədə yaşayan xalqlar haqqında yazır: ***"...Əhalinin bəzisi göyümtül, bəzisi qəhvəyi, bəzisi ağ üzlüdür…Dilləri hind dilləridir. Dillərində ərəb, fars sözlərinin qarışığı vardır.*** Yeyib-içib gəzməyi çox sevəndirlər. Mövhumata çox inanırlar. Bəziləri illər boyu bir küncdə oturub sehrbazlıqla məşğul olur. Ümumiyyətlə, qonaqsevəndirlər, xüsusilə səyyahlara böyük hörmət bəsləyirlər. Zülm və əziyyətdən uzaq gəzirlər. Əslində, eyş-işrətdə, musiqidə heç kim onlara çata bilməz *("Bustanüs səyahə").* Şirvani

hind xalqının musiqisinə də yüksək qiymət vermişdir. Məşhur səyyah Hindistanın tarixindən də çox geniş bəhs edir və burada əsasən padşahlar haqqında danışır.

Şirvani Hindistanda müxtəlif xalq və tayfanın yaşadıqları ərazilər barədə məlumat verir: *1. Əfqan tayfaları Kabildə və Sinddə, 2. Bəluclar Sind şəhəri ətrafında. 3. Sənqan tayfası Lahur, Kəşmir və Pəncabda. 4. Rocputlular Mal və başqa yerlərdə. 5. Benqal Dəkən, Küçərat və Hindistanın başqa bu kimi böyük, səfalı, dövlətli yerlərində isə xaricilər hökmranlıq edir. 6. Mərhətə tayfası Bürhanpur və Dövlətabadda hökmranlıq edir. 7. Heydərabadda Nizamülkün övladı hakimdir. Əyrəkabad, Bidro və Təlnək də oraya tabedir. Şirvani sonra yazır ki, yuxarıda göstərilənlərdən başqa, 10-a qədər tayfa heç bir hökumətə tabe olmadan köçəri həyat sürür.*

Hacı Zeynalabdin Şirvani bildirir ki, hazırda Hindistanda *"hindi"* adlı bir tayfa yaşayır. Onların xüsusi adət və ənənələri vardır. Həmin tayfa Kəlkəttənin bir-iki ağac mənzilliyində olan limanın ətrafında yaşayır. Qanq çayı da oradan keçir, buradakı liman şəhərdə 4 min ev vardır. Hind çayının sahillərində "hu" adlanan tayfa yaşayır, orada həmin adda liman da vardır. Səyyahın fikrincə, "hind" sözü bu iki tayfanın adlarının birləşməsindən əmələ gəlmişdir. Sonralar bu tayfaların ayrılması nəticəsində hoquli tayfası, sonrakı parçalanmalarda isə hütək, həyatələ, hilmən (hirmən) tayfaları yaranmışdır. Hacı Zeynalabdinin qeydlərinə görə Əfqanıstanın böyük çaylarından olan Hilmənd (kiçik bir hissəsi İran sərhədi boyunca axır) adı da hilmənd tayfasının adından götürülmüşdür.

Hindistan irqləri, etnosları daim həm şərq, həm də qərb tədqiqatçılarının diqqətini cəlb etmişdir. İngilis alimi ***Risley*** 1890-cı ildə elmi əsasda, yəni antropolometrik texnika ilə Hindistan xalqlarının irqi təsnifatını aparmışdır. O, 1901-ci ildə ingilis kolonial hökuməti tərəfindən əhalinin siyahıya alınması komissiyası-

na rəhbər təyin olunmuşdur. Risley siyahıya alınma haqqında hesabat sənədini ***"Hindistan xalqları"*** adı altında 1915-ci ildə təqdim etmişdir. O, hind əhalisinin 7 irqdən ibarət olması nəticəsinə gəlmişdir. Bu qruplaşdırma aşağıdakı kimi təqdim olunmuşdur.

*1. Türk-İran tipi: Bu tipə Bəlucistan əhalisi və sərhəd əyalətlərin (müasir Pakistan da) əhalisi aiddir.*

*2. Hind-ari tipi: Pəncablılar, racputa, cats və kəşmiri khatrisin müəyyən qrupları bu tipə aiddir.*

*3. Skif-dravid tipi: Bu tipin ən yaxşı nümunələri Maratha Brahamins və Coorgs əhalisidir.*

*4. Ari-dravid tipi:Uttar Pradeş, Racastan və Bihar əhalisi bu tip üçün ən yaxşı nümunədir.*

*5. Monqol-dravid tipi: Benqal brahminləri və Kayasta əhalisi bu tipin nümunələridir.*

*6. Monqol tipi: Assam, Nepal, Birma əhalisi bu tipə aiddir.*

*7. Dravid tipi: Bu tipə Tamil Nadu, Andhra Pradeş, Madhya Pradeşin şimal hissəsi, Çhotanaqpur əhalisi aiddir.*

Hind antropoloqu ***Nadem Hasnain*** Risleyin təsnifatının qərəzli fikirlər və ixtiyari nəticələr, reallıqla uzlaşmayan yanaşma olduğunu bildirir.

İkinci təsnifatı ***Haddon*** irəli sürmüşdür. O, Hindistanı coğrafi baxımdan üç yerə ayırmışdır, onun yanaşmasına görə, bu hind xalqını irqi baxımdan izah edir. Bu üç coğrafi region aşağıdakıdır: *1) Himalay, 2) Hindistanın şimal düzənlikləri, 3) Dekkan.*

Hindistanın coğrafi regionlar üzrə müvafik əsas etnik elementləri aşağıdakılardır:*1) Hind-ari və monqoloid, 2) Hind-əfqan, catilər və racputlar, 3) Neqrito- protodravid, Cənubi Braçhucepal və Şərqi Braçhucepal.* Haddonun təsnifatı fiziki əlamətlərə, adət və ənənələr, dil və geniş yayılmış folklora görə aparır. O, hind əhalisinin irqi elementlərini bu "sübutlar" əsasında müəyyənləşdirir. Hind antropoloq Nadeem Hasnainə görə, bu təsnifat yalnız tarixi baxımdan əhəmiyyətlidir.

Alimlərin sırasında hind antropoloq ***B.S.Quha***nın tədqiqatları xüsusi yer tutur. O, irqi təsnifatın müəyyənləşməsində elmi kriteriyaya əsaslanmışdır. Bu təsnifat 1931-ci ildə siyahıyalma zamanı aparılan antropometrik sorğulara söykənir. Bu irqlərin antropometrik texnika ilə müəyyənləşdirilməsində mühüm təcrübə idi. Sağlam elmi metoda əsaslanan üsul bu günə qədər ən geniş yayılmış və məqbul irqi təsnifat hesab olunur. Bu üsul daim Hindistan əhalisinin öyrənilməsində istifadə olunur. Tədqiqat nəticəsində Quha Hindistan xalqı arasında braxikefal tipin dominant təşkil etdiyini müəyyənləşdirmişdir. Onun təsnifatı əvvəlki ümumi yanaşmalara uyğun deyildi. Quhanın təsnifatı alimlər tərəfindən təsdiqlənmişdir. ***Quha Hindistanda 3 əsas irqi tipin olmasını müəyyənləşdirmişdir: neqroid, proto-avstraloid və monqoloid.*** Ümumi rəyə görə, monqoloid irqi elementləri Hindistanda daha gec məskunlaşmışdır.

Neqroid və proto-avstraloid irqinin mənşəyi ilə bağlı faktiki olaraq, müxtəlif rəylər vardır. De Quarterefages (1877) və Quha belə mövqedə idi ki, neqroid irqi Hindistanda məskunlaşan ilk irq olmuşdur və belə fikir irəli sürmüşdür ki, ola bilsin ki, neqroid irqi Malaziyadan gəlmişdir. Bu irqə Veda dönəmində Şri-Lanka, Kadar, İrula, Kurumba, ümumiyyətlə, Cənubi Hindistanda rast gəlinir. Proto-avstraloid irqinin xüsusiyyətlərinə məxsus skelet qalıqları Harappa sivilizasiyasının mühüm şəhərlərindən olan Mohenco Daro ərazisində tapılmışdır. Son illərdə aparılmış tədqiqata görə isə, neqroid irqinə mənsub ibtidai insanlar Afrika-Ərəbistan-İran yaylası yolu ilə Hindistana gedib çıxmışlar.

İrqi xüsusiyyətlər Hindistanda etnosların fərqləndirilməsində mühüm rol oynayır. Burada xalqlar əsasən iki yerə ayrılır. **Hind-ari xalqları və dravid xalqları.** Hind-arilər hind-avropoid dil ailəsinə aid xalqlar sayılırlar.

Müxtəlif dialektlərə bölünən hind-ari dilinin hindi və urdu olmaqla iki ədəbi forması vardır, bu dilin qrammatikası və söz

fondu eynidir, lakin hindi dili devanaqari, urdu dili isə ərəb əlifbası ilə yazılır.

Hind-arilərə məxsus hindi və urdu dillərində əsasən Hindistanın şimalında, Qanq çayının orta və yuxarı axarlarında, Uttar-Pradeş, Haryana, Madhya-Pradeş, Racastanın bir hissəsi, Bihar, Delhi ittifaq ərazisində yaşayan xalqlar danışırlar. ***Şimali Hindistan dilləri iki hissəyə ayrılır: qərbi ("khari- boli"nin əsasında hindi və urdu ədəbi dilləri, eləcə də haryani və ya banqaru, kanauci, bundeli və ya bundelkhandi dilləri yaranmışdır) və şərqi (avadhi, baqheli, çhattarqarhi dilləri).***

Mərkəzi və şimali Hindistanda danışılan hindi və urdu dilləri praktiki baxımdan fərqlənmir, urdu dilində çoxlu sayda ərəb və fars sözləri vardır. Lakin müasir dövrdə bəzi hallarda urdu dili Hindistanda yaşayan hindi dilli əhalinin dili kimi qəbul edilmir.

Əslində "hindi dili" anlayışı əksər hind dillərini, eləcə də bu dildə danışan hind-ari xalqlarını ifadə edir. Hindi dilinə bir çox dil və dialektlər aiddir. Bu dildə danışan hindilər əsasən Uttar-Pradeş, Madhya-Pradeş, Haryana, Bihar, Racastan, Delhidə yaşayırlar. Hindi dillərində (haryani, maqahi və s.) danışanların sayına görə dünyada 5-ci yerdə durur (çin, ərəb, ispan və ingilis dillərindən sonra). Hind-ari dillərinə aid hindi və urdu dilinin mənsubları bir yerdə Çin dilindən sonra ikinci yerdə durur. Hazırda hindi dilini öz ana dili hesab edənlərin sayı 490 milyon nəfər, bu dili ikinci ana dili hesab edənlərin sayı isə 225 milyon nəfərə çatır.

*Hind-ari dillərinə qucarati, pars (Qucarat ştatı), sinqali (Şri Lanki), marathi (Maharaştrı), kankani (Qoa), tharu, khandeşi (Mərkəzi Hindistan), pəncabi, cati, avani, khokharı (Pəncab), sindhi, nepali (qurkhi), kumakoni, qarhvali və phari (Mərkəzi Himalaylar) aiddir. Dard dillərinə məxsus kəşmiri, doqri, şina, kho, kohistan, nuristan dilləri Cammu və Kəşmirdə yayılmışdır.*

Qərbi Benqal ştatında (eləcə də Banqladeşdə) benqali dili, Assam ştatında assam dili, Orissa ştatında oriya dili, Bihar ştatın-

da bihar dilinin üç dialekti (bhroçpuri, maythili, maqadhi), Racastanda racastani dilinin bir sıra dialektləri yayılmışdır.

Hind-ari dillərinə Qucaratın qucarati və pars, Şri-Lankanın sinqal, Maharaştranın marathi, Qoanın kankani, Mərkəzi Hindistanın bhil, tharu, khandeşi, Pəncabın pəncabi, cati, avani, khokhari, eləcə də sindhi, nepali (qurkhi), kumakoni, qarhvali, Mərkəzi Himalayın pahari dilləri aiddir. Kəşmiri, doqri, şina, kho, kohistan, Cammu-Kəşmirin Nuristan dilləri xüsusi qrup təşkil edirlər. Hind ari dillərinə Maldiv adalarının divehi dili, eləcə də qaraçı dili aiddir.

Hindilər dini baxımdan əsasən hinduizmə sitayiş edirlər, bu xalqın qədim mədəniyyət mərkəzləri Delhi, Lakhnau, Aqra, Allahabad, Varanasi sayılır.

Tarixən hindilər kənd təsərrüfatı (taxılçılıq, çəltikçilik, pambıqçılıq, şəkər çuğunduru) ilə məşğul olmuşdur. XX əsrin ikincı yarısından bu bölgədə sənaye sürətlə inkişaf edir, Bihar, Madhya-Pradeşdə sənayedə işləyənlərin sayı sürətlə artır. Əsasən, hindilərin yaşadığı Simal - Mərkəz Hindistan makrorayonu - böyük Qanq düzənliyində yerləşir, Uttar Pradeş ştatını əhatə edir. Buğda, şəkər qamışı, paxlalı və yağlı bitkilər, kartof, manqo, banan becərilir, maldarlıq inkişaf etmişdir. Bu makrorayona nəhəng hidrotexniki qovşaq, Aliqarx Naror atom-sənaye kompleksi olmaqla Kanpur, Aqra, Varanasi, Allahabad, Lakhnau və Delhi səhərlərinə malikdir. Mərkəz makrorayonuna daxil olan Madhya Pradeş ştatı zəngin təbii sərvətlərə, çəltik, buğda, qarğıdalı, paxlalılar, pambıq becərilməsinə, yeyinti, tikinti, ağac emalı, metal emalı sahələrinə, Bhilai metallurgiya kombinatına malikdir.

***Benqallar*** əsasən Qərbi Benqaliyada və Banqladeş Respublikasında yaşayırlar, ümumi sayları 225 milyon nəfərə yaxındır. Banqladeşdə 130 milyon, Hindistanda 95 milyon benqal yaşayır, müxtəlif dövrlərdə Nepal, Butan, Sinqapur, ABŞ, Kanada, Böyük Britaniya və başqa ölkələrdə də məskunlaşmışlar. "Banqa"

etnonimi vedalarda əksini tapan, Hindistanın şərqində, Qanq çayı vadisində mövcud olmuş Banqa dövlətinin adı ilə bağlıdır.

Benqal (benqal dilində Banqla) xalqı Qanq vadisində, Qanq və Brahmaputra çaylarının deltasında yaşayırlar. Qədimdə bu ərazilər Anqa, Vanqa, Qauda adı ilə tanınmışdır.

E.ə. I minillikdə benqalların etnik ərazisində caynizm və buddizm dinləri yayılmışdır. Benqal xalqının etnik tarixi çoxsaylı heterogen qrupların qarışması, konsolidasiyası ilə zəngindir. Bu ərazi X-XII əsrlərdən Benqal adlandırılmağa başlamışdır.

VIII-XIII əsrlərdə benqal dövlətçiliyi mövcud olmuşdur. XIII əsrdə bura Delhi sultanlığının nəzarəti altına düşmüş, XIV əsrdə müstəqil dövlət olmuşdur. Buddizmin inkişaf etdiyi, böyük məbədlərin fəaliyyət göstərdiyi Pali dövləti XV əsrədək yaşamışdır. 1575-ci ildə Böyük Baburşahların hakimiyyəti altına keçən benqallar XVIII əsrədək bu imperiyanın tərkibində qalmışdır. XVIII əsrin başlanğıcında müstəqil dövlət yaranmışdır. XVIII əsrdə Benqaliyada ingilis Ost-Hind şirkəti fəaliyyət göstərməyə başlamış, 1757-ci ildə İngiltərənin işğalı altına düşmüşdür.

Britaniya adminstrasiyası 1905-ci ildə Benqaliyanı 2 yerə ayırsa da, müqavimətlə üzləşmiş, 1911-ci ildə yenidən birləşdirilmişdir. 1947-ci ildə Benqaliya ikinci dəfə parçalanmış, hinduist benqalların yaşadığı Qərbi Benqaliya Hindistana, müsəlmanların yaşadığı Şərqi Benqaliya Pakistana verilmişdir. 1971-ci ildə milli-azadlıq hərəkatı nəticəsində Pakistan geri çəkilməyə məcbur olmuş və Banqladeş Respublikası yaradılmışdır. Benqallar xalq olaraq avropoid irqinin hind-aralıq dənizi tipinə, əsasən mezo-hind antropoloji tipə aiddir. Bu xalq monqoloid (şimalda və şərqdə) və dravid (cənubda) irqi əlamətlərinə malikdir. Benqali (banqla-bhaşa) dili hind-avropa dil ailəsinin hind-ari qrupuna aiddir. Bu xalqın nümayəndələri hindi, urdu dillərində də danışırlar. Benqali dilinin qərbi-şərqi dialekləri, eləcə də iki ədəbi dil –klassik (qərb dialektləri əsasında) və danışıq (Kəlküttə və müa-

sir qərbi dialektlər əsasında) dilləri formalaşmışdır. *“Bonqakhor”* yazısı qədim hind brahmi qrafikası əsasında yaranmışdır. Banqladeşdə yaşayan benqallar əsasən sünni müsəlmanlardır, aralarında hinduslar da vardır. Hindistanda yaşayan benqallar isə əsasən hinduslardır, aralarında müsəlman, caynist, xristian benqallar vardır. Şivaist və vişnuit benqallar Durqu və Kali tanrılarına sitayiş edir, payızda *“Durqa-puca”* bayramını keçirirlər.

Benqalların əsas məşğuliyyəti əkinçilik olmuş, düyü, cut, paxlalılar, şəkər çuğunduru becərilməsi geniş yayılmışdır. Qərbi Benqalın şimal vilayətlərində çay istehsal olunur. Burada sənətkarlıq inkişaf etmiş, benqal parçaları (muslin, mürşidabad ipəyi), metal emalı, dəriçilik, fil sümüyü işləməsi məşhurdur. Xüsusi ilə Qərbi Benqaliyada toxuculuq və cut sənayesi inkişaf etmişdir. Əhalinin əsas qidası düyü, paxlalılar, tərəvəz, balıqdır. Benqal şirniyyatları (şondeş, roşqulla, doi) məşhurdur. Müsəlmanlar qoyun əti və aşağı kasta hinduistləri bəzən donuz əti, quş və göyərçin əti istehlak edirlər.

Benqaliyanın cənub rayonlarında yaşayış məskənləri əsasən çayların sahili boyu yerləşmişdir, evlər (bari) bir-birinə yaxın yerləşir. Şimal-qərbdə yaşayış məskənləri əsasən yollar boyu yerləşir, evlər bir-birindən aralı olur, burada yağışlar mövsümündə evlər arasında əlaqə qayıqlar vasitəsi ilə saxlanılır. Karkas dirəklər üzərində yerləşən evlər gillə suvanır, dik damlar isə bambuk və ya ağaclardan qurulur.

Benqal qadınlarının əsas geyimi *“sari”* sayılır, bəzəklər isə geyimin vacib atributudur. Kişilər *“dhoti”* geyinir, “çadar” adlanan şala bürünürlər. Müsəlman qadınları dəsmal, kişilər isə *“lunqi”* adlanan dəsmal gəzdirir. Hinduistlərin baş geyimləri türbanlar, müsəlmanların baş geyimləri dairəvi papaqlardır. Burada musiqi, rəqs, xalq teatrı (kukla, “catra” adlanan lirik dram), professional kino sənəti geniş inkişaf etmişdir.

***Assamlar.*** Hind-ari xalqlarından olan assamların əsas məşğuliyyəti düyü, darı, qarğıdalı, paxlalı, araxis, banan, manqo,

küncüt, texniki bitkilərdən cut əkinçiliyidir. Dağların aşağı ətəklərində pambıq və tütün becərilir. Dağ plantasiyalarında məşhur Assam çayı becərilir. Burada qoşqu qüvvəsi olan öküz və kəllər bəslənilir. Xüsusi ipək növü yetişdirilir. Assamda əhalinin əksəriyyəti kəndlərdə yaşayır, kənd evləri isə adətən 3-4 tikilidən (yaşayış evi, dam, anbar, bəzən də ayrı mətbəx) ibarət olur. Evlər alçaq gil özüllər üzərində tikilir, çayların sahilində isə sütünların üzərində qaldırılır. Evin karkası bambukdan hazırlanır, divarlar gillə suvanır, döşəmə torpaqdan olur, evin damını isə otla örtürlər. Qadınlar uzun don, rəngli kofta və şal, kişilər dhoti və ya köynək-şalvar geyinirlər, bambukdan geniş papaqlar qoyurlar. Bəzi brahman hinduist ailələri çıxmaq şərti ilə assamların əksəriyyəti vegeterian deyil, vegeterian yeməkləri yalnız həyat keçidlərində (nişan, toy və s.) istehlak olunur. Əsas yeməkləri ədviyyatlı, tərəvəzli düyü və balıqdır.

Assamda kasta bölgüsü çox sərt deyil. Bir sıra cati- brahman (mahapuruşiya, damodariya, haridabiya), kayyastha, baroi, qop, mali, namusudra, tanti və s. mövcuddur. Burada 235 tayfa (qotra)- almayyan, almus, aqasti, aqnibayşi, andas, anadisa, adha, abay, anusan, astik, unapaş, udin və s. vardır. Assamda varna və kastalararası nikahlara daha çox rast gəlinir. Brahmanlardan başqa boşanmış və ya dulların ikinci nikaha girməsinə icazə verilir. Burada su mənbələri, məktəblər, ictimai binalar müxtəlif kastalar üçün ümumi istifadədir. Əsas varis isə böyük oğul olsa da əmlak ata xətti ilə bütün oğullar (az hallarda qızlar) arasında bərabər bölünür. Monoqam patriarxal ailə əsas sayılır, kiçik ailələrlə yanaşı, ümumi təsərrüfata malik böyük ailələr də mövcuddur. Kişilər və qadınlar bütün sosial-dini fəaliyyətdə iştirak etsələr də qadınların sosial statusu nisbətən aşağıdır.

Assamda həyat keçidləri ilə bağlı adətlər ümumhind xarakterlidir. Qızlarla bağlı pubertta, santibiyya, qaneva, tulonibiyya, oğlanlarla bağlı mandana, upanayyana adətləri vardır. Assamla-

rın mühüm toy adətləri telabhara, sindur, adibasa; dəfn adətləri "tiloni" (mərhumun yandırılmasından sonra üçüncü gününü qeyd edilməsi), "daha" (onuncu gün), "şradha" (onbirinci gün) və başqalarıdır.

Assamlarda çox rast gəlinən soyadlar Bhatla, Qosvami, Borua, Qoqoi, Hazarika, Mohanta, Mişradır. Assamlar oturaq əkinçi xalqdırlar, şəhərlərdə əsasən dövlət qulluqçuları, şəxsi müəssisələrdə işləyənlər, fəhlələr, tacirlər yaşayırlar. Ənənəvi sənətkarlıq sahələri qarğıdan, samandan, bambukdan müxtəlif əşyalar hazırlanması, parça toxuculuğudur. Assamların müasir həyata adaptasiya olunması sürətlə gedir. Məsələn, assam brahmanları bu gün xidmətçi və ya biznesmen ola bilərlər. Burada pançayatlar, yəni kənd şuraları "melki" adlandırılır, Brahmanlar Şurası (Brahma Samac) regional səviyyədə məsələləri, maliyyə mübahisələrini həll edir.

Assamların zəngin folkloru, xalq xoreoqrafiyası (dhol barabanı və fleyta sədaları altında rəqslər), orta əsrlərdən inkişaf etmiş teatral-dram sənəti (vişnuit dramları-Natak, Natiqa, Catra, Chumura, Qiti Nat, Sanqitalekhay, Ek Ankiyya Nat), bədii ədəbiyyat təşəkkül tapmışdır. XV əsrdə Şankardev və Madhavdev vişniut ənənələrinə söykənən, hökmdar Narayananın himayəsi altında olan bhaktilər tərəfindən yaradılmış assam ədəbiyyatı poeziya və dramlarla bağlıdır. XVI əsrdə Bhattadevanın "Bhaqavad Qita"nın assam dilinə tərcümə olunması bu dildə nəzmin əsasını qoymuşdur. Assam müsəlmanları arasında dini zikr mahnıları, şair Azan Fakirin şeirləri yayılmışdır. Müasir assam ədəbiyyatına isə xristianlığın təsiri özünü göstərir.

Assamların əsas bayramları biçinin başlanması münasibəti ilə keçirilən Bihu (Ranqali Bihu, Bhoqi Bihu, Kanqali Bihu), Durqa puca, Kali puca, Tithi Şankardeva, Madhavdeva, Harideva, Canmaştmi, Dolcatra bayramları məşhurdur. Burada ənənəvi tibb inkişaf etmişdir. Assam brahmanları təhsilin, səhiyyənin,

KİV-in inkişafını müsbət qiymətləndirirlər. Kəlküttədə yaranmış "Assam Samac" kimi milli-mədəni təşkilatlar fəaliyyət göstərir.

***Biharlılar.*** Əsasən Hindistanın Bihar ştatında yaşayan biharlılar müxtəlif kasta və linqvistik qruplardan ibarət etnik tərkibə malikdirlər. Hindistanda 80 milyon, Banqladeşdə 1,5 milyon, Nepalda 3 milyon biharlı yaşayır.

Bihar qədim hind mədəniyyəti və dövlətçiliyinin mərkəzlərindən biridir. Burada Mithila (Videha), Vayşalı (Liçhavi), Maqadha və Anqa, Malla, Koşala və Vanqa dövlətləri mövcud olmuşdur.

*"Bihar"* termini əvvəlcə Bihar Şarifə aid Bhaktiyar Khilci ərazisinə aid edilmişdir . E.ə VI-V əsrlərdə Bihar ərazisində buddizm və caynizm ortaya çıxmışdır, burada çoxsaylı buddist (vihar) məbədləri olmuşdur. Adivasi tayfalarının yerli kultları, hinduizmin "tantrik" formaları da yayılmışdır. Baburşah hökmdarı Əkbərin zamanında Bihar ayrıca əyalətə çevrilmiş, bura müasir Bihar, Çotanpur, Santal, Parqana əraziləri tabe edilmişdir.

Antropoloji baxımdan biharlılar avropoid irqinin hind-aralıq dənizi qoluna aiddirlər.***"Deşvali"*** adlandırılan biharlılar heterogen qrupların anqlomeratıdır. Əsas əhali kütləsi bhocpurlar, maqati və maythillərdir. Onlar etnik baxımdan yaxın olsalar da, kasta və adətlərinə görə bir-birindən fərqlənirlər. Hazırda bhocpur və maythillərin milli-mədəni oyanışı prosesi gedir, dil prinsipi əsasında Maythili-Racya, Bhocpuri-Racya ştatlarının yaradılmasını tələb edən milli hərəkatlar fəaliyyət göstərir.

Biharlılar *bhocpuri, maqahi, maythili, bacika* kimi qohum hind-ari dillərində danışırlar, bəzən bu dillər hindi və ya bihari dilinin dialektləri sayılır. Bihar ştatında hindi dili də geniş yayılmışdır. Bihar ştatından kənarda yaşayan biharlılar öz dilləri ilə yanaşı, oriya, naqam, assam və s. dilləri də bilirlər. Bihar dilləri folklorla zəngindir.

Biharlıların əksəriyyəti hinduist olsa da, aralarında sünni müsəlmanlar, xristianlar, siqhlər, caynlar, buddistlər vardır.

Müsəlmanlar əsasən şəhərlərdə yaşayır, caynların arasında böyük maliyyəçilər, sənayeçilər vardır. Biharda maythil brahmanlarının nüfuzu çoxdur.

Hinduist biharlılar Kartal Babu, Mahadeva, Brahma, Bacanqabali, Kali, Şiva, Durqa, Lakşmi tanrılarına sitayiş edirlər. Hanuman adətən yerli icma tanrısı kimi qəbul edilir. Biharlılar arasında müxtəlif varna və catilər vardır: Brahmanlar, racputlar, kayastha, baniya, bhumihar, yadav, kurma, teli, dusad, çhamara, pasi, dom, musahar, qoala, lohar, dhobi və suri.

Burada həyat keçidləri (doğum, evlilik, ölüm və s.) ilə bağlı adətlər bir icmadan digərinə görə fərqlənir. Biharlılar arasında ümumhind bayramları-Divali, Dassera, Canmaştmi, Ram Navami, Çhat Puca, Rakşa Bandhan məşhurdur.

Biharlıların əsas məşğuliyyəti əkinçilikdir, burada daha çox düyü, buğda, qarğıdalı, paxlalı bitkilər, şəkər çuğunduru, tütün əkib-becərir, qoşqu heyvanları, qoyun, keçi bəsləyirlər, aşağı kastalar donuz da saxlayırlar. Bihardan kənarda biharlıların torpaq sahələri olmadığından biznes, ticarətlə məşğul olur, sənayedə, xidmət sahələrində çalışırlar.

Kəndlərdə əhalinin sayı adətən 500 nəfərədək olur, əhalinin sıxlığı həddən artıq olan Qanq çayı vadisində kəndlərdə əhalinin sayı 2-15 min nəfərə çatır. Vadidə evlər əsasən birmərtəbli, gillə suvanmış saman divarlı, saman və ya kirəmitlə örtülü, 2-4 qat qətranlanmış damlardan ibarətdir. Şimal-qərb və cənub rayonlarında yaşayış evlərinin çərçivəsi (karkaz) bambuk ağacından, divarları isə gil ilə hörülür və ya suvanır. Ən böyük şəhərləri Patna, Rançi, Muzaffarpur, Camşedpur, Bhaqalpurdur.

Biharlı kişilər dhoti, qadınlar isə sari geyinir. Şimal rayonlarda paltarlara müsəlman təsiri hiss olunur, burada şalvar-kamiz, kurta-çuridar, şervani yayılmışdır. Qadınların evlilik simvolu rəngli sindur, şüşə qolbağılardır.

Burada əsas qıda qaynadılmış düyü və ya buğdadır, eyni zamanda ədviyyatlı tərəvəz yeməkləri, kömbələr, qatıq, şərbət və s.

yayılmışdır. Məşhur bayram yeməkləri - "pula"dır (düyü, pörtlədilmiş tərəvəz, ət və ya balıqla ). Balıq əti (mal əti deyil) qida rasionuna aid olunur. Brahmanlar əsasən vegeteriandırlar, lakin maythil brahmanları balıq yeyirlər.

Kasta endoqamiyası yayılmışdır. Kastalar qotralara (tayfa, icma) ayrılır: sandilya, shakarpura, kashyapa, dzhaduvanshi, kuruvanshi, halden, maqha və linici (bunce). Bunların əsas funksiyaları ailə-nikah əlaqlərinin arasıkəsilməzliyini təmin etmək və tayfa mənşəyini müəyyənləşdirmək, qeydə almaqdır.

Qotralarda endoqam və ekzoqam nikahlar geniş yayılmışdır. Nikah üçün başlığın ödənməsi, qolta (bacıların qarşılıqlı dəyişdirilməsi) adətlərinə də rast gəlinir. Biharlılar arasında dulun yenidən ərə getməsinə icazə verilir, bəzi kastalarda levirat və sororat həyata keçirilir. Böyük qardaş əsas varis olsa da atanın mülkü kişi varislər arasında bərabər bölüşdürülür.

Biharda urbanizasiya genişlənir, Cəmşidpur kimi şəhərlərdə sənaye inkişaf edir, xüsusi ilə cənub rayonlarında yeni sənaye mərkəzləri yaranır. Şimal əyalətlərdə toxuculuq sənayesi, tütün fabrikləri, şəkər zavodları üstünlük təşkil edir.

Orissa, Qərbi Benqal, Assam ştatlarında biharlılar əsasən şəhər yerlərində yaşayırlar, Siqqim, Maleqhalaye, Naqalandda (Kohima rayonu) biharlılardan ibarət qəsəbələr mövcuddur.

***Qucaratlılar.*** "Qucaratlılar" termini "qucaratta", yəni "qucaratlıların torpağı" anlamındadır. Qucarat ştatının əsas əhali kütləsi olan qucaratlıların (40 milyon nəfər) 6,79 %-i başqa ştatlarda (Qoa, Daman və Diu, Madya Pradeş, Maharaştra, Racastan, Andhra-Pradeş, Qərbi Benqal, Karnataka, Bihar və s.), eləcə də Pakistanda (1 milyon nəfər) yaşayırlar. Hindistanın ən böyük şəhərlərindən biri olan Bombeydə (Mumbay) əhalinin 20 %-i qucaratlıdır.

Qucaratlıların əcdadları və onlara qohum kastalardan ibarət qucarlar (qucara) Pəncab, Himaçal Pradeş, Racastan, Haryana, Cammu və Kəşmir və Şərqi Pakistan ərazisində yaşayırlar.

Hind-ari tayfaları olan qucarlar e.ə.I minillikdə Qucarat ərazisinə daxil olaraq, yerli bhil və ariyalıları assimlyasiya etmişlər. Orta əsrlərdə qucarlar etnik baxımdan konsolidasiya olunaraq, Qucaratdeşa ərazilərində (müasir Qucarat və cənubi Racastan) məskunlaşmışlar. Elə "qucarat" toponimi də Çalukya sülaləsinin (X əsr) dövründən məlumdur.1406-cı ildə mərkəzi Ahmadabad olan Qucarat sultanlığı yaranmış, bu dövlər XV əsrin sonu-XVI əsrin əvvəllərində güclənmişdir.

Antropoloji baxımdan avropoid irqinin hind-aralıq dənizi tipinə aid olan qucaratlıların dili-qucarati hind-ari dillərindən sayılır. Bu dil şimali (Ahmadabad dialekti), qərbi (kathiyavar), cənubi (surat) dialektlərə ayrılır. Bir sıra statistik məlumatlara görə qucaratlıların 20 %-i (bilinqva) qucarati dilindən başqa hindi, marathi, urdu, sindhi dillərini ikinci ana dilləri sayırlar.

***Qucaratlıların əksəriyyəti hinduistdir, burada vişnuizm geniş yayılmışdır.*** Dvarka, Somnath, Patan kimi qadın tanrılara sitayiş edirlər, əsas dini mərkəzləri Girnar məbədidir. Tayfa tanrıları (kuldeo) Pithad, Khodiyar, Barundev, Aşapuradevi, Çamunda və s., kənd icma tanrıları (qandeo) Kşetorpardada, Mata, Bacanqbali və başqalarıdır. Delhidə yaşayan qucaratlılar arasında Svami Narayana kultu populyardır. Qucaratlılar arasında müsəlman, xristian, cayn olanları da vardır.

Qucaratlıların ənənəvi məşğuliyyəti əkinçilikdir, burada cavar, bacra (darı növü), taxıl, qarğıdalı, fısdıq və s. əkilib becərilir, qoşqu heyvanları, zebu, qoyun, keçi bəslənilir. XIX-XX əsrdə burada toxuculuq sənayesi güclü inkişaf etmişdir. İpək ("parça kinqhab", "çundari", "batik") və pambıq toxuculuğu inkişaf etmiş, "kutç" tikməsi, dulusçuluq, "kativar" boyaqçılığı, daş və ağacişləmə, basmanaxış, zərgər işi geniş yayılmışdır. Delhidə yaşayan qucaratlılar əksər hallarda sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar.

Qucaratlıların şəhər evləri ümumhind tipindən fərqlənmir, ev kərpic və daşdan hörülür, örtülü və daxili həyətdən ibarət olur,

qapı, pəncərə ağacişləmələrlə bəzədilir. Ahmadabad, Vadodara şəhərləri arxitektur abidələrl zəngindir.

Qucarat kəndləri kifayət qədər sıx əhaliyə malikdir, burada ənənəvi evlər 1 və 2 otaqlı, kərpic və daşla hörülür, damlar kirəmitli olur. Ortasında dirək olan dairəvi , güzgülü divarları olan evlər də tikilir.

Bu xalqın geyimləri ümumhind xarakterlidir, yuxarı kastalar sari və dhoti geyinir, kişilər ayağından büzülmüş şalvar (payjama), uzun qollu köynəklərə üstünlük verirlər. Qadınlar isə sadə, tikməli çoxlu kiçik güzgülər bərkidilmiş uzun ətək və köynək geyinir, çiyinlərinə şal örtür, çoxlu bəzəklər taxırlar.

Qucaratlıların yeməkləri arasında yaşıl noxud və tərəvəzlə doldurulmuş "çapati", düyü, balıq, toyuq əti, qoyun əti xüsusi yer tutur. Racastan kşatriləri və aşağı catilər (kasta) istisna olmaqla qurcarların əksəriyyəti tam və ya qismən vegeteriandırlar. Racastan (Caypur, Udaypur, Acmer) kşatriləri arasında qeyri-vegeterian yeməkləri əsasən kişilər evdə olmayanda yeyirlər. Qida rasionunun əsasını taxıl, düyü, bacra və paxlalılar təşkil edir. Aşağı kastalar arasında evdə alkoqol içkilərinin hazırlanması yayılmışdır.

Qucaratlıların ailəsi monoqam, patrilokal, kiçik ailələrdir. Onların arasında endoqam kastaları mövcuddur: Brahmanlar (naqar, anavil, audih, şrimali, modh), kşatrilər, racputlar, baniya, lohana, patel, kaççi kimi yüksək kasta icmaları, carci, kumbhar kimi aşağı kastalar və bir sıra "qeydə alınmış" (keçmiş "toxunulmazlar") icmalar vardır. Yuxarı kastalar (qotra) arasında endoqam və ekzoqam nikahlar yayılmışdır, kross-kuzen nikahlara nadir hallarda rast gəlinir, bu da aşağı kastalarda qeydə alınır. Nikah zamanı bacıların dəyişdirilməsi adəti vardır. Boşanmalara kifayət qədər az rast gəlinir, dul kişinin ikinci dəfə evlənməsinə icazə verilir.

Hamiləlik zamanı qadın bir çox qadağalara, məhdudiyyətlərə əməl edir. Kşatri qucaratlar toy mərasimi zamanı toran, khandu kapera adətlərini yerinə yetirirlər.

Qucaratlıların ədəbiyyatı, musiqisi inkişaf etmişdir. Navratri bayramında oynanılan qarba və raas rəqsləri, teatr, arxitektura, qurcar miniatür məktəbi , xalq dastançıları (şaran) məşhurdur. Qucarati, Samac, Mahila Mandal, Qucarati Cayn, Şvetambar Sanqha (Qərbi Benqal) kimi qucaratlıların məskunlaşdığı yerlərdə çoxsaylı mədəni, dini, ictimai təşkilatlar vardır.

***Marathi, maharaştriyalılar.*** Maharaştranın şərq rayonlarında Marathi adının sinonimi "barqi"dir. Bu xalq özünü "marathi" adlandırır, Maharaştra ştatının əsas əhalisi olan marathilərin ümumi sayları 57-60 milyon nəfərdən çoxdur.

Marathilərin əcdadları- rath, maharat, raştrakut tayfaları tarixən Maharaştra ərasizisində məskunlaşmışdır, bu haqda hətta veda və epik ədəbiyyatda xatırlanır. Marathilər haqqında e.ə. II əsrə aid yazılı mənbələrdə qeyd edilir. Lakin ekzoqam qrupların totem adları, tayfa simvolları və s. yerli əhali kimi marathilərin qədim tarixi köklərini göstərir. Marathilərin etnik ərazilərində bir sıra qədim və orta əsr dövlətləri mövcud olmuşdur. Marathilər ölkəsi, Maharaştramandala haqqında Dyaneşvarın "Dyaneşvari" (1290-cı il) aydın məlumat vardır. Marathilərin konsolidasiyası XVII əsrin ikinci yarısında güclü dövlətin yaranmasına gətirib çıxarmış, bu dövlət XVIII əsrdə knyazlığa-feodal dövlətinə çevrilmişdir. Hakim marathilərin konsolodisiyası maharaca Çhatrapatri Şivacinin siyasi və hərbi liderliyi dövründə mümkün olmuşdur.

İngilis tədqiqatçısı Thurston (1909) Hindistanın cənubunda məskunlaşan marathiləri qeyri-brahman tayfaların, yəni əksərən döyüşçülərin birliyi kimi qəbul etmişdir. Nancundaya və Ayer (1931) marathiləri kşatrilərin 4 sülaləsinə-Suryavanşa, Somavanşa, Yadunvanşa, Çeçavanşaya aid edirlər. Orta əsrlərdə marathilər döyüşçü, əkinçi tayfaların birliyi kimi ortaya çıxmışdır.

XVIII-XIX əsrlərdə ingilis –marath müharibələri baş vermiş, torpaqların xeyli hissəsini ingilislər ələ keçirmişdir. XIX əsrin ikinci yarısında milli konsolidasiya prosesi güclənmiş, Hindistan

müstəqilliyini qazandıqdan sonra maharathilərin etnik əraziləri müxtəlif ştatlara tabe edilsə də, 1960-cı ildə Maharaştra ştatı yaradılmışdır.

Marathilər bütün Hindistan boyu Tamilnaddan (Tancor) Uttar-Pradeşə (Cansi Kanpur), Qucaratdan Orissaya qədər geniş ərazidə məskunlaşmışlar. 155 icma Maharaştranın 56 rayonunda, Qoa (burada kşatri marathilərinin iki catisi-satarkar və Konkani qeydə alınmışdır), Himaçal Pradeş (Kumaon), Karnatak ( maratha, marata, arekşatri, aremaratha, arya maratha etnonimləri vardır), Tamilnad (Tancor, Arkot, Tiruçirapalli), Orissa, Madya Pradeş (kşatri Marathi və dhanqar), Delhi, Uttar Pradeş (Budelkhand rayonunda brahman marathilər-koknast, karade, deşasth məskunlaşmışlar), Andhra Pradeş (Telenqanada marathları areollu adlandırırlar), Kerala (Kasarqod rayonu) ştatlarında yaşayırlar.

Antropoloji baxımdan marathilərin əksəriyyəti avropoid irqinin hind-aralıq dənizi tipinə aiddir, bir sıra catiləri isə veda dövrü irqinə aiddir. Marathilər uzun, balaca başlı, orta boy, uzun sifət, geniş burun ilə xarakterizə olunur.

Devanaqari əlifbası ilə yazılan marathi dili hind-ari ailəsinə aiddir, dialektlər bir-birinə çox bənzəyir. Bu dialektlər arasında Konkani dialekti bəzən ayrıca dil kimi qəbul edilir.

Marathilərin əksəriyyəti hinduistdir**,** aralarında şiə müsəlmanlar, keçmiş “toxunulmazlar”dan olan neobuddistlər, katolik xristianlar (Qoa ştatı) vardır. Marathilər arasında Bhavari, Khandoba, Durqu, Sateri, Bhavani Devi kimi tayfa tanrıları (kultevata) kultu, Vitthala (Vithoba) tanrısını üstün tutan bhakti -varkari hərəkatı yayılmışdır. Burada Qaneş tanrısı populyardır, bu tanrıya həsr olunan çaturti bayramı 10 gün davam edir, bu bayram zamanı çoxlu ziyarətçi toplaşır, teatrlaşdırılmış mərasimlər, ritual rəqsləri həyata keçirilir.

İlk etnoqrafik ədəbiyyatlarda Maharaştra və Konkanda məskunlaşan, 3 seqmenti-torpaq sahibi olan marathilər, əkinçi marat-

hilər (kunbi və ya, kulvadi), işçi marathi catiləri-aid marathiləri fərqləndirmişlər. Bundan başqa, "təmiz" kşatri marathilər (asal, khandani və ya kulin) fərqləndirilir, onlar 96 tayfaya-kula bölünürlər. Bundan başqa, başqa xalqlara məxsus catilərlə icdivacdan yaranan (akkarmaş, kadu marathi) icmalar, müxtəlif kastalara məxsus şəxslərin evlənməsindən törənən qarışıq marathilər ayrı şəkildə təsnifatlaşdırılır.

"Təmiz" marathilərlə kunbilər arasında hipergen (yüksək gen) prosesləri nəticəsində kunbilərin "marathiləşdirilməsi" baş vermişdir. Marathilərin 5 yuksək tayfası (cati və ya icma) Cacav, More, Mohite, Şirke və Pavar sayılır. Marathi brahman catisi isə çitpavan adlanır. Andhra Pradeş marathiləri çede arelu və qondilu altqruplara ayrılırlar, onlar arasında qarşılıqlı nikahlar yoxdur.

Marathilər arasında kross kuzen nikahlar, çoxarvadlılıq vardır. Ailələr əsasən nüklear və patrilokaldır. Brahman marathilərdən başqa digər catilərə məxsus qadın və kişilərə təkrar nikaha və boşanmaya icazə verilir. Ata mülkü oğullar arasında, brahman marathilər arasında isə oğullar və ərə getməyən qızlar arasında bölünür. Marathilər daha vacib olan ata xəttini və ana xətti ilə qohumluğu qəbul edirlər. Qohumluğun əsas institutları ailə (kutumb, qhar, qharane), tayfa (kul), totem (devak), ata soyu (bhauband, bhauki) sayılır. Kul ekzomandır (kənardan evlənmə). Kulanın totemi (devak) ağac, bitki, nikah bağlanmasında mühüm əhəmiyyət daşıyır. Marathilər arasında qotra və catini ayırd etmək çox çətindir.

Maharaştrada "balutedari" sistemi 1970-ci illərədək mövcud olmuşdur, bu ümumhind "cacmanı" sisteminə uyğundur. "Balutedari" sistemi müxtəlif peşə və sənət sahibləri sənətkarlar, xidmətçilər (camaşırçılar, bərbərlər), brahman, astroloqları (xidmətlər, məhsullar), torpaq sahibləri (ərzaq, taxıl) arasında mübadiləni təmin edir. Kəndlərdəki ağsaqqal şurası (bhabki) tayfa üzvləri arasında baş verən münaqişələri həll edirlər.

Marathilərin əsas məşğuliyyəti şum (kotan) əkinçiliyidir, burada darı, qarğıdalı, buğda, paxlalı bitkilər, düyü, şəkət çuğunduru, fısdıq, küncüt, kətan, pambıq, tütün əkib becərir, ənənəvi olaraq qoşqu heyvanlarından istifadə edirlər. Bombeydə tərəvəzçilik və bağçılıq geniş yayılmışdır, sahillərdə kokos palması, banan yetişdirilir, heyvandarlıq (süd istehsalı üçün) inkişaf etdirilir.

Toxuculuq, ağacişləmə, daşişləmə, fil sümüyü işləməsi, dəmir, mis işləmə mövcuddur. Marathilər arasında torpaqsız, günəmuzd işləyən kəndlilərin sayı artmaqdadır.

Marathililərin üçdə biri şəhərlərdə yaşayır, boyük və kiçik sənayedə, dövlət və şəxsi müəssisələrdə, ticarət sahəsində çalışır, ordu hissələrində xidmət edirlər. Ekzoqam qruplara (kul) bölünən, öz totemləri (devak) olan kastalar mövcudiyyətlərini saxlayırlar. Bir və ya bir neçə kastadan ibarət böyük kəndlər məhəllələrə (ali) bölünürlər, kənd ağsaqqalı (icra nümayəndəsi) adətən yuxarı kastalara mənsub olur.

Varlı təbəqəyə məxsus ənənəvi kənd evləri ikimərtəbəli olur, bişmiş, ağardılmış kərpiclə hörülür, damı kirəmitlə örtülür, qapalı həyətlə bağlanır. Nisbətən kasıb əhalinin evləri bir və ya iki otaqlı, gil və ya daşla hörülür, sahillərdə isə yüksək kirəmitli dam formaları yayılmışdır. Ənənəvi dağ evləri isə alçaq damlı, yarıdairəvi olur, iki hissədən ibarət evlərdə insanlar və heyvanlar bir dam altında qalır.

*"Varkari"* ənənəsinə sadiq, Vithobe tanrısına ibadət edən bhakti qrupu, Uttar-Pradeş, Tamilnad və Andhra-Pradeşdə yaşayan brahman marathilər istisna olmaqla, qalan əhali mal və donuz əti yeməsələr də vegetrian deyillər, balıq əti istehlakı vardır. Əsas yeməkləri buğdadan bişirilmiş kömbələrdir. Darı məhsullarından hazırlanan kömbələr marathi yemək mədəniyyətinin mühüm elementinə çevrilmişdir. Düyü, mərci, qaynadılmış yağ, tərəvəz, acı ədviyyatlar qida rasionunda əsas yer tutur. Varna-cati qadağalarına baxmayaraq, alkoqol içkilərin istifadəsinə rast gəlinir. Kişilər yerli "bidi" siqareti çəkirlər.

Kişilər ənənəvi olaraq uzun qollu köynək, düz gödəkcə, dhoti və ya dar şalvar, müxtəlif türbanlar (pheta) geyinirlər. Qadınlar isə şarovarı əvəz edən sariyə üstünlük verirlər, bu sarinin uzunluğu 10 metrə çatır, aşağı kastalarda isə sari daha qısa və ensiz olur. Maharaştranın şimalında geniş ətək və köynək geyinilir. Qadının evli olmasını göstərmək üçün sundur, şüşə qolbağılar, asma (manqalsutra) əl və ayaqlara üzüklər, dairələr taxılır, buruna "nath" bəzəyi vurulur.

Marathilərin ən məşhur bayramları "Bandur" və ya "Pola" bayramıdır. Bu bayramda iribuynuzlu heyvanlar gül və rənglərlə bəzədilir, ibadət mərasimi keçirilir. Zəngin folklorları vardır, əfsanəvi milli qəhrəmanları Şivaci Bhosledir.

**Dravid xalqları.** Dravid dilində danışan xalqların sayı 250 milyon nəfərdən çoxdur. Əsasən Cənubi Hindistanda, mərkəzi və şərqi vilayətlərdə, Pakistan, Əfqanıstan, İran ərazisində yaşayırlar. ***Dravid dilləri (xalqları) 4 qrupa ayrılır:*** Cənub qrupuna teluqu (andhra), tamil, malayala və kannara, eləcə də kiçik xalqların-tulu, toda, bataqa, kota, çençu, urali, irula, paliyyan, kadarı, mala vedana, kurumba və başqa xalqların dilləri aiddir. Mərkəzi qrupa Maharaştra, Madhya Pradeş ştatlarında yayılmış qomdi, khondi, kodaqu (kurqi) dilləri, şimal-şərq qrupuna Orissa və Benqaliyada yayılmış oraon dilinin dialektləri, şimali-qərbi qrupa Pakistanda (Bəlucistan) yaşayan bhaqui xalqının dili aid olunur.

Protodravid dilləri e.ə. III minillikdə Hind çayı vadisində yayılmışdır. E.ə. I minillikdə dravid xalqları Cənubi Hindistanda Andhra, Pandya, Çera, Çola dövlətlərini yaratmışlar. Orta əsrlərdə bu dövlətlər Baburşahların nəzarəti altına düşmüş, daha sonra Britaniya və Fransa koloniyaları olmuşlar. 1956-cı ildə dravid dilləri əsasında 4 ştat-Tamilnad (Tamil Nadu), Andhra-Pradeş, Karnataka və Kerala ştatları yaradılmışdır.

***Teluqu.*** Hindistanın Andhra-Pradeş ştatının teluqu, telinqana, andhra xalqları Qodavari, Krişna, Tunqabhadra çaylarının vadi-

sində, Tamilnad və Karnataka ştatlarının qonşuluğundakı rayonlarda kompakt şəklində yaşayırlar. Sayları təxminən 75 milyon nəfərdir. Antropoloji baxımdan mezohind tipinə, müxtəlif varna və kastalara mənsubdurlar. Dravid dil ailəsinə məxsus teluqu və ya qentu dilində danışırlar. Teluquların əksəriyyəti vişnuit hinduistdir, ənənəvi lokal inanclarını saxlayırlar, aralarında sünni müsəlman və xristianları da var.

Teluquların əcdadları dravid xalqları-andhra, kalinqa və teluqu (tenuqu) e.ə I minilliyin ortalarından başlayaraq, Hindistanın şimalından cənubuna miqrasiya etmiş, e.ə.II və b.e. III əsrlərində qaynayıb-qarışmış, teluqu xalqı ortaya çıxmışdır. III əsrdə burada buddizm yayılmışdır. B.e. əvvəllərində Andrha ərazilərinin xeyli hissəsi Satavana sülaləsinin hökmranlıq etdiyi dövlətin nəzarəti altında idi. VII-X əsrlərdə Çalukya hind sülaləsi möhkəmlənmiş, burada məbəd tikintisi genişlənmişdir. XI əsrdə isə Çalukya və Çola ərazilərində Kakatya sülaləsi hökmranlıq etməyə başladı, bu dövlət XIII əsrədək davam etdi, daha sonra bu torpaqların bir hissəsi Vicayanaqar imperiyasının əlinə keçdi. XV-XV əsrlərdə teluquların ərazisində Bahmanidlər sultanlığı hökmranlıq etmiş, sonradan burada Qütbşahların hökmranlıq etdiyi Qolkond dövləti yaranmış, Andhranın ərazilərinin böyük hissəsi birləşdirilmişdir. 1682-1687-ci illərdə Baburşah hökmdarı Auranqzeb Qolkondu ələ keçirdi, 1725-ci ildə Andhra imperiyasının dağıntıları üzərində və Nizamülmülk Kılıc Xanın mülkündə, müasir Maharaştra və Karnataka ərazilərində Heydarabad sultanlığı yarandı. Bu dövlət 1947-ci ilədək mövcud olmuş, daha sonra Hindistan Respublikasına daxil olmuşdur. 1956-cı ildə bu ərazidə Andhra-Pradeş ştatı yaradıldı, teluqu xalqının etnik ərazisi bir federal dövlətdə birləşdirildi.

Teluqular şum (kotan) əkinçiliyi ilə məşğul olur, covar, bacru, düyü, paxlalı bitkilər, qırmızı bibər, şəkər çuğunduru, yer fısdığı, pambıq, cut, tütün əkib-becərirlər. Teluqular arasında qoyunçu-

luqla məşğul olan icma-cati fəaliyyət göstərir. Burada dulusçuluq, toxuculuq, parça bəzədilməsi, zərgərlik və s. sənətlər yayılmışdır. Müasir dövrdə Heydarabadda informasiya texnologiyaları inkişaf edir.

Teluqular arasında kasta (varna-cati) quruluşu hələ də qalır, kastalar ekzoqam qohum qruplardır, matriarxatın bəzi ənənələri (dayı qızı ilə evlənmə) qalır, aşağı kastalarda mülki münasibətlərdə matriarxata əməl olunur. Boşanma və dulların ikinci dəfə ərə getməsi və evlənməsi halları yoxdur. Müsəlman teluqular arasında da kasta bölgüsünə əməl olunur.

Kəndlər kasta prinsipi məskunlaşan məhəllələrə bölünürlər. Yuxarı kastaların nümayəndələri böyük ailələrdə daxili təsərrüfat həyətləri olan kərpic evlərdə yaşayırlar. Evin cənub tərəfində yataq otağı, şərqində ibadətgah, qərbində qonaq otağı, onların arasında isə anbar yerləşir. Orta kastalara aid kəndli və sənətkar ailələri gillə suvanmış, ağac divarlı, eyvanlı evlərdə, aşağı kastaların nümayəndələri isə bambuk və gillə suvanmış evlərdə isə yaşayırlar.

Teluqularda kişi geyimləri köynək və şarfdan (şal) ibarət dhoti, türban (baş geyimi), qadın geyimləri sari, çoli köynəyindən ibarətdir, kəndlilər sarini dhoti kimi bürüyürlər. Müsəlmanlar köynək və papaqla “lunqi” geyinirlər.

Teluquların əsas yeməkləri düyü, lobya yeməkləri, paxlalılar, tərəvəzdən (balqabaq) ibarətdir, yeməyə qatıq, manqo turşusu , limon, ədviyyat əlavə edirlər. Müsəlmanlar arasında Şimali Hindistan mətbəxi yayılmışdır.

Teluqular arasında pəhləvanlıq oyunları, patanqbazi (hava ilanlarının buraxılması), xoruz döyüşləri, döşəmənin dekorativ bəzədilməsi (kolam) sənəti yayılmışdır. Onlar Sankranti (məhsul yığımı, yanvar ayı), Şivaratri (fevral-mart), Uqadi (yeni il, mart ayı), Mahankala Catra (iyun-iyul) bayramlarını qeyd edirlər. Bu dravid xalqının folklor və ədəbiyyatı, təsviri sənəti,

vişnuit kultu ilə bağlı pantomim teatrı, "kuçipudi" klassik rəqs üsulu yayılmışdır.

***Hindistan tayfaları.*** Hindistan tayfaları tarixi inkişafın gedişində varna-kasta sisteminə daxil olmamış, ari tayfalarının təzyiqi ilə dağlıq və meşə ərazilərinə çəkilmişlər. Hindistanda avtsraloid irqinə mənsub çençu, bhil, munda, santal, oraon tayfaları yaşayır. Andaman, kadar, kanikkar, anqami, naqa tayfaları niqroid irqinə, kholi, qaro, mizo, kaçara, miri və s. tayfalar monqoloid irqinə, toda, nilqini və mina tayfaları avropoid irqinə aid edilirlər.

Kolonial dövrədək Hindistanın mərkəzi və şərqi hissələrində tayfalar ciddi şəkildə izolyasiyaya düşməmiş, lakin öz etnik ərazilərində sayca üstün olan bhil, mina, qond və koli tayfalarından başqa digər tayfalar hindus əhali arasında azlıqda olmuşlar. Orta əsrlərdə dom, çerus, munda (Bihar), ahola, kaçar (Assam), qondlar (Madya-Pradeş), khasi (şimal-şərq) tayfalarının dövlətləri olmuşdur.

Hind antropoloqları qeyd edirlər ki, hələ e.ə. III minillikdə Hindistanda mövcud olan tayfalar arasında əlaqələr, eyni zamanda protodravid tayfalar arasında əlaqələr tam aydınlaşmamışdır. Lakin xüsusi ilə aşağı və orta kastalara lokal tayfa mədəniyyətləri daxil olmuşdur.

Antropoloqlar arasında Hindistandakı tayfalar və kastalar arasında əlaqələrə ikili yanaşma mövcuddur. Antropoloqlar Hutton, Qhurye, Bose, Kosambi bildirirlər ki, hinduizmin mədəni əlaqələri tayfa mədəniyyətləri ilə bağlı idi. Risley, Malley, Elvin, Haymendorf isə qeyd edirlər ki, hind kastaları və tayfaları arasında əlaqələr çox az olmuşdur. Britaniya Senzor Komissiyasının araşdırmasına görə, 1872-ci ildən bir çox kastaların tayfalara transformasiya olunmuş, eyni zamanda bu zaman bəzi tayfaların özünü hind sosial strukturuna qarşı qoyan, özünü ona bağlamayan spesifik mədəniyyəti formalaşmışdır. *Məsələn, Hindistanın adivasi, adimcati, vanya-cati, aryanka vanavasi, vanyacati tay-*

*faları yerli tayfalar, yəni "meşə xalqları" sayılır, onlar etnik xüsusiyyətlərini, sosial təsisatlarını (nəsillərə ayrılma), mifoloji və dini inanclarını saxlayırlar.*

Hindistanda ***adivasi*** tayfasının müxtəlif təsnifatları mövcuddur:

1. *Hindli kastasının xarici təsirindən kənarda qalan icma;*

*2. Hinduizmin sosial sistemində ən aşağı kastaya aid olunan və bir sıra hindi adətlərinə adaptasiya olunmuş tayfa;*

*3. Müəyyən qədər inteqrasiya olunmuş, eyni zamanda kasta hindlilərindən aralı qalan tayfalar (D.N.Macumdar).*

Digər bir təsnifat isə aşağıdakı kimidir:

1. *Hind sosial strukturuna daxil olan tayfalar (bhillər, bhumic);*

*2. Ümumi sosial struktura münasibətdə pozitiv yanaşan tayfalar (santallar, oraonlar, mundalar, qondalılar);*

*3. Ümumi sosial struktura neqativ yanaşan tayfalar (mizo, naqa);*

*4. Ümumi sosial struktura laqeyd yanaşan tayfalar (Arunaçal Pradeş tayfası; V.K.Burman).*

Antropoloq *Leverye Elvin* 1939-cu ildə isə yazırdı ki, tayfaları rahat buraxmaq lazımdır, eyni zamanda belə insan qrupları şəhərlərdən, əsas əhali kütləsindən kənar izolyasıyada inkişaf etmək imkanına malik olmalıdırlar.

Digər bir tərəfdən, *G.S Qhurye* belə tayfaların ayrıca sayılmasını, siyahıya alınmasını məqsədəuyğun saymır, tayfaların cəmiyyətin bir hissəsi kimi hinduslara assimlyasiya olunmasını əsas götürürdü.

*J. H. Hutton* isə təsdiqləyirdi ki, tayfalara geri qalmış hinduslar kimi baxılması lazımdır və onların assimlyasiyası uzun müddət davam edəcəkdir.

XX əsrin ortalarında Elvinə əsaslanan Hindistanın ilk baş naziri Cavaharlal Nehru bu iki metod arasında ***"qızıl ortanı"*** müəy-

yənləşdirərək (Golden Mean) *"Panchsheel"* adlanan sənəd hazırlamışdır. Bu sənədə görə, insanlar (a) öz kimlikləri ilə inkişaf etməli və onlara heç nə mane olmamalıdır; (b) Meşə və torpaqlar üzərində tayfa hüquqlarına hörmət olunmalıdır; Tayfa (c) və yadlarla həddən artıq tanışlıqdan çəkinmək lazımdır; (ç) Tayfaların inzibati vahidlərə bölünməsindən yayınmaq, bunun əvəzində bütün işlərin öz sosial və mədəni təsisatlar vasitəsi ilə yerinə yetirilməsinə çalışmaq lazımdır; (d) Nəticələri gələn pula görə deyil, insan xarakterinin təkamülü ilə qiymətləndirmək lazımdır.

Sankritləşmə və hinduizm bu tayfaların şudra, hətta vayşi və kşatri varnasına keçidini təmin etmişdir. Lakin aşağı kasta hindusları və "toxunulmaz"lar əsasən azsaylı tayfaların nümayəndələri olmuşlar.

Xüsusi ilə Bihar, Qərbi Benqal, Orissa, Madhya-Pradeşdə qonda, Racastan və Qucaratda bhillər arasında hinduslaşma prosesi irəliləmişdir. İndiki dövrdə sosial baxımdan strafikasıya olunmuş cəmiyyət yaranmışdır.

Tayfalar (rəsmi terminologiyaya görə ***"qeydə alınmış tayfalar"*** adlandırılır) Hindistan əhalisinin 8,2 %-ni (84,3 milyon nəfər) təşkil edir, meşələrin 70 %-də və faydalı qazıntılarla zəngin ərazinin 20 %-də tayfalar yaşayır. Yerli tayfalar Haryana, Pəncab ştatları, paytaxt Delhi və Çandiqarh və Pondişeri ittifaq ərazilərindən başqa bütün federal subyektlərdə yaşayırlar.

Hazırda Hindistanda tayfaların əksəriyyətinin sayı 10-100 min nəfər arasındadır. Yalnız 50-yə qədər tayfanın əhalisi 100 min nəfərdən çoxdur. Hindistan Antropoloji Xidmətinin "Hindistan xalqları" adlı layihəsinə əsasən 461 əhali icması, o cümlədən 175 subtayfa fərqləndirilmişdir. Onların arasında ***bhil*** (7 307 973, 1990-cı illərin rəqəmləri), ***qond*** (7 449 193), ***santal*** (4 260 842), ***oraon*** (1 871 995), ***mina*** (2 087 075) tayfaları ən böyük ən kiçik isə cəmi 97 nəfər (1984) olan onqe andamanlıları olmuşdur.

Tayfaların sıxlığı ən çox şimal-şərq ştatlarında qeydə alınır, Mizoram (94,5%), Naqalend (89,1%), Meqhalaya (85,9%), Aru-

naçal-Pradeş (64,2%) ştatlarında əhalinin xeyli hissəsi tayfalardan ibarətdir. Digər tayfalar Çhattisqarh (31,8%), Carkand (26,3%), Orissa (22,1%), Madhya-Pradeş (20,3%) ştatlarında da sıx məskunlaşmışlar. Sayca ən çox olan qond (Madhya Pradeş), santal (Bihar, Qərbi Benqal, Orissa), bhil (Racastan, Qucarat, Maharaştra, Madhya-Pradeş) tayfaları bütün tayfaların 36-40 %-ni təşkil edirlər.

***Bhillər.*** Əsasən Madhya-Pradeş, Qucarat, Maharaştra, Racastanın cənubunda Udaypur və Çittor yaxınlığında yaşayan bhil tayfası qondlardan sonra Hindistanın ən böyük tayfasıdır, sayları 4,3 milyon nəfərdir. Bu tayfanın adı dravid dilində *“billu”* –“ox” deməkdir, dravidlərlə yanaşı, bhillər də Hindistanın qədim sakini sayılırlar. Bhillərin burun və saçları Afrika mənşəyini, sifətin forması və gözün rəngi ari xüsusiyyətlərindən xəbər verir.

Bhillər Tripurun şimalında, Pakistanın Sind vilayətində də yaşayırlar. Qədim dövrlərdə düzənlik ərazilərdən sıxışdırılıb çıxarılan bhillər əsasən dağlıq və yüksəklik ərazilərdə yaşayırlar, onların qonşuları dağlı adivasilər və hindli əkinçi catilərdir. Lakin bhillərin digərləri münasibətləri heç də həmişə bərabər şərtlərdə olmur. Tarixən bhillər hind-aridilli qonşularla (hindi, qucarati, racastani, marathi) yaxınlaşmış, sayca çox olan xalqların arasında aşağı pillə tutmuş, öz identikliklərini itirərək aşağı kastalara çevrilmişlər. Dağlıq ərazilərdə yaşayan bhillər öz etnik özünəməxsusluqlarını daha çox saxlayırlar.

Sadə və yoxsul həyat sürən bhillər oxatma üzrə ustadırlar, hətta “Mahabharata”da oxatmada Arcuna qalib gələn, bhil tayfasından olan Ekleviya haqqında məlumat verilir. “Ramayana”da isə bhil tayfasından olan quldur Vayl barədə məlumat verilmişdir. ***Vayl Sarasvatinin xeyir-duası ilə elmləri və incəsənəti öyrənərək “Ramayana”nın müəllifi, məşhur Valmikiyə çevrilmişdir.*** “Ramayana”da Sitanı axtarmağa gedən Rama və Lakşmananı yedizdirən qadın Shabari haqqında danışılır. Bhillər Baburşahlara və ingilislərə qarşı uzun müddət döyüşmüşlər.

Hindistanın mərkəzindəki tayfaların əksəriyyəti munda və dravid dillərində danışsalar da bhillərin dilləri hindavropa dil ailəsinə aid olunur. Tədqiqatçıların əksəriyyəti arxeoloji, antropoloji, dil materiallarına əsaslanaraq bhillərin qədim yerli əhaliyə aid olduğunu bildirirlər. Müasir bhillər veda irqinə məxsus əlamətlərə malikdirlər, bhil dilində arilərəqədərki elementlər vardır, təsərrüfat və mədəniyyətin bir çox elementləri onların yerli tayfalarla bağlı olduğunu göstərir. Lakin əhillərin etnogenezində hindarılərin rolunu azaltmaq düzgün deyil. Burada ilk növbədə bhillərin torpaqlarını zəbt edən racputların rolunu xatırlatmaq lazımdır. Bhillər tədricən aşağı varnalara aid racputlarla qaynayıb-qarışmışdır.

Hələ arilər zamanında bhillər racputların dini və rituallarını qəbul etmiş, racputlar bhilləri öz icmalarına qəbul etmişlər. İstənilən racput bhilin verdiyi suyu içir. Racputlar bhilləri silah qardaşı, qan qardaşı sayırlar. Aşağı "mənşəyə" mənsub olmalarına baxmayaraq, Hindistanın digər tayfaları kimi bhillər "qeyri-təmiz" sayılmırlar.

Bhillər konkret bir sərhədi olmayan ərazidə yayılmış, dağətəyi yerlərdə əsasən çayların vadisində, düzənliklərdə isə daha komplekt yaşayırlar. Düzənliklərdə bhillər bir kənd icmasında, dağlarda isə bir neçə kənd icmasında birləşirlər, kənd təsərrüfatı, bağçılıq və ovçuluqla məşğul olurlar, kənd icmasına "mukhi" adlanan ağsaqqal rəhbərlik edir.

Bhillərin 97 % hinduist, qalanları "tadvi bhila" adlanan müsəlmanlardır. Bhillərin inancı ənənəvi hinduizmdən fərqlənir, onlar öz dinlərini "sarna" adlandırırlar. Bhillərin əksəriyyəti qədim tayfa tanrılarına-***Khandoba, Kanhoba, Bahiroba, Sitalmata***-sitayiş edir, Vaghdev adında pələngin öz əcdadları olduğuna inanırlar. Onları əsas tanrısı Şiva ilə assosiasiya olunan, daş şəklində Bolo İsuor tanrısıdır. Əsas qadın tanrı isə Parvati ilə assosiasiya olunan Amba Mata tanrısıdır. Bu tanrı odlu pələngin üzərindəki

qadın şəklində göstərilir. Bhillərin əksər tanrıları klassik hinduist tanrısı olan Şiva, Parvati, Vişna, Hanumananın formalarıdır.

Müasir dövrdə Hindistanda bhillər 10-dan çox böyük icmada birləşmiş, 200-ə yaxın tayfadan ibarətdir. Bu qrupların bir çoxu qədim tayfa birləşmələrinə və yaxud, qarışıq bhil-racaput mənşəyinə aiddirlər. İngilis filoloqu Qrirson bhillərin 28 dalektinin olduğunu yazmışdır.

Racastandakı bhillərin əsas bayramı, mussonların başlamasından sonra 40 gün keçirilən Qauru bayramıdır. Bayram Bolaişvar (Şiva) və onun arvadı Bruriyaya (Ambamata adlanan Paravati) həsr olunur. Bütün bayram mərasimində ət, yeni tərəvəz, meyvə, alkoqol, tütün, bhank, cinsi əlaqə, ayaqqabı geyinmək, damlarda yatmaq, işləmək qadağan olunur. Bayram tamaşalarında yalnız kişilər iştirak edir, qadın rollarını vulqar şəkildə geyinmiş kişilər ifa edir. Qauru bayramı zamanı ölən müqəddəs sayılır, onu yandırmır, sadhu kimi yerə basdırırlar. Bhillərdə ölülər və əcdadlar kultu mövcuddur. İcma üzvünün ölümündən sonra onun evinin qarşısında ***Nukto*** mərasimi keçirilir, bununla da mərhumun ruhu ***Bolo İşvarla*** birləşmək üçün təmizlənir. Bhillərin kollektiv əcdadları ***Qothriz Purvez*** atlı şəklində təqdim olunur, o, mərhumun ruhunu axirət dünyasına aparır. Hindistanın əksər tayfaları kimi bhillər həddən artıq dindardır. Lakin onların dini mərasimlərini braminlər yox, tayfada böyük nüfuza malik cadugər Badva yerinə yetirir. Bhillər inanırlar ki, zorakı yolla öldürülən və ya özünü öldürən şəxs qəddar ruha çevrilir, canlılardan qisas alır. Ölüm tanrısı Yama cənubdan gələrək mərhumun ruhunu üç axirət dünyasının yerləşdiyi şimala aparır.

***Sual və tapşırıqlar:***

*1.Harappa sivilizasiyasının yaradıcılarının etnik mənşəyi.*

*2. Arilərin Hindistana gəlməsi haqqında nəzəriyyə.*

*3. Hacı Zeynalabdin Şirvaninin Hindistan xalqları haqqında fikirləri.*

*4. Risley, Haddon və Quhanın Hindistan xalqları haqqında təsnifatları.*

*5.Hind-ari və dravid xalqları.*

## *5.2. Etno-mədəni proseslərdə dil amili*

Hindistanda etnik, dil, din amilləri bir-birinin daxilinə elə nüfuz edib ki, əksər hallarda etno-mədəni proseslərdə bu faktorlar ayrı təsnifatlaşdırılmır. Dil, dialekt, ləhcə, şivələrin sayına görə, Hindistan dünyanın ən zəngin ölkələrindən biridir.

*Hindistanda əhalinin 73,4 %-i hindi, 24,5 %-i dravid, 1,4 %-i Avstaliya-Asiya, 0,7 %-i Tibet-Birma dillərində danışır.* Ölkənin şimalında və mərkəzi hissələrində əhalinin əksəriyyəti hind-ari dil ailəsinə, cənubda, cənub-şərqdə isə dravid dil ailəsinə mənsubdur.

Hindistan Konstitusiyasında hər hansı bir dil "milli dil" statusu daşımır, lakin burada rəsmi dil devanaqari əlifbası ilə hindi dili və ingilis dili sayılır. Bu ölkədə 28 ştatın hər birində hindi dili (bəzilərində ingilis dili də) ilə yanaşı, yerli bir və ya iki dil rəsmi dil statusu daşıyır. Bundan başqa, dövlətin rəsmən tanıdığı milli dillərdən (Konstitusiyanın 8-ci bölməsi) 13-ü hind-ari dillərinə, 3-ü dravid dillərinə, 1-i Tibet dillərinə və s. aiddir.

Hindistan Konstitusiyasının tanıdığı 22 milli dili (national languages) və dörd milli regional dil (state languages) təsnifatlaşdırılmışdır. Milli dillər aşağıdakılardır: ***assam*** (Assam), ***benqali*** (Qərbi Benqal və Tripura), ***bodo*** (Assam), ***doqri*** (Cammu və Kəşmir), ***qondi*** (Çattisqarh, Madha-Pradeş, Orissa, Andha-Pradeş ştatlarında yaşayan qondi tayfasının dili), ***qucarati*** (Qucarat ştatı, Dadra və Naqar Haveli, Daman və Diu ittifaq əraziləri), ***kannada*** (Karnataka), ***kəşmiri*** (Cammu-Kəşmir), ***konkani*** (Qoa), ***malayalam*** (Kerala, Lakşadvir, Pondişeri), ***maythili*** (Bihar), ***manipuri*** (Manipur), ***marathi*** (Maharaştra), ***nepali*** (Siqqim), ***oriya*** (Oris-

sa), ***pencabi*** (Çandiqarh, Delhi, Haryana), ***santali*** (Carkhand, Bihar, Orissa, Çattisqarh ştatlarında yaşayan santal xalqı), ***sinhi*** (sinhi icması), ***tamili*** (Tamilnad və Pondişeri), ***teluqu*** (Andhra Pradeş), ***urdu*** (Cammu və Kəşmir, Andhra Pradeş, Delhi, Uttar Pradeş), ***sanskrit.***

Regional milli dillərə isə ***kokborok*** (Tripura), ***mizo*** (Mizoram), ***khasi*** (Meqhalaya), ***qaro*** (Meqhalaya) aiddir. Bu 4 dil tibet-birma dil ailəsinə aiddir.

Hindistanda hər 10 ildən bir keçirilən siyahıyaalmada xeyli dil, dialekt, ləhcə və şivə qeydə alınmışdır. ***2011-ci il siyahıyaalmasına (Census) görə, Hindistanda 1365 ana dil, 234 əsas dil və 122 böyük dil vardır. Bu ölkədə 29 dilin hərəsində azı bir milyondan çox, 60 dilin hərəsində azı 100 min, 122 dilin hərəsində azı 10 min nəfər danışır.***

Hindistanda Hind-avropa dil ailəsinin hind-iran dil qrupunun hind-ari dilləri budağında danışanların sayı 800 milyon nəfərdən çoxdur. Daha geniş yayılanları ***hindi, benqali, marathi, urdu, qucarati, pəncabi, assam və odia*** dilləridir. Burada hind-avropa dil ailəsinə mənsub ingilis və fransız dillərində də danışılır.

Hindistanda müəyyən bir dildə danışanların sayı və yayıldığı yer həmin xalqın, etnosun sayı və yaşadığı ərazi barədə də müəyyən təsəvvür yaradır. *Bu ölkədə assami (13 milyon, Assam ştatı), benqali (83 milyon nəfər, Qərbi Benqal, Assam, Charkhand, Tripura ştatları), bodo (1.2 milyon nəfər, Assam ştatı), doqri (0.1 milyon Cammu və Kəşmir), qucarati (46 milyon, Qucarat, Maharaştra, Tamil Nadu ştatları), hindi (422 milyon, Uttar Pradeş, Madhya Pradeş, Uttarakhand, Chattisqarh, Bihar, Haryana, Racasthan ve Himaçal Pradeş), kannada (38 milyon, Kannada ştatı), kəşmiri (5.5 milyon Camnu və Kəşmir), konkani (2.5 milyon Konkan, Karnataka, Maharaştra, Kerala), maithili (12 milyon, Bihar), malayalam (33 milyon, Kerala, Lakshadueep, Mahe, Puduçerri), Manipuri (1.5 milyon, Manipur (Meitei ya da Meithei)*

*ştatı), marathi (72 milyon, Maharaştra, Karnataka, Madhya Pradeş, Qucarat, Andhra Pradeş, Qoa), nepali (2.5 milyon, Siqqim, Batı Benqal, Assam), Oriya (33 milyon, Orissa ştatı), pencabi (29 milyon, Pencab, Çandiqarh, Delhi, Haryana), sanskrit (0.05 milyon, Mattur), santali (6.5 milyon, Bihar, Çattisqarh, Çarkhand və Orissa ştatlarında, Çota Naqpur düzənliyində yaşayan santal tayfaları), sindhi (2.5 milyon, Qucarat, Maharaştra, Racasthan, Madhya Pradeş), tamil (61 milyon, Tamil Nadu, Karnataka, Pondiçerry, Andhra Pradeş, Kerala, Maharaştra), teluqu (74 milyon, Andhra Pradeş, Karnataka, Tamil Nadu, Maharaştra, Orissa), urdu (52 milyon nəfər, Cammu və Kəşmir, Andhra Pradeş, Delhi, Bihar, Uttar Pradeş ştatları) kimi böyük dillər vardır.*

Hindistanda ən çox yayılan hindi dilidir ki, bu dildə 400 milyondan çox insan danışır, bu dil ölkənin şimal ştatlarının rəsmi dilidir. Hindi dilinin dialektləri brac bhaşa, bundeli, kanauci, banqru, maithili, maqahi, bhoçpuri, avadhi və s. dillərdir.

***Hind-ari dillərinin tarixi inkişafı.*** *Hindistanda dillərin inkişafı əsrlərin dərinliklərinə gedib çıxır və üç dövrə bölünür: qədim dövr (e.ə.1500-e.ə.500-cü illər), orta dövr (e.ə. 500- b.e.X əsr) və yeni dövr (X əsrdən başlayaraq).*

Hələ e.ə. III minilliyin ortalarında mövcud olan Harappa (Mohenco Daro) şəhər mədəniyyətinə məxsus əhalinin inkişaf etmiş danışıq dilinin və yazısının olduğu məlumdur, lakin bu sivilizasiyanın məhvi ilə o dövrün dili, yazısı haqqında məlumatların izləri də silinmişdir. Son illərdə aparılan tədqiqatlarda isə Harappa sivilizasiyasının dilinin protodravid dilləri olduğu qeyd edilir.

Hindistanda yazılı ədəbiyyatın tarixi 3 min ildən çoxdur və bu dövrdə sanskrit dili üstün yer tutmuşdur. Sanskrit dilində danışanların ilk olaraq Pəncabda Yuxarı Hind (Sind) vadisində yaşadığı qəbul edilmişdir, burada sanskritin ən qədim forması olan ***"veda dili"*** ortaya çıxmış. e.ə. II minilliyin ortalarında veda dili inkişaf edərək geniş yayılmışdır.

Ən qədim veda mətni olan "Riq Veda"nın dili, yəni sanskrit dili hind dillərinin əsası sayılır. Müqəddəs ilahi və mantrların toplusu olan "Riq Veda"nın təxminən e.ə. X əsrdə yazılması ehtimal edilir. Vedalarla yanaşı, upanişadlar, puranalar və dharmasutralar sanskrit dilində yazılmışdır.

Riq Veda dilinin əsası ***"adiprakrit",*** yəni əsas, birinci prakrit olmuşdur. "Prakrit" sözü "təbii", "həqiqi" deməkdir. Bəzən "adiprakrit" ibtidai icma cəmiyyətində yaranan dil kimi də qəbul edilir. Veda mətnlərinin əksəriyyəti ***"devanaqari",*** bəziləri isə ***"brahmi"*** və ***"haroşti"*** əlifbası ilə sanskrit dilində yazılmışdır. Veda yazılarının təhlili göstərir ki, qədimdə Hindistanda bir neçə dialekt mövcud olmuşdur. Dilin qanunauyğuluqları, fonetik, qrammatik qaydaları formalaşmışdır. Sanskrit qədim və orta dövrdə Hindistanın əsas din, elm, ədəbiyyat, fəlsəfə və təhsil dili olmuşdur.

Sanskrit hind sivilizasiyasının yayılmasında mühüm vasitə olmuşdur, bu dil Hindistanın bütün ərazilərində, o cümlədən dravid dillərinin yayıldığı cənubda istifadə edilmişdir.

E.ə. I minillikdə formalaşmış sanksritin iki mühüm inkişaf mərhələsi olmuşdur: ***a) "Mahabharata" və "Ramayana" poemalarının dili olan epik sanskrit; b) b.e. I minilliyinin ortalarında ədəbi dil kimi çiçəklənən klassik sanskrit.*** Epik poeziyanın-"mahakavya"nın yaranması sanskrit dilinin inkişafında mühüm mərhələ olmuşdur. "Mahabharata" eposu şifahi şəkildə yüzillər ərzində dildən- dilə, nəsildən-nəslə keçmişdir. Dvaipana və ya Vyasa ilk dəfə olaraq dəhşətli döyüşdən bəhs edən bu eposu söyləmiş, Vaisampaya isə eposu tərtib etmişdir. "Uqrasravas" isə bu dastanın tərtibini yekunlaşdırmış, "Mahabharata"nın oxunması indi də ***"itihasa"*** adlandırılır. Kaurava və Panda nəsilləri arasında *"Kurukşetra"* adlanan döyüş meydanında 18 günlük müharibədən bəhs edən dastan təxminən e.ə. I əsrdə epos şəklində tam olaraq yazıya alınmışdır. Valmikinin söylədiyi "Ramayana" eposunun da təxminən e.ə. I əsrdə tamamlandığı, yazıya alındığı ehtimal edilir.

E.ə. V əsrdə Panini veda dilinin, yəni "Sanskrit"in ("təmizlənmiş", "təkmilləşdirilmiş") qrammatikasını –***"Astadhyayi"***ni hazırlamışdır. Sanskrit dilinin bu universal qrammatikası bütün dövrlərdə əsas olaraq qəbul edilmişdir. Panininin dövründən sanskrit brahmanların və hakim dairələrin yazı dilinə çevrilir, X əsrdən başlayaraq sanskritin əhatə dairəsi daralır. Lakin bu dil yeni hind dillərinin leksik bazasının formalaşdırılmasında mühüm rol oynamışdır. Hazırda sanskrit dini mərasimlər zamanı istifadə olunur, bu dil bir sıra məktəblərdə öyrədilir.

E.ə.I minilliyin ortalarında geniş xalq kütlələri orta hind-ari dili-***"prakrit"***də danışırdı. Müəyyən dövr sanskrit və "prakrit" dilləri yanaşı mövcud olmuşlar, bir müddət sonra xalq dili-prakrit ədəbiyyata, ədəbi dilə nüfuz etməyə başlamışdır.

Prakritin ədəbiyyata nüfuz etməsi ilə qədim dövr yekunlaşmış, hind dillərinin inkişafında orta dövr başlamışdır. Həmin dövrdə bir neçə prakrit mövcud olmuşdur. Onlardan üçü-***"şauraseni-prakrit", "maqadhi-prakrit", "maharaştri-prakrit"*** geniş yayılmışdır. "Prakrit"in inkişafında coğrafi və regional faktorlar mühüm rol oynamışdır. *"Şaureseni-prakrit" Şaoraştra ərazisində (müasir Uttar-Pradeş ştatı), "maqadhi-prakrit" Maqadhada (müasir cənubi Bihar), "maharaştri-prakrit" müasir Heydərabad ştatında (Dekkan düzənliyinin qərb hissəsi) yayılmışdır*. Bunların arasında ***"maharaştra-prakrit"*** ən geniş yayılmış, daha çox ünsiyyət dili olmuşdur. Bunlardan başqa, şaureseni və maqadhi dillərinin qarışığından yaranmış "ardhamaqadhi-prakrit" adlanan prakrit dildə yayılmış, bu dildə əsasən müasir Benqal və Bihar ərazilərinin qovuşuğunda danışılmışdır.

Orta dövrdə linqivistik ədəbiyyatda ***"pali"*** dili kimi tanınmış prakrit yayılmışdı. Tanınmış hind linqvisti Dhirendra Varma bildirir ki, pali dilinin əsasını ***"şaureseni-prakrit"*** təşkil edir: "Bu dövrün ədəbiyyat dili olan pali ehtimal ki, hansısa qədim şauraseni dialekti əsasında yaranmışdır". Rus hindşunası İ.P Minayev

yazır ki, pali "maqadha-prakrit"ə yaxın olsa da, fonetik qaydalarına görə ondan fərqlənmişdir. Onun fikrincə, pali dilinin yayılması yeni dinin-buddizmin ortaya çıxması ilə sıx bağlıdır. Bu dildə yazılmış ilk yazılı mənbə də buddizmə aiddir: ***"Sanskrit dili brahmanların dili, pali isə buddist rahiblərin dili idi".*** Pali dili hind mədəniyyətinin ən böyük dillərindən biri olmuş, bu dildə böyük dini, fəlsəfi, elmi, hüquqi əsərlər, o cümlədən buddizm dini fəlsəfəsinin ən böyük əsəri olan "Tripitaka" yaradılmışdır.

Qədim hind dialektlərindən yaranan prakritlər Hindistanda danışıq dillərinə çevrilmiş, bu dillərdə bədii ədəbiyyat yaranmağa başlamışdır. Prakritlərin ədəbiyyata nüfuz etməsi ilə inkişafı müəyyən qədər başqa istiqamətdə getmiş, xalq danışıq dilindən fərqlənmişdir. Əvəzində xalq danışıq dili inkişaf etmiş, ədəbi dildən fərqlənməyə başlamışdır. Bu danışıq dili ***"apabhranş",*** yəni "pozulmuş" adlandırılırdı. Hər bir prakritin öz apabhranşı vardı: ***"maqadhi prakrit-maqadhi apabhranş", "şauraseni prakrit"-"şauraseni apabhranş", "maharaştri prakrit"-"maharaştri apabranş"*** *və s.* "Apabhranş"ın ortaya çıxması hind dillərinin inkişafında növbəti mərhələ idi, bununla da hind dillərinin inkişafında orta mərhələ başa çatmışdır.

***"Apabhranşa"nın yaranması və inkişafı VI-X əsrlərə aiddir, X əsrdən yeni hind dillərinin inkişafında növbəti mərhələ başlayır, XIII əsrdən isə yeni hind dillərində ədəbi əsərlər ortaya çıxır.***

Hər bir apabhranşa müasir hind dillərinin əsasında durur. Belə ki, "şauraseni-apabhranşa"dan (və ya indi onu "naqar" adlandırırlar) müasir hindi, racastani, qucarati, pahari dilləri, "mahadhi-apabhranşa"dan bihari, benqali, assami və oriya dillərinin, "maharaştri-apabhranşa"dan isə marathi və s. dilləri yaranmışdır. Maqadhi-prakritin "apabranşa"sının törəməsi olan "abahatta" əsasında benqali dili inkişaf etmişdir.

Hindi dilinin çoxlu dialektləri mövcuddur, əsasən şərq və qərb dialektlərinə bölünür. Qərbi hindi dilinin kökündə *"şaura-*

*seni-apabhranşa",* şərqi hindi dili *"ardhamaqadhi-apabhranşa"* dili durur. Qərbi hindi dili dialektinə khari boli, brac bhaşa, banqru, kannauci və bundeli dilləri, şərqi hindi dilinə avadhi, baqdeli və çattisqarhi dilləri aiddir.

Hindi dilinin əsas ədəbi dialekti khari-boli XIII-XIV əsrlərdə müsəlmanların Hindistana yürüşündən, buranı ələ keçirməsindən sonra formalaşmışdır. Həmin dövrdə Maharaştra, Sindhadan tutmuş, qərbi Pəncab, Kəşmir, Bihar və Benqalda apabhranş yayılmışdır. Fars, ərəb və türk dillərində danışan müsəlmanlar yerli əhali ilə ünsiyyət zamanı Delhi bölgəsində (bura müsəlmanların inzibati mərkəzi idi) danışılan dialektlərə üstünlük verirdilər və təbii ki, danışıq zamanı fars, ərəb, türk sözlərindən istifadə edirdilər. Bu linqivistik proseslərin nəticəsində tədricən qarışıq dil yaranırdı və bu Delhi dialekti *"khari-boli"* adlanırdı.

Əvvəl *"khari-boli"* danışıq dili idi, ilk olaraq bu dildə müsəlman şairləri ərəb əlifbası ilə əsərlər yazmış, "khari-boli"nin bu ədəbi forması isə "urdu dili" adlandırılmışdır.

Tədricən "khari boli" danışıq forması hind şair və yazıçılarının yaradıcılığına da sirayət etməyə başlamış, bu zaman hind *"devenaqari"* əlifbası istifadə olunmuşdur. Hindliləri ədəbi dilinə çevrilən bu "khari boli" sadəcə olaraq "hindi dili" adlandırılmışdır.

Hind dillərinin inkişafında İngiltərənin "Ost-Hind" şirkətinin Hindistanda fəaliyyəti, ingilis işğalının başlanması mühüm mərhələ olmuşdur. İngilis kolonial hakimiyyəti yerli mədəniyyəti öyrənir, yerli dillərin tədrisini həyata keçirir, qrammatika yaradılır, lüğət formalaşdırılırdı. Hindistanda adminstrasiya, məhkəmə, vergi orqanları və s. yaradan ingilislərin məqsədi yerli dilləri öyrənməklə burada möhkəmlənmək, işğalı davam etdirmək idi. Bu siyasət çərçivəsində bir sıra addımlar atıldı, məsələn, 1837-ci ildə Britaniya hökuməti adminstrativ işlərdə fars dilinin əvəzində ingilis dilini istifadə etməyə başladı. XIX əsrdə Hindistanda milli

oyanışın güclənməsi, milli azadlıq ideyaları hind dillərinin inkişafına ciddi təsir göstərdi.

Ölkədə XX əsrdə, xüsusi ilə Hindistan müstəqilliyini əldə etdikdən sonra dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq dil islahatları aparılmış, "bir dil, bir ştat" prinsipi ilə inzibati-ərazi islahatları aparılmış, federal subyektlər yaradılmışdır.

Müasir dövrdə ən geniş yayılmış hind dillərinə misal olaraq hindi, benqal, bihar, marathi, pəncabi, racastani, qucarati, oriya, sinqh və s. göstərmək olar.

Hindi dillərində danışanlar əsasən Hindistanın şimalındakı ştatlarda- Racastan, Haryana, Himaçal Pradeş, Uttar Pradeş, Bihar, Madya Pradeş, Carkhand, Uttarançal, Çattisqarhda-ümumilikdə, hind-ari dillərində danışan əhalinin 45,5%-i yaşayır. Eyni zamanda bu ştatlarda müəyyən etnos təşəkkül tapmamışdır, amma ünsiyyət vasitəsi kimi, KIV-lərdə, rəsmi müəssisələrdə hindi, müəyyən qədər də urdu dilində danışılır. Kənd yerlərində isə əsasən hindi dilinin dialektlərindən istifadə olunur. Hindi dilinin dialektləri (maythili, avadhi, brac və s.) özünün ədəbi formalarına görə fərqlənirlər. Publisistikada və ya elmi ədəbiyyatda hindi dilli əhalini bəzən "hindustani" adlandırırlar, amma əhali özünü belə adlandırmır.

"Hind dilli qurşaq" xalqlarından fərqli olaraq, hindari dillərində danışan xalqlar daha dəqiq etnik ərazilərdə yaşayır, bu etnik ərazilərlə ştatların əraziləri üst-üstə düşür. Ölkənin şərqində bu Qərbi Benqaliya, Orissa və Assam ştatlarında müvafiq olaraq, benqallar, oriya və assamlar yaşayırlar. Qərbdə pəncablar (Pəncab ştatı), maratha (Maharaştra), qucarati (Qucarat ştatı) və konkah (Qoa ştatı) xalqları yaşayırlar. Konkahlar marathi dilinə yaxın konkani dilində danışırlar.

Urdu dili isə əsasən X əsrdə türk hökmdarı Alptəkinin nəvəsi, Səbuktəkinin oğlu Mahmud Qəznəvinin Hindistana hücumu ilə yaranmağa başlamış, Delhi sultanlığı, Böyük Baburşah im-

periyası zamanı inkişaf edərək müasir Pakistanda və Hindistanın şimalında yayılmışdır. Urdu sözü türk dillərindəki "ordu" kəlməsindən gəlir, bu dilə "ordu dili" də deyilir. Məşhur şərqşünas T. Qrahame Bailey urdu dilinin ortaya çıxmasını belə izah edir: *"1027-ci il urdu dilinin doğum tarixi kimi qəbul edilə bilər. Çünki həmin il Qəznəli Mahmudun (988-1030-cu illər) Pəncabı ələ keçirməsi ilə rəsmi dilləri farsca olan müsəlman əsgərlər bölgəyə gələrək Lahora yerləşdilər, yerli xalqla ünsiyyət quraraq onların dilini öyrəndilər. Bu dildə danışarkən bir çox fars və ərəb kəlməsini də pəncab dilinə gətirdilər və urdu dilinin ilk formasını yaratdılar. Bu hadisədən 160 il sonra Məhəmməd Qurinin (Gurlu, 1206) sərkərdələrindən Qütbəddin Aybək (1206-1210-cı illər) bu əraziləri ələ keçirdi. Aybək Lahorda yerli xalq ilə qarışan, urdu dilinin ilk şəklini meydana gətirən müsəlman əsgərlərin nəsilləri ilə birlikdə 1193-ci ildə Delhini istila etti, 1206-cı ildə isə ilk müsəlman Delhi hökmdarı oldu. Qütbəddin Aybəkin Delhiyə gətirərək yerləşdirdiyi əsgərlərin dilinə Delhi əhalisinin danışdığı "khari-boli"nin əlavə olunması ilə urdu dili meydana çıxmağa başladı".* Hazırda urduca əsasən Hindistanın şimalında müsəlmanların sıx yaşadığı yerlərdə danışılır. Hindi dili ilə eyni olsa da ərəb əlifbası ilə yazılır, daha çox sanskrit, hindi, fars, türk, ərəb dillərinin qarışığından əmələ gəlmişdir.

Hind-ari budağına aid olan benqal dili və ya benqali Banqladeşlə yanaşı, Hindstanın Qərbi Benqal ştatında da yayılmışdır, eyni zamanda Assam, Bihar, Orissa ştatlarında benqallar bu dildə danışırlar. Benqali dili şərq və qərb dialektlərinə bölünür və bu dilin əsasında Çittarqonq dialekti dayanır. XIX –XX əsrdə dilin ədəbi forması Kəlküttədə formalaşmışdır, hazırda isə benqal ədəbi dili Banqladeşlə sərhəddə yerləşən Nadia dialektinə əsaslanır. Müasir benqali dilinin lüğət tərkibi maqadhi-prakrit və pali dili, eləcə də sanskrit, fars, ərəb və s. dillərindən alınmış sözlər əsasında formalaşmışdır. Benqali dili bir sıra xüsusiyyətlərə malik-

dir, məsələn, müsəlman benqalların dilində ərəb-fars sözləri çox olduğu halda hinduistlərin dili sanskrit və pali mənşəli sözlərlə zəngindir.

Qərbi hindi dilinin digər bir dialekti brac-bhaşadır. Bu dialektdə Mathur, Aqra, Aliqarh, Dholpurda danışırlar. Brac bahaşa dilində tanrı Krişna ilə bağlı zəngin ədəbiyyat formalaşmışdır, lakin müasir dövrdə bu dialektdən ədəbiyyatda istifadə olunmur. Kannauci dialekti brac bhaşa dialektinə çox yaxındır, bu dialekt Farruhabad, Kanpurda yayılmışdır.

Catu və ya hariyani adı ilə tanınan bundeli dialekti Delhi ətraflarında-Karnala, Rohtaka, Hisare və s. yerlərdə yayılmışdır. Bundeli dialekti khari boli, pəncabi, racastani dillərinin təsirinə məruz qalmışdır.

Şərqi hindi dialektləri arasında ən geniş yayılanı *"avadhi"*-dir. Bəzən bu dialekti Avadha (Auda)-Kosalın qədim adı ilə "kosal" adlandırırlar. Bu dialektdə Allahabad, Kanpur və s. yerlərdə danışırlar, avadhi dialektində məşhur əsərlər ərsəyə gəlmişdir. Bu dialektdə Məhəmməd Caysi məşhur "Padmavat", Tulsi Dasa "Ramçaritmas" və s. əsərlərini yaratmışlar. Avadhi dialektinə yaxın olan baqdeli dialekti nisbətən cənubda yayılmışdır. Çattisqarhi dialektində isə Raypur, Vilaspur, Çattisqarh və s. yerlərdə danışılır.

*Hindi dilində 51 hərflik devanaqari əlifbasından istifadə edilir, sağdan-sola yazılan bu əlifbada böyük və kiçik hərflər fərqləndirilmir, hamısı eyni ölçüdə yazılır. Devanaqari əlifbası fonetik prinsip əsasında sıralanmışdır, burada hərflər səs yaranmasına görə düzülür. Sait səslər əlifbanın əvvəlində durur.*

Hindistanda dillər bir sıra hallarda tam olaraq bir etnik qrupa aid edilmir. Bu xüsusi ilə hind-ari və dravid dillərinə aiddir. Məsələn, Cənubi Hindistanda bir sıra dillər, xüsusi ilə malayalam və teluqu dillərinə sanskritin (hind- ari) böyük təsiri olmuşdur, bu dillərdəki sözlərin 70-80 % hind-ari dillərindən keçmişdir.

Bəzi Şimali Hindistan dillərində sanskrit leksik baza təxminən 50 % nisbətində yerini urdu leksik bazasına vermişdir. Tamil əlifbası istisna olmaqla, əksər Hindistan dillərinin əlifbası ilk növbədə sanskrit dilinə uyğunlaşmışdır.

Prunaçal Pradeş, Bihar, Madhya Pradeşdə hindi dilli əhalinin arasında xeyli sayı olan bhil, pahar, qond, munda və s. xalqlar yaşayır. Bir çox xalqlar həm etnik mənsubiyyətlərinə, həm də dillərinə, mədəniyyətlərinə, həyat, təsərrüfat formalarına görə bir-birlərindən fərqlənirlər.

Hindistan müstəqilliyini əldə etdikdən sonra ölkədə, bölgədə baş verən siyasi-hərbi proseslərin təsiri altında həyatın müxtəlif sahələrində olduğu kimi, dil siyasətində də ciddi dəyişikliklər baş vermişdir. XX əsrin ortalarında etnik əsaslı ştatların yaradılması fonunda bu ölkədə dövlət dilinin müəyyənləşdirilməsi məsələsi ciddi problemə çevrilmişdi. Hələ 1949-cu ildə Konstitusiya Assambleyası devanaqari əlifbasında hindi dilinin dövlət dili olması, ingilis dilinin isə 15 il müddətində ikinci dövlət dili qalması haqqında qərar qəbul etmişdi.

Hindistanda 1955-ci ildə *B.Q.Khmerin* rəhbərliyi altında Dil Komissiyası yaradıldı, bu komissiya respublikada hindi dilinin geniş işlənməsi barədə sənəd işləyib hazırladı. Bir ildən sonra, yəni 1956-cı ilin avqust ayında bu sənəd parlamentə təqdim olundu. Komissiya Konstitusiya müddəasına uyğun olaraq bildirdi ki, ingilis dilinin geniş əhali kütləsinin təhsil dili kimi qəbul edilməsi mümkün deyil. Məcburi ibtidai təhsil yerli hind dillərinin tətbiqi ilə həyata keçirilməlidir. Komissiyanın sənədində hindi dilinin dövlət dili kimi qəbulu məsləhət görülürdü. Həmin dildə əhalinin daha çox hissəsinin danışması nəzərə alınırdı.

Komissiyanın hesabatı dil məsələsində fikir ayrılığını aradan qaldırmadı. Bu hesabata qarşı xüsusilə Tamilnad və Benqaliyanın dövlət və ictimai xadimləri çıxış etdilər. 1956-cı ildə Hindistanda "bir dil, bir stat" prinsipi ilə linqivistik əsaslı ştatların yaradılması dil probleminin yenidən şiddətlənməsinə gətirib çıxardı.

Daxili işlər naziri Q.B.Pantın rəhbərliyi altında 1956-cı ildə dövlət dili ilə bağlı parlament komissiyası fəaliyyətə başladı. Komitə dövlət dili ilə bağlı komissiyanın hesabatı haqqında ölkə prezidentinə öz rəyini təqdim etdi. 1959-cu ilin aprel ayında təqdim olunan rəydə 1965-ci ildə hindi dili əsas dövlət dili olduqdan sonra parlamentin müəyyənləşdirdiyi çərçivədə ingilis dilininin dövlət dili kimi qəbulu məsləhət görülürdü. Komissiya kimi Komitə də ingilis dilindən hindi dilinə keçilməsi tarixini mərkəzi hökumətin müəyyənləşdirilməsini vacib sayırdı. Lakin tam aydın idi ki, hindi dilininin ingilis dilini əvəzləməsi üçün nəzərdə tutulan 15 il kifayət deyil. Parlament 1962-ci ildə ingilis dilinin əvəzlənməsi məsələsinin qeyri-müəyyən dövrədək saxlanılması barədə qərarını açıqladı. Eyni zamanda hindi dilində terminologiyanın hazırlanması və universitetlərdə tədris dili kimi qəbulu prosesinin sürətləndirilməsinə dair qərar verildi. Bu qərar xüsusilə Cənubi Hindistanda etirazla qarşılandı. Hindi dilinin məktəblərdə məcburi dil kimi öyrədilməsinə dair etiraz nümayişləri keçirildi. Beləliklə, 1950-ci illərin sonundan rəsmi dilin qəbulu ilə bağlı məsələ daxili siyasi mübarizənin əsas elementlərindən birinə çevrildi. Müasir dövrdə belə Hindistanda dil məsələsi ilə bağlı müzakirələr gündəmdən düşmür.

*Hazırda Hindistanda siyahıyaalınma materiallarında çoxsaylı dil və dialekt qeydə alınsa da, dövlətin rəsmi siyasətində vahid "hindli milləti" anlayışı önə çıxır*. Burada bir neçə qruplaşdırma aparılır:

1) "Linqivistik" baxımdan adminstrativ ştat yaratma hüququ olan böyük, konsolidasiya olunmuş etnoslar-*pəncablar, marathilər, benqallar, qucaratlılar, racastanlılar, teluqu, kannara, malayala, tamil, oriya, kəşmirlilər, assamlar, manipurlar, biharlar, konkani.*

2) Hindistanda öz dilləri olan 636 "qeydə alınmış tayfa" əhalinin 8 %ini təşkil edir. Burada şimaldakı bir neçə ştatın, "hindi-

dilli qurşağın" əhalisi xüsusi yer tutur. Onlar hindi, urdu dillərinin çoxsaylı dialektlərində danışırlar. Digər etnik icmalar elmi və praktiki cəhətdən qeydə alınmır, ölkənin etnomədəni rəngarəngliyi –*"çoxrəngliliyin birliyi"* adlanan siyasi termin ilə izah edilir. Bu termini ilk dəfə Cəvahirlal Nehru irəli sürmüşdür. Bu termin vasitəsi ilə dini və kasta icmaları ifadə olunur. *Hindistan Antropoloji Xidmətinin məlumatına görə, ölkədə fərqli dillərdə danışan 3,5 minə yaxın kasta (cati) və konfessional qrup vardır.*

Hindistanda dil proseslərinə dinlərin inkişafı xüsusi təsir göstərmişdir. Məsələn, ölkənin şimalında yayılan pəncabi dilinin üç əlifbası vardır. Müsəlmanlar ərəb əlifbasına əsaslanan *"şahmukhi" əlifbası,* siqhlər *"qurumukh"* (quru əlifbası), bəzi kiçik hindu qrupları *"devanaqari nagar"* (tanrıların yazısı) əlifbasından istifadə edirlər.

**Dravid dilləri.** *Dravid dil ailəsi- özündə 16 dili birləşdirərək 4 budağa ayrılır. Ən böyük dravid dilləri- teluqi, tamil, malayama və kannaradır. Hazırda Hindistanda əhalinin 20 %indən çoxu dravid dillərində danışır.*

Dravid dilləri əsasən, Hindistanın cənubunda yayılıb, ölkənin mərkəzində yerləşən Bihari ştatında da müəyyən əhali dravid dilində danışır, bundan başqa qond və oraon dilləri də dravid dilləri ailəsinə daxildir.

Şimal-qərb budağı *"brahui"* dilidir ki, bu dildə əsasən şimal-qərbi Hindistanda və Pakistanda danışırlar. Bundan başqa Şri-Lankanın şimal əyalətlərində Pakistan, Nepal və Banqladeşdə dravid dillərində danışan əhali yaşayır. Brahiu dilindən başqa Nepalda dravid dil ailəsinin dhanqar dilinin "kurukh" dialekti yayılmışdır.

Pakistanın Hind vadisindəki e.ə. III-II minillikdə mövcud olmuş Harappa və Mahenco-Daro qədim şəhərlərində də protodravid dilində danışıldığı ehtimal edilir. Bəzi dilçilər dravid dillərinin sanskrit dilinə bənzəmədiyini bildirirlər. Cules Blok (1880 -

1953) və F. Kuiper (1907 - 2003) kimi bəzi dilçilər, Hind-Avropa dillərində danışanların dravid dilinin yayıldığı bölgələrə sonradan gəldikləri ideyasını irəli sürürlər.

Antik elam dilləri əlaqəsi olduğu iddia edilən dravid dilləri heç bir müasir dil ailəsi ilə qohumluq bağına malik deyil. Lakin hind-Avropa dillərindən çox fərqli olmasına baxmayaraq, minilliklər ərzində dravid dillərinə sanskritcədən 30-70 % nisbətində söz keçmişdir.

*Hindistanın cənubunda dravid dil ailəsinə məxsus xalqların yaşadığı 4 ştat-Andhra Pradeş (teluqu xalqı), Tamilnad (tamil), Kanara (kannar), Kerala (malayalam) mövcuddur.*

Teluqu dili Andhra Pradeş ştatının rəsmi dilidir. Dravid dil ailəsinə mənsub olan teluqu dili sanskrit dilinin təsirinə məruz qalmışdır. Kannada və ya Kanara dili, əsasən Karnataka ştatında yayılmışdır. Bu dildə danışanlar kannadiqalar adlanırlar. Kannada Hindistanın rəsmi dillərində biridir və Karnataka əyalətinin rəsmi və inzibati dilidir.

Tamil Nadu əyalətinin rəsmi dili olan tamil dili ən azı iki min illik keçmişi olan qədim dravid dilidir. Tamil dili Şri-Lanka və Sinqapurda da rəsmi dil sayılır. Dravid dil ailəsinin cənub qoluna aid olan bu dil qonşu malayalam dilinə çox yaxındır. Təxminən min il əvvəl malayalam dili tamil dilinin bir ləhcəsi sayılırdı. Tamil dilində sanskrit, hindi, urdu fars dillərindən xeyli söz vardır. Dravid dillərinə məxsus brahmi əlifbası tamil dilinə uyğunlaşdırılmışdır.

Dravid dillərinə aid Malayalam dilində əsasən Hindistanın Kerala əyalətində danışılır və Kerala əyaləti və Lakşadvip və Pondiçerri birlik torpağlarında rəsmi dil sayılır,bu dildə 35 milyon nəfər danışır. Malayalam dili Nilqris, Kanyakumari, Tamil Nadunun Koimbat və Karnatakanın Dakşina, Kannada, Manqalore və Kodaqu rayonlarında yayılmışdır. Tamil Nadu ştatının rəsmi dili olan tamil dili qədim dravid dilidir və təxminən 65 milyon nəfər bu dildə danışır.

Hindistanda 10-dan çox azsaylı dravid mənşəli xalq yaşayır, onlar adətən tayfa sayılırlar. Andhre, Madhya Pradeş, Orissa və Maharaştrada yaşayan qond, Karnataka, Kerala və Maharaştada yaşayan tulu, Bihar, Madhya Pradeş, Qərbi Benqaliya və Orissada yaşayan kurukh dilində danışan oraonlar bu sıradadır. Bu xalqlar ərazı baxımdan parçalanmaqla yanaşı, başqa dilli əhalinin əhatəsində bir-birindən fərqli mədəni və dini dəyərlərə, fərqli dialektlərə sahibdirlər. Sosial-iqtisadi vəziyyətin geriliyinə görə onların konsolidasiyası ciddi problemlərlə üzləşir. Xalqlar arasında ənənəvi dəyərlərin, mədəniyyətin, adətlərin animizmə yaxın inancların saxlanılması uğrunda çıxış edən qruplar fəaliyyət göstərir. Bu fəaliyyət müxtəlif ştat hökumətləri yanında tayfaların inkişafı üçün yaradılmış təşkilatlardan dəstək alır.

Brahui dili və ya brahvi dili dravid dil ailəsinə mənsubdur və brahui xalqının Pakistan, Əfqanıstan və İranda danışdığı dildir.

Dravid kodaqi dilində danışan kodaqi xalqı bir sıra xüsusiyyətlərinə görə seçilir. Kodaqi xalqı əsasən, Karnataka ştatının dağlıq zonasında, əsasən Merkar şəhərində yaşayır. Kodaqilər etnik özünüdərketmənin yüksək səviyyəsi, əsrlərlə saxlanılan həyat tərzi, yüksək səviyyədə inkişaf etmiş mədəniyyətlərinə görə fərqlənirlər.

Hazırda dravid etnosları linqvistik ştatlarda kompakt ərazilərdə yaşayır, özünüidarəetmədə kifayət qədər geniş muxtariyyata sahibdirlər. Onların hamısının tarixən özünəməxsus milli dilləri və mədəniyyətləri formalaşmışdır. Onların qürur mənbəyi milli qəhrəmanları, yazıçıları, dini xadimləri, sərkərdərləri, müqəddəsləridir.

Bu xalqlar qədim və orta əsr dövlətlərinin yaradıcıları, varisləridir. Həmin dövr hər bir xalqın inkişaf etmiş "qızıl əsri" sayılır. Məsələn, teluquların Vicayanaqar imperiyası, Maratha konfederasiyası, tamillərin Çola imperiyası, assamların Ahom dövləti və s. orta əsr dövlətlərinin adını çəkmək mümkündür. Bu xalqların

həyatında hinduizm ənənələri mühüm rol oynayır. Hər bir xalq bu dini özünün milli panteonu ilə zənginləşdirmiş, bu da digər hinduist xalqların sahib olduğu hinduizmindən müəyyən qədər fərqlənir. Teluqular arasında Vişvamitra tanrısı, benqallar arasında Kali və Durqi tanriçaları kultu geniş yayılmışdır. "Durqa puca" festivalını benqallar milli bayram kimi qeyd edirlər. Orissada isə Caqannatha kultu populyardır. Hər il onun şərəfinə *"Daqanath yatra"* ("Caqernauta çarxı") bayramı qeyd olunur. Marathalar özlərinin Vithobe, Sadobe, Khandobe və başqa tanrılarına ibadət edirlər, maraqlıdır ki, bu panteon böyük hinduizm ənənəsinə daxil deyildir.

*Avstrasiya qrupu xalqları-santal, ho, munda, korku və başqaları əsasən, mərkəzi, qismən də Şərqi Hindistanda yaşayırlar*. Kiçik dravid xalqları kimi, onların da ayrıca inzibati vahidi yoxdur, pərakəndə şəkildə müxtəlif ştatlarda məskunlaşmışlar. Ümumilikdə, Avstroasiya və Tamil-Birma dillərində əhalinin 5-7 faizi danışır.

Avstroasiya qrupuna aid *"khasi" və "munda"* dilləri santhali dilləri sayılır. Nikobar adalarının yerli dili bu dil ailəsinə aiddir. XX əsrin 60-70-ci illərdə Bihar və Qərbi Benqalın qarışıq rayonlarından "Santhalistan"ın yaradılması, öz müqəddəratını təyin etmək uğrunda hərəkat genişlənmişdir. Lakin etnik və siyasi cəhətdən aktiv santhalların arasında birliyin olmaması məqsədə çatmaqda ciddi problemlər yaradır. Santhallar arasında xarici missionerlər ciddi fəaliyyət göstərirlər, bu xalqın bir hissəsi xristianlığı qəbul etmiş, digər hissə isə hinduizmə inanır, bir hissəsi isə animist inanclara sadiqdir. Santalların vahid əlifbasının yaratması cəhdi uğurla nəticələnməmişdir, ətrafdakı əhalinin dilindən asılı olaraq, santal xalqı devanaqari, benqal və ya latın əlifbasından istifadə edir. Bu xalqın ayrı-ayrı qrupları tədricən yerli xalqlara assimlyasiya olunurlar.

***Tibet-Birma dilləri.*** Manipur və digər Tibet dilləri Hindistanın şimal- şərqində yayılmışdır. Bu dillər Sino-Tibet dillərinin alt qrupu sayılır, Himalay dağ silsiləsi uzunu Ladakh, Himaçal Pra-

deş, Siqqim, Arunaçal Pradeş ştatlarında, eləcə də Qərbi Benqal, Assam, Meqhalaya, Naqaland, Manipur, Tripula və Mizoram ştatlarında yayılmışdır. Tibet-Birma dillərinə karbi, meitei, lep-cha dilləri, eləcə də Tibet, Şərqi Himalay, Tani, Brahmaputra, Anqami-Poçuri, Tanqkhul, Zeme, Kukish və s. dialektləri aiddir.

Hindistanın şimal-şərqində əsasən tibet-birma xalqlarının yaşadığı ərazilərdə mürəkkəb etnik vəziyyət yaranmışdır. Bu bölgənin coğrafi vəziyyəti əsasən dağlıqdır, dağlar isə sıx meşələrlə örtülmüşdür. Bu da əhali qruplarının dağınıq, bir birindən izolyasiya olunmuş şəkildə yaşamasına gətirmişdir. Bundan başqa, müstəmləkə dövründə bu bölgə Hindistan milli-azadlıq hərəkatından, demokratik institutların yaranmasından, bazar iqtisadiyyatının yaranması prosesindən kənarda qalmışdır.

İngilis müstəmləkə hakimiyyəti bu bölgə üçün “daxili qaydalar” müəyyənləşdirmişdi. Bu qaydalar əhalinin digər bölgələrlə ticarət mübadiləsi aparmasının qarşısının alınması ilə xarakterizə olunurdu. Burada xristian missionerləri fəallıq göstərirdi, bu fəaliyyətin nəticəsində şimal-şərq rayonlarının əhalisinin xeyli hissəsi xristianlığa etiqad edir. Hindistanın müstəqilliyinin ilk illərində bu bölgələrdə silahlı separatçı hərəkatlar baş vermişdi.

İkinci dünya müharibəsinin sonunda Yaponiya qoşunları Birmanı tərk edən zaman burada qoyduğu külli miqdarda silah separatçılığın şiddətlənməsinə gətirib çıxarmış, hətta bir sıra dövlətlər separatçılara dəstək vermişlər.

Hindistan parlamentinin qərarı ilə hind ordusu uzun müddət şimal-şərq rayonlarında dövlət idarəetməsini həyata keçirmişdir. Cavahirlal Nehrunun hökumətindən başlayaraq, hind hakimiyyəti bu rayonlarda vəziyyətin normallaşması istiqamətində ciddi uğurlar qazanmışlar. Bu rayonların əhalisi ümumhind siyasi proseslərinə, tədricən isə təsərrüfat inteqrasiyasına qoşulmuşdur.

Separatçı əhval-ruhiyyə və silahlı qruplar indi də mövcuddur, lakin siyasi sabitlik get-gedə güclənir. Əvvəl Assam ştatının

tərkibində olan naqa xalqından ibarət Naqalend ştatı yaradılmışdı. Burada ştatın əsas rəsmi dili kimi ingilis dili qəbul edilmişdi. Bu addım yerli reallıqla bağlı olmuşdur. 25 tayfadan ibarət naqa xalqının nümayəndələri ***ao, sema, koniak, tanqhul, anqam*** və s. dialektlərdə danışırlar. Dialektlərin bir-birindən ciddi şəkildə fərqlənməsi ədəbi dilin formalaşmasını çətinləşdirir. Lakin Naqalenddə tədricən dialektlər əsasında naqa-assam dili yaranır. Naqlar arasında etnik konsolidasiya başlanğıc mərhələdə olsa da, ümumi tale birliyi hissi kifayət qədər güclüdür.

Tibet-birma qrupuna məxsus manipur xalqı Manipur ştatında yaşayır, zəngin ədəbiyyat ənənəsi olan meytheyi dilində danışırlar. Naqlardan fərqli olaraq, manipurlar hinduizmin vişnaçılıq qoluna ibadət edirlər. Bu ştat əvvəl feodal hakimliyi olmuş, müstəmləkə rejiminin "daxili xətt" siyasətinə daxil deyildi. Buna görə də, manipur əhalisi qonşu ştatlarla müqayisədə Hindistana daha çox inteqrasiya olunmuşdur. Məsələn, manipur rəqsləri və tamaşaları bütün Hindistanda məşhurdur.

Tripura və Mizor ştatında benqal mədəniyyətinin və mizo xalqının (əvvəlki adı "luşei"-baş ovçuları olmuşdur) güclü təsirində olan tripurça xalqı yaşayır. İndi mizo adı yalnız onların dilinin adındadır.

***İngilis dili.*** Müstəmləkə illərində Hindistanda milli proseslər xeyli ləngidilmiş və sapdırılmışdı. Sayına görə daha çox olan və nisbətən inkişaf etmiş xalqlar Britaniya Hindistanının inzibati vahidləri (prezidentlik və vilayətlər) arasında, feodal knyazlıqlar arasında parçalanmışdı. Bu vəziyyət yerli təşkilatların öz mədəniyyətlərini, dillərini inkişaf etdirməsi ilə maraqlanmayan kolonial adminstrasiyasının marağında idi. Yalnız hind cəmiyyətinin elitar qrupları arasında ingilis dilinin inkişafı ilə məşğul olurdu, bununla da idarəetməni asanlaşdırmaq, anqlo-sakson mədəniyyətini yaymağa çalışırdı.

Xüsusi qeyd etmək lazımdır ki, ingilis dilinin tədrisi, təbliği, hind ziyalılarının bu dili mənimsəməsi Böyük Britaniya imperi-

yasında mühüm yerdə duran Hindistanın dünya arenasına çıxmasına kömək etmişdir.

Müasir dövrdə ölkə əhalisinin yalnız 4-5 %-i ingilis dilini bilsə də, bu dil dövlət aparatında, böyük biznes, mədəni mübadilə, kütləvi informasiya vasitələri, təhsil, ordu və s. sahələrdə geniş istifadə edilir.

***Sual və tapşırıqlar:***

*1. Hindistanda əhalinin 73,4 %i hindi, 24,5 %i dravid, 1,4 %i Avstoasiya, 0,7 %i Tibet-Birma dillərində danışır.*

*2.Hindistan Konstitusiyasında rəsmi dil devanaqari əlifbası ilə hindi dili və ingilis dili sayılır.*

*3.Hindistan Konstitusiyasının tanıdığı 22 milli dili (national languages) və dörd milli regional dil (state languages) təsnifatlaşdırılmışdır.*

*4.Hindistanda 1365 ana dil, 234 əsas dil və 122 böyük dil vardır.*

*5 Hindi dilində 400 milyon insan danışır.*

*6. Dravid dil ailəsi- tamil, malayama, kannara*

## 5.3. Etnolinqvistik ştatlar

Hindistanda etnik proseslər özünün mürəkkəbliyi ilə diqqəti cəlb edir, bir neçə ştatda yaşayan əhalinin dağınıqlığı, iqtisadi baxımdan zəif inkişaf, kastalar (varna və cati) və dinlər arasında kəskin ziddiyyətlər etnik proseslərə ciddi təsir göstərir.

XIX əsrin əvvəllərində yaşamış səyyah Hacı Zeynalabdin Şirvaninin Hindistanın o zamankı inzibati bölgüsünü təsvir etməsi tarixi baxımdan maraqlıdır. O yazır ki, Hindistan geniş ölkədir, çoxlu şəhərləri, ucsuz-bucaqsız torpaqları, nəhəng və qorxulu meşələri, bərəkətli tarlaları, otlaqları, çoxlu vəhşi heyvanları, güllü-çiçəkli çəmənlikləri vardır. Bu ölkə şərqdən Hind-Çin dağla-

rı və Nepal meşələri, cənub və qərbdən Hind okeanı, şimaldan isə Kəşmir və Kabil dağları ilə sərhədlənir. Səyyahlar Hindistanı iki yerə bölürlər: *"Şimali Hindistan və Cənubi Hindistan. Şimal hissəyə qərbdə Kəlasəng dağlarından şərqdə 92 dərəcədən 120 dərəcəyə kimi hesablanmasında (dərəcələrin hesablanmasında Kanar adalarından keçən meridian başlanğıc götürülmüşdür) olan sahə aiddir. Onun eni ekvatordan şimalda 22 dərəcə ilə 34 dərəcə arasındadır".* "Bustanus-səyahə" əsərində Hacı Zeynalabdin Şirvani Cənubi Hindistanın 7 dərəcə ilə 22 dərəcə şimal en dairəsi arasında yerləşdiyini bildirir. O yazır ki, alimlər və hakimlər deyirlər ki, Hindistanın ayrı-ayrı şəhərlərinin tikilməsi tarixi bizə məlum deyildir, ancaq Hindistanın bir neçə min illik tarixi bizə məlumdur… Bəzi alimlər Hindistanı 4 böyük ölkəyə və 20 subəyə (sobə) bölürlər. Birincilər hindlilərin hissəsi 8 subəyə bölünür. *Bunlarda 1) Delhi subəsi (Delhini Şah Cahan tikdirmişdir), 2) Əkərə subəsi (Buna Əkbərabad deyirlər), 3) Əcmar subəsi, 4) Malvə subəsi (indi bu torpaq çinlilərindir), 5) Xandəlis subəsi (Onun mərkəzi Burhanpurdur), 6) Ədu subəsi, 7) Birak subəsi (Onun mərkəzi Allahabaddır), 8) Pəncab subəsi (Mərkəzi Lahurdur). Benares də yeddinci subəyə daxildir. İkinci ölkə Dəkəndir. Onun altı subəsi vardır: 1) Əhmədabad subəsi, 2) Bərərhəman subəsi (hökumət şəhəridir), 3) Biçapur subəsi (Mərkəzi Orəngabadır), 4) Dyuk subəsi (mərkəzi Dolatabaddır), 5) Tələng subəsi (mərkəzi Heydərabapddır), 6) Əhmədnəgər subəsi. Üçüncü ölkə Sind ölkəsidir. Bunun üç subəsi vardır: 1) Tətə subəsi (mərkəzi Heydərərabadır), 2) Küçərat subəsi (Mərkəzi Əhmədabadır), 3) Multan subəsi (mərkəzi Multandır). Dördüncü isə Bəng ölkəsidir. Bunun üç subəsi vardır: 1) Benqalə subəsi (mərkəzi Kəlkəttədir), 2) Bahar subəsi (mərkəzi Əzimabaddır), 3) Rədriyyə subəsi (mərkəzi Gələng şəhəridir).* Hacı Zeynalabdin yazır ki, bəziləri Kəşmiri və Kabili hind torpaqlarından hesab edirlər, bəziləri bu fikri düzgün saymırlar. Azərbaycanlı səyyahın izahatından da gö-

ründüyü kimi, Hindistan inzibati-ərazi baxımdan mürəkkəbliyi ilə seçilmişdir. Bu mürəkkəblik isə etnos, dil, din və s. amillərdən irəli gəlmişdir.

Müasir dövrdə də Hindistanda etnik, dil, din fərqlilikləri milli konsolidasiya prosesinə ciddi mane olur. Məsələn, siqhlər, hinduslar, müsəlmanlar arasında Pəncab, Cammu və Kəmir ştatlarında, eləcə də digər yerlərdə baş verən qanlı münaqişələr bunun nümunəsidir.

Hindistanda 1951-1952-ci ildə keçirilən seçkilərdən sonra baş nazir Cavaharlal Nehru burjua demokratiyasının inkişafı istiqamətində bir sıra addımlar atdı, inzibati islahatlar həyata keçirdi. Yeni inzibati-siyasi islahatlarda kiçik knyazlıqların ləğvi nəticələri əksini tapmışdır. Lakin islahatlar çərçivəsində formalaşdırılan yeni ştatlar ölkənin linqivistik xəritəsini əks etdirmirdi. Ştatlar milli əsaslarda yaradılmamış, əksinə, ingilis müstəmləkəsi zamanındakı inzibati yerləşməni xatırladırdı.

Milli məsələnin həlli prosesi kütləvi hərəkatlarla, xüsusilə kəndlilərin mübarizəsi ilə müşayiət olunurdu. Buna görə də mərkəzi hökumət milli burjuaziyanın yerli qruplarına, geniş demokratik ictimaiyyətə milli ştatların yaradılmasında güzəştə getməyə məcbur oldu. Məsələn, Andhra ştatının yaradılması haqqında teluqu (andhra) xalqının kiçik burjuaziyası çıxış edirdi. Hindistan Milli Konqresinin Mədrəsdəki təşkilatının rəhbərləri *Poti Şri Ramalu* 1952-ci ilin sentyabrında HMK rəhbərliyinə və Mədrəs hökumətinə müraciət edərək, təcili olaraq Andhra ştatının yaradılmasını tələb etdi. Müraciətinə müsbət cavab almayan Şri Ramal həmin il oktyabr ayında aclıq aksiyasına başladı və bu aksiya nəticəsində 1952-ci il dekabrın 15-də öldü. Onun ölümü ilə Andhrada mərkəzi hökumətə və Madras hökumətinə qarşı kütləvi çıxışlar başladı. Bütün bu çıxışlar nəticəsində mərkəzi hökumət 1952-ci il dekabrın 19-da Andhra ştatının yaradılması barədə qərar qəbul etdi və bir il sonra bu ştatın yaranması reallaşdı. Andhra ştatının

yaradılması teluqu xalqının milli məsələsinin həlli istiqamətində ciddi addım olsa da problemi tam həll etmədi, çünki teluquların xeyli hissəsi Haydarabad ştatının Telinqani rayonunda qalmışdır.

Milli problemin həlli istiqamətində növbəti mərhələ 1953-1956-cı illərdə oldu, bu proses bir neçə istiqamətdə paralel olaraq aparılırdı. Xüsusi parlament komissiyasının təkliflərinə uyğun olaraq, Cəvahirləl Nehru hökuməti etnolinqivistik yerləşməyə görə adminstrativ-siyasi islahatların əsaslarını hazırladı. Nehrunun təşəbbüsü ilə Hindistan Milli Konqresinin 1955-ci ildə Avadidə keçirilən qurultayında "konqres sosializmi" adlanan rəsmi proqram qəbul olundu. Bu proqramda şəxsi mülkiyyətin ləğvi nəzərdə tutulmur, dövlət sektorunun inkişafı, dövlət nəzarətinin müxtəlif formalarının inkişafı, kiçik sahibkarlığın dəstəklənməsi, antiimperialist və antifeodal sosial-iqtisadi təsisatların yaradılması əksini tapırdı. Bu sənəd əsasında Hindistanda milli məsələnin həlli istiqamətində addımlar atılmağa başlandı.

İslahatlar çərçivəsində Hindistan Milli Konqresinin işçi komitəsi əhalinin etnik tərkibinin nəzərə alınması ilə ştatların yenidən təşkili barədə əsasnamə hazırladı, müvafiq komissiya yaradıldı. Komissiya 1955-ci ildə ilk hesabatını yaydı. Sənəd 1956-cı il avqustun 31-də parlamentdə təsdiqləndi, sentyabrda ölkə konstitusiyasına müəyyən düzəliş və əlavələr qəbul olundu. Həmin il noyabrın 1-də Hindistanın inzibati-ərazi bölünməsi haqqında qanun qüvvəyə mindi, 14 yeni ştat və mərkəzi hökumətin idarə etdiyi 6 ərazi yaradıldı.

Hindistanın siyasi-inzibati xəritəsi yenidən çəkildi. Lakin Konqres rəhbərliyi ehtiyat edirdi ki, inzibati bölünmələrlə bağlı islahatlar müxtəlif milli qruplar arasında zidiyyətlərin kəskinləşməsinə gətirib çıxara bilər. Mərkəzdənqaçma proseslərinin qarşısının alınması üçün ölkə üzrə 5 bölgədə məsləhət şurası formalaşdırıldı. Bu şuralara müvafiq ştatların hökumət nümayəndələri və mərkəzi hakimiyyət nümayəndələri daxil idi. Regional şuralar

əlaqələndirmə və planlaşdırma ilə məşğul olur, müxtəlif ştatların iqtisadi inkişaf proqramlarını hazırlayır, eyni zamanda milli azlıqların problemlərini həll edir, sərhəd məsələlərini yoluna qoyur, hidroelektrik, yollar və s. infrastruktur məsələlərinə baxır.

Hökumətin 1956-cı ildə inzibati-ərazi islahatlarını həyata keçirməsi milli məsələnin həllində böyük addım olsa da, problemi sonadək həll etmədi. İnzibati bölünmə zamanı çoxdilli əhali tərkibinin mövcud olduğu ştatlar (Bombey, Pəncab, Assam) əsasında yeni linqivistik ştatların yaradılması prosesi davam etmişdir. Kütləvi aksiyalar nəticəsində 1960-cı ilin yazında paytaxtı Bombey olmaqla Maharaştra ştatı, paytaxtı Ahmadabad olmaqla Qucarat ştatı yaradılmışdır. İslahat başlayan illərdə Pəncabda iki vilayətdən ibarət Pəncab ştatı yaradılmış, 1964-cü ildə Pəncab iki yerə bölünmüş, hindi dilli əhalinin yaşadığı Hariana ştatı formalaşdırılmışdır.1960-cı ilin əvvəllərində Assam ştatı parçalanaraq Naqalend ştatı yaradılmışdı.

İslahatlar nəticəsində "bir ştat, bir dil" prinsipi hər yerdə tətbiq oluna bilmədi, Hindistanda polietnik ştatlar hələ də qalır. Siyasi ştatlar tarixi və ənənəvi sərhədlər əsasında meydana çıxmışdır. Məsələn, Cammu və Kəşmir ştatı keçmiş feodal dövlətinin sərhədləri əsasında yaranmışdı. Ştat 3 dəqiq müəyyənləşdirilmiş bölgəyə ayrılır: Birincisi, Srinaqar mərkəz olmaqla Kəşmir vadisidir. Burada hind-ari ailəsinə məxsusu dard qolundan ibarət kəşmirlilər məskunlaşmışdır, onların əksəriyyəti müsəlmandır; İkincisi, Cammunun cənubunda doqra xalqı məskunlaşmışdır, onların dili pəncabi dilinə yaxındır. Ən yuxarı hissəsi mərkəzi Leh olmaqla, Ladakh "kiçik Tibet" sayılır. Burada tibet-birma dillərində danışan balti, ladakhi, lahauli kimi dağ xalqları yaşayır, onlar buddizmin lamaist qoluna mənsubdurlar. Cammu və Ladakda vilayətin ayrıca inzibati vahidə çevrilməsinin tərəfdarı çoxdur.

Meqhala ştatı (1970) iki xalqın etnik ərazilərini əhatə edir. Avstroasiya qrupuna aid khasi və Tibet-Birma qrupuna məxsus

qaro xalqı sayca bərabərdir. Bu xalqlar özlərinin tarixi ərazilərində, demək olar ki, bir-biri ilə qarışmayaraq yaşayırlar. Ştat yaradılandan dərhal sonra *"khasi" və "qaro"* xalqları arasında ziddiyyətlər baş qaldırmışdı və indiyədək davam edir. Əsas ziddiyyətlər hakimiyyətdə, hökumətdə, təhsil müəssisələrində postların tutulması ilə, siyasi rəqabətlə bağlıdır. Hindistana 1975-ci ildə birləşən Siqqim ştatının əsas əhalisi tibet-birma xalqı olan bhotiya və lepça xalqlarıdır, burada Nepaldan gələn miqrantlar da sayca çoxdurlar. Austo-asiya xalqları arasında Bihar, Orissa, Qərbi Benqaliya və Madhya Pradeşin kəsişməsində Carkhand ştatını yaratmağa çalışan kho və munda xalqlarının milli hərəkatı güclənmişdir.

Hindistan parlamenti 2000-ci ildə mərkəzi Rançi şəhəri olmaqla Carkhand ştatının yaradılması haqqında qərar qəbul etmişdir. Yeni ştatın tərkibinə Cənubi Biharın 18 rayonu daxildir. Ştatın cənub hissəsində azsaylı xalqlar və tayfalarla məskunlaşmış Çhota Naqpur düzənliyi yerləşir.

Hindistanda 2000-ci ildə yaradılan ştatları (Carkand və Çattisqarh ştatları) nəzərə alsaq, son 50 ildə ştatların sayı iki dəfə artmışdır. Faktiki olaraq, XXI əsrin əvvəllərində sayça çox olan hind etnoslarının hamısının öz ştatları yaranmışdır.

Lakin azsaylı xalqların bu və ya digər şəkildə muxtariyyat əldə etməsi müasir Hindistanda etnik vəziyyətin xarakterik və qanunauyğun xüsusiyyətinə çevrilmişdir. İqtisadi, siyasi, mədəni baxımdan xalqların daha sürətli inkişafı linqvistik ştat-dövlətlərin fəaliyyəti nəticəsində daha səmərəli olmuşdur. Bu təsirin subyektləri təhsilli, dinamik, siyasi baxımdan aktiv gənc nəsil olur. Bu fəaliyyət azsaylı xalqların müxtəlif təbəqələrinin dəstəyini qazanır, onları tədricən ətraf mühitlə ünsiyyətə, ticarət dövriyyəsinə, ideyalar mübadiləsinə qoşur. Muxtariyyat əldə olunmasına öz xalqını, öz etnik rayonunu inkişaf etdirmək imkanı kimi baxırlar. Bu sahədə ilk uğuru Darcilinq vilayətinin nepal-qurk-

hi xalqı əldə etmişdir. Onların zorakı mübarizələri sonda nəticə vermiş, Qərbi Benqaliya ştatının çərçivəsində muxtariyyat yaradılmış və adminstrativ quruluşun yeni forması ortaya çıxmışdır. Assam ştatında tibet-himalay qrupuna aid bodo xalqı özlərinin etnik ərazilərində muxtariyyat tipli ayrıca inzibati vahid yaradılmasına nail olmağa çalışır. Hətta bir sıra aktivistlər hərbi toqquşmalara qoşularaq Assamda gərgin vəziyyət yaradırlar. Oxşar vəziyyət Mizor ştatının şimal rayonlarında da cərəyan edir, burada tibet-birma xalqlarından olan himarlar yaşadıqları rayonda onlara muxtariyyat verilməsini tələb edirlər.

*Konstitusiyaya görə, ştatların idarəetməsinə siyasi, sosial-iqtisadi və admin istrativ xarakterli 66 məsələ aid edilir. Mərkəzin səlahiyyətlərində 97 məsələ saxlanılmışdır, 47 məsələ isə mərkəzin və ştatların birgə səlahiyyətindədir.* Ancaq 1956-cı il islahatı, etno-linqivistik quruluş problemlərini tam həll etməmişdir, indi də yeni ştatların yaradılması prosesi davam edir. Ştatların hökumətləri milli dil və mədəniyyətlərin inkişafına xüsusi diqqət yetirirlər, ədəbiyyat və mədəni təşkilatlara maddi yardım göstərilir. Milli kinostudiya, teatrlar, radiostansiya, televiziyalar yaradılır. Ştatlarda milli dillərin yerli firma və banklar arasında istifadəsi həvəsləndirilmiş, milli proqramlı siyasi partiyalar yaradılmışdır. Bu partiyaların fəaliyyəti linqivistik ştatlarda milli həyatın canlanmasına gətirib çıxarmışdır.

*Hindistan ştatları A, B, C kimi üç böyük qrupda təsnifatlandırılmışdır.*

*A tipli ştatlar (Assam, Qərbi Benqal, Bihar, Bombey, Madhya Pradeş, Madras, Orissa, Pəncab və Uttar-Pradeş) öz seçkili parlamentləri və müstəqil formalaşmış idarəetmə orqanları fəaliyyət göstərir.*

*B tipli ştatları (Haydarabad, Sauraştra, Maysur, Travankar-Koçin, Madhya-Bharat, Vindhya-Pradeş, Patiali və Şərqi Pəncab ittifaq ştatları, eləcə də Racastan) nominal monarx sayılan racapramukhamilər idarə edir.*

*C tipli ştatları (Delhi, Kuth, Himaçal-Pradeş, Bilaspur, Kurq, Bhopal, Manipur, Acmer və Tripura) idarə etmək üçün mərkəzi hökumət tərəfindən komissarlar təyin olunur.Cammu və Kəşmir isə xüsusi ərazilər elan olunmuşdur.*

***Müasir dövrdə Hindistanda 28 ştat və 7 ərazi (6 ittifaq ərazisi, 1 paytaxt dairəsi) mövcuddur.*** Hər bir ştat dairələrə ayrılır. Bu ölkədə 642 inzibati dairə vardır. Hər bir ştatın özünün qanunverici və icraedici orqanı vardır. Ştatın qubernatorunu prezident təyin edir. Qubernator ştatın hökumətini formalaşdırır, baş naziri yerli seçkilərdə qalib gəlmiş partiya üzvündən təyin edir. Ştatlarda bir və ikipalatalı parlament vardır. Ştatın aşağı palatası ***"vidhan sabha"*** adlandırılır, qanunvericiliyə uyğun olaraq aşağı palatada 60-500 üzvü olur. Parlament 5 ildən bir seçilir. Parlamentin yuxarı palatası ***"vidhan parişad"*** adlandırılır, deputatlar 6 il müddətinə seçilir, hər 2 ildən bir yuxarı palatanın müəyyən hissəsi yenidən seçilir. Ştat parlamentləri Hindistan İttifaq parlamentinin səlahiyyətinə daxil olan xarici siyasət, müdafiə, vətəndaşlıq məsələlərindən başqa, bütün məsələlərlə bağlı müzakirələr apara, qanun qəbul edə bilər. İttifaq ərazilərini və milli paytaxt dairəsini Hindistan hökumətini təmsil edən komissarlar idarə edirlər. İttifaq ərazilərində federal qanunlar qüvvədədir.

*Dünyada ən sıx məskunlaşmış 10 administrativ vahiddən 5-i Hindistan ştatlarıdır. Uttar Pradeş 180 milyon əhali ilə dünyada birinci yerdə, Maharaştra ikinci, Bihar altıncı, Qərbi Benqal səkkizinci, Andhra-Pradeş onuncu yerdə durur. Bəzi ştatlar məsələn, Racastan ştatı ərazisinə görə Avropanın iri ölkələrindən olan Polşadan böyükdür. Ölkə üzrə əhalinin orta sıxlığı bir kv.km-ə 368,07 nəfərdir.*

## Hindistan ştatları (Cədvəl, 2011)

| Sıra | Ştatın adı | Paytaxtı | ə r a z i / k v . k m | əhali |
|---|---|---|---|---|
| 11 | Andhra Pradeş | Haydarabad | 275 069 | 84 665 533 |
| 22 | Arunaçal Pradeş | İtanaqar | 83 743 | 1 382 611 |
| 33 | Assam | Dispur | 78 438 | 31 169 272 |
| 34 | Bihar | Patna | 94 163 | 103 804 637 |
| 5 | Qoa | | 3702 | 1 457 723 |
| 6 | Qucarat | Qandinaqar | 196 024 | 60 383 628 |
| 7 | Cammu və K ə ş m i r | Sriqanar | 222 236 | 12 548 926 |
| 8 | Çarkhand | Rançı | 79 714 | 32 966 238 |
| 9 | Qərbi Benqal | Kolkota (Kəlküttə) | 88 752 | 91 347 736 |
| 10 | Karnataka | Banqalop | 191 791 | 61 130 704 |
| 11 | Kerala | Tiruvanantapuram | 38 863 | 33 387 677 |
| 12 | Madhya Pradeş | Bhopal | 308 000 | 72 597 565 |
| 13 | Manipur | İmphal | 22 327 | 2 721 756 |
| 14 | Maharaşhtra | Mumbay | 307 713 | 112 372 972 |
| 15 | Meqhalaya | Şillonq | 22 429 | 2 964 007 |
| 16 | Mizoram | Aical | 21 081 | 1 091 014 |
| 17 | Naqaland | Kohima | 16 579 | 1 980 602 |
| 18 | Orissa | Bhubaneşvar | 155 707 | 41 947 358 |
| 19 | Puncab | Çandiqarh | 50 362 | 27 704 236 |
| 20 | Racastan | Caypur | 342 239 | 68 621 012 |
| 21 | Siqqim | Qanqtok | 7096 | 607 688 |

| | | | | |
|---|---|---|---|---|
| 22 | Tamil Nadu | Şennai | 130 058 | 72 138 958 |
| 23 | Tripura | Aqartala | 10 492 | 3 671 032 |
| 24 | Uttarakhand | Dehradun | 53 484 | 10 116 752 |
| 25 | Uttar Pradeş | Lakhau | 240 928 | 199 581 477 |
| 26 | Haryana | Çandiqarh | 44 212 | 25 353 081 |
| 27 | Himaçal Pradeş | Şimla | 55 673 | 6 856 509 |
| 28 | Çhattisqarh | Raypur | 136 034 | 25 540 196 |
| | İttifaq əraziləri | | | |
| 1 | Andaman və Nikobar adaları | Port-Bler | 8249 | 379 944 |
| 2 | Dadra və Naqar Haveli | Silvassa | 491 | 342 853 |
| 3 | Daman və Diu | Daman | 112 | 242 911 |
| 4 | Lakşadueep | Kavaratt | 32 | 64 429 |
| 5 | Pondiçeri | Pondiçeri | 492 | 1 244 464 |
| 6 | Çhandiqarh | Çhandiqarh | 114 | 1 054 686 |
| | Milli paytaxt dairəsi | | | |
| 1 | Delhi | | 1483 | 16 753 235 |
| | Hindistan üzrə | Delhi | 3 287 882 | 1 210 193 4 2 2 |

Hindistanda etnik müxtəlifliyi üfiqi baxımından, yəni onların yerləşdiyi ərazi baxımından qiymətləndirmək vacibdir. Bu etnoslar qarşılıqlı əlaqədədirlər. Lakin onlar iqtisadi inkişaf, milli həyat, real muxtariyyat baxımından bir-birindən ciddi fərqlənirlər. Buna görə də bəzi etnoslar hüquqları uğrunda mübarizəyə qalxırlar. Son illərdə etnik proseslər yeni müstəviyə keçmişdir. İqtisadi inkişaf, əmək və kapitalın sürətli hərəkəti, yeni sənaye mərkəzlərinin yaranması hindlilərin coğrafi mobilliyini təmin edir. Xüsusi

qeyd etmək lazımdır ki, Hindistanda etnik problemlər demokratik əsasda həll olunsa da, harmoniyanı, ideal etnik bərabərliyi təmin etmək gələcəyin işidir.

***Sual və tapşırıqlar***

*1. XIX əsrdə Hindistan 4 böyük hissəyə (ölkə) və 20 subəyə (sobə) bölünürdü.*

*2. Hindistanda etnolinqivistik ştatlar anlayışı.“Bir ştat, bir dil” prinsipi.*

*3. Hindistan ştatları A, B, C kimi üç böyük qrupda təsnifatlandırılmışdır.*

*4. Hindistanda 28 ştat və 7 ərazi (6 ittifaq ərazisi, 1 paytaxt dairəsi) mövcuddur.*

*5. Ştatlarda bir və ikipalatalı parlament fəaliyyət göstərir.*

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Axundov M.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı,1987, 368 s.
2. Axundzadə M.F. Kəmalüddövlə məktubları. Bakı:Şərq-Qərb, 2005,376 s.
3. Babur Z.M. Baburnamə. Bakı: Nurlan, 2011, 424 s.
4. Cəvahirləl N. Ümumdünya tarixinə nəzər. Bakı: Gənclik, 1986, 360 s.
5. Əliyev B.F.Hindistanın tarixi-etnoqrafik baxımdan öyrənilməsində Hacı Zeynalabdin Şirvaninin rolu. ADU//Beynəlxalq Münasibətlərin Aktual Problemləri. 2013, №1, s.3-12
6. Əliyev B.F. Moğol miniatür sənəti Azərbaycan-Hindistan əlaqələri kontekstində//Azərbaycan Dillər Universiteti Elmi Xəbərləri (AUL Researsch Papers), 2012, №3, s.276-285
7. Hüseynov İ, Əfəndiyeva N. Qədim dünya mədəniyyəti. Bakı:-Mars-print NPM, 2009. 432 səh. (s 151-157)
8. Xəlilov S.S. Fəlsəfə: tarix və müasirlik (Fəlsəfi komparativistika). Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 2006, 420 səh.
9. Kərəmov N. Qırx il səyahətdə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977, 183 s.
10. Qasımov P. Cənubi Qafqazın eneolit və tunc dövrü kurqan mədəniyyətinin etno-genetik interpretasiyasında Riq Veda məlumatlarından istifadə metoduna dair // “Azərbaycan Arxeologiyası” jurnalı, Xəzər Universiteti. 2011-ci il, I cild, səh.35 – 47
11. Quliyeva N. M. Etnoqrafiya və etnologiya (dərs vəsaiti). Bakı:2009,157 s.
12. Mahatma Q. Bütün insanlar qardaşdır, Bakı: Qanun, 2011, 132 s.
13. Mahabharata və ya Bharata övladlarının böyük vuruşları haqqında dastan. Bakı: Gənclik, 1988, 168 s.
14. Manafova M.Azərbaycanın Şərqi Asiya ölkələri ilə əlaqələri.

Bakı:2008.36 s.

15. Məmmədov R.H., Bəhərçi Tofiq, Mehdiyeva V.Z., Quliyeva T.S. Dünyanın iqtisadi və sosial coğrafiyası. Bakı: 2006, 464 s.
16. Məmmədli Ş. XVII-XVIII əsrlərdə Azərbaycan-Hindistan ticarət əlaqələri. Bakı: Şərq-Qərb, 2011, 152 s.
17. Mahmudi S.Ə. Dinlərlə tanışlıq. Bakı: Şəhriyar, 2006, 277 s.
18. Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi (1918-2007). Bakı: ADPU-nun nəşriyyatı. 2009, 350 s.
19. Paşayev Q. Azərbaycan və Hindistan ədəbi-mədəni əlaqələrinə bir baxış/Ədəbiyyat qəzeti. 2012-ci il 7 dekabr. S.1-3.
20. Vəzirov X. Hindistan xatirələri. Bakı:Azərnəşr. 1958, 121 s.
21. Səidzadə A.A. Orta əslərdə Azərbaycan Hindistan əlaqələri//AEA Elmi Xəbərləri, Sosial elmlər seriyası,1958, №1
22. Şükürov A. Fəlsəfə. İkinci nəşri. Bakı: 2008, Elektron kitab, 471 s.YYSQ Milli Virtual Kitabxananın e-nəşri.N69 (2011), s.116-124
23. Tövfiqi H. Böyük dinlərlə tanışlıq. Bakı: "Xəzər Universitəsi" Nəşriyyatı, 2013. 290 s.

**Türk dilində**

24. Abdullah D. Biruni: ilmi kisiliği, tarih anlayısı ve yöntemi. Türk Dünyası İncelemeleri Dergisi //Journal of Turkish World Studies, X/2 (Kıs 2010), s.19-38.
25. Arthur F. B.Hindistanda Eşrafileşme Eğilimleri. Bülent Ecevit Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt 1, Sayı 2, 2014, s.129-146
26. Lissner İ. Uygarlık tarihi. İnsanlık Tarihinin Büyük Esrarı Moherjo-Daro ve Harappa. s.101-117. İstanbul: NoktaKitap. 2012. 404 s.
27. Luce E. Tanrılara rağmen, Hindistanin olağandışı yükselişi. hindistanrice.pdf., www.ozetkitap.com. 37 s.
28. Mohapatra A.R. Hinduizm / Philosophy of Religion an Approach to World Religions. Türk dilində.New Delhi, India. 1990, s. 119-138
29. Ozkan D., Parladır H.S. Modern Toplumun Oluşum Sürecinde

Politika, Toplum ve İletişim: Modern İngiltere'nin İlk Dönemi. Gaziantep University //Journal of Social Sciences. 2014, 13 (4). S.837-880

30. Sivrioğlu U.T. Avesta dilinin tarihi coğrafyası. Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 8/8 Summer 2013, s. 1141-1165
31. Soydan C. Urdu Dilinde Akrabalık Terimleri ve Müslüman Hint Toplumunda Aile Yapısı. Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Dergisi 43, 1 (2003) s.43-56
32. Tüysüzoğlu G. İkinci dünya savaşı sonrası ingiliz dış politikasi:imparatorluk yaşıyor mu?// Akademik Bakış dergisi. Sayı: 26, Eylül – Ekim 2011, www.akademikbakis.org
33. Whitaker İ. Çev. Fatma Kızıl. Biruni Çalışmalarının Bugünkü Durumu: Bir İnceleme ve Bibliyografya. T.C. Uludağ Üniversitesi İlahiyat fakültesi dergisi. Cilt: 20, Sayı: 1, 2011, s. 259-294.

**İngilis dilində**

34. Abhik G. İndian anthropology. History of anthropology in İndia. Panjab University, Chandigarh. 2007, 50 pp.
35. Aliyev B.F. Azerbaijan-India relations: history and modernity // Post-Soviet States. Two Decades of Transition and Transformation. Editors- Ajay Patnaik. Tulsiram Publisher: KW Publishers Pvt Ltd New Delhi. 2012 pp.333-337
36. Ambedkar B.R. Castes in India. New Delhi: Critcal Quest, 2013, 31 p.
37. Ancient India.www.jeywin.com
38. Anjan G. 2007. Indian anthropology. History of anthropology in India.Panjab University, Chandigarh. 50 p.p
39. Barbara D. M., Thomas R. M. A Concise History of Modern India. Cambridge: Cambridge University Press, 2006, 337 p.
40. Berger P.Theory and ethnography in the modern anthropology of India. 2012,HAU: Journal of Ethnographic Theory 2 (2): 325–57
41. British Raj After World War I. http:// www.newworldencyclopedia.org/entry/British_Raj

42. Bhasin M. K. Indian Anthropology. Racial, ethnic, religious and linguistic elements in indian population. B-2 (gf), south city ii, Gurgaon 122 002, Haryana, india 50 pp.
43. Ganguly M., Gunjan S. Facets of İndian culture. New Delhi: 2013, 520 p.
44. Humayuns tomb& Adjacent monumets, Archaelogical Survey of India. Government of India. New Delhi: Eicher Goodearth limited, 2002, 99 p.
45. Incredible India. Arts&Crafts. Ministry of Tourism. Government of India. Trancport Bhawan. New Delhi: Ogilvy&Mather Pvt.Ltd. 2006, 48 pp.
46. Keay J. İndia. A history. London: İndia. 2000. 576 p.p
47. Ketkar S.V. History of Caste in İndia.Banglore:Mythic Society.2014. 210 p.
48. King R.Orientalism&the myth of modern Hinduism.New Delhi: Gautam Printers. 2008. 40 p.
49. Manihara U. Panorama of Indian Culture. Religios legacy& cultural arcievement. New Delhi: Dominant Publisers and Distributors. 2005, 292 p.
50. Majumdar D.N., Madan T.N. An introduction to social anthropology. New Delhi: Mayoor Paperbacks.2013, 271 p.
51. Mukherjee A.Empire: How Colonial India Made Modern Britain. Economic & Political Weekly EPW december 11, 2010. p. 73-82
52. Nadeem H. Indian Antropology. Delhi:2011.393 p.
53. Nauriya A. Myth of Hindustan Nationalism // The Times of India. 1998. 08 Jan.
54. Patnaik U. New estimates of eighteenth century British Trade and their relation to transfers from tropical colonies //The Making of History. New Delhi. Published by Tulika books. 2000. pp.359-402
55. Richard K. Orientalism&the myth of modern hinduizm. New Delhi: Critical Quest,2008, 40 p.
56. Rohan P. Panorama of Indian Culture. Culture of Creativity. Footprints of Indian civilization. New Delhi: Dominant Publisers and Distributors. 2005, 384 p.

57. Sadıgoğlu A. Azerbaijan-İndia relations. Baku: Nurlan, 2009, 110 p.
58. The Making of history. Essays presented to Irfan Habib.New Delhi: Tulika Books, 2011 p.
59. Upadhyay V.S, Gaya P.. History of antropological thhought. New Delhi: 1997, 500 p.
60. Yogendra S. Culture chance in India. Identity&Globalization. New Delhi:Rawat Publications. 2008, 260 p.

**Rus dilində**

61. Антонов К.А. и др. История Индии (краткий очерк). Москва: Мысль, 1973. 558 с.
62. Алаев Л.Б. Индусско-мусульманский конфликт в Индии // Этносы и конфессии на Востоке: конфликты и взаимодействие. Москва: 2005.
63. Аулова Р.А. Учебник языка хинди. Ташкент: Укитувчу, 1969, 252 с.
64. Ашурбейли С. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку:1990, 152 стр.
65. Бонгард-Левин Г. М., Ильин Г. Ф. Индия в древности.Москва: Наука, 1985. 758 с.
66. Бонгард-Левин Г.М., Грантовски Э.А. От Скифии до Индии. Древние арии: мифы и история.Москва: Мысль, 1983. 206 с.
67. Гачев Г. Д. Образы Индии (Опыт экзистенциальной культурологии). Москва: Восточная литература, 1993.390 с.
68. Индия по-русски. Индийские ковры Индийский вестник 16/03/2015 - 17:45 http://indonet.ru/Statya/Indiyskie-kovry#ixzz-3lVWpzeof
69. Индо-арийские народы, Дравидийские народы,Маратхи, Бихарцы, Гуджаратцы. http://www.bharatiya.ru/india/
70. Ишвари А. Культура Индии. http://www.bharatiya.ru/india/
71. История Востока: в 6 т. Т. 5. Восток в новейшее время: 1914-1945гг. Москва: 2006. 717 с.

72. Криворучко А. В. Изменение правового статуса английской Ост-Индской компании и колонизация Индии в 1600–1758 годах // Форум права. 2011. № 1. С. 528–536. http:// www. nbuv. gov. ua/ ejournals/ FP/2011-1/11kaviki.pdf
73. Кучма В.В. Особенности национально-освободительного движения в Индии: этно-конфессиональный и государственно-правовой аспекты// Исторические и общетеоретические вопросы. Вестн. Волгогр. гос. ун-та. Сер. 5, Юриспруд. 2011. № 1 (14). с.16-26
74. Королев К. Индийская мифология, Москва: Мидгард 2004, 445 с.
75. Кудрявцев М.К. Кастовая система в Индии. Москва: Восточная литература, 1992, 264 с.
76. Кулиева Х. Роль азербайджанской миниатюрной школы в становлении индийской миниатюры эпохи моголов//Təsviri və dekorativ- tətbiqi sənət məsələləri № 1, 2009, 91-96.
77. Кузык Б. Н., Шаумян Т. Л.Индия- Россия: стратегия партнерства в XXI веке. Москва: Институт экономических стратегий, 2009. 1224 с.
78. Кученков А.А. Эволюция индийской касти. Москва: 1983.367 s.
79. Маретина С.А., Котин И.Ю. Племена в Индии. Санкт Петербург: Наука, 2011, 152 с, s.119.
80. Ольденбург С. Ф. Культура Индии. Москва: Наука. 1991. 277 с.
81. Филострат. Жизнь Аполлония Тианского. Москва: Наука, 1985. s.30-51
82. Современная Индия. http:// dic.academic.ru/ dic.nsf/enc_ colier/1155/
83. Томас П. Индия. Эпос, легенды, мифы./Перевод с английского Н.Г. Краснодембская: Евразия,, 2000. 320 с.
84. Успенская Е.Н. Антропология индийской касты.СПб.Москва: Наука, 2010. 558 с.

85. Успенская, Е.Н. Этнокастовые общности в контексте формирования и функционирования индийской традиционной социальной организации Автореферат диссертации на соискание ученой степени доктора исторических наук.Санкт-Петербург: 2010, 50 с.
86. Хрестоматия по истории древного мира. Москва: Просвещение, 1991, 288 с.
87. Чайтанья Д.Б. . Индийская музыка/ Пер. с англ. Е. М. Гороховик.Москва: Музыка, 1980. 207 е., ил.
88. Эдварде М. Древняя Индия. Быт, религия, культура / Пер. с англ. С.К. Меркулова. Москва: ЗАО Центрполиграф, 2005. 224 с.
89. Этнические и этно-социальные категории: Свод этнографических понятий и терминов. Вып. IV. Москва: 1995, 216 с.

**Özbək dilində**

90. Ўзбекистон Миллий Энциклопедияси. "Ўзбекистон миллий энциклопедияси" Давлат илмий нашриёти pdf. www.ziyouz.com.

**Bəhmən Fazil oğlu Əliyev-Ayvazalı**

# HİNDİSTAN ETNOQRAFİYASI

## (Mənəvi mədəniyyət)

## II

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Tünzalə Tağıyeva

Çapa imzalanmış 12.07.2017.
Şərti çap vərəqi 14.75 Sifariş № 400.
Kağız formatı 60x84 1/16. Tiraj 500.

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.